# AZƏRBAYCAN QADINI ENSİKLOPEDİYASI

İnsan
mədəniyyətinin
ən mühüm
cəhətlərindən
biri
cəmiyyətdə
qadına
hörmət etmək
və
hörmət etməyi,
diqqət göstərməyi
bacarmaqdır.

Heydər ƏLİYEV

# ENCYCLOPAEDİA OF AZERBAIJAN WOMAN

**AZƏRBAYCAN**
**MİLLİ ENSİKLOPEDİYASI**

*Sürüklənən*
*bəşəriyyət*
*qadınla*
*yüksələcək.*

*Hüseyn*
*Cavid*

# ENCYCLOPAEDİA OF AZERBAIJAN WOMAN

AZERBAIJAN NATIONAL ENCYCLOPAEDİA
PUBLISHING HOUSE
Baku-2002

Sorğu informasiya
xidməti şöbəsi

# AZƏRBAYCAN QADINI ENSİKLOPEDİYASI

Axf-256948

Redaksiya heyəti

**MEHDİYEV RAMİZ** (sədr)

**ABDULLAZADƏ Fatma, BAXŞƏLİYEVA Gövhər, CAMALOVA Dilruba, ƏLİYEVA Sevil, GƏNCƏLİ Sabir, HƏSƏNOVA Məlahət, HÜSEYNOVA İradə, QULİYEVA Zəhra, MƏMMƏDƏLİYEVA Sevda, MUSTAFAYEV Zahid, NAMAZOVA Adilə, ÖMƏROVA Möminat, RZAYEV Anar, SULTANOV Afiq, VƏLİXANLI Nailə, VƏLİYEV İsmayıl**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI
NƏŞRİYYAT-POLİQRAFİYA BİRLİYİ
Bakı-2002

92 (Az)
A 40

Baş redaktor

**VƏLİYEV İSMAYIL**

Məsul redaktorlar

**MUSTAFAYEV Zahid,
MƏMMƏDOVA Elmira, SADIQOVA Həqiqət**

İ ş ç i  q r u p u

**HƏSƏNOVA MƏLAHƏT** (qrupun rəhbəri)

**MUSTAFAYEV Zahid, SULTANOV Afiq, MƏMMƏDOVA Elmira, SADIQOVA Həqiqət, ABDULLAYEV Ziya, QOCAYEVA Gülbəniz, ZEYNALOVA Əxtər, BAKIXANOVA Fəridə, SÜLEYMANOV İlyas, HACIYEVA Lalə, MEHDİYEVA Aygün**

A 40 **Azərbaycan qadını ensiklopediyası.** Bir cilddə. "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 404 səh. Şəkilli, Bakı, 2002.

Azərbaycan qadını ensiklopediyası əhatə etdiyi dövr və ensiklopedik qaydalara əməl olunması baxımından Azərbaycan dilində hazırlanmış ilk nəşrdir. Burada ta qədimdən indiyədək yaşamış qadın hökmdarlar və şairlər, son yüzilliyin maarifçi qadınları və ictimai xadimləri, müxtəlif hökumət və partiya vəzifələri daşıyan tanınmış qadın ictimai-siyasi xadimlər, şairlər, yazıçılar, rəssamlar, müğənnilər, aktrisalar və elm xadimləri haqqında yığcam ensiklopedik məlumatlar və əksəriyyətinin portretləri verilmişdir.

Kitab Azərbaycanın tanınmış qadın şəxsiyyətləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Oxucu rəyləri, təklif və əlavələr gələcək nəşrlərdə nəzərə alınacaqdır.

A $\frac{5001000000}{\text{M 657–2002}}$

İSBN5–896001–366–8

© "Azərbaycan Milli Ensiklopediyası" NPB, Bakı, 2002.



## AZƏRBAYCAN QADINI — ŞƏRƏF VƏ LƏYAQƏT TİMSALI

Ən qədim zamanlardan belə bir fikir formalaşmışdır ki, cəmiyyətin mahiyyətini qadına münasibət təşkil edir. Bu təsadüfi deyildir. Cəmiyyətdə yalnız kişinin qadına, qadının kişiyə münasibəti deyil, bütövlükdə qadının mövqeyi və qadına münasibət həmişə ən ciddi əhəmiyyət kəsb etmişdir. Dünyada yazının meydana gəlməsinin tarixini 5 min il bundan əvvəlki dövrlə əlaqələndirirlər. Həmin dövr eyni zamanda cəmiyyətdə mərifətin və ədalətin təsdiqi, tərbiyənin və qanunun dərki və bərqərar olunması kimi başa düşülür. Cəmiyyət o zaman öz mahiyyətini büruzə verir ki, orada tərbiyənin, qanunların və insanların bir-birinə münasibətində müəyyən təsdiq olunmuş münasibətlər sistemi meydana gəlmiş olsun.

Qədim tarixin tədqiqatçıları əski Misir, Şumer və Assuriya mədəniyyətlərində, Çində, Yunanıstanda və eyni zamanda qədim Türküstanda qadınların cəmiyyətdə tutduğu mövqe ilə bağlı müxtəlif xarakterli qənaətlərə gəlmişlər.

Ümumiyyətlə, istər dini, istər dini-fəlsəfi anlamda qadına münasibət, qadının cəmiyyətdə tutduğu yer həmişə diqqəti cəlb etmişdir. Əgər Bibliya əfsanələrində ilk bəşəri qadın kişi timsalında təsvir olunursa, şumerlərdə və əski türklərdə dünyanın ana başlanğıcı əsas götürülür. Qədim türklərdə göy kişi timsalı kimi başa düşülürsə, torpaq ana timsalı kimi qəbul edilir. Bu fəlsəfi düşüncə şumerlərdə və eyni zamanda Misirdə də əsas götürülmüşdür.

Misir mədəniyyətində cəmiyyətin idarə olunmasında ən qədim çağlardan qadın başlanğıcı xüsusi yer tutmuşdur.

Qadın ilahələrin cəmiyyətin idarə olunmasında tutduğu mövqe, qadınların ictimaiyyət arasında nüfuzu və mürəkkəb problemlərin həll olunmasında aparıcı rolu Şumer mədəniyyətində də diqqəti cəlb edir. Ümumiyyətlə, qadına verilən yüksək qiymət yalnız matriarxat dövrünün fəlsəfi önəmi kimi qəbul edilə bilməz. Qadın bütün dövrlərdə, bütün cəmiyyətlərdə, bütün siyasi durumlarda əsas sima kimi, ana kimi, başlanğıc kimi, eyni zamanda cəmiyyətin idarəedicisi və tərbiyəedicisi kimi qiymətləndirilmişdir. Əski çağlarda Azərbaycanda qadına münasibət də tamamilə başqa istiqamətdə təhlil edilmiş və qəbul olunmuşdur.

Bu baxımdan tarixin atası sayılan Heredotun kitablarında Azərbaycan cəmiyyətində və Azərbaycanda qadına münasibətin diqqətə alınması yetərli sayıla bilər. "Tomris əfsanəsi"ndə Tomrisin yüksək nüfuzu, cəmiyyəti idarə etməsi, vətəni qoruması yalnız uzaq dövrlərin deyil, bütün zamanların tarixində, xüsusilə Azərbaycan xalqının tarixində ən yüksək örnək, bugünkü tariximizdə şərəf və ləyaqət timsalıdır. Yeri gəlmişkən, bir şeyə də diqqət yetirmək yerinə düşər. "Tomris" adı ilə bağlı fikirlər müxtəlif olsa da bu adın "dəmir" sözü ilə əlaqəli olması faktı maraqlıdır. Nə üçün bəs qadına möhkəmlik rəmzi olan "dəmir" adı verilmişdir? Bunu dastandakı Tomris obrazı aydın cavablandırır. Əgər Tomris dövrünün tarixi, ictimai-siyasi durumunu göz önünə gətirsək, məlum olar ki, o dövrdə qadının hakimiyyətə gəlməsi heç də qeyri-adi hal olmamışdır. Tomrisin çox qüdrətli sərkərdə olan, bölgəyə başçılıq edə bilən övladının olmasına baxmayaraq, ərindən sonra onun hakimiyyətə gəlməsi Azərbaycan cəmiyyətində qadının tutduğu yüksək mövqeyi təsdiq edir. Tomrisin timsalında qadının siyasətdə ciddiliyi, möhkəm iradə və təmkin nümayiş etdirməsi olduqca diqqətəlayiq hadisədir.

Bizim zəngin və qədim tariximizdə bu, yeganə fakt deyildir. Şifahi ədəbiyyatımızda, nağıl və dastanlarımızda Azərbaycan qadını barədə ən müdrik fikirlərin mövcud olması da bizdə qadına verilən ən yüksək qiymətin təzahürü kimi qəbul edilməlidir.

Azərbaycan xalqının ən qədim tarixi abidələrindən hesab edilən "Kitabi-Dədə Qorqud" dastanlarında cəmiyyətdə qadının nüfuzu, qadının sözü, qadın sözünün kəsəri və eyni zamanda ana kimi ona münasibət də

xüsusi yer tutur. Dədə Qorqudda qadın evin qoruyucusu, nəslin yaradıcısı, tərbiyəedicisi və eyni zamanda vətənin əsgəri, sərkərdənin ən yüksək dayağı kimi təsvir olunur.

Bütün dövrlərdə Azərbaycan xalqının tarixi elə ciddi örnəkləri irəli sürür ki, bu nümunələr əsasında Azərbaycan qadınlığının tarixini, onun keçdiyi ağır və məşəqqətli, eyni zamanda böyük, şərəfli yolu dünya ictimaiyyətinə təqdim etmək bizə yalnız başucalığı gətirə bilər.

İstər Nizaminin, istərsə başqa yazıçı və şairlərimizin əsərlərində qadına münasibətin çox yüksək nümunələrini göstərmək mümkündür. "Sirlər xəzinəsi"ndə, "Xosrov və Şirin"də, "İsgəndərnamə"də elə örnəklər mövcuddur ki, onlar Azərbaycanda qadınlıq şərəfi və ləyaqəti barədə ən yüksək fəlsəfi fikirləri ortaya gətirmək üçün bizə zəngin dəlillər verir.

Azərbaycan gerçəkliyində, ictimai-siyasi həyatında həqiqətən də qadına və anaya yüksək qiymət verilmişdir. Cəmiyyətin idarə olunmasında, dövlətin formalaşmasında, eyni zamanda gənc nəslin tarixi ənənələr və müqəddəs amallar əsasında tərbiyə olunmasında qadının yüksək rolu danılmaz olmuşdur.

Bütünlükdə qadına münasibət, qadının cəmiyyətdə yüksək nüfuzu adi hal deyildir. Tarix boyu qadına münasibət müxtəlif ölkələrdə, müxtəlif siyasi quruluşlarda və eyni zamanda ayrı-ayrı dini mühitdə eyni cür olmamışdır.

Dünyada insanların yarısından çoxunu qadınlar təşkil etsə də, yəqin ki, yalnız bir dəfə — ilkin ibtidai-icma quruluşunda bəzi xalqlarda mövcud olan matriarxat dövründə qadınların hüquqları kişilərinkindən üstün olmuşdur. Təsərrüfat fəaliyyətinin genişlənməsi kişilərin rolunu cəmiyyətdə və ailədə ön plana çəkmiş, beləliklə patriarxat ictimai quruluş forması bərqərar olmuşdur. Bundan sonra bəzi qəbilə və tayfalara məxsus kiçik istisnalar nəzərə alınmazsa, tarixin bütün kəsimlərində qadınların hüquqlarının kişilərlə bərabərləşdirilməsi, onların əməyinin eyni meyarlarla qiymətləndirilməsi, kişilərlə bərabər təhsil alması, ictimai işlərdə çalışması, problemlərinin həlli üçün onlara hüquqların verilməsi həmişə cəmiyyət qarşısında mühüm bir məsələ kimi durmuşdur.

Tarixin müxtəlif dövrlərində, dünyanın ayrı-ayrı ölkələrində qadın bəzən qul kimi, kölə kimi alınıb-satılmışdır. Azərbaycanda da müxtəlif müharibələr dövründə qadına münasibətdə xeyli fərqli mövqelər olmuşdur. Xüsusilə, Azərbaycana gələn yadellilərin, yad tayfaların işğalçı hücumları və münasibətləri nəticəsində qadınlar çoxlu əziyyət və məhrumiyyətlərə düçar olmuşlar. Yadellilər apardıqları qarətçilik müharibələri gedişində Azərbaycan qadınının nüfuzuna, ləyaqətinə üyğun gəlməyən hərəkətlər etmişlər ki, bu da tarix boyu azərbaycanlıların igid və vətənpərvər qüvvələri tərəfindən ləyaqətlə dəf edilmişdir.

Azərbaycanda matriarxatdan sonrakı dövrlərdə, istər orta əsrlərdə, istərsə də 19-20-ci əsrlərdə qadının ictimai-siyasi fəaliyyətinin artması xüsusilə diqqəti cəlb edir. 19-cu əsrin maarifçilik dövrü ədəbiyyatında qadın obrazlarının təsvir edilməsi, qadın ləyaqətinin cəmiyyətdəki təzahürlərinin qeyd olunması, analığın və qadınlığın şərəf və ləyaqətinin qorunması uğrunda mübarizə xüsusi yer tutmuşdur.

Hətta ən inkişaf etmiş, çoxəsrlik dövlətçilik və demokratiya təcrübəsi olan ölkələrdə belə qadın problemi uzun müddət öz həllini tapa bilməmişdir. Təsadüfi deyil ki, mütəşəkkil qadın hərəkatı XVIII əsrdə Şimali Amerikada və Böyük Fransa İnqilabı dövründə Avropada meydana çıxmış, qadınlara kişilərlə bərabər hüquq verilməsi yolunda mübarizə aparmağa başlamış və yalnız 1888-ci ildə ABŞ-da ilk beynəlxalq qadın təşkilatı olan Beynəlxalq Qadın Şurası yaradılmışdır. Sonra isə 50-dən çox ölkədə qadınların milli şuraları təsis edilmişdir.

Azərbaycanda da qadın hərəkatı XIX əsrin sonu—XX əsrin əvvəllərində başlamışdır. İlk dünyəvi qız məktəbi "Müqəddəs Nina" adı ilə 1848-ci ildə Şamaxıda açılmış və 11 il sonra Bakıya köçürülmüş, 1885-ci ildə isə eyni adlı məktəb Gəncədə də təsis edilmişdir. 1915-ci ildə Azərbaycanda 11 qız gimnaziyası, 2 progimnaziya var idi. Azərbaycan Xalq Cümhuriyyəti yarananadək, hələ 1917-ci il aprelin 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında Qafqazda qadınların vəziyyəti haqqında məsələ də müzakirə obyekti olmuşdur.

Azərbaycanın demokratik mətbuatı və azad fikirli ziyalı və ədibləri öz əsərlərində qadın azadlığı məsələlərinə ciddi fikir vermişlər.



1918-ci ildə Şərqdə ilk müsəlman respublikası — Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra qadın azadlığı hərəkatı daha böyük vüsət aldı. 1919-cu il iyulun 21-də parlament Azərbaycanın Müəssislər Məclisinə seçkilər haqqında Əsasnaməni qəbul edərək qadınlara da seçki hüququ verdi. Xalq Cümhuriyyətinin mövcud olduğu qısa müddətdə Azərbaycanın bir sıra maarifpərvər qadınları, ilk növbədə Eynülhəyat xanım (Nəsibbəy Usubbəyovun həyat yoldaşı), Səlimə xanım Yaqubova, Mədinə xanım Qiyasbəyli, Şəfiqə xanım Əfəndizadə, Xədicə xanım Ağayeva və başqalarının Azərbaycan qadınlarının təhsil almasında mühüm xidmətləri olmuşdur.

1919-cu ildə isə Xədicə xanım Qayıbova Tiflisdən Bakıya köçmüş, bir il sonra burada "Qısamüddətli Şərq musiqisi kursları" açmışdır. Bunlardan əlavə, Cavahir xanım Rəfibəyova, Həcər xanım Şeyxzamanova, Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya və neçə-neçə başqa qadınlar azadlıq ideyalarını gerçəkləşdirmək uğrunda mübarizələri və özlərinin xeyriyyəçilik fəaliyyətləri ilə Azərbaycanın tarixinə öz adlarını qızıl hərflərlə yazdırmışlar.

Ümumiyyətlə, XX əsr Azərbaycan qadınları üçün çox məhsuldar bir dövr olmuşdur. Azərbaycanda Sovet hakimiyyətinin qurulması bir sıra məhrumiyyətlər və əyintilər yaratsa belə, yenə də qadın hərəkatının genişlənməsi üçün böyük imkanlar açmışdır. 1921, 1957, 1967 və 1972-ci illərdə Azərbaycan qadınlarının 4 qurultayı çağırılmış və onlar Azərbaycanda qadın hərəkatının formalaşmasında və inkişafında mütərəqqi rol oynamışdır. İstər dinc quruculuq illərində, istər 1941-1945-ci illər İkinci dünya müharibəsində Azərbaycan qadınları kişilərlə birlikdə çiyin-çiyinə işləyib vuruşmuş, milli qeyrətlərini, milli adət və ənənələrimizi dünya miqyasında layiqincə nümayış etdirmişlər.

XX əsr Azərbaycan qadınlarının bir çox sahələrdə — kənd təsərrüfatı, istehsalat, elm və incəsənətdə dünya miqyaslı uğurlar qazandıqları bir dövrdür. Onlarla kənd zəhmətkeşi əməkdə qazandıqları nailiyyətlərə görə Sovetlər Birliyinin ən ali mükafatı olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, SSRİ-nin və Azərbaycanın Dövlət mükafatlarını almış, qanunvericilik və dövlət orqanlarında xeyli yüksək vəzifələr tutmuş, hətta bir müddət Azərbaycan Ali Sovetinin sədri qadın olmuşdur. Bu əsrdə ədəbiyyatımızda Mirvarid Dilbazi, Nigar Rəfibəyli və b. kimi xalq şairlərimiz, Qəmər Almaszadə, Şövkət Məmmədova, Zeynəb Xanlarova, Fidan Qasımova və b. kimi SSRİ xalq artistlərimiz, Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya kimi xalq rəssamlarımız və neçə-neçə sənət korifeylərimiz yetişmişdir. Azərbaycan qadınlarının elm sahəsində uğurları da çox möhtəşəm olmuşdur. Sevil və Almaz rollarının milli kinomuzda ilk ifaçısı olmuş, kimya sahəsində elmi məktəb yaratmış akademik İzzət Orucova, botanika sahəsində uğurları ilə tanınmış akademik Validə Tutayuq, oftalmologiyanın aktual problemlərinə aid görkəmli nailiyyətlər qazanmış akademiklərimiz Ü.Musabəyova və Zərifə Əliyeva, uşaqlarımızın sağlamlığı keşiyində duran Ədilə Namazova kimi şəxsiyyətlərlə istənilən xalq fəxr edə bilər. Elm tariximizdə tibb elmləri doktoru professor Sona xanım Vəlixanın da özünəməxsus yeri vardır. O, elm sahəsində Nobel mukafatı laureatı adını almağa namizəd göstərilmiş ilk azərbaycanlı olmuş, lakin hadisə İkinci dünya müharibəsi ərəfəsində baş verdiyindən və bir çox obyektiv və subyektiv səbəblər (əsasən azərbaycanlı olması) üzündən proses sona çatdırılmamışdır.

Bütövlükdə XX əsrin əvvəlindən başlayaraq Azərbaycan qadını ictimai, mədəni, siyası həyatın bütün sahələrində kişilərlə yanaşı fəaliyyət göstərmiş, mühüm nailiyyətlər qazanmışlar. XX əsrdə qadın hərəkatından danışarkən unutmamaq lazımdır ki, onların bu dövrdəki fəaliyyətinin təməli uzun əsrlər boyu mövcud olmuş milli ənənələrlə qoyulmuşdur. Qadın hökmdarlarımızdan (Tomris, Nüşabə və s.) başlamış görkəmli qadın şairlərimiz (Məhsəti Gəncəvi, Natavan və s.), ayrı-ayrı qadın şəxsiyyətlərimiz tarixdə özünə məxsus hökmdarlıq və maarifçilik ənənələri yaratmışlar.

Qadını həmişə zərif məxluq saydığımızdan onların kişilərlə bərabər millətin payına düşən məhrumiyyətlərə qatlaşmalarını heç vaxt istəməzdik. Amma nə edəsən, zaman-zaman xalqımızın düçar olduğu bəlaları və faciələri qadınlarımız da yaşamış, çətinliklərə və məhrumiyyətlərə dözmüşlər. Bu, XX əsrin əvvəlində baş vermiş siyasi sarsıntılar dövründə də, repressiya qovğalarında da, dünya müharibəsinin məhrumiyyətli illərində də və nəhayət, əsrin sonunda Azərbaycana qarşı yönəldilmiş erməni təcavüzünün qızğın çağında da belə olmuşdur.

1990-cı ildə azadlıq hərəkatını boğmaq üçün Azərbaycana yeridilmiş sovet tanklarının və qoşunlarının qarşısına qadınlarımız və qızlarımız cəsarətlə çıxmış və şəhid olmaqdan belə çəkinməmişlər. II dünya müharibəsi öz azərbaycanlı qadın qəhrəmanlarını yetişdirdiyi kimi, Ermənistan — Azərbaycan müharibəsi də jurnalist Salatın Əsgərova və həkim Gültəkin Əsgərova kimi Azərbaycanın Milli Qəhrəmanlarını yetişdirmişdir.

1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildi və bununla da 1920-ci ildə itirdiyimiz dövlət müstəqilliyimiz bərpa olundu. Lakin erməni təcavüzünün başlandığı 1988-ci ildən 1993-cü ilədək olan dövrdə ayrıca qadın hərəkatından söhbət açmaq bəlkə də dəqiq olmazdı. Çünki bu dövrdə qadın hərəkatı əsasən ümummilli hərəkatın tərkib hissəsi kimi çıxış edirdi.

1993-cü ildə möhtərəm Prezidentimiz Heydər Əliyev cənabları yenidən hakimiyyətə gəldikdən sonra respublikamızın çox mürəkkəb və çətin problemlərini həll etməklə məşğul olmasına baxmayaraq qadın hərəkatının inkişafı və qadın haqlarının müdafiəsi sahəsində də təxirəsalınmaz işlərin görülməsini diqqət mərkəzində saxlayırdı. Məhz 1993-cü ildən başlayaraq qadın hərəkatının təşkilatlanması, onun beynəlxalq qadın hərəkatı təşkilatları ilə əlaqələr yaratması, dünyada özünə layiq yer tutması üçün konkret təşkilati tədbirlər görülməyə başlandı. Bir sıra hökumət və qeyri-hökumət qadın təşkilatları və birlikləri yarandı: "Sevil" Qadınlar Məclisi, "Şəhid Analar" Cəmiyyəti, "Universitet təhsilli qadınlar" Cəmiyyəti, "Qadın və İnkişaf" Mərkəzi, "Parlament Qadınları" İctimai Birliyi, "Əsgər Anaları" Cəmiyyəti və s. Hazırda bu cür təşkilat və cəmiyyətlərin sayı 40-ı ötmüşdür. Bu gün razılıq hissi ilə qeyd etməliyik ki, istər hökumət, istərsə də qeyri-hökumət qadın təşkilatlarımız beynəlxalq aləmdə Azərbaycanı layiqincə təmsil edir və ilk növbədə erməni təcavüzünə məruz qalmış ölkəmizdə Azərbaycan qadınlarının bugünkü problemlərini dünya ictimaiyyətinə yetərincə çatdıra bilirlər.

Azərbaycan qadın təşkilatlarının beynəlxalq aləmdə ən mühüm uğurlarından biri onların 1995-ci ilin iyun ayında Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransında hazırlıq dövründən tutmuş bütün mərhələlərdə layiqincə iştirak etməsi oldu. 1995-ci ildə ölkəmizin qadın hərəkatının inkişafında daha bir əlamətdar hadisə — Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" 30 iyun 1995-ci il Konvensiyasına qoşulması oldu.

1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması Azərbaycanda qadın hüququ və qadın azadlığı məsələsinin dövlət siyasətinə çevrildiyini göstərdi və qadın hərəkatının təşkilatlanması məsələsində önəmli bir mərhələyə yekun vurdu. Elə həmin ilin sentyabrında müstəqil Azərbaycan Respublikasının qadınları özlərinin ilk qurultayına toplaşdılar. Qurultay göstərdi ki, fəaliyyət növlərindən asılı olmayaraq ümummilli məsələlərdə Azərbaycan qadın təşkilatları həmişə milli dövlətçilik ideyalarına üstünlük verməklə kimisi xeyriyyə, kimisi qadınların sosial müdafiəsinin təşkili sahəsində fəaliyyət göstərir, bir qismi isə Azərbaycanın Beynəlxalq əlaqələrini qurmaqla məşğul olur.

Yeni minilliyin başlanğıcında da Azərbaycan qadını cəmiyyətin müxtəlif sahələrində öz fəal mövqeyini saxlayır, cəmiyyətin inkişafında, formalaşmasında, gənc nəslin tərbiyə olunmasında ən şərəfli, ən nüfuzlu yer tutur.

Son 30 ildə istər əmək cəbhəsində, istər mədəniyyət, incəsənət və digər sahələrdə Azərbaycan qadınının qazandığı yüksək uğurlar və nailiyyətlər bəllidir. Bu illərdə, xüsusilə möhtərəm Prezidentimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə qadınların irəli çəkilməsi, ən yüksək vəzifələrə təyin edilməsi, cəmiyyətin idarə olunmasında, dövlət quruculuğu işlərində və s. sahələrdə onların böyük nüfuz qazanması cəmiyyətin diqqətini cəlb edir. Azərbaycan qadınına verilən yüksək qiymət, onların cəmiyyətdəki nüfuzu və ictimai-siyasi diqqəti cəlb edir. Azərbaycan qadınına verilən yüksək qiymət, onların cəmiyyətdəki nüfuzu və ictimai-siyasi fəaliyyəti bu gün də diqqət mərkəzindədir. Bu gün Azərbaycanın siyasi mühitində, Azərbaycan Milli Məclisində, dövlət idarəçilik sistemində və eyni zamanda mədəniyyət, elm, səhiyyə sahəsində qadınların geniş təmsil olunması MDB ölkələri içərisində Azərbaycanı öncüllər sırasında qeyd etməyə imkan verir. Bu gün Azərbaycan Şərqdə, xüsusilə, müsəlman dövlətləri sıralarında qadın ləyaqətini ən uca tutan ölkələrdən biridir.

*Ramiz Mehdiyev,*
fəlsəfə elmləri doktoru



# A



**ABASOVA Adilə Ziyat qızı** (d.3.8.1942) — fizika-riyaziyyat e.d. (1987). Azərbaycan Dövlət Un-tini bitirmişdir (1964). Əmək fəaliyyətinə Azərb. EA Fizika İn-tunda başlamış, 1974 ildən Moskvanın Elmi-Tədqiqat Tətbiqi Fizika İn-tunda baş elmi işçi, laboratoriya müdiri, 1992 ildən Azərb. Respublikası Ali Soveti Katibliyində bölmə müdiri, şöbə müdiri işləmişdir. 1995 ildən Azərb. Respublikası Milli Məclisi Aparatının sosial qanunvericilik şöbəsinin müdiridir. Bakı Dövlət Un-tinin yarımkeçiricilər fizikası kafedrasında prof. vəzifəsində (1995 ildən) çalışır. Bir sıra beynəlxalq konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Elmi və ictimai fəaliyyətindəki uğurlarına görə İngiltərə Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən 1999-cu və 2001-ci ilin qadını elan edilmiş, haqqında həmin Mərkəzin nəşr etdirdiyi "XX əsrin görkəmli adamları" ensiklopedik kitabına məlumat daxil edilmişdir. Monoqrafiyanın, 100-ədək elmi əsərin, 5 ixtiranın müəllifidir.

**ABASOVA Adila Ziyat gyzy** — doctor of physics and mathematics.



**ABASOVA Anaxanım Məhəmməd qızı** (d.1955) — Ağsu r-nundakı Əzizbəyov ad. təsərrüfatda fəhlə işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**ABASOVA Anakhanym Mahammad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ABASOVA Nümunə Şirin qızı** (d.1962) — Kürdəmir r-nundakı R.Axundov ad. pambıqçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**ABASOVA Numuna Shirin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ABASOVA Ofelya Xanoğlan qızı** (d.1958) — Saatlı r-nundakı "Ukrayna" təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**ABASOVA Ofelya Khanoglan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ABBASOVA Banoş Cəfərqulu qızı** (1.2.1918, Şərur r-nunun Xok k. — 1995, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1948 ildə tütünçülük sahəsində yüksək nailiyyətlər əldə etmişdir.

**ABBASOVA Banosh Jafargulu guzu** — Hero of Socialist Labour.





**ABBASOVA Əmanət Əsabəli qızı** (d.1953) — Şəki İpək İstehsal Birliyində toxucu işləmişdir. Azərb. SSR Dövlət mükafatı laureatıdır (1980). Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**ABBASOVA Emanet Asabali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9–10th convocations).



**ABBASOVA Xanım Məhəmməd qızı** (1906, Füzuli r-nunun Qacar k. — 2.10.1966, Ağdam) — Sosialist Əməyi Qəhrəmanı (1950). Ağdam r-nundakı Natəvan ad. üzümçülük təsərrüfatında işləmişdir. 1949 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ABBASOVA Khanym Mahammad gyzy** — Hero of Socialist Labour.



**ABBASOVA Xuraman Zeynal qızı** (1927—26.I.1998) — Sosialist Əməyi Qəhrəmanı. Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. 1940 ildən Ağdam r-nundakı təsərrüfatda işləmiş, 1969 ildən həmin təsərrüfata başçılıq etmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, Ali Sovetin Aqrar-sənaye kompleksi komissiyasının üzvü olmuşdur.

**ABBASOVA Khuraman Zeynal gyzy** —Hero of Socialist Labour.



**ABBASOVA Qənirə Yusif qızı** (d.1952) — 1970 ildən Zərdab r-nundakı təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının üzvü olmuşdur.

**ABBASOVA Ganira Yusif gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ABBASOVA Lətifə Bilal qızı** (d.1940) — 1967 ildən Bakı neftayırma zavodunda işləmişdir. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, İttifaq Sovetinin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**ABBASOVA Latifa Bilal gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocations).



**ABBASOVA Lətifə Ramazan qızı** (d.1947) — Naxçıvan MR Şərur r-nundakı təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci və 9-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə komissiyasının üzvü olmuşdur.

**ABBASOVA Latifa Ramazan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8–9th convocations).





**ABBASOVA Nazilə Rəhim qızı** (d. 1955) — 1971 ildən Ağdam r-nundakı təsərrüfatda çalışmışdır. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, Millətlər Sovetinin Elm və texnika komissiyasının üzvü olmuşdur.

**ABBASOVA Nazile Rahim gyzy**— deputy of the Supreme Soviet of the USSR (10th convocation).



**ABBASZADƏ Məleykə Mehdi qızı** (d.1953) — Azərb. Resp. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri (2000 ildən). Texnika e.n. (1988). Moskva Dövlət Un-tinin hesablama riyaziyyatı və kibernetika fakültəsini bitirmişdir (1975). Azərb. EA-nın Kibernetika İn-tunda (1975 ildən), Azərb. Müəllimləri Təkmilləşdirmə İn-tunda şöbə müdiri (1987 ildən), Azərb. Neft və Kimya İn-tunda aparıcı elmi işçi (1989 ildən), "İstedad" Assosiasiyası sədrinin birinci müavini (1990 ildən), Tələbə Qəbulu üzrə Dövlət Komissiyası sədrinin birinci müavini (1994 ildən) işləmişdir.

**ABBASZADE Maleyka Mehdi gyzy** — candidate of technics.



**ABBASZADƏ Nəzmiyyə Müzəffər qızı** (d.19.7.1945, Naxçıvan) — Azərb. musiqişünası, prof. Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1968). Həmin ildən konservatoriyanın simli alətlər kafedrasında işə başlamış, 1990 ildən kafedranın müdiri olmuş, 1999 ildən Bakı Musiqi Akademiyasının ifaçılıq fakültəsinin dekanıdır. Qadın simli kvartetinin yaradıcılarından biridir.

**ABBASZADE Nazmiyya Muzaffar gyzy** — musicologist, professor.

**ABDULQƏDİROVA Ziyat Murad qızı** (d. 1933, Zaqatala r-nunun Əliabad k.) — Azərb. SSR Dövlət mükafatı laureatı (1986). Əmək fəaliyyətinə 1947 ildən Əliabad k.-ndəki təsərrüfatda başlamışdır. 1985 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ABDULGADİROVA Ziyat Murad gyzy** — laureate of the State Prize of the Azerb. SSR



**ABDULLAYEVA Cavahir Mirzağa qızı** (d.1960) — 1979 ildən Quba r-nundakı Qonaqkənd "Qumaş" xalçaçılıq istehsal vahidində xalçatoxuyan işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**ABDULLAYEVA Javahir Mirzaga gyzy** — deputy of the Supreme Sovet of the Azerb. SSR (11th convocation).



**ABDULLAYEVA Cavahir Saleh qızı** (d.1938) — 1957 ildən Naxçıvan MR Şərur r-nundakı təsərrüfatda işləmişdir. Azərb. Kənd Təsərrüfatı İntunu bitirmişdir. Azərb. SSR Ali Sovetinin (6-cı sə 7-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**ABDULLAYEVA Gavahir Saleh gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6–7th convocations).





**ABDULLAYEVA Gülayət Osman qızı** (d. 1939) — 1958 ildən Göyçay r-nundakı H.Aslanov ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının üzvü olmuşdur.

**ABDULLAYEVA Gulayat Osman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ABDULLAYEVA Gülsüm Seyfulla qızı** (d.1927) — Ağsu r-nundakı "Moskva" təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**ABDULLAYEVA Gulsum Seyfulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ABDULLAYEVA Gülzar Rza qızı** (1914-1993) — Sosialist Əməyi Qəhrəmanı (1948). Beyləqan r-nundakı "Bakı" təsərrüfatında işləmişdir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək nailiyyətləri əldə etmişdir. Azərb. SSR Ali Sovetinin (4-cü və 5-ci çağırış) deputatı olmuşdur.

**ABDULLAYEVA Gulzar Rza gyzy** — Hero of Socialist Labour.



**ABDULLAYEVA Həlimə Yusif qızı** (d. 1928, Erm. SSR Oktemberyan r-nunun Şavarut k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1950 ildə Şəmkir r-nunda üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ABDULLAYEVA Halima Yusif gyzy** — Hero of Socialist Labour.



**ABDULLAYEVA Həyat Həmdulla qızı** (d. 14.10.1912, Dərbənd) — Azərb. Heykəltəraşı, əməkdar incəsənət xadimi (1964). Repin ad. Leninqrad Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İn-tunu bitirmişdir (1950). Heykəl-portretlərin, monumentlərin və kiçik formalı plastik əsərlərin — "Ana" (1955), "Yeddi gözəl" (1957) heykəlçikləri, "Həcər" (1959), "Gənclik" (1960), "Lay-lay" (1963) heykəl-kompozisiyaları, M.P. Vaqifin abidəsi (1957), "İki qız" (1967), V. Səmədovanın portreti (1970), "Sənsiz" (1972) və s.-in müəllifidir.

**ABDULLAYEVA Hayat Hamdulla gyzy** — Honoured Art Worker of the Azerb. SSR.



**ABDULLAYEVA Xəzəngül Mahmud qızı** (d.1960) — 1976 ildən Masallı r-nundakı H.Aslanov ad. təsərrüfatda işləmişdir. Azərb. Kənd Təsərrüfatı Akademiyasını bitirmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**ABDULLAYEVA Khazangul Mahmud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ABDULLAYEVA Kamilə Mabud qızı** (d.1923) — 1939 ildən Şəki r-nundakı təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**ABDULLAYEVA Kamila Mabud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ABDULLAYEVA Mənzilə Abdulla qızı** (d.1963) — 1980 ildən Şamaxı r-nundakı Y.Qaqarin ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Energetika komissiyasının üzvü olmuşdur.

**ABDULLAYEVA Manzila Abdulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ABDULLAYEVA Nabat Cumay qızı** (d.20.5.1925, Şəki) — filologiya e.d. (1980), prof. (1982). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1950). Ali məktəblərin filologiya fakültələri üçün bir sıra dərs vəsaitinin ("Sadə cümlə", "Müasir Azərbaycan dilinin morfologiyası", "Müasir Azərbaycan dilinin sintaksisi" və s.), proqram və çalışmaların müəllifidir. Azərb. dilçiliyinin və türkologiyanın müxtəlif problemlərinə dair bir çox konfrans və sessiyalarda məruzələrlə çıxış etmişdir.

**ABDULLAYEVA Nabat Jumay gyzy** — doctor of philology.



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası



**ABDULLAYEVA Nazlı Mürşüd qızı** (1.7.1902, Göyçay r-nunun Ərəbşahverdi k.—1978) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1927-65 illərdə Göyçay r-nunun "Yeni Yol", "Azərbaycan" pambıqçılıq təsərrüfatlarında işləmişdir. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ABDULLAYEVA Nazly Murshud gyzy** — Hero of Socialist Labour.



**ABDULLAYEVA Reyhan Kamal qızı** (d.1957) — 1975 ildən Şəki r-nundakı N.Nərimanov ad. tütünçülük təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**ABDULLAYEVA Reyhan Kamal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ABDULLAYEVA Səfurə Seyfulla qızı** (d. 1936, Masallı r-nunun Qızılağac k.) — Sosialist Əməyi Qəhrəmanı. Əmək fəaliyyətinə 1953 ildən Kalinin ad. təsərrüfatda tərəvəzçi fəhlə kimi başlamış, 1970 ildən Keşlə ət kombinatında işləmişdir. SSRİ Ali Sovetinin (7-ci çağırış), Azərb. SSR Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ABDULLAYEVA Safura Seyfulla gyzy** — Hero of Socialist Labour.



**ABDULLAYEVA Tamam İsmayıl qızı** (d. 1959) — əmək fəaliyyətinə 1976 ildən Gürcüstan SSR-in Marneuli r-nundakı "Qamarcveba" təsərrüfatında başlamışdır. Gürcüstan SSR-dən SSRİ Ali Sovetinə (11-ci çağırış) deputat seçilmişdir.

**ABDULLAYEVA Tamam Ismayil gyzy**— deputy of the Supreme Soviet of the USSR from the Georgian SSR (11th convocation).



**ABDULLAYEVA Vəlihə Böyükağa qızı** (d.1.1.1949) — Azərb. Xalq Təsərrüfatı İn-tunu (1971) və Bakı Ali Partiya Məktəbini (1987) bitirmişdir. 1971 ildən Salyan Rayon Maliyyə şöbəsində, XDS İcraiyyə Komitəsində, İcra Hakimiyyəti aparatında müxtəlif vəzifələrdə çalışmış, 1997 ildən rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini yerinə yetirmiş, 1998-2001 illərdə Salyan Rayon İcra Hakimiyyətinin başçısı işləmişdir.

**ABDULLAYEVA Valiha Boyukaga gyzy** — Head of the Excutive Power of Salyan district.



**ABDULLAYEVA Yeganə Güləlı qızı** (1961) — pambıq ustası. Əmək fəaliyyətinə 1977 ildən Kürdəmir r-nunda başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**ABDULLAYEVA Yegane Gulalı gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocations).





**ABDULLAYEVA Zemfira Tacəddin qızı** (d.1950) — 1968 ildən Ucar r-nundakı təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**ABDULLAYEVA Zemfira Tajaddin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th and 10th convocations).



**ABDULLAYEVA Zəminə Absəddin qızı** (d.1937) — 1963 ildən Qəbələ r-nundakı təsərrüfatda sağıcı işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**ABDULLAYEVA Zamina Absaddin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ABDULLAYEVA Zərri Mütəllim qızı** (1912, Xanlar r-nunun Şəmşəddin k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). "Azərbaycan" üzümçülük təsərrüfatında işləmişdir. 1949 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ABDULLAYEVA Zarri Mutallim gyzy** — Hero of Socialist Labour.





**ABDULLAYEVA Zoya Əmir qızı** (d.1959) — 1977 ildən Qusar r-nundakı təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal təsərrüfatı və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**ABDULLAYEVA Zoya Amir gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ABDULLAZADƏ Fatma Hüseyn qızı** (d.28.5.1948) — Azərb. Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri (1993 ildən). Fizika-riyaziyyat e.d. (1988). Azərb. Dövlət Un-tini (1971) və Moskva İctimai Elmlər Akademiyasını (1991) bitirmişdir. 1974 ildən Azərb. EA Riyaziyyat və Mexanika İn-tunda kiçik elmi işçi, baş elmi işçi, 1985 ildən Azərb. EA partiya komitəsinin katibi, Azərb. KP MK elm və tədris müəssisələri şöbəsi müdirinin müavini işləmişdir. Azərb. Neft Akademiyasının prof.-dur. (1988). Azərb. Respublikası Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur.

**ABDULLAZADE Fatma Huseyn gyzy** — doctor of physics and mathematics.



**ABDULLAZADƏ Gülnaz Abutalıb qızı** (d.7.9.1946, Bakı) — Azərb. musiqişünası. Fəlsəfə e.d. (1990), prof. (1992). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1971). 1963 ildən elmi-pedaqoji fəaliyyətə başlamış, 1990 ildən Bakı Musiqi Akademiyasının elmi-tədqiqat və yaradıcılıq işləri üzrə prorektorudur. Azərb. musiqişünaslığında ilk dəfə olaraq muğamların fəlsəfi mahiyyətini araşdırmışdır. 40-a qədər elmi əsərin, monoqrafiyaların müəllifidir. Bir sıra elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir. Bəstəkar kimi də fəaliyyət göstərir ("Azərbaycan xalq musiqisi əsasında 15 vokaliz", "Fortepiano üçün prelüd və sonatina" və s.).

**ABDULLAZADE Gulnaz Abutalyb gyzy** — doctor of philosophy.



**ABUŞOVA Sevinc Mirzə qızı** (d.1962) — 1979 ildən Masallı r-nundakı "Sovet Azərbaycanı" təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, anaları və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**ABUSHOVA Sevinj Mirza gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ADIGÖZƏLOVA-POLÇAYEVA Qəmər Əbdürrəhim qızı** (12.4.1915, Dağ. MSSR-in Axtı k. — 1992) — Azərb. oftalmoloqu, tibb e.d. (1959), prof. (1961). 1960 ildən Azərb. Elmi-Tədqiqat Oftalmologiya İn-tunun elmi işlər üzrə direktor müavini, 1972 ildən Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədr müavini işləmişdir. Elmi araşdırmaları gözün fiziologiyasına həsr olunmuşdur.

**ADYGOZALOVA-POLCHAYEVA Gamar Abdurrahim gyzy** — doctor of medicine.



**ADINAYEVA Rəhilə Kərim qızı** (d.1949) — 1966 ildən Lerik r-nundakı H.Aslanov ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Ticarət, əhaliyə məişət xidməti və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**ADYNAYEVA Rahila Kerim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**AFAQ BƏŞİRQIZI** (Səfərova; d. 15.8.1955, Bakı) — Azərb. Resp. xalq artisti (1993). Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1979). Səhnə fəaliyyətinə 1973 ildən N.Vəzirov ad. Lənkəran Dövlət Dram Teatrında başlamışdır. 1975-89 illərdə H.Ərəblinski ad. Sumqayıt Dövlət Dram Teatrının, 1989-95 illərdə Ş.Qurbanov ad. Azərb. Dövlət Musiqili Komediya Teatrının aktrisası olmuşdur. 1995 ildən özünün yaratdığı Bəşir Səfəroğlu ad. Musiqili Teatrın bədii rəhbəri və direktorudur. Səhnədə ilk işi Sərvinaz ("Yaxşı adam", M.İbrahimov) obrazıdır. Rolları: Humay ("Komsomol poeması", S.Vurğun; səhnə üçün işləyəni İ.Coşğun), Söylü ("Bəxt üzüyü", V.Səmədoğlu), Xəbərçi Xədicə ("Adamın adamı", Anar), Tovuz qarı ("Bir cüt bədmüşk ağacı", Ə.Əylisli), Baronessa Ştral ("Maskarad", M.Lermontov), Nayman ana ("Əsrə bərabər gün", Ç.Aytmatov) və b. Televiziya tamaşalarında, "Mozalan" satirik kino jurnalında, bir sıra bədii filmlərdə çəkilmişdir.

**AFAG Bashirgyzy (Safarova)** — Honoured Artist of the Azerbaijan Republic.



**AFANASYEVA Anastasiya İvanovna** (d.1925) — 1943 ildən Bakı cihazqayırma zavodunda fəaliyyət göstərmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**AFANASYEVA Anastasiya Ivanovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**AĞABALAYEVA Bənövşə Mövlud qızı** (d.1941) — 1961 ildən Xaçmaz r-nundakı M.Qorki və "Ukrayna" təsərrüfatlarında işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**AGABALAYEVA Banovsha Movlud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**AĞABƏYLİ Rəna Ağaxan qızı** (d.3.1.1942, Gəncə) — biologiya e.d. (1991). Azərb. Dövlət Un-tini bitirmişdir (1965). 1987 ildən Azərb. Respublikası MEA Botanika İn-nun aparıcı elmi işçisidir. Biologiya, genetika, ekoloji genetika, sitogenetika sahələri üzrə araşdırmalar aparır. 130-dan artıq elmi əsərin, o cümlədən 1 kitabın, 5 ixtiranın müəllifidir. Bir çox beynəlxalq konfransların iştirakçısı olmuşdur. 1997 ildən ksenobiotiklərin tədqiqi üzrə Beynəlxalq elmi cəmiyyətin (ABŞ) üzvüdür.

**AGABEYLI Rena Agakhan gyzy** — doctor of biology.



**AĞAHÜSEYNOVA Minirə Məmmədəli qızı** (d.1949, Bakı) — kimya e.d. (1989), prof. (1991). Azərb. Dövlət Neft və Kimya İn-tunu bitirmişdir (1971). 1993 ildən Azərb. Dövlət Neft Akademiyasının ümumi və qeyri-üzvi kimya kafedrasının müdiridir. Elmi araşdırmaları keçid metalların kompleks birləşmələrinin kimyası, alınma üsulları, quruluşları sahəsinə aiddir. 250-dək elmi əsərin, 20 dərslik və dərs vəsaitinin, 6 ixtiranın və 2 ixtira patentinin müəllifidir. Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü (1995), Avropa Kimya Cəmiyyətinin üzvü (1997), Beynəlxalq Eko-Energetika Akademiyasının akademiki (1998) seçilmişdir. Beynəlxalq Bioqrafiya Mərkəzi (Kembric, Böyük Britaniya) tərəfindən 2000 ildə "Minilliyin adamı" fəxri adına layiq görülmüşdür.

**AGAHUSEYNOVA Minira Memmedali gyzy** — doctor of chemistry.



**AĞAKİŞİYEVA Naridə Məhəmməd qızı** (d.1958) — 1977-ci ildən Cəbrayıl r-nundakı Füzuli ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**AGAKISHIYEVA Narida Mahammad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).





**AĞAKİŞİYEVA Zərnigar Fəti qızı** (d. 7.11.1945, Quba r-nunun Rustov k.) — Azərb. Resp. xalq artisti (2000). Azərb. İncəsənət İn-tunu bitirmiş (1972), təhsil illərində in-tun "Tədris teatrında" və Azərb. Milli Dram Teatrında bir sıra tamaşalarda çıxış etmişdir. 1974 ildən Azərb. Milli Dram Teatrının aktrisasıdır. Rolları: Xuraman ("Vaqif", S.Vurğun), Tatyana ("Meşşanlar", M.Qorki), Olqa Semyonova ("Daşqın", A.Sofronov), Dilbər ("Sevil", C.Cabbarlı), Amaliya ("Yad adam", L.Frank), Maral (Közərən ocaqlar", M.İbrahimov), Zivər ("Təhminə və Zaur", Anar), Xanım Piçem ("Üç quruşluq opera", B.Brext) və s. Televiziya tamaşalarında da bir sıra yaddaqalan obrazlar yaratmışdır: Mirandolina ("Mehmanxana sahibəsi", K.Qoldoni), Həmidə xanım ("Ötən ilin son gecəsi", Anar), Dilşad ("Atayevlər ailəsi", İ.Əfəndiyev) və s. "Dantenin yubileyi", "Özgə həyat", "Mezozoy əhvalatı", "Təhminə" filmlərində çəkilmişdir.

**AGAKISHIYEVA Zarnigar Fati gyzy** — People's Artist of the Azerbaijan Republic.



**AĞALAROVA Bahar Əmirəli qızı,** A n a c a n (1884, Yelizavetpol qəzasının Varvara k. — 16.2.1953, Bakı) — Azərb. SSR əməkdar müəllimi (1942). Azərb.-da ilk uşaq evini təşkil etmişdir (1920). SSRİ Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur. Y.Əzimzadənin "Anacan" pyesi onun fəaliyyətindən bəhs edir.

**AGALAROVA Bahar Amirali gyzy** — Honourd Teacher of the Azerb. SSR.



**AĞALAROVA Bahar Mahmud qızı** (d. 1960) — 1977-ci ildən Bakı çay çəkib-bükmə fabrikində işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**AGALAROVA Bahar Mahmud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**AĞALAROVA Dünya Ələkbər qızı** (15.12.1906, Şamaxı — 1981) geologiya-mineralogiya e.d., prof. (1964). 1949-57 illərdə Türkmənistan SSR EA Geologiya İn-tunun paleontologiya laboratoriyasının rəhbəri, 1958 ildən Azərb. Dövlət Neft Sənayesi Elmi-Tədqiqat Neft və Layihə İn-tunda stratiqrafiya laboratoriyasının rəhbəri olmuşdur. Tədqiqatları Azərb.-ın Mezozoy və Kaynazoy çöküntülərinin mikrofaunası sahəsindədir. Mikropaleontoloqların Polşada (1968) keçirilən Beynəlxalq konqresində çıxış etmişdir.

**AGALAROVA Dunya Alekber gyzy** — doctor of geology and mineralogy.



**AĞAMALİYEVA Lumu Şərifəli qızı** (d.1939) — 1954 ildən Qusar r-nundakı təsərrüfatlarda işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**AGAMALIYEVA Lumu Sharifali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**AĞASIYEVA Zərifə Seyfəddin qızı** (d.1949) — 1965 ildən Qəbələ r-nundakı "Azərbaycan" təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Ticarət, əhaliyə məişət xidməti və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**AGASIYEVA Zarifa Seyfaddin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**AĞAYEVA Aleksandra Ağaverdi qızı** (d.1.8.1920, Bakı) — iqtisad e.d. (1974), prof. (1978). M.Əzizbəyov ad. Azərbaycan Neft Sənaye İn-tunu bitirmişdir (1942). Azərb. Elmlər Akademiyasında kiçik elmi işçi (1951-54), baş elmi işçi (1954-65), şöbə müdiri (1965-1987), aparıcı elmi işçi (1987-95), baş elmi işçi (1995-2000) işləmişdir. 2001 ildən Azərbaycan Milli Aviasiya Akademiyasının professorudur. Neft iqtisadiyyatına dair elmi əsərlərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir.

**AGAYEVA Aleksandra Agaverdi gyzy** — doctor of economics.



**AĞAYEVA Elyanə Xəlil qızı** (d. 1961) — 1977 ildən Göyçay r-nundakı "Leninqrad" üzümçülük təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**AGAYEVA Elyana Khalil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**AĞAYEVA Emma Müzəffər qızı** (d.14.3.1951, Gəncə) — baytarlıq e.d. (2001). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1974). Həmin institutda pedaqoji fəaliyyət göstərir (1982 ildən). Epizootologiya, mikrobiologiya və virusologiya sahəsində elmi araşdırmalar aparır.

**AGAYEVA Emma Muzaffar gyzy** — doctor of veterinary science.



**AĞAYEVA Güldəstə İsa qızı** (1929, Masallı r-nunun Gəyəçöl k.—2000, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1947 ildən əmək fəaliyyətinə başlamış, tütünçülük sahəsində yüksək göstəricilər əldə etmişdir. "Qəhrəman ana" adına layiq görülmüşdür.

**AGAYEVA Guldasta Isa gyzy** — Hero of Socialist Labour.

**AĞAYEVA Gülüstan Ağamirzə qızı** (20.3.1898, Zəngilan r-nunun Şərifan k.—3.1.1974, Beyləqan) — Sosialist Əməyi Qəhrəmanı (1948). 1930-50 illərdə Beyləqan r-nundakı pambıqçılıq təsərrüfatında işləmişdir. 1947 ildə pambıqçılıq sahəsində Lenin ordeni, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**AGAYEVA Gulustan Agamirza gyzy** — Hero of Socialist Labour.



**AĞAYEVA Xədicə Sadıq qızı** (25.10.1885, Daşkənd — 13.12.1958, Bakı) — Azərb. müəllimi. Daşkənddə gimnaziya bitirmiş (1902), Bakıda rus-müsəlman qız məktəbində riyaziyyatdan dərs demiş, Gəncə qız məktəbində müdir olmuşdur (1909-19). Onun təşəbbüsü ilə Gəncədə qadın xeyriyyə cəmiyyəti yaradılmışdı. Darülmüəllimatda, Bakının bir sıra məktəblərində müəllimlik etmişdir. Lenin ordeni ilə təltif olunmuşdur.

**AGAYEVA Khadija Sadyg gyzy** — laureate the Order of Lenin.



**AĞAYEVA Xurşid Həsən qızı** (20.4.1906, Bakı — 3.12.1953, Bakı) — ilk azərb. musiqişünas qadın, pianoçu, əməkdar incəsənət xadimi (1943). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1935). Ü.Hacıbəyli haqqında ilk monoqrafiyanın müəllifidir. Azərb Dövlət Konservatoriyasında musiqi tarixindən dərs demiş, elmi işlər üzrə prorektor (1944-46) olmuşdur.

**AGAYEVA Khurshud Hasan gyzy** — musicologist, Honoured Art Worker of the Azerb SSR.



**AĞAYEVA Reyhan Ağababa qızı** (1924, Masallı r-nunun Musaküçə k. — aprel 1968, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). Masallı r-nundakı tütünçülük təsərrüfatında işləmişdir. 1947 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**AGAYEVA Reyhan Agababa gyzy** — Hero of Socialist Labour.



**AĞAYEVA Sima Mirzağa qızı** (18.7.1922, Bakı — 24.6.1978, Bakı) — kimya e.n. (1950). Azərb. SSR Dövlət mükafatı laureatı (1976). M.Əzizbəyov ad. Azərb. Sənaye İn-tunu bitirmişdir (1944). Həmin ildən V.V.Kuybışev ad. Azərb. Neft Emalı sənayesinin elmi-tədqiqat in-tunda işə başlamış, 1959 ildən Azərb. EA Neft-Kimya Prosesləri İn-tunda, 1965 ildən isə Azərb. EA Aşqarlar Kimyası İn-tunda baş elmi işçi işləmişdir. 95 elmi işin, 13 müəlliflik şəhadətnaməsinin müəllifidir.

**AGAYEVA Sima Mirzaga gyzy** — laureate of the State Prize of the Azerb. SSR





**AĞAYEVA Şəfahət Əhməd qızı** (d.1958) — 1977 ildən Qəbələ r-nundakı tütünçülük təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**AGAYEVA Shafahat Ahmad gyzy** —deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**AĞAYEVA Şərqiyə Hacıbala qızı** (d. 1935) — 1955 ildən Bakıdakı neft mədənləri idarəsinin 7 saylı mədənində neft quyularının tədqiqi üzrə operator işləmişdir, SSRİ Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**AGAYEVA Shargiya Hajıbala gyzy**— deputy of the Supreme Soviet of the USSR (6th convocation).



**AĞAYEVA Şükufə Novruz qızı** (d.1937) — 1960 ildən "Şimal" DRES-ində elektrik ustası işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**AGAYEVA Shukufa Novruz gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).





**AĞAYEVA Təzə Feyzulla qızı** (10.4.1927, Kürdəmir r-nunun Ərəbxana k. — 10.3.1968, orada) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1943-59 illərdə Kürdəmir r-nundakı pambıqçılıq təsərrüfatlarında işləmişdir. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**AGAYEVA Taza Feyzulla gyzy** — Hero of Socialist Labour.



**AĞAZADƏ Nəzakət Həsən qızı** (13.2.1910, Yelizavetpol, indiki Gəncə — 10.4.79, Bakı) — Azərb. dilçisi, filologiya e.d. (1966), prof. (1966). Moskva Xarici Dillər İn-tunu bitirmişdir (1939). Azərb. Dövlət Xarici Dillər İn-tunun alman dili kafedrasının müdiri (1942-61), M.F.Axundov ad. Azərb. Pedaqoji Rus dili və ədəbiyyatı İn-tunun prorektoru (1966-68), 1961 ildən Azərb. EA xarici dillər kafedrasının müdiri olmuşdur. Araşdırmaları Azərb. və alman dillərinin müqayisəli öyrənilməsinə aiddir. Azərb. məktəbləri üçün alman dili dərslikləri yaradılmasında xidmətləri var.

**AGAZADE Nezaket Hasan gyzy** — doctor of Ahilology.



**AXUNDOVA Asya Mahmud qızı** (26.12.1919, Bakı—noyabr, 1983, Bakı) — tibb e.d. (1966), prof. (1969), Azərb. Resp. əməkdar həkimi (1966). 1952 ildən Azərb. Elmi-Tədqiqat Qanköçürmə və Hematologiya İn-tunda işləmiş, 1969 ildən həmin in-tutun elmi işlər üzrə direktor müavini olmuşdur. Azərbaycanda ilk dəfə talassemiya xəstəliyini təsvir etmiş, onun yayılma xəritəsini düzəltmiş, əsas ocaqlarını müəyyənləşdirmiş, talassemiyalı xəstələrin müalicə üsullarını işləyib hazırlamışdır.

**AKHUNDOVA Asya Mahmud gyzy** — doctor of medicine.



**AXUNDOVA Xalidə Xeyrulla qızı** (d. 1926) — Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1950 ildən uşaq evində mülləim, sonra isə tərbiyəçi kimi çalışmışdır. Xaçmazdakı 4 saylı səkkizillik məktəbdə dil və ədəbiyyat müəllimi işləmişdir. SSRİ Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**AKHUNDOVA Khalide Kheyrulla gyzy** — deputy of the Supreme Soviet of the USSR (9th convocation).



**AXUNDOVA Rəfiqə Hacı qızı** (d.7.8.1931, Bakı) — Azərb. balet artisti, baletmeyster. Azərb. Resp. xalq artisti (1970). Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1951). Böyük Teatrda təkmilləşmə kursu keçmişdir (1951-52, Moskva). Azərb. Opera və Balet Teatrının solisti olmuşdur (1951-71). 1971 ildən həmin teatrın baletmeysteri, 1990 ildən baş baletmeysteridir. Əsas partiyaları: Ayişə və Gözəllər gözəli, Fanni ("Yeddi gözəl", "İldırımlı yollarla", Q.Qarayev), Gülşən ("Gülşən", S.Hacıbəyov), Gülyanaq ("Qız qalası", Ə.Bədəlbəyli), Şirin ("Məhəbbət əfsanəsi", A.Məlikov), Zarema ("Baxçasaray fontanı", B.Asafyev), Jizel ("Jizel", A.Adan) və s. Əri Maqsud Məmmədovla birlikdə Azərb. Opera və Balet Teatrında "Xəzər balladası" (1968, T.Bakıxanov), "Qobustan kölgələri" (1969, F.Qarayev), "Yallı" və "Azərbaycan süitası" (1969, R.Hacıyev), "İldırımlı yollarla" və "Yeddi gözəl" (1975, 1978, Q.Qarayev), "Babək" (1986, A.Əlizadə), "Şelkunçik" (1988, P.Çaykovski), habelə Novosibirsk Opera və Balet Teatrında "İldırımlı yollarla" (1976) baletlərinin quruluşunu vermişdir. Əlcəzair, İsveç, Misir və Belçikada pedaqoq-baletmeyster işləmişdir. Əlcəzairdə "Üç inqilab" (1973, R.Hacıyev; M.Məmmədovla birgə) ilk milli baletini, Malmödə "Muğam" (1975, N.Əliverdibəyov) musiqili xoreoqrafiya lövhəsini, Qahirədə "Yeddi gözəl" (1979), Antverpendə "Kaleydoskop (1980, F.Qarayev) baletlərini (hər ikisi M.Məmmədovla birgə) tamaşaya qoymuşdur. "Xəzər balladası", "Qobustan kölgələri" və "Azərbaycan süitası" 1969 ildə Parisdə keçirilən 7-ci Beynəlxalq rəqs festivalında nümayiş etdirilmiş və Paris Rəqs Akademiyasının diplomuna layiq görülmüşdür. 1994 ildə "Yeddi gözəl" baletini Ankarada tamaşaya qoymuşdur (M.Məmmədovla birgə). "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**AKHUNDOVA Rafiga Haji gyzy** — People's Artist of the Azerb. Repub.



**AXUNDOVA Səyyarə Məhərrəm qızı** (d.1937) — 1960 ildən Şirvanneft Neft və Qazçıxarma İdarəsində işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının üzvü olmuşdur.

**AKHUNDOVA Sayyara Maharram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**AXUNDOVA Şəfiqə Qulam qızı** (d.21.1.1924, Şəki) — Azərb. bəstəkarı, əməkdar incəsənət xadimi (1973). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1956). Çoxlu mahnı və romansların ("Mehriban olaq", "Nədən oldu", "Sənsiz səninlə", "Həyat, sən nə şirinsən", "Gözlərimin işığı", "Peşimandır, peşimana nə deyim", "Könül təranəsi", "Xoş gördük, ana torpaq", "Anama məktub" və s.), "Ev bizim, sirr bizim" (1965) operettasının müəllifidir. Azərb.-da opera musiqisi yazmış ilk qadındır ("Gəlin qayası" operası, 1972, tamaşası 1974). Simli kvartet üçün pyeslər, simfonik süitalar bəstələmişdir. Onlarca dram tamaşasına ("Aydın", "Vicdan", "Sən nə üçün yaşayırsan", "Böyük ürək", "Ürək sevərsə", "Yazığam, sevmə məni", "Son məktub" və s.) musiqi yazmışdır. 1956-89 illərdə Azərb. İncəsənət İn-tunda dərs demişdir (1986 ildən dosent). "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**AKHUNDOVA Shafiga Gulam gyzy** — composer, Honoured Art Worker of the Azerb. Repub.



**AXUNDOVA Tamilla Yusif qızı** (d. 1944) — M.F.Axundov adına Pedaqoji İn-tutu bitirmişdir. 1968 ildən Bakıdakı 96 saylı ümumtəhsil məktəblərində müəllim işləmişdir. SSRİ Ali Sovetinin (9-cu çağırış) deputatı, Millətlər Sovetinin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**AKHUNDOVA Tamilla Yusif gyzy** — deputy of the Supreme Soviet of the USSR (9th convocation).





**AXUNDOVA-BAĞIRBƏYOVA Sona Əbdül qızı** (1896, Şamaxı — 1982) — tibb e.d., prof. (1952), əməkdar elm xadimi (1964) və əməkdar həkim (1960). 1923 ildə II Moskva Dövlət Un-tinin tibb fakültəsini bitirmiş, Bakı və Gəncənin göz xəstəxanalarında işləmiş, 1938-46 illərdə Azərb. Elmi-Tədqiqat Oftalmologiya İn-tunda şöbə müdiri olmuşdur. 1940 ildə Odessada V.P.Filatovun rəhbərliyi altında işləmiş, sonra Azərb.-da Filatov üsulu ilə toxuma terapiyası və keratoplastika əməliyyatları aparmışdır. SSRİ Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**AKHUNDOVA-BAGYRBEYOVA Sona Abdul gyzy** — doctor of medicine, Honoured Science Worker of the Azerb. Repub.



**AXUNDZADƏ Səkinə Mirzə Heybət qızı** (1865, Quba — 1927, Bakı) — Azərb. yazıçısı, müəllim. Azərb.-ın ilk qadın müəllimlərindən biri və ilk qadın dramaturqudur. 1901 ildən Bakıda H.Z.Tağıyevin qız məktəbində ana dili və ədəbiyyatdan dərs demişdir. "Elmin bəhrəsi" (1904), "Zülmün səmərəsi" ("Lakme"dən təbdil"; Hindistan həyatından götürülmüş süjet əsasında) pyeslərinin, "Gəlin və qayınana" komediyasının müəllifidir. Azərb. folkloru əsasında "Şahzadə Əbülfəz və Rəna xanım" (1918) povestini yazmışdır. Türk yazıçısı Namiq Kamalın "Zavallı cocuq" pyesini "Bəxtsiz bala" adı ilə təbdil etmişdir. Məktəbli qızlarla birlikdə teatr tamaşaları hazırlayıb, qadın tamaşaçılarına göstərmişdir.

**AKHUNDZADE Sakina Mirza Heybat gyzy** — writer.



**ALCANOVA Sevda İlyas qızı** (d.1961) — 1978 ildən Qəbələ r-nundakı Sabir ad. tütünçülük təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**ALJANOVA Sevda Ilyas gyzy** — deputy of the Supreme Soviet of Azerb. SSR (11th convocation).





**ALIXANOVA Maral Ağa qızı** (1916, Tərtər r-nunun Səhlaabad k.—2002) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1932 ildən pambıqçılıq təsərrüfatında işləmiş, yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ALYKHANOVA Maral Aga gyzy** — Hero of Socialist Labour.



**ALİSGƏNDƏROVA Nəzifə Abbas qızı** (d.1946) —1965 ildən Qazax r-nundakı Nəvai ad. təsərrufatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**ALISKENDEROVA Nazifa Abbas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ALLAHVERDİYEVA Həliməxatun Səfər qızı** (d. 1954) — 1971 ildən Naxçıvan MSSR-in Babək r-nundakı təsərrüfatda işləmişdir. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, Millətlər Sovetinin Qanunvericilik aktları komissiyasının üzvü olmuşdur.

**ALLAHVERDIYEVA Halimakhatun Safar gyzy** — deputy of the Supreme Soviet of the USSR (10th convocation).



**ALLAHVERDİYEVA Xəzəngül Məhərrəm qızı** (d.1961) — 1979 ildən pambıqçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**ALLAHERDIYEVA Khazangul Maharram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ALLAHVERDİYEVA Minayə Qurban qızı** (d. 1948, Qazax r-nunun Ağköynək k.) — Azərb. Dövlət Texnologiya İn-tunu bitirmişdir. 1968 ildən Qazax "Zili" xalçaçılıq fabrikində işləmişdir. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**ALLAHVERDIYEVA Minaya Gurban gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convacation).



**ALLAHVERDİYEVA Ramella Allahverdi qızı** (d. 15.8.1950, Xankəndi) — Azərb. Respublikası Apellyasiya Məhkəməsinin hakimi (2000 ildən). Azərbaycan Dövlət Un-tinin hüquq fakültəsini bitirmişdir (1978). 1979-82 illərdə Azərb. Respublikası DQMV Məhkəməsinin hakimi, 1982-1990 illərdə Azərb. Respublikası məhkəməsinin hakimi, 1990-2000 illərdə Azərb. Resp. Ali Məhkəməsinin hakimi vəzifələrində işləmişdir.

**ALLAHVERDIYEVA Ramella Allahverdi gyzy** — judge of the Court of Appeal of the Azerb. Repub.





**ALLAHVERDİYEVA Sevda Rafiq qızı** (d.1961) — Azərb. Politexnik İn-tunu bitirmişdir (1983). Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**ALLAHVERDIYEVA** Sevda Rafig gyzy — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ALLAHVERDİYEVA Şahnaz Əbdülsəməd qızı** (d.1926) — 1948 ildən neftçıxarma sahəsində işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Rəyasət Heyətinin üzvü olmuşdur.

**ALLAHVERDIYEVA Shahnaz Abdulsamed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ALMASZADƏ Qəmər Hacağa qızı** (d.10.3.1915, Bakı) — Azərb. balet artisti, baletmeyster və pedaqoq, ilk azərb. balerina. Azərb. Resp. xalq artisti (1943), SSRİ xalq artisti (1959). SSRİ Dövlət mükafatı laureatı (1952), Bakı balet studiyasını (1930) və Leninqrad Xoreoqrafiya Məktəbini (1936) bitirmişdir. 1932 ildə SSRİ Böyük Teatrının balet studiyasında oxumuşdur. 1936-53 illərdə Azərb. Opera və Balet Teatrının solisti, 1953-89 illərdə isə baş baletmeysteri olmuşdur (1989 ildən baletmeysterdir). Ötən əsrin 30-cu illərində Tao Xoa ("Qırmızı lalə", R.Qlier), Medora ("Korsar", A.Adan), Mariya ("Baxçasaray fontanı", B.Asafyev), Esmeralda ("Esmeralda", S.Puni) obrazlarını yaratmış, "Koroğlu" (Ü.Hacıbəyli) və "Şahsənəm" (R.Qlier) operalarında solo rəqsləri ifa etmişdir. Azərb. milli rəqslərinin mahir ifaçısı, Azərb. Dövlət Filarmoniyası Rəqs Ansamblının təşkilatçılarındandır (1937-38 illərdə bədii rəhbəri). Azərb. balet məktəbinin yaradıcılarından olan A. klassik repertuarın ən çətin partiyalarında (Maşa, "Şelkunçik", P.Çaykovski; Raymonda, "Raymonda", A.Qlazunov; Kitri, "Don Kixot", L.Minkus; Odetta-Odilliya, "Sonalar gölü", P.Çaykovski və s.-də) çıxış etmişdir. Onun milli baletlərdə ifa etdiyi partiyalar

Azərb. xoreoqrafiya sənətinin nailiyyətləridir: Gülyanaq ("Qız qalası", Ə.Bədəldəyli), Gülşən ("Gülşən", S.Hacıbəyov); baleti özü tamaşaya qoymuş və baş partiyada çıxış etmişdir); Ayişə ("Yeddi gözəl"; Q.Qarayev), "Qız qalası" (1948, 1958, 1977), "Doktor Aybolit" (1949, İ.Morozov), "Baxçasaray fontanı" (1951), "Yeddi gözəl" (1952), "Qırmızı lalə" (1954), "Yatmış gözəl" (1955, P.Çaykovski), "Laurensiya" (1956, A.Kreyn), "Qızıl açar" (1957, B.Zeydman), "Arlekinada" (1959, R.Driqo), "Jizel" (1961, A.Adan; N.Fyodorovla birgə), "Sonalar gölü" (1963, 1981), "Qaraça qız" (1965, Ə.Abbasov), "Şur" (1968, F.Əmirov), "Don Kixot" (1973) baletlərini tamaşaya qoymuşdur. A. bir sıra operalarda rəqslərin quruluşunu vermişdir. 1936 ildən Bakı Xoreoqrafiya Məktəbində dərs demişdir. Azərb. balet artistlərindən L.Vəkilova, R.Axundova, Ç.Babayeva, T.Şirəliyeva, Gürc. Resp. xalq artisti V.Siqnadze və b. onun yetişdirmələridir. 1970-72 illərdə İraqda işləmiş və İraq Dövlət Rəqs Ansamblının təşkilində iştirak etmişdir. Oktyabr inqilabi ordeni, 2 Qırmızı Əmək Bayrağı ordeni, "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

**ALMASZADE Gamar Hajaga gyzy** — People's Artist of the USSR.



**ANİKİNA Klavdiya İvanovna** (d.1939) — əmək fəaliyyətinə 1958 ildən başlamış, 1961 ildən Azərb. qaz emalı zavodunda işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Energetika komissiyasının üzvü olmuşdur.

**ANİKİNA Klavdiya İvanovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ANQUBAZOVA Məryəm Ömər qızı** (17.5.1919, Balakən r-nunun Meşəşambul k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1936 ildən Balakən r-nunun tütünçülük təsərrüfatında işləmiş, 1948 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ANGUBAZOVA Maryam Omar gyzy** — Hero of Socialist Labour.



**ANTYASOVA Klavdiya Sergeyevna** (d.1934) — 1953 ildən Xaçmaz r-nundakı Çkalov ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**ANTYASOVA Klavdiya Sergeyevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ARASLI Dürdanə Həmid qızı** (d.9.6.1939, Bakı) — fizika-riyaziyyat e.d. (1988). Azərbaycan Dövlət Un-tinin fizika fakültəsini bitirmişdir (1961). Həmin ildən Azərb. EA-nın Fizika İn-tunda fəaliyyətə başlamışdır. 1988 ildən "Yarımkeçiricilərdə köçürmə hadisələri" laboratoriyasının aparıcı elmi işçisidir. Elmi araşdırmaları yarımkeçirici maddələrdə elektron və fononların səpilmə mexanizminin, elektron-elektron, elektron-fonon, fonon-fonon qarşılıqlı təsirinin xarakterinin, bu maddələrin istilik çeviriçilərində tətbiqi imkanlarının öyrənilməsinə və s. həsr edilmişdir.

**ARASLY Durdane Hamid gyzy** — doctor of physics and mathematics.





**ARASLI Nüşabə Həmid qızı** (d.25.3.1941, Bakı) — filologiya e.d. (1988). Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsini bitirmişdir (1962). Həmin ildən Azərb. EA-nın Əlyazmalar fondunda kiçik elmi işçi kimi fəaliyyətə başlamış, 1965 ildə Əfqanıstana ezam olunmuş, orada fars-rus dilləri üzrə tərcüməçi işləmişdir. 1966 ildən fəaliyyəti Azərb. EA-nın Nizami ad. Dil və Ədəbiyyat İn-tu ilə bağlıdır. Hazırda MEA Ədəbiyyat İn-tunun "Qədim Azərbaycan ədəbiyyatı" şöbəsinin baş elmi işçisidir. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatını, klassik ədəbiyyatın poetik-nəzəri məsələlərini, "Kitabi-Dədə Qorqud" abidəsini, Xaqani, Nizami, Arif Ərdəbili, Xətai, Füzuli irsini tədqiq etmiş, Nizami ədəbi məktəbinin Yaxın Şərq xalqları ədəbiyyatına təsirini, klassik Azərbaycan ədəbiyyatının türk, fars, özbək ədəbiyyatları ilə qarşılıqlı əlaqələrini öyrənmişdir. 100-dən artıq elmi məqalənin və monoqrafiyanın müəllifidir.

**ARASLY Nushabe Hamid gyzy** — doctor of philology.



**ARAZOVA İmamət Əlişah qızı** (d.1940, Dağıstan Resp., Usuqçay r-nunun Qaraküre k.) — 1960 ildən Xaçmaz r-nundakı Çkalov ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**ARAZOVA Imamet Alishah gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (12 convocation).



**ASLANOVA Çimnaz Əbdüləli qızı** (1904, Bakı — 10.3.1970, Bakı) — dövlət və ictimai xadim. 1932 ildə Azərb. Dövlət Pedaqoji İn-tunu, 1948 ildə Moskvada Ali Partiya Məktəbini bitirmişdir. Bakı Xalq Maarifi Şöbəsinin müdiri (1938-39), Azərb. SSR İbtidai və Orta Məktəb İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin sədri (1939-43), Azərb.KP MK-da məktəblər şöbəsinin müdiri (1943-48), Azərb. SSR maarif nazirinin müavini (1951-52) olmuş, 1952–58 illərdə müxtəlif partiya işlərində çalışmışdır. 1958 ildə Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin mükafat şöbəsinin müdiri işləmişdir. SSRİ Ali Sovetinin (1-4-cü çağırış) deputatı, Millətlər Soveti sədrinin müavini (1946-58) olmuşdur. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ASLANOVA Gimnaz Abdulali gyzy** — deputy of the Supreme Soviet of the USSR (1-4 convocations).





**ASLANOVA Kübra Ələstan qızı** (d.1949) — 1966 ildən Dəvəçi r-nundakı Nərimanov ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**ASLANOVA Kubra Alastan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ASLANOVA Rəbiyyət Nurullah qızı** (d.4.7.1951, Kəlbəcər) — Azərb. Resp. Milli Məclisinin (2-ci çağırış) deputatı, Milli Məclisin İnsan hüquqları daimi komissiyası sədrinin müavini. Azərbaycan Dövlət Un-tinin tarix fakültəsini bitirmişdir. Fəlsəfə elmləri namizədi, dosentdir.

**ASLANOVA Rabiyyat Nurullah gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub. (2nd convocation).



**ASLANOVA Şəfiqə Həsən qızı** (d.1949) — 1966 ildən Xaçmaz r-nundakı Çkalov ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə komissiyasının üzvü olmuşdur.

**ASLANOVA Shafiga Hasan gyzy** — deputy of he Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ASLANOVA Yaxşıxanım Əmir qızı** (d.1928) — 1946 ildən "Buzovnaneft" NMİ-də işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**ASLANOVA Yakhshykhanym Amir gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ASLANOVA Zabikə Şiraslan qızı** (d.1959) — 1976 ildən Ağdam r-nundakı pambıqçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Energetika komissiyasının üzvü olmuşdur.

**ASLANOVA Zabika Shiraslan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ASLANOVA Zəminə Əliş qızı** (d.1958) — 1974 ildən Salyan r-nundakı "Başirabad" təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**ASLANOVA Zamina Alish gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ASLANOVA Zəminə Sərdar qızı** (d.1.6.1940, Sabirabad) — Sosialist Əməyi Qəhrəmanı (1979). SSRİ Dövlət mükafatı laureatı (1976). Azərb. SSR pambıq ustası (1973). 1960 ildən Sabirabad r-nundakı pambıqçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (7—12-ci çağırış) deputatı, Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin üzvü olmuşdur. Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1973). 2 dəfə Lenin ordeni, Oktyabr İnqilabi ordeni ilə təltif edilmişdir.

**ASLANOVA Zamina Sardar gyzy** — Hero of Socialist Labour.



**AŞIQ BƏSTİ** (Bəsti Kərbəlayı Bayraməli qızı; təqr.1830 ildən sonra, Kəlbəcər r-nunun Levi. k. — 1936, orada) — Azərb. aşığı. Gənc yaşlarından Aşıq Ələsgər, Ağdabanlı Qurban kimi ustadların məclislərində iştirak etmiş, el ədəbiyyatını dərindən öyrənmiş, özü də şer deməyə başlamışdır. Cavanlıqdan gözləri tutulduğundan el içində "Kor Bəsti" adı ilə tanınmışdır.

**ASHYG Basti** (Basti Kerbalayi Bayramali gyzy) — ashyg (popular singer-musician).

**AŞIQ NABAT** (Nabat Paşa qızı Cavadova; 1914, Şərur r-nunun Tarçı k. — 1973, Bərdə) — Azərb. aşığı. 1934 ildə ailəsi ilə Bərdə r-nuna köçmüş, burada Göyçəli aşıq Musanın şagirdi olmuş, aşıqlıq sənətinin sirlərinə yiyələnmişdir. Məlahətli səsi və gözəl ifaçılıq qabiliyyəti ilə qadın həmkarları arasında şöhrət qazanmışdı. Bakıda və Moskvada keçirilən ədəbiyyat və incəsənət ongünlüklərinin, folklor festivallarının iştirakçısı olmuş, diplomlarla mükafatlandırılmışdır.

**ASHYG Nabat** (Nabat Pasha gyzy Gavadova) — ashyg (popular singer-musician).



**AŞIQ PƏRİ** (təqr. 1811, Qarabağın Dizaq məlikliyinın Maralyan k. — ?, orada) — Azərb. aşıq-şairi. Gözəl şerləri və hazırcavablığı ilə az bir zamanda Qarabağ şairlərinin diqqətini cəlb etmiş, tez-tez Şuşada keçirilən şer məclislərinin iştirakçısı olmuşdur. 1848 ildə öldüyü ehtimal olunur. Ədəbi irsi tam şəkildə dövrümüzədək gəlib çatmamışdır; yalnız 40-50 şeri məlumdur. Şerləri ilk dəfə Mirzə Yusif Qarabağinin "Məcmueyi-divani-Vaqif və müasirini-digər" (1856) məcmuəsində, sonralar isə A.Berjenin tərtib etdiyi "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" (Leypsiq, 1867) kitabında dərc olunmuşdur.

**ASHYG Peri** — ashyg-poetess.



**AŞURBƏYLİ Sara Balabəy qızı** (27.01.1906, Bakı — 17.7.2001, Bakı) — tarix e.d. (1966), Azərb. Rəssamlar İttifaqının üzvü (1946). Azərb. Dövlət Rəssamlıq Məktəbini (1941), İstanbulda Janna d'Ark ad. fransız kollejini (1925), ADU-nun şərq fakültəsini (1930), Azərbaycan Pedaqoji İn-tunun xarici dillər fakültəsini (1941) bitirmişdir. 1937-58-ci illərdə resp.-nın ali məktəblərində fransız və ingilis dillərindən dərs demişdir. Azərb. SSR EA-nın Tarix Muzeyində orta əsrlər şöbəsinin müdiri (1954-58), Şərqşünaslıq İn-tunda elmi katib və baş elmi işçi (1958-61), Tarix İn-tunda baş elmi işçisi (1961 ildən) işləmişdir. Əsasən, orta əsr Azərb. şəhərlərinin, o cümlədən Bakının tarixini öyrənmişdir. Bir sıra boyakarlıq əsərlərinin də müəllifidir. 1941-58-ci illərdə Bakıda, Moskvada və s. şəhərlərdə keçirilmiş sərgilərin iştirakçısı olmuşdur. Azərb.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir

**ASHURBEYLI Sara Balabey gyzy** — doctor of history.



**ATAKİŞİYEVA Məsmə Əlimərdan qızı** (d.21.3.1924, Şamaxı) — Azərb. əməkdar müəllimi (1960), Sosialist Əməyi Qəhrəmanı (1968). Pedaqoji fəaliyyətə 1940 ildə Kürdəmir r-nunda başlamış, 1943-68 illərdə Ağsu şəhər orta məktəbində sinif müəllimi, 1969 ildən Bakının Nərimanov r-nunda ibtidai sinif müəllimi işləmişdir.

**ATAKISHIYEVA Masma Alimardan gyzy** — Hero of Socialist Labour.





**ATAYEVA Məlahət Mürsəl qızı** (d.1956) — 1974 ildən Ucar pambıqtəmizləmə zavodunda işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və ticarət komissiyasının üzvü olmuşdur.

**ATAYEVA Malahat Mursal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**AZADƏ** [Azadə Cəfər qızı Rüstəmovanın ədəbi adı) (d.18.7.1932, Bakı)] — Azərb. ədəbiyyatşünası. Filologiya e.d. (1971), prof. (1990), əməkdar elm xadimi (1982). ADU-nun şərqşünaslıq fakültəsini bitirmişdir (1953). Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tu orta əsrlər Azərb. əd-tı şöbəsinin böyük elmi işçisi (1961–1978), orta əsrlər ədəbiyyatı və nizamişünaslıq şöbələrinin müdiri (1978–1991) olmuşdur. 1991 ildən orta əsrlər əd-tı şöbəsinin baş elmi işçisidir. Qədim və orta əsrlər Azərb. əd-tının tarixi-nəzəri problemlərinə və təkamülünə dair araşdırmaların müəllifidir. Fələki Şirvani, Əvhədi Marağai, Yunus İmrə, Əssar Təbrizi, Nəsimi, M.Füzuli, M.Əmani, Fədai, Məsihi və b. klassiklərin, xüsusilə Nizami Gəncəvi irsinin tədqiqatçılarındandır. 200-ə yaxın elmi məqalənin, 18 adda kitab və monoqrafiyanın müəllifidir.

**AZADE (Azade Jafar gyzy Rustamova)** — doctor of philology, Honoured Science Worker of the Azerb. Repub.



**AZAYEVA Çervon Əli qızı** (d. 10.1.1928, Əli Bayramlı r-nunun Çölbeşdəli k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1971). 1954 ildən Sabirabad r-nundakı "Sovet Azərbaycanı" təsərrüfatına rəhbərlik etmişdir. Azərb. SSR Ali Sovetinin (4,6,7-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**AZAYEVA Chevron Ali gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (4, 6, 7th convocations).

# B



**BABAXANOVA Almara Yəhya qızı** (d. 1939) — 1957 ildən əmək fəaliyyətinə başlamış, Xaçmaz r-nundakı təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**BABAKHANOVA Almara Yahya gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10–11th convocations).



**BABAŞOVA Mələk Musa qızı** (d. 1941) — 1958 ildən Qəbələ r-nundakı tütünçülük təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**BABASHOVA Melek Musa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).





**BABAYEVA Böyükxanım Salman qızı** (d.1923) — 1942 ildən pedaqoji işdə çalışmışdır. Azərb. Dövlət Un-tini bitirmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**BABAYEVA Boyukkhanym Salman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**BABAYEVA Çimnaz Məmməd qızı** (d.23.12.1946, Bakı) — Azərb. balet artisti, Azərb. Resp. xalq artisti (1978). Azərb. SSR Dövlət mükafatı laureatı (1974). Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1964). 1964-77 illərdə Azərb. Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Əsas partiyaları: Şirin ("Məhəbbət əfsanəsi", A. Məlikov), Ayişə, Sari ("Yeddi gözəl", "İldırımlı yollarla", Q.Qarayev), Gülyanaq ("Qız qalası", Ə.Bədəlbəyli), qız, Nəsiminin sevgilisi ("Şur", "Nəsimi haqqında dastan", F.Əmirov), Kitri ("Don Kixot", L.Minkus), xanım ("Xanım və xuliqan", D.Şostakoviç) və s. 1977 ildən Azərb. Opera və Balet Teatrının məşqçi baletmeysteridir. Teatrın balet truppası ilə xarici ölkələrdə (Fransa, İtaliya, Norveç, İsveç, Birma, Hindistan, Türkiyə və s.) çıxış etmişdir.

**BABAYEVA Chimnaz Memmed gyzy** — People's Artist of the Azerb. Repub.



**BABAYEVA Ələviyyə Hənifə qızı** (d.12.8.1921, Bakı) — Azərb. yazıçısı. "Mənim müəlliməm" (1952), "Kənd yolları" (1958), "Payızda" (1960), "Yenə bahardı" (1963), "Sehirli pillələr" (1974) kitabları kiçik və məktəbyaşlı uşaqlara həsr olunmuşdur. "Kölgə" (1964), "Yarpaqlar nə haqda pıçıldaşır" (1965), "Tut ağacı" (1967) adlı hekayə kitablarında, "Adamlar və talelər" (c.1—2, 1971-73), "Haradasan, dost, harada?" (1976) romanlarında gənclərin həyatından bəhs edilir. Əsərləri xarici dillərə tərcümə olunmuşdur.

**BABAYEVA Alaviyya Hanifa gyzy** — writer.



**BABAYEVA Gülbiçə Şaban qızı** (1928, Balakən r-nunun İtitala k. — 10.5.1976, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1950 ildən Balakən r-nundakı tütünçülük təsərrüfatında işləmiş, 1948 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BABAYEVA Gulbicha Shaban gyzy** — Hero of Socialist Labour.



**BABAYEVA Xanım Xanhüseyn qızı** (d.15.1.1951, Saatlı r-nunun Qıraqlı k.) — SSRİ Dövlət mükafatı laureatı (1983). Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1989). 1968 ildən Saatlı r-nunun "Moskva" təsərrüfatında əmək fəaliyyətinə başlamışdır. 1996 ildən "Bakı" fermer təsərrüfatının rəhbəridir. 3-cü dərəcəli Əmək Şöhrəti ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**BABAYEVA Khanym Khanhuseyn gyzy** — State Prize winner of the USSR.



**BABAYEVA İpək Şirin qızı** (d.1935, Saatlı r-nunun Mollavaizli k.) — Azərb. pambıq ustası. Əmək fəaliyyətinə 1950 ildən başlamış, r-nun pambıqçılıq təsərrüfatlarında işləmişdir. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni və "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**BABAYEVA Ipek Shirin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).



**BABAYEVA Qəndilə Abbas qızı** (d.1920, Mirbəşir r-nunun Mamırlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). 1937 ildən pambıqçılıq sahəsində işləmiş, 1947 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BABAYEVA Gandila Abbas gyzy** — Hero of Sosialist Labour.



**BABAYEVA Lətifə Müslüm qızı** (d. 1939) — əmək fəaliyyətinə 1957 ildən Naxçıvan MSSR-in Naxçıvan r-nunda başlamışdır. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı olmuşdur.

**BABAYEVA Latifa Muslum gyzy** — deputy of the Supreme Soviet of the USSR (8th convocation).



**BABAYEVA Mariya Qriqoryevna** (d. 1934) — 1959 ildən Bakı corab-trikotaj kombinatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**BABAYEVA Mariya Grigoryevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).





**BABAYEVA Mədinə Rüstəm qızı** (10.7.1920, Cəlilabad r-nunun Təzəkənd k. — 5.6.1973, orada) — Sosialist Əməyi Qəhrəmanı (1950). Cəlilabad r-nunun tütünçülük təsərrüfatında işləmiş, 1949 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BABAYEVA Medina Rustam gyzy** — Hero of Socialist Labour.



**BABAYEVA Minurə Mehman qızı** (d.1961) — 1978 ildən Neftçala r-nundakı balıq kombinatında fəhlə işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**BABAYEVA Minura Mehman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**BABAYEVA Müzayyə Əlabbas qızı** (d.1955) — 1972 ildən Füzuli r-nundakı "Bakı fəhləsi" təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur.

**BABAYEVA Muzayya Alabbas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**BABAYEVA Nənəqız Rza qızı** (d. 1922, Füzuli r-nunun Babı k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1941 ildən Füzuli r-nunun G. Əsədov ad. təsərrüfatında işləmişdir. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BABAYEVA Nenegyz Rza gyzy** — Hero of Socialist Labour.



**BABAYEVA Sündüz Hacımirzə qızı** (d.28.12.1946, Dəvəçi r-nunun Pirəbədil k.) — Dəvəçi Rayon İcra Hakimiyyətinin başçısı (1995 ildən). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1971). Əmək fəaliyyətinə müəllim kimi başlamış, 1990 ildən rayon XDS İcraiyyə Komitəsinin katibi, 1992 ildən rayon İcra Hakimiyyətində şöbə müdiri, Dəvəçi Rayonu Uşaq Yaradıcılıq Mərkəzinin direktoru işləmişdir. "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

**BABAYEVA Sunduz Hajimirza gyzy** — Head of the Executive Power of Devechi district.



**BABAYEVA Venera Tələt qızı** (d. 1964) — 1982 ildən Qusar r-nundakı general Əbilov ad. təsərrüfatında işləyir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**BABAYEVA Venera Talat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**BABAYEVA Yaqut Babakişi qızı** (d. 1947) — əmək fəaliyyətinə 1965 ildən Bakı elektrik maşınqayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının üzvü olmuşdur.

**BABAYEVA Yagut Babakishi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**BABAYEVA Yetər Şaban qızı** (1926, Balakən r-nunun İtitala k.—2001, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1942 ildən Balakən r-nundakı tütünçülük təsərrüfatında işləmişdir. 1948 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BABAYEVA Yetar Shaban gyzy** — Hero of Socialist Labour.



**BABAYEVA Zibeydə Əhməd qızı** (4.4.1906, Füzuli r-nunun II Mahmudlu k. —2001, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). 1930 ildən Füzuli r-nundakı pambıqçılıq təsərrüfatında işləmişdir. 1947 ildə yüksək əmək nailiyyətləri əldə etmişdir. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.

**BABAYEVA Zibeyda Ahmad gyzy** — Hero of Socialist Labour.



**BABİÇEVA Kseniya Lvovna** (19.11.1907, Varşava — 16.6.1984, Bakı) — aktrisa. Azərb. Resp. xalq artisti (1946). 1938—83 illərdə S.Vurğun ad. Azərb. Dövlət Rus Dram Teatrında çıxış etmişdir. Rolları: Xuraman ("Vaqif", S.Vurğun), Sona ("1905-ci ildə", C.Cabbarlı), Tugina ("Son qurban", A.Ostrovski), Nadejda, Sofya ("Düşmənlər", "Zıkovlar", M.Qorki), Nadejda Leonidovna ("Kino çəkilir...," E.Radzinski), Məryəm ("Dairəni genişləndirin", İ.Qasımov) və s. Azərb. SSR Ali Sovetinin (2-ci və 9-cu çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**BABICHEVA Kseniya Lvovna** — People's Artist of the Azerb. Repub.



**BAĞIROVA Almaz İsrafil qızı** (d. 1910) — Azərb. Resp. əməkdar müəllimi. Gəncə Pedaqoji İn-tunu bitirmişdir. 1967 ildən Gəncə Şəhər Xalq Maarifi şöbəsinin müdiri işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**BAGYROVA Almaz Israfil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**BAĞIROVA Bəsti Məsim qızı** (1906, Goranboy r-nunun Bağçakürd k. — 27.2.1962, orada) — İki dəfə Sosialist Əməyi Qəhrəmanı (1947, 1950). Azərb.-da iki əl ilə pambıq yığımı hərəkatının təşəbbüsçüsü. SSRİ Ali Sovetinin (1-ci və 3-cü çağırış), Azərb. SSR Ali Sovetinin (4-cü və 5-ci çağırış) deputatı, Ali Sovetin Rəyasət Heyətinin üzvü olmuşdur. 3 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**BAGYROVA Basti Masim gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (4-5th convocations).





**BAĞIROVA Əminə Rəhim qızı** (8.3.1912, Gəncə —1981, Bakı) Sosialist Əməyi Qəhrəmanı (1960). Azərb. Sənaye İn-tunu (1942) və Moskvadakı Neft Sənaye Akademiyasını (1955) bitirmişdir. 1942 ildən Bakı neftayırma z-dunda işləmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**BAGYROVA Amina Rahim gyzy** — Hero of Socialist Labour.



**BAĞIROVA Gülgəz Əmrah qızı** (d. 1946) — 1975 ildən Gədəbəy r-nundakı "Azərbaycan" təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, anaların və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**BAGYROVA Gulgez Amrah gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**BAĞIROVA Gülzar Çoban qızı** (14.7.1918, Tovuz r-nunun Əsrik Cırdaxan k.— 1996) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1943 ildən Tovuz r-nundakı Nizami ad. üzümçülük təsərrüfatında işləmişdir. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BAHYROVA Gulzar Choban gyzy** — Hero of Socialist Labour.



**BAĞIROVA Həcər Ağahüseyn qızı** (d.1948) — 1967 ildən Neftçala r-nundakı balıq kombinatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**BAGYROVA Hajar Agahyseyn gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**BAĞIROVA Xasiyyə Fəxrəd qızı** (d.1930, Masallı r-nunun Köhnə Alvadı k.) — 1945 ildən tütünçülük təsərrüfatında əmək fəaliyyətinə başlamışdır. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**BAGYROVA Xasiyya Fakhrad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).

**BAĞIROVA İradə Səid qızı** (d. 12.2.1956, Bakı) — tarix e.d. (2000). Azərb. Dövlət Un-tinə daxil olmuş (1973), təhsilini isə Moskva Dövlət Universitetində başa vurmuşdur (1979). Tədqiqatı 19 əsrin sonu—20 əsrin əvvəllərində Azərb.-da siyasi partiyaların fəaliyyətinə həsr olunmuşdur. Azərb. Milli Elmlər Akademiyası Tarix İn-tunun aparıcı elmi işçisidir (2000 ildən).

**BAGUROVA Irada Said gyzy** — doctor of history.





**BAĞIROVA Nailə Ağadadaş qızı** (d.1939, Bakı) — Azərb. SSR əməkdar iqtisadçısı. Azərb. Dövlət Un-tini bitirmişdir. Əmək fəaliyyətinə 1957 ildən Azərb. SSR Maliyyə Nazirliyində başlamış, 1982—84 illərdə Maliyyə nazirinin müavini işləmişdir. 1984—89 illərdə Azərb. Dövlət Qiymət Komitəsinin sədri, 1989—96 illərdə Azərb. Resp. Məişət Xidməti naziri olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Adı İngiltərədə çıxan "Dünyanın işgüzar qadınları" kitabına salınmışdır.

**BAGYROVA Naila Agadadash gyzy** — Honoured Economist of the Azerb. SSR.



**BAĞIROVA Rəhimə Əyyub qızı** (d. 1957) — 1977 ildən Salyan r-nundakı plastik kütlə emalı zavodunda fəhlə işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cü çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**BAGYROVA Rahima Eyyub gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation)



**BAĞIROVA Şövkət Əsəd qızı** (1909, Tovuz r-nunun Qovlar qəs. — 1989) — Sosialist Əməyi Qəhrəmanı (1948). Azərb. SSR pambıq ustası (1957). Azərb. SSR Ali Sovetinin (4-5-ci çağırış) deputatı olmuşdur.

**BAGYROVA Shovket Asad gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (4-5th convocations).



**BAĞIROVA Töhfə Kələntər qızı** (d.1918, Qusar r-nunun Sudur k.) — 1939 ildən Samur-Dəvəçi kanalının tikintisində iştirak etmiş, 1944 ildən Qusar r-nunun Kuybışev ad. təsərrüfatında sağıcı işləmişdir. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**BAGYROVA Tohfa Kelenter gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).



**BAXIŞOVA Maniya Səməd qızı** (d.1938) — 1956 ildən Ağdaş r-nundakı "Şirvan" pambıqçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**BAKHYSHOVA Maniya Samed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th and 10thconvocations).



**BAXIŞOVA Radə Abdı qızı** (d. 1961, Zərdab r-nunun Məmmədqasımlı k.) — Azərb. SSR Dövlət mükafatı laureatı (1986). 1979 ildən Zərdab r-nundakı pambıqçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur. Əmək Şöhrəti və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**BAKHYSHOVA Rade Abdy gyzy** — State Prize winner of the Azerb. SSR, deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**BAXŞƏLİYEVA Gövhər Baxşəli qızı** (d.26.11.1954, Bərdə) — Azərb. Resp. Milli Məclis sədrinin müavini (2001 ildən). Filologiya e.d. (1996). Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsini bitirmişdir (1977). Azərb. MEA-nın Şərqşünaslıq İn-tunda müxtəlif vəzifələrdə işləmiş, 1997 ildən isə institutun direktorudur. Tədqiqatları qədim və müasir ərəb ədəbiyyatı, ərəbdilli Azərbaycan ədəbiyyatı, ərəb–Azərb. ədəbi əlaqələri və mənbəşünaslığa aiddir. Qədim və müasir ərəb ədəbiyyatından Azərb. və rus dillərinə tərcümələr etmişdir. 2 monoqrafiya, 4 kitab və 70 məqalənin müəllifidir. Azərb. Resp. Milli Məclisinin (2-ci çağırış) deputatıdır.

**BAKHSHALIYEVA Govhar Bakhshali gyzy** — doctor of philology, deputy of the Milli Mejlis of the Azerb. Repub. (2nd convocation), vice-chairman of the Milli Mejlis of the Azerb.Repub.



**BAXŞƏLİYEVA Gülabı Ağabala qızı** (d.1925, Masallı r-nunun Hişkədərə k.) — əmək fəaliyyətinə 1940 ildən Hişkədərə çayçılıq və südçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**BAKHSHALIYEVA Gulaby Agabala gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).



**BALAYEVA Fəridə Əli qızı** (d.1959) — əmək fəaliyyətinə 1977 ildən Qəbələ r-nundakı tütünçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**BALAYEVA Farida Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**BALAYEVA Həlimat Məcid qızı** (d.1910, Balakən r-nunun Talalar k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1932 ildən Balakən r-nundakı "Moskva" tütünçülük təsərrüfatında işləmişdir. 1948 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.

**BALAYEVA Halimat Mejid gyzy** — Hero of Socialist Labour.



**BALIYEVA Natalya Gennadiyevna** (d.1954, Samara ş.) — Azərb. Resp. xalq artisti (2000). F. Volkov ad. Yaroslavl Teatr məktəbini bitirmişdir. 1975 ildən səhnə fəaliyyətinə başlamışdır. Azərb. Dövlət Rus Dram Teatrının səhnəsində müxtəlif səpkili obrazlar yaratmışdır: Fitnə ("Fərhad və Şirin", S. Vurğun), Dina Fyodorovna ("Kişi qadının yanına gəldi", S. Zlotnikov), Aynur ("Büllur sarayda", İ. Əfəndiyev), Nastasya Filippovna ("İdiot", F. Dostoyevski), Şarlotta ("Müqəddəs əjdahalar", J. Kokto) və s.

**BALIYEVA Natalya Gennadiyevna** — People's Artist of the Azrb. Repub.



**BARATZADƏ Zərifə Nağı qızı** (d.1938) — 1955 ildən əmək fəaliyyətinə başlamış, Azərb. Elektrik Lampaları Bakı İstehsal Birliyində işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Energetika komissiyasının üzvü olmuşdur.

**BARATZADE Zarifa Nagy gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**BARUŞEVA Lyubov Vasilyevna** (d. 1941) — əmək fəaliyyətinə 1958 ildən hərbi hospitalda sanitar kimi başlamış, 1963 ildən Bakı tikiş fabrikində işləmişdir. SSRİ Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, Millətlər Sovetinin Mandat komissiyasının üzvü olmuşdur.

**BARUSHEVA Lyubov Vasilyevna** — deputy of the Supreme Soviet of the USSR (10 th and 11th convocation).



**BAYİŞEVA-ZEYNALOVA Güləndam Mühəmmədcanovna** (15.8.1902, Penza — 1.19.1981, Bakı) — tibb e.d. (1941), prof. (1947). Azərb. SSR əməkdar həkimi (1960). Kazan Dövlət Un-tinin tibb fakültəsini bitirmişdir (1924). 1933 ildən Bakıda tibbi-pedaqoji fəaliyyət göstərmiş, Azərb. Dövlət Tibb İn-tunun kafedra müdiri olmuşdur. Əsərləri malyariya, qara ciyər sirrozu, ürək-damar sistemi, ağ ciyər xəstəlikləri və s. həsr olunmuşdur.

**BAYISHEVA-ZEYNALOVA Gulandam Muhammedjanovna** — doctor of medicine.



**BAYRAMOVA Bəşarət Müslüm qızı** (1919, Balakən r-nunun Tülü k. — 27.8.1997, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1934 ildən N. Nərimanov ad. təsərrüfatda işləmişdir. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Lenin ordeni və "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**BAYRAMOVA Besharat Muslim gyzy** — Hero of Socialist Labour.



**BAYRAMOVA Ceyran Şirin qızı** (22.3.1896, Quba r-nunun Zərqova k. — 1987, Bakı) — Azərb.-da qadın hərəkatının veteranı. Şərqdə ilk dəfə olaraq öz mənzilində qadınlar klubu yaratmışdır. Azərb.-ın ictimai-siyasi həyatında fəal iştirak etmiş, Azərb. qadınlarının 1-ci qurultayının keçirilməsində böyük rol oynamışdır. 30-cu illərdə repressiyaya məruz qalmış, Sibirə sürgün edilmişdir. 1956 ildə bəraət almış, Bakıya qayıtdıqdan sonra yenidən ictimai-siyasi həyata qatılmışdır. 2 dəfə Lenin ordeni, Oktyabr İngilabı ordeni ilə təltif edilmişdir.

**BAYRAMOVA Jeyran Shirin gyzy** — laureate of the Order of Lenin.



**BAYRAMOVA Cəmilə Əsədulla qızı** (d.1957, Bakı) — Azərb. Respublikasının xalq artisti (2000). Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1975). 1975—91 illərdə Azərb. Dövlət Rəqs Ansamblında işləmiş, 1999 ildən Azərb. Dövlət Mahnı və Rəqs Ansamblında rəqqasə işləyir.

**BAYRAMOVA Jamila Asadulla gyzy** — People's Artist of the Azerb. Repub.



**BAYRAMOVA Ətir Mahmud qızı** (d. 1944) — əmək fəaliyyətinə 1963 ildən başlamış, 1968 ildən Bakı Südçülük İstehsalat Birliyində işləmişidr. Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**BAYRAMOVA Atir Mahmud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9-10th convocations).





**BAYRAMOVA Firayə Nadir qızı** (d. 1960) — 1977 ildən Goranboy r-nundakı pambıqçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**BAYRAMOVA Firaye Nadir gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**BAYRAMOVA Humay Hüseyn qızı** (d.1924, Ağdərə r-nunun Sırxavənd k.) — əmək fəaliyyətinə 1939 ildən Yevlax r-nundakı Frunze ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, Qırmızı Əmək Bayrağı, Əmək Şöhrəti və 2 dəfə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**BAYRAMOVA Humay Huseyn gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).



**BAYRAMOVA Xədicə Mürvət qızı** (d.10.4.1929, Cəlilabad r-nunun Prişib ş.) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1950 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BAYRAMOVA Khadija Murvat gyzy** — Hero of Socialist Labour.





**BAYRAMOVA Roza Əli qızı** (d.17.7.1927, Gürc.Resp. Bolnisi r-nu) — tibb e.d. (1965), prof. (1966). Mikrobiologiya sahəsində ilk azərb. qadın prof. Azərb. Dövlət Tibb İn-tunun sanitar-gigiyena fakültəsini bitirmiş, 1966 ildən mikrobiologiya kafedrasının prof. olmuşdur. 80-dən çox elmi işin, o cümlədən "Azərbaycanda gənə spiroxetozu" monoqrafiyasının, 7 müəlliflik şəhadətnaməsinin, bir sıra vəsaitin, metodiki göstərişin müəllifidir.

**BAYRAMOVA Roza Ali gyzy** — doctor of medicine.



**BAYRAMOVA Südabə Müzəffər qızı** (d. 1949) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. 1968 ildən əmək fəaliyyətinə başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**BAYRAMOVA Sudaba Muzaffar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**BAYRAMOVA Tamara Mahmud qızı** (d. 1947) — 1961 ildən Şahbuz r-nundakı tütünçülük təsərrüfatında əmək fəaliyyətinə başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı olmuşdur.

**BAYRAMOVA Tamara Mahmud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**BAYRAMOVA Zəhra Sadıq qızı** (d.15.2.1930, Şəmkir r-nunun Təzəkənd k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1946 ildən Şəmkir r-nunun üzümçülük təsərrüfatında işləmişdir. 1949 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur. 3 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**BAYRAMOVA Zahra Sadyg gyzy** — Hero of Socialist Labour.



**BAZAROVA Ayişə Hacıyov qızı** (1921, Balakən r-nunun Meşəşambul k. — 1994) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1936 ildən əmək fəaliyyətinə başlamış, 1948 ildə tütünçülük sahəsində yüksək göstəricilər əldə etmişdir. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur.

**BAZAROVA Ayisha Hajiyov gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azer. SSR (3th convocation).



**BAZAROVA Pitimat Əməd qızı** (d.1936) — 1953 ildən Balakən r-nundakı tütünçülük təsərrufatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur. Lenin ordeni ilə təltif olunmuşdur.

**BAZAROVA Pitimat Amed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**BEHBUDOVA Gülbəniz Əlimərdan qızı** (d.1957) — 1971 ildən Göyçay r-nundakı "Leninqrad" təsərrüfatında sağıcı işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**BEHBUDOVA Gulbaniz Alimardan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**BEHBUDOVA Sevda Paşa qızı** (d.15.8.1933, Gəncə) — kənd təsərrüfatı e.d. (1993), prof. (1996). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1959). 1994 ildən Azərb. Kənd Təsərrüfatı Akademiyasında bitkiçilik kafedrasının müdiridir. 100-dən çox elmi əsərin, dərslik və monoqrafiyanın müəllifidir.

**BEHBUDOVA Sevda Pasha gyzy** — doctor of agricultural sciences.





**BELYAYEVA Pelageya İllarionovna** (d. 1926) — əmək fəaliyyətinə 1949 ildən başlamış, Azərb. Dəmir yolu Biləcəri stansiyasının vaqon deposunda işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**BELYAYEVA Pelageya İllarionovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**BENKO Yevgeniya Aleksandrovna** (d.1938) — Azərb. tərəvəz ustası. 1954 ildən Xaçmaz r-nundakı təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (8–11-ci çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal və şəhər təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**BENKO Yevgeniya Aleksandrovna** — deputy' of the Supreme Soviet of the Azerb. SSR (8-11th convocations).

**BƏDƏLOVA Güllər Yəhya qızı** (d. 1960) — əmək fəaliyyətinə Zəngilan r-nundakı "1 May" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur.

**BADALOVA Gullar Yahya gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (12th convocation).



**BƏDİRBƏYLİ Leyla Ağalar qızı** (8.1.1920, Bakı — 23.11.1999, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1959). Azərb. SSR Dövlət mükafatı laureatı (1972). Azərb. Teatr İn-tunu bitirmişdir (1952). 1937-42 illərdə Azərb. Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solist-rəqqasəsi olmuşdur. 1942-75 illərdə Azərb. Milli Dram Teatrının aktrisası kimi fəaliyyət göstərmişdir. İlk dəfə səhnədə Zöhrə rolunda ("Məhəbbət", M. İbrahimov) çıxış etmişdir. Yaratdığı bir sıra obrazlar Azərb. teatrı tarixində özünəməxsus yer tutur: Dezdemona ("Otello", U.Şekspir), Almaz, Firəngiz ("Almaz", "Oqtay Eloğlu", C. Cabbarlı), Vasantasena ("Hind gözəli", Y.Osnos və V.Vinnikov), İnci ("Xoşbəxtlər", S.Rəhman), Fəxrəndə ("Mahnı dağlarda qaldı", İ.Əfəndiyev) və s. Kino aktrisası kimi də tanınmış, "Səbuhi", "Fətəli xan", "Koroğlu", "Onun böyük ürəyi", "Dəli Kür" və s. filmlərdə yaddaqalan obrazlar yaratmışdır. "Arşın mal alan" (1945) filmindəki Cülçöhrə roluna görə 1946 ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Televiziya filmlərinə də çəkilmişdir: "Abşeron" (M.Hüseynin eyniadlı romanı üzrə), "Çarvadarların izi ilə", "Anamın çırağı", "Bir məhəllənin oğlanları", "Vasif, Asif, Ağasif" və s. Azərb.-ın "İstiqlal" ordeni ilə təltif edilmişdir.



**BEDIRBEYLI Leyla Agalar gyzy** — People's Artist of the Azerb. Repub., State Prize winner of the USSR.

**BƏXTİYEVA İradə Ağaməlik qızı** (d.1960) — əmək fəaliyyətinə 1978 ildən Bakı Uşaq Paltarları Tikiş İstehsal Birliyində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**BAKHTIYEVA Irade Agamelik gyzy** — People's Artist of the Azerb. Repub.





**BƏSİRZADƏ Sofya Bəsir qızı** (28.3.1918, Bakı — 4.1.2000, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1974). Bakı Teatr Texnikumunu bitirmişdir (1939). 1938-1991 illərdə Azərb. Milli Dram Teatrının aktrisası olmuşdur. 1992 ildən Bakı Bələdiyyə Teatrında fəaliyyət göstərmişdir. Rolları: İradə ("Göz həkimi", İ.Səfərli), Məryəm, Amaliya ("Fərhad və Şirin", "İnsan", S.Vurğun), Nihal ("Qəribə adam", N.Hikmət), Natalya ("Vassa Jeleznova, M.Qorki), Mariya Antonovna ("Müfəttiş", N.Qoqol), Rüxsarə, Aliyə ("Şəhərin yay günləri", "Təhminə və Zaur", Anar), Cavahir xanım ("Büllur sarayda", İ.Əfəndiyev), frau Anna ("Mənsiz dünya", N.Xəzri) və s. "Azərbaycanfilm"in istehsal etdiyi "Romeo mənim qonşumdur", "Bizim Cəbiş müəllim", "Şərikli çörək" və s. filmlərdə çəkilmişdir.

**BESIRZADE Sofya Besir gyzy** — People's Artist of the Azerb. Repub.



**BİLALOVA Fatma Məmməd qızı** (d.1931) — 1955 ildən Bakıdakı toxuculuq kombinatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (5-ci və 9-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**BILALOVA Fatma Memmed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5th and 9th convocations).





**BİLLURİ Həkimə** (H ö k ü m ə) **İbrahim qızı** (3.3.1926, Cənubi Azərb., Zəncan—23.11.2000, Bakı) — Azərb. şairi, ədəbiyyatşünas, filol. e.n. (1963), Azərb. Resp. əməkdar incəsənət xadimi (1984). Azərb. Dövlət Un-tinin filol. fakültəsini (1952) və Moskvada İctimai Elmlər Akademiyasını (1963) bitirmişdir. Cənubi Azərb.-da milli azadlıq və demokratik hərəkatın (1941-45) fəal iştirakçısı olmuşdur. Əsərləri: "Mənim arzum" (1949), "Mübarizə illərində" (1951), "Şairin yadigarı" (1957), "Səndən uzaqlarda" (1961), "Səhər günəşi" (1964), "İstərəm" (1969), "Çinar gözləyir məni" (1975), "Şerlər" (1980), "Bir də bahar gəlsə" (1984) və s. kitabları, "Səriyyə" ("Ölməz qəhrəman"), "Sənin həyatın", "Məhin", "O göylərin altında" poemaları. M. Şəhriyarın farsca şerlərini Azərb., Səməd Vurğunun "Zəncinin arzuları" poemasını, C.Cabbarlı. M.Dilbazi, Nəbi Xəzri və b.-nın şerlərini isə fars dilinə tərcümə etmişdir. Müasir Cənubi Azərb. əd-tına, o cümlədən M.Şəhriyarın həyat və yaradıcılığına dair tədqiqatların müəllifidir. Azərbaycan Demokrat Firqəsi MK orqanı "Azərbaycan" qəzetinin baş redaktoru (1956-60), Azərb. EA Şərqşünaslıq İn-tunun baş elmi işçisi (1964 ildən) olmuşdur.

**BILLURI Hakima** (H o k u m a) **Ibrahim gyzy** — poetess, candidate of philology, Honoured Art Worker of the Azerb. Repub.



**BİNYƏTOVA Şövkət Qismət qızı** (d.1958) — 1975 ildən Kürdəmir r-nundakı pambıqçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**BINYATOVA Sovket Gismet gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**BORODOVSKAYA Nina İvanovna** (d.1941) — əmək fəaliyyətinə 1959 ildən Gəncə şəhərində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**BORODOVSKAYA Nina Ivanovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**BRAQİNA Tatyana Vladimirovna** (d.1926) — 1944 ildən əmək fəaliyyətinə başlamış, əsasən, neftçıxarma sahəsində çalışmışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**BRAGINA Tatyana Vladimirovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**BUDAQOVA Zərifə İsmayıl qızı** (d. 28.4.1929, Yerevan— ) — Azərb. dilçisi. Filologiya e.d. (1963), prof. (1968), AMEA-nın müxbir üzvü (1980). 1953 ildən Azərb. SSR EA Nəsimi ad. Dilçilik İn-tunun müasir Azərbaycan dili şöbəsinin müdiri olmuşdur. Müasir Azərb. dilinin morfologiyasına, sintaksisinə, orfoqrafiyasına, üslubiyyatına, türkologiyanın müxtəlif məsələlərinə dair əsərlərin müəllifidir.

**BUDAGOVA Zarifa Ismayil gyzy** — doctor of philology, corresponding member of the Azerbaijan Academy of Sciences.





**BUÇNEVA Pelageya Vasilyevna** (d.1952) — əmək fəaliyyətinə 1970 ildən Gədəbəy r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, Ali Sovetin Aqrar-sənaye kompleksi komissiyasının üzvü olmuşdur.

**BUCHNEVA Pelageya Vasilyevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10–11th convocations).



**BURCUMOVA Firəngiz Şahzadə qızı** (d.1964) — əmək fəaliyyətinə 1982 ildən Qusar r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal və şəhər təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**BURJUMOVA Firangiz Shahzade gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**BÜRCƏLİYEVA Kərimət Məhəmməd qızı** (1922, Balakən r-nunun Bedağar k.—2.9.1985, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1932 ildən "Moskva" təsərrüfatında başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BURJALIYEVA Karimat Mahammad gyzy** — Hero of Socialist Labour.

# C



**CABBAROVA Elmira Səlim qızı** (d.1962) — əmək fəaliyyətinə 1978 ildən Şəki r-nundakı tütünçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**JABBAROVA Elmira Salim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**CABBAROVA Fatma Ağacabar qızı** (d.7.11.1920, Bakı) — Azərb. diktoru. Azərb. Resp. xalq artisti (1990). Azərb. Dövlət Pedaqoji İn-tunu (1941) və Azərb. Dövlət İncəsənət İn-tunu (1950) bitirmişdir. 1941–91 illərdə Azərb. Dövlət Teleradio Verilişləri Şirkətində işləmiş, Azərb. radiosunun diktoru olmuşdur. İnformasiya, xəbərlər, siyasi və ədəbi mövzuda verilişlərin aparıcısı olmuşdur. Azərb. və dünya dramaturqlarının əsərlərini ilk dəfə radioda səsləndirmiş və radio kompozisiyalarında çıxış etmişdir.

**JABBAROVA Fatma Agasalim gyzy** — People's Artist of the Azerb. Repub.



**CABBAROVA Ülkər Teymur qızı** (d.6.6.1960, Cəbrayıl r-nunun Mərcanlı k.) — 1978 ildən Cəbrayıl r-nundakı Sabir ad. üzümçülük təsərrüfatında işləmiş, 1988 ildən həmin təsərrüfata rəhbərlik etmişdir. Azərb. Kənd Təsərrüfatı Akademiyasını bitirmişidr (1991). Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**JABBAROVA Ulker Teymur gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**CAMALOVA Aidə Əpiş qızı** (d. 1958) — 1979 ildən Zəngilan r-nundakı tütünçülük təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**JAMALOVA Aida Epish gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**CAMALOVA Dilrubə Cəbrayıl qızı** (d.7.1.1938, Lənkəran) — Azərb. Resp. Qadın Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini (2000 ildən). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1960). Əmək fəaliyyətinə Lənkəran şəhər 2 saylı orta məktəbində müəllim kimi başlamış (1960-72), şəhər xalq maarif şöbəsinin müdiri (1972-75), Azərb. KP Lənkəran Şəhər Komitəsinin ikinci katibi (1975-81), birinci katibi (1981-88), Azərb. Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun Lənkəran filialında müəllim, direktor müavini, direktor (1989-92), Lənkəran Dövlət Un-tinin prorektoru (1992-93), Lənkəran şəhər İcra hakimiyyətinin başçısı (1993—2000) işləmişdir. Azərb. SSR Ali Sovetin (11-ci çağırış) deputatı, Ali Sovetin Rəyasət Heyətinin üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı və Oktyabr İngilabi ordenləri ilə təltif edilmişdir.



**JAMALOVA Dilruba Jabrayil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**CAMALOVA Şəfiqə Sədi qızı** (d. 1960) — əmək fəaliyyətinə 1980 ildən Yevlax traktor zavodunda çilingər başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Energetika komissiyasının üzvü olmuşdur.

**JAMALOVA Shafiga Sadi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**CAVADOVA Həqiqət Əli Əşrəf qızı** (d. 9.10.1939, Bakı) — texnika e.d. (1992). Azərbaycan Dövlət Un-tini bitirmişdir (1962). AMEA Aşqarlar Kimyası İn-tunun laboratoriya müdiridir (1988). Elmi yaradıcılığının əsas istiqamətini üzvi birləşmələrin sürtgü yağlarına aşqar kimi təsiri, yeni sürtgü kompozisiyalarının tərtibi və onların əsasında müxtəlif növ daxili yanacaq mühərrikləri üçün müasir motor yağlarının yaradılması təşkil edir. 120 elmi əsərin, o cümlədən 27 müəlliflik şəhadətnaməsi və 7 patentin müəllifidir.

**JAVADOVA Hagigat Ali Ashraf gyzy** — doctor of technics.



**CƏBİYEVA Zeynəb Ağa qızı** (d.1920, Göyçay r-nunun Aşağı Qaraməryəm k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). 1939—73 illərdə Göyçay r-nundakı "Zəhmət" pambıqçılıq təsərrüfatında işləmişdir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (2-ci və 3-cü çağırış) deputatı olmuşdur.

**JABIYEVA Zeynab Aga gyzy** — Hero of Socialist Labour.



**CƏBRAYILOVA Nuriyyə Üzeyir qızı** (d. 1936) — əmək fəaliyyətinə 1952 ildən Şəki İpək kombinatında başlamışdır. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı, İttifaq Sovetinin Xalq təhsili, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**JABRAYILOVA Nuriyya Uzeyir gyzy** — deputy of the Supreme Soviet of the USSR (8th convocation).



**CƏBRAYILOVA Zeynəb Məmməd qızı** (d.1956) — əmək fəaliyyətinə 1972 ildən Ucar r-nundakı Nizami ad. pambıqçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**JABRAYILOVA Zeynab Memmed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**CƏFƏRXANOVA Roza Heydər qızı** (d. 23.2.1927, Ordubad) — Azərb. Resp. xalq artisti (2000). Səhnə fəaliyyətinə 1942 ildə Ordubad Dövlət Dram Teatrında başlamışdır. 1948 ildən Naxçıvan Dram Teatrında fəaliyyətini davam etdirmişdir. Bir sıra dram tamaşalarında yaddaqalan obrazlar yaratmışdır: Pəri ("Pəri-cadu", Ə.B.Haqverdiyev), Şirin ("Fərhad və Şirin", S.Vurğun), Həyat ("Həyat", M.İbrahimov), Zöhrə ("Şeyx Sənan", H.Cavid), İradə ("Göz həkimi", İ.Səfərli), Dilbər ("Sevil", C.Cabbarlı) və s.

**JAFARKHANOVA Roza Heydar gyzy** — People's Artist of the Azerb. Republic.





**CƏFƏROVA Alagöz Həsən qızı** (d.1923) — əmək fəaliyyətinə 1939 ildən Yevlax r-nundakı "Qızıl Ordu" təsərrüfatında başlamış, 1960 ildən həmin təsərrüfatın sədri, 1969 ildən isə İliç ad. təsərrüfatın başçısı olmuşdur. Azərb. SSR Ali Sovetinin (4-cü, 5-ci, 7-ci və 8-ci çağırış) deputatı, Ali Sovetin Ticarət, əhaliyə məişət xidməti və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**JAFAROVA Alagoz Hasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (4-5th and 7-8th convocations).



**CƏFƏROVA Bəsti Əli qızı** (d. 13.6.1959, Bakı) — Azərb. Resp. xalq artisti (1998). Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1980). Səhnə fəaliyyətinə 1978 ildən başlamışdır. Azərb. Akademik Milli Dram Teatrının səhnəsində müxtəlif yaddaqalan obrazlar yaratmışdır: Səltənət ("Quşu uçan budaqlar", Ə. Əylisli), Nazlı, Bənövşə ("Əliqulu evlənir", "Nişanlı qız", S. Rəhman), Luiza Bruk ("Səhra yuxuları", Anar), Xavər ("İblis", H. Cavid), Solmaz, Pəri ("Od gəlini". "Solğun çiçəklər", C. Cabbarlı), Lalə, Gülrux, Sürəyya, Azadə, Ağabəyim ağa ("Büllur sarayda", "Şeyx Xiyabani", "Tənha iydə ağacı". "Dəlilər və ağıllılar", "Hökmdar və qızı", İ. Əfəndiyev), Qoneriliya ("Kral Lir", U. Şekspir), Ədilə ("Poçt şöbəsində xəyal", Elçin) və s. Televiziya filmlərinə də çəkilmişdir.

**JAFAROVA Basti Ali gyzy** — People's Artist of the Azerb.Repub.



**CƏFƏROVA Cəvahir Vəliəhəd qızı** (d. 1951) — əmək fəaliyyətinə 1967 ildən Cəlilabad r-nundakı Kalinin ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**JAFAROVA Gavahir Veliahad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).





**CƏFƏROVA Əminə Surxay qızı** (d. 1925, Ağdam) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1941 ildən başlamışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 3 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**JAFAROVA Amina Surkhay gyzy** — Hero of Socialist Labour.



**CƏFƏROVA Gülnaz Əli qızı** (d.1953) — əmək fəaliyyətinə 1970 ildən Tovuz r-nundakı Frunze ad təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur.

**JAFAROVA Gulnaz Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**CƏFƏROVA Hacınisə Əbülfəz qızı** (d. 1949) — əmək fəaliyyətinə 1964 ildən Lənkəran r-nundakı Nizami ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**JAFAROVA Hajinisa Abulfaz gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**CƏFƏROVA Simuzər Məmməd qızı** (d. 1949) — əmək fəaliyyətinə 1966 ildən başlamış, 1976 ildən Gəncə 2 №-li çörək zavodunda işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının üzvü olmuşdur.

**JAFAROVA Simuzar Memmed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**CƏFƏROVA Sonaxanım Əli qızı** (24.1.1928, Bakı—1994, Bakı) — Azərb. pediatrı, tibb e.d. (1971), prof. (1972). 1968—80 illərdə Azərb. Dövlət Tibb İn-tunda uşaq xəstəliklərinin propedevtikası kafedrasında assistent, prof. işləmiş, 1980 ildən Azərb. Elmi-Tədqiqat Ana və Uşaqları Mühafizə İn-tunun direktoru olmuşdur. Tədqiqatı, əsasən, uşaqlarda böyrəküstü vəzinin funksional vəziyyətinə həsr edilmişdir.

**JAFAROVA Sonakhanym Ali gyzy** — doctor of medicine.



**CƏFƏROVA Şərəf Əliqulu qızı** (d. 1953) — əmək fəaliyyətinə 1969 ildən Göyçay r-nundakı "Şirvan" pambıqçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**JAFAROVA Sharaf Aligulu gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**CƏFƏROVA Zöhər Canmirzə qızı** (d. 23.1.1953, Salyan r-nunun Cuxanlı k.) — əmək fəaliyyətinə 1972 ildən Salyan elektrik qaynaq avadanlığı zavodunda başlamışdır. Azərb. Dövlət Xalq Təsərrüfatı İn-tunu bitirmişdir (1981). Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Tikinti, inşaat materialları sənayesi və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**JAFAROVA Zohra Janmirza gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**CƏFƏRZADƏ Əzizə Məmməd qızı** (d. 29.12.1921, Bakı) — Azərb. yazıçısı, ədəbiyyatşünas. Filologiya e.d. (1970), prof. (1974). Azərbaycan xalq yazıçısı (2001). Azərb. Dövlət Un-tini bitirmişdir (1947). Hazırda həmin un-tetin folklor kafedrasının professorudur. S.Ə.Şirvaniyə həsr olunmuş "Aləmdə səsim var mənim", Nişat Şirvanidən bəhs edən "Vətənə qayıt", M.Ə.Sabirlə A.Səhhətin dostluğundan danışan "Yad et məni" romanlarından ibarət trilogiyanın, "Bakı-1501" (1980) tarixi romanını, "Anamın nağılları" (1982), "Cəlaliyyə" (1983), "Çiçəklərim" (1988), "Zərrintac—Tahirə" (1996), "İşığa doğru" (1997), "Bəla" (2001), "Rübabə sultanım" (2001) və s. kitabların müəllifidir. 120-dək elmi məqalənin, monoqrafiyanın, tədqiqat işlərinin, elmi-populyar əsərlərin, dərslik və s.-nin müəllifidir. Bir çox beynəlxadq simpozium və konqreslərdə məruzələrlə çıxış etmişdir. 1983-92 illərdə Respublika Qadınlar Şurasının sədri, "Vətən" cəmiyyətinin rəyasət heyətinin üzvü olmuşdur. Xalqlar Dostluğu ordeni və "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**JAFARZADE Aziza Memmed gyzy** — writer, doctor of philology.



**CƏLİLOVA Gülxara Şahab qızı** (d.1964) — əmək fəaliyyətinə 1981 ildən Lerik r-nundakı Engels ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**JALILOVA Gulkhara Shahab gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**CƏLİLOVA Roza İsmayıl qızı** (d.17.5.1928, Dəvəçi) — Azərb. rəqqasəsi. Azərb. Resp. əməkdar artisti (1959). Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1947). Azərb. Opera və Balet teatrında işləmiş (1947-49), Azərb. Dövlət Mahnı və Rəqs Ansamblında rəqqasə (1949-69), həmin ansamblın bədii rəhbəri (1969-73) olmuşdur. Azərb. Resp. Mədəniyyət Nazirliyi xalq yaradıcılığı elmi-metodik mərkəzində baletmeyster (1973-83), İraqda xoreoqrafiya məktəbində müəllim işləmişdir (1984). 1985 ildən elmi-metodik mərkəzin və Muğam teatrının baletmeysteridir. Repertuarında Azərb. Milli rəqsləri ilə yanaşı İran, hind, ərəb, benqal və b. xalqların rəqsləri mühüm yer tutmuşdur. "Qavalla rəqs", "Azərbaycan süitası", "Ağ çiçək", "Muleyli", "Yallı", "Durnalar", "Sabirabadı" rəqslərinə quruluş vermişdir.

**JALILOVA Roza Ismayil gyzy** — Honoured Artist of the Azerb. Repub.



**CUMALİYEVA Miminat Camal qızı** (1926, Balakən r-nunun Qazma k.— 1.3.1967, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). 1944—67 illərdə Balakən r-nundakı "Moskva" tütünçülük təsərrüfatında işləmişdir. 1947 ildə

**JUMALIYEVA Miminat Jamal gyzy** — Hero of Socialist Labour.



**CURUQOVA Nənəxanım Əbil qızı** (d. 1949) — əmək fəaliyyətinə 1965 ildən Yardımlı r-nundakı M. Hüseynzadə ad. tütünçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci, 10-cu çağırış) deputatı olmuşdur. Lenin ordeni, Oktyabr İnqilabı və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**JURUGOVA Nenakhanym Abil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th and 10th convocations).



# Ç



**ÇERNİKOVA İnna Valentinovna** (d.1962) — əmək fəaliyyətinə 1980 ildən Bakı Dəzgahqayırma İstehsal Birliyi texniki nəzarət şöbəsində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**CHERNIKOVA Inna Valentinovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ÇETBEROVA Mərziyyət Həsən qızı** (d. 12.6.1967, Balakən r-nunun Katex k.) — 1983—88 illərdə Balakən r-nunun "Orconikidze" ad. təsərrüfatında süd-əmtəə fermasının sağıcısı işləmişdir. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**CHETBEROVA Marziyyat Hasan gyzy** — deputy of the Supreme Soviet of the USSR (11 convocation).



**ÇIRAQOVA Zəhra Əhməd qızı** (1923, Gürcüstan SSR, Bolnisi r-nunun Qoçulu k.—15.07.1976, orada) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1936 ildən başlamış, müxtəlif işlərdə çalışmış, 1959 ildən Gürcüstanın Bolnisi r-nunun Qoçulu k.-ndəki təsərrüfatda sağıcı işləmişdir. Gürcüstan SSR-dən SSRİ Ali Sovetinə (8-ci çağırış) deputat seçilmişdir.

**CHIRAGOVA Zahra Ahmed gyzı** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the USSR (8 convocation).

# D



**DADAŞOVA Məryəm Feyruz qızı** (d.1954) — əmək fəaliyyətinə 1971 ildən Biləsuvar r-nundakı "Azərbaycan" pambıqçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**DADASHOVA Marym Feyruz gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**DADAŞOVA Səyyarə Kamil qızı** (d. 1952) — əmək fəaliyyətinə1968 ildən 1№-li ayaqqabı fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**DADASHOVA Sayyara Kamil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**DADAŞOVA Şövkət Həsən qızı** (d.1962) — əmək fəaliyyətinə 1981 ildən Saatlı r-nundakı Xanlar ad. pambıqçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**DADASHOVA Shovket Hasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**DADAŞOVA Tərbiyə Balarza qızı** (d.1962) — əmək fəaliyyətinə 1979 ildən Lənkəran r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**DADASHOVA Terbiya Balarza gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**DAİDBƏYOVA Elmira Adilkireyevna** (d. 20.6.1912, Dağ. Resp. Buynaksk ş.) — geologiya-mineralogiya e.d. (1961), prof. (1962). 1949 ildən Azərb. Dövlət Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İn-tunda laboratoriya rəhbəri işləmişdir. Tədqiqatları Azərb.-ın neftli-qazlı sahələrinin çökmə süxurlarının litologiyası və petroqrafiyası sahəsindədir. Azərb.-ın neftli-qazlı sahələrinin çökmə süxurları atlasının (1971) tərtibçilərindən biridir.

**DAIDBEYOVA Elmira Adilkireyevna** — doctor of geology and muneralogy.





**DAVATDAROVA Mina Müzəffər qızı** (d.17.3.1935, Kürdəmir) — tibb e.d. (1991), prof., əməkdar elm xadimi (2000). Azərb-da dermato-venerologiya sahəsində ilk qadın elmlər doktoru və prof. Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1959). Əmək fəaliyyətinə 1960 ildən N.Nərimanov ad. Azərb. Tibb İn-tunun dəri-zöhrəvi xəstəlikləri kafedrasında başlamışdır. 1990 ildən həmin kafedranın müdiridir. 200-ə yaxın elmi işin, o cümlədən "Zöhrəvi xəstəliklər" dərsliyinin, digər tədris-metodiki vəsaitlərin, metodiki göstərişlərin müəllifidir.

**DAVATDAROVA Mina Muzaffar gyzy** — doctor of medicine.



**DAVUDOVA Mərziyə Yusif qızı** (8.12.1901, Həştərxan — 5.1.1962, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1936). SSRİ xalq artisti (1949). Səhnə fəaliyyətinə dram dərnəyində başlamışdır. 1918 ildə H.Ərəblinski Həştərxanda qastrolda olarkən onun oyununu bəyənmiş və Bakıya dəvət etmişdi. 1920 ildə Bakıya köçmüş, Birləşmiş Dövlət Teatrının dram truppasına (indiki Azərbaycan Milli Dram Teatrı) daxil olmuşdur. Yaradıcılığı müasir Azərb. dramaturgiyası, xüsusilə C.Cabbarlının əsərlərindəki qadın surətləri ilə sıx bağlıdır. Cültəkin, Firəngiz, Sevil, Turac ("Aydın", "Oqtay Eloğlu", "Sevil", "Dönüş", C.Cabbarlı) rollarının ilk ifaçısı olmuşdur. Yaratdığı Sevil obrazı Azərb. teatr sənəti tarixində mühüm yer tutur. Həyat ("Həyat". M.İbrahimov), Lyubov Yarovaya ("Lyubov Yarovaya", K.Trenyov), Oksana ("Eskadranın məhvi", A.Korneyçuk), Klara ("Qorxu", A.Afinogenov), Qızyetər ("Xanlar", S.Vurğun), Cülzar ("Şərqin səhəri", Ə.Məmmədxanlı; SSRİ Dövlət mükafatı, 1948) rollarında müxtəlif xarakterli qadın obrazlarını yaratmışdır. Yaradıcılığında romantik təmayüllər Xumar, Südabə ("Şeyx Sənan", "Səyavuş", H.Cavid), Xuraman, Şirin ("Vaqif", "Fərhad və Şirin", S.Vurğun) rollarının ifasında öz əksini tapmışdır. Azərb. səhnəsində Şekspir faciələrinin ən yaxşı ifaçılarından olmuşdur: Qonerilya ("Kral Lir"), Gertruda ("Hamlet"), Dezdemona ("Otello"), Ledi Makbet ("Makbet"). Rus klassiklərinin pyeslərində də çıxış etmişdir: Kruçinina, Kabanixa ("Günahsız müqəssirlər", "Tufan", A.Ostrovski), Nastya, Vassa Jeleznova ("Həyatın dibində", "Vassa Jeleznova", M.Qorki).

Kino aktrisası kimi də tanınmış, "Hacı Qara", "Bir ailə", "Bakının ışıqları", "Bir məhəlləli iki oğlan", "Koroğlu" və s. filmlərə çəkilmişdir. 1956-62 illərdə Azərb. Teatr Cəmiyyətinə rəhbərlik etmişdir. Azərb. SSR. Ali Sovetinin (2–5-ci çağırış) deputatı olmuşdur. Mingəçevir Dram Teatrı onun adınadır.

**DAVUDOVA Marziya Yusif gyzy** — People's Artist of the Azerb. Repub.



**DƏMİROVA Cəmilə Dadaş qızı** (d. 1.7.1927, Kürdəmir r-nunun Topalhəsənli k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə Kürdəmir r-nundakı "Moskva" pambıqçılıq təsərrüfatında başlamışdır. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**DAMIROVA Jamila Dadash gyzy** — Hero of Socialist Labour.

**DƏMİROVA Nəzifə Şeydabəy qızı** (d. 1953) — 1972 ildən Qusar r-nundakı təsərrüfatda sağıcı işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə komissiyasının üzvü olmuşdur.

**DAMIROVA Nazifa Sheydabey gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocaion).



**DƏRBƏNDLİ Zərnigar** (?—?) — Azərb. aşığı. 18 əsrin ikinci yarısı — 19 əsrin əvvəllərində yaşamışdır. Dərbənd hakiminin qızıdır. Mükəmməl təhsil görmüş, at çapmaq, qılınc oynatmaqla yanaşı, şer qoşmaqda, aşıq məclisləri keçirməkdə ad çıxarmışdı. Rəvayətə görə, məğlub etdiyi aşıqları zindana saldıran D.Z. Xudatlı Loğmanla yarışda məğlub olmuş, ona ərə getmək istəmiş, lakin bu sevda baş tutmamışdır. Sonralar Aşıq Valehə məğlub olan D.Z. ona ərə getmiş və Qarabağa köçmüşdür. Cünklərdə aşıq şerinin qoşma, gəraylı, təcnis, müxəmməs, qoşayarpaq, varsağı və s. şəkillərində yaratdığı şerlər mühafizə olunur. Onun Aşıq Valehlə eşq macəraları sonralar qoşulmuş "Valeh-Zərnigar" dastanında əksini tapmışdır.

**DERBENDLI Zarnigar** — ashyg (popular singer-musician).



**DİBİROVA Səfiyyə Hacı qızı** (d. 19.11.1933, Balakən r-nunun Qullar k.) — 1954 ildən əmək fəaliyyətinə başlamışdır. Azərb. Pedaqoji İn-tunu bitirmişdir (1962). 1960—62 illərdə Balakən Rayon Partiya Komitəsinin, sonra isə Zaqatala Rayon Partiya Komitəsinin birinci katibi, 1963 ildən Oğuz, 1970 ildən isə Qax Rayon Partiya Komitəsinin birinci katibi olmuşdur. Azərb. SSR Ali Sovetinin (5—10-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur. 2 dəfə Lenin ordeni, Oktyabr İnqilabı və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**DILBIROVA Safiyya Haji gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5—10th convocations).



**DİLBAZİ Əminə Paşa qızı** (d. 26.12.1919, Qazax) — Azərb. rəqqasəsi, baletmeyster və pedaqoq. Azərb. Resp. xalq artisti (1959). Rəqqasəlik fəaliyyətinə 1935 ildən başlamışdır. 1936—69 illərdə M. Maqomayev ad. Azərb. Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti, 1946—52 və 1962—65 illərdə rəqs qrupunun rəhbəri olmuşdur. Oynadığı "İnnabı", "Tərəkəmə", "Vağzalı-Mirzəyi", "Turacı", "Naz eləmə" rəqsləri xüsusilə məşhurdur. Repertuarında rus, Ukrayna, özbək, ərəb rəqsləri də olmuşdur. Azərb. Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblında, Şimali Osetiyanın "Alan" rəqs ansamblı və Çeçen-İnquş Dövlət Milli Ansamblında bir çox rəqslərin, "Leyli və Məcnun" operası, "Arşın mal alan" və "O olmasın, bu olsun" (Ü. Hacıbəyli) musiqili komediyalarında və s. əsərlərdə rəqslərin quruluşunu vermişdir. Resp.-da professional və özfəaliyyət rəqs ansambllarının təşkili onun adı ilə bağlıdır. O, Azərb. Dövlət Tibb Un-ti "Çinar" (1959 ildən) ansamblının, Azərb. Dövlət Filarmoniyası "Sevinc" (1967—68) qızlar ansamblının yaradıcısıdır. Müxtəlif illərdə "Şərur" folklor ansamblının, birləşmiş "Yallı" ansamblının bədii rəhbəri və baletmeysteri olmuşdur. 1949—69 illərdə Bakı Xoreoqrafiya Məktəbində pedaqoji fəaliyyət göstərmişdir. Estrada artistlərinin Ümumittifaq müsabiqəsində diploma (1946, Moskva), tələbə və gənclərin 6-cı Ümumdünya festivalında (1957, Moskva) qızıl medala layiq görülmüşdür. Bir sıra xarici ölkələrdə çıxış etmişdir (Tunis, Almaniya, Pakistan, Hindistan və s.). Azərb.-ın "İstiqlal" ordeni ilə təltif edilmişdir.

**DILBAZI Amina Pasha gyzy** — People's Artist of the Azerb. Repub.





**DİLBAZİ Minirə Xulusi qızı** (d. 9.4.1937, Bakı) — sənətşünaslıq namizədi (1982), prof. (1993). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1960). 1961 ildən Konservatoriyanın ümumi fortepiano kafedrasında müəllim, baş müəllim, dosent işləmiş, 1993 ildən isə kafedranın müdiri vəzifəsində çalışır. "Bakının musiqi keçmişindən" monoqrafiyasının, 30-a yaxın elmi məqalənin, tədris prosesində geniş istifadə olunan vəsaitlərin, metodiki proqramların müəllifidir.

**DILBAZI Minira Khulusi gyzy** — candidate of arts, professor.



**DİLBAZİ Mirvarid Paşa qızı** (19.8.1912, Qazax r-nunun Musaköy k. — 12.7.2001, Bakı) — Azərb. xalq şairi (1979), əməkdar mədəniyyət işçisi (1967), əməkdar incəsənət xadimi (1973). Darülmüəllimatı (1927), APİ-nin ədəbiyyat və ictimaiyyət fakültəsini bitirmişdir (1932). Yaradıcılığa təhsil illərində başlamışdır. Qadın azadlığı mövzusunda yazdığı "Qadınların hürriyyəti" adlı ilk kiçik həcmli poeması 1928 ildə "Maarif və mədəniyyət" jurnalında dərc olunmuş, "Bizim səsimiz" adlı ilk kitabı 1934 ildə çapdan çıxmışdır. "Döyüş mahnıları" (1941), "Xatirələr" (1945) toplularında, "Berlin yanır" və s. şerlərində qələbəyə sarsılmaz inam əksini tapmışdır. Əmək adamlarının mənəvi zənginliyi, beynəlmiləlçilik müharibədən sonrakı lirikasının ana xəttini təşkil edir: "Sənətkarın xəyalı" (1948), "Seçilmiş şerlər" (1957), "Xatirələr olan yerdə" (1964), "Həyat lövhələri" (1967), "Ana qanadı" (1972), "Yasəmən fəsli" (1976), "Məhəbbət bizimlə qoşa doğulur" (1979), "Qar çiçəkləri" (1984; Azərb. Resp. Dövlət mükafatı, 1986), "Çiçəkdən çiçəyə" (1991), "Durnalar ötüşəndə" (1992) və s. topluları.

Yaradıcılığının aparıcı mövzularından biri də qadınlıq mövzusudur: "Məhəbbət" (1945), "Əlcəzairli qız" (1961), "Partizan Aliyə" (1972), "Ana ürəyi", "Məhəbbətin göz yaşları" poemaları, "Analıq duyğuları" silsiləsi və s. Yaradıcılığında təbiət lirikası əhəmiyyətli yer tutur: "Bənövşələr üşüyəndə" (1970), "Abşeron bağları" (1984) kitabları və s.

Çağdaş Azərb. uşaq əd-tının yaradıcılarından və ən görkəmli nümayəndəlrindəndir: "Nağıllar" (1940), "Şerlər" (1951), "Kiçik dostlarıma" (1956), "Yaz gəlir" (1968), "Lalənin ağacları" (1970) və s.]. Ə. Nəvai, A.S. Puşkin, T.Q. Şevçenko, N. Tixonov, S. Mixalkov, S. Marşak, Zülfiyyə, A. Sereteli, Jalə və b.-ndan tərcümələr etmişdir. Əsərləri bir sıra dillərə tərcümə olunmuş, şerlərinə mahnı, romans və oratoriyalar bəstələnmişdir. 2 "Şərəf nişanı" ordeni, Qırmızı Əmək Bayrağı ordeni, Azərb-ın "İstiqlal" ordeni ilə təltif edilmişdir.

**DILBAZI Mirvarid Pasha gyzy** — People's Poet of the Azerb. Repub.



**DİYAROVA Hüsniyyə Ağayar qızı** (d. 20.12.1919, Bakı) — cərrah-endokrinoloq, tibb e.d. (1972), prof. (1976). Azərbaycan Dövlət Tibb İn-tutunun ümumi cərrahlıq kafedrasının prof. olmuşdur. Tədqiqatı, əsasən, endokrinologiya sahəsinə aiddir.

**DİYAROVA Husniyya Agayar gyzy** — doctor of medicine.



**DOLQOVA Polina Fyodorovna** (d. 1930) — əmək fəaliyyətinə 1948 ildən Bakıdakı neftayırma zavodunda krekinq qurğusunun operatoru başlamışdır. Əmək qabaqcılı olmuşdur. SSRİ Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**DOLGOVA Polina Fyodorovna**— deputy of the Supreme Soviet of the USSR (6th convocation).



**DÖVLƏTXANOVA Faiyat Seyfəddin qızı** (d. 1948, Qusar r-nunun Şirvanovka k.) — Azərb. Resp. tərəvəz ustası (1975). Əmək fəaliyyətinə 1964 ildə Qusar r-nunun tərəvəzçilik təsərrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir.

**DOVLATKHANOVA Faiyat Seyfaddin gyzy** — deputy of the Supreme Soviet of the USSR (10th convocation).





**DUXOVNAYA Lyudmila Semyonovna** (d. 23.10.1944, Bakı) — aktrisa. Azərb. Resp. xalq artisti (1991). S. Vurğun ad. Azərb. Dövlət Rus Dram Teatrı nəzdindəki studiyanı bitirmişdir (1963). Həmin ildən bu teatrda çıxış edir. Klassik və müasir dramaturqların pyeslərində müxtəlif obrazlar yaratmışdır: Nastya ("Həyatın dibində", M. Qorki), dul qadın ("Kaliforniyada dəfn", R. İbrahimbəyov), Valentina ("Valentin və Valentina", M. Roşşin), Natalya Qolubeva ("Aləmlə üz-üzə", A. Gelman), Karolli ("Əldən düşmüş at", F. Saqan), Eleonora ("Əliaçıq", İ. Jamiak), Jülyetta ("Oğrular balı", J. Anuy) və s. Azərb. Milli Dram Teatrında Elçinin "Ah Paris, Paris" pyesinin tamaşasında Vera rolunda çıxış etmişdir.

**DUKHOVNAYA Lyudmila Semyonovna** — People's Artist of the Azerb. Repub.



**DÜNYAMALIYEVA Zəminə Dünyamalı qızı** (d. 1.5.1957, Ağdam r-nunun Şelli k.) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1981). Əmək fəaliyyətinə 1974 ildə Ağdam r-nundakı üzümçülük təsərrüfatında başlamışdır. 1990 ildən rayon həmkarlar komitəsinin sədri işləmişdir. Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur.

**DUNYAMALIYEVA Zamina Dunyamaly gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub. (1st convocation).



**DYATLOVA Yevgeniya Vasilyevna** (d. 1939) — əmək fəaliyyətinə 1955 ildən Şamaxı r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**DYATLOVA Yevgeniya Vasilyevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).

# E



**ELDAROVA Ramilə Adıgözəl qızı** (d. 1959) — əmək fəaliyyətinə 1977 ildən Bakıdakı Volodarski ad. tikiş fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**ELDAROVA Ramila Adygozal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**EMİNOVA Suğra Yusif qızı** (d. 1939) — əmək fəaliyyətinə 1956 ildən Bərdə r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**EMINOVA Sugra Yusif gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).





**EYNULLAYEVA Tükəz Eynulla qızı** (d. 1959) — əmək fəaliyyətinə 1976 ildən Masallı r-nundakı Kalinin ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**EYNULLAYEVA Tukez Eynulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**EYVAZOVA Bibinisə Alıhüseyn qızı** (d. 1928) — Sosialist Əməyi Qəhrəmanı. 1943 ildən Salyan r-nundakı M.F. Axundov ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur.

**EYVAZOVA Bibinisa Alihuseyn gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**EYVAZOVA Roza Hüseyn qızı** (d. 16.4.1937, Bakı) — filologiya e.d. (1996). Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsini bitirmişdir (1959). 1967 ildən Azərb. EA Nəsimi ad. Dilçilik İn-tunda kiçik elmi işçi vəzifəsində çalışmış, 1998 ildən həmin in-tutda dil əlaqələri şöbəsinin müdiridir. Müxtəlif beynəlxalq konfrans və simpoziumların iştirakçısı olmuşdur. "Azərbaycan ədəbi dili tarixi", "Azərbaycan dilinin tarixi qrammatikası", "Azərbaycan dili tarixi lüğəti", "Azərbaycan dilinin böyük onomastik izahlı lüğəti" adlı kollektiv əsərlərin müəlliflərindəndir. Azərb. Resp. Təhsil Nazirliyi və Milli Elmlər Akademiyası Birləşmiş İxtisaslaşdırılmış Müdafiə şurasının, Nəsimi ad. Dilçilik İn-tunun Elmi Əlaqələndirmə şurasının, Azərb. Dövlət Pedaqoji Un-tinin Onomastika üzrə Əlaqələndirmə şurasının üzvüdür.

**EYVAZOVA Roza Huseyn gyzy** — doctor of philolojy.



**EYVAZOVA Şəfiqə Alxas qızı** (d. 9.3.1947, Bakı) — Azərb. kamançaçalanı. Azərb. Resp. xalq artisti (2000). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1971). 1963—76-cı illərdə Azərb. Teleradio Verilişləri Şirkətinin xalq çalğı alətləri orkestri və Ə. Dadaşovun rəhbərlik etdiyi ansamblın (hazırda Ə. Dadaşov ad.) solisti olmuşdur. 1965 ildən solo konsertlərlə çıxış edir. Repertuarına Rast, Cahargah, Rahab, Şur, Şüştər və s. muğamlar, Azərb. və xarici ölkə bəstəkarlarının əsərləri daxildir. SSRİ xalqlarının folklor musiqisi festivalında (1978, Bişkek; 1979, Moskva), musiqişünasların Beynəlxalq simpoziumunda (1987, Səmərqənd), eləcə də YUNESKO xətti ilə ABŞ-da keçirilən "Şərq xalqlarının musiqi folkloru" festivalında (1988, A. Qasımov və R. Quliyevlə birgə) iştirak etmişdir. 1974 ildən Azərb. Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) dərs deyir. E. bir çox xarici ölkələrdə (ABŞ, İsveçrə, Almaniya, Fransa, Polşa, Belçika, İtaliya, Əfqanıstan və s.) qastrolda olmuşdur.

**EYVAZOVA Shafiga Alkhas gyzy** — People's Artist of the Azerb. Repub.



# Ə



**ƏBDÜLKƏRİMOVA Yetər Əhməd qızı** (d. 1948) — əmək fəaliyyətinə1965 ildən Qazax r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**ABDULKERIMOVA Yetar Ahmad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ƏBDÜLVAHABOVA Sacidə Qafar qızı** (d. 2.6.1947, Bakı) — fizika-riyaziyyat e.d. (1995). Azərb. Dövlət Un-tinin fizika fakültəsini bitirmişdir (1969). Azərb.-da nəzəri nüvə fizikası üzrə ilk professor qadındır. 1974 ildən Bakı Dövlət Un-tinin "Maddə quruluşu" kafedrasında işləyir. 60-a yaxın elmi məqaləsi nəzəri nüvə fizikası üzrə aparıcı beynəlxalq və respublika jurnallarında dərc olunmuşdur. Bir çox beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. Ali məktəblər üçün Azərbaycan dilində ilk "Nüvə fizikası" dərs vəsaitinin müəllifidir. "Qadın problemlərinin Tədqiqat Birliyi" qeyri-hökumət təşkilatının direktorudur.

**ABDULVAHABOVA Sajida Gafar gyzy** — doctor of physics and mathematics.



**ƏBDÜRRƏHMANOVA Mətanət Əhməd qızı** (d. 1961) — əmək fəaliyyətinə 1979 ildən Zərdab r-nundakı S. Vurğun ad. təsərrüfatda başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**ABDURRAHMANOVA Matanat Ahmad gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).

**ƏBDÜRRƏHMANOVA Səfurə Dadaş qızı** (d. 1929, Şəki r-nunun Orta Zəyzid k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1942 ildən təsərrüfatda işləmiş, 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ABDURRAHMANOVA Safura Dadash gyzy** — Hero of Socialist Labour.



**ƏBİLOVA Durna Bağış qızı** (1916, Masallı r-nunun Musaküçə k.—1991, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**ABILOVA Durna Bagish gyzy** — Hero of Socialist Labour.



**ƏBİLOVA Gülqənd Əfqan qızı** (d. 1962) — əmək fəaliyyətinə 1981 ildən Lənkəran r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**ABILOVA Gulgand Afgan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏBİLOVA Güllü Əbil qızı** (1924—1994). Tarix elmləri namizədi. Azərb. Dövlət Un-tini bitirmişdir (1949). 1961 ildən Respublika Siyasi Maarif Evinin müdiri, 1971 ildən Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin katibi işləmişdir. Azərb. SSR Ali Sovetinin (8—9-cu çağırış) deputatı olmuşdur.

**ABILOVA Gullu Abil gyzy** —candidate of history, deputy of the Supreme Soviet of the Azerb. SSR (8-9th convocations).



**ƏBİLOVA Nailə İsaq qızı** (d. 1958) — əmək fəaliyyətinə1975 ildən Masallı r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal və şəhər təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**ABILOVA Naila Isag gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**ƏFƏNDİYEVA Fəridə Məmməd qızı** (d. 6.2.1922, Bakı) — Azərb. nevropotoloqu, tibb e.d. (1969). Araşdırmaları püskürən palçıq vulkanlarının müalicəvi keyfiyyətinə həsr olunmuşdur. Azərb. Elmi-Tədqiqat Kurortologiya və Fiziki Üsullarla Müalicə İn-tunda elmi tibb-informasiya şöbəsinin müdiri işləmişdir (1973 ildən).

**EFENDIYEVA Farida Memmed gyzy** — doctor of medicine.

**ƏFƏNDİYEVA Güllər Eldar qızı** (1880, Quba r-nunun Çiçi k.—15.7.1970, Quba) — Azərb. xalça ustası. Pirəbədil k.-ndə (hazırda Dəvəçi r-nundadır) yaşamış və işləmişdir. Onun "Herat-Pirəbədil" xalçası Fransada keçirilən tətbiqi sənət sərgisində (1980-ci illərin sonu) qızıl medala layiq görülmüşdür. "Pirəbədilburma", "Ağgülçiçi", "Xırdagülçiçi" çeşniləri, həmçinin kiçik ölçülü yəhərüzüləri koloriti ilə fərqlənir.

**EFENDIYEVA Guller Eldar gyzy** — carpet-maker.



**ƏFƏNDİYEVA Türkan Əşrəf qızı** (d. 7.3.1929, Bakı) — Azərb. dilçisi. Filologiya e.d. (1973). 1962—76 illərdə Azərb. EA Nəsimi ad. Dilçilik İn-tunda baş elmi işçi işləmişdir. 1976 ildən ADU-nün rus dili kafedrasının müdiridir. "Müasir Azərbaycan dilinin sintaksisinə dair tədqiqlər" (1963), "Azərbaycan bədii dilinin üslubiyyatı" (1971), "Müasir Azərbaycan dilinin qrammatikası" (rus dilində, 1971) və s. kollektiv monoqrafiyaların müəlliflərindəndir.

**EFENDIYEVA Turkan Ashraf gyzy** — doctor of philology.





**ƏFƏNDİZADƏ Şəfiqə Məhəmmədəmin qızı** (1882, Gürc. Resp. Axaltsixe r-nunun, Asğuri k.—29.7.1959, Bakı) — Azərb.-ın ilk maarifpərvər qadınlarından biri, publisist, yazıçı və müəllim. Bakı birinci rus-müsəlman qız məktəbində (1901—10), ikinci rus-tatar (azərb.) şəhər qız məktəbində (1910—20), ikiillik pedaqoji kursda (1915—16), darülmüəllimatda (1920—26), Azərb. partiya və sovet məktəbində (1923—27) dərs demişdir. Müxtəlif qəzet və jurnallarda xalqı maariflənməyə çağıran, uşaqların tərbiyəsindən və qadın azadlığından bəhs edən məqalə və hekayələrlə çıxış etmişdir. "İki yetim" adlı kitabı var (1914). "Şərq qadını" jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Zaqafqaziya müsəlmanlarının qurultayında çıxış etmişdir (1917). Azərb. SSR MİK-in (3-cü çağırış) üzvü olmuşdur.

**EFENDIZADE Shafiga Mahammadamin gyzy** — publicist, writer.



**ƏFQANLI** (qızlıq familiyası A ğ a m a l o v a) **Bədurə Məlik qızı** (25.10.1912, Bakı—7.5.2002, Bakı) — ilk azərb. qadın teatr rəssamlarından biri. Azərb. Resp. xalq rəssamı (1974). Azərb. Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir (1931). 1934—35 illərdə Aşqabad Dövlət Azərb. Musiqili Teatrında bir sıra tamaşa üçün ("Leyli və Məcnun", Ü. Hacıbəyli; "Aşıq Qərib", Z. Hacıbəyli; "Şeyx Sənan", H. Cavid; "1905-ci ildə" və "Sevil", C. Cabbarlı) dekorasiya və geyim eskizləri çəkmişdir. 1938—60 illərdə Azərb. Milli Dram Teatrında işləmiş, burada "Eşq və intiqam" (S.S. Axundov), "İntizar" (M. Hüseyn və İ. Əfəndiyev), "Dağılan tifaq" (Ə. Haqverdiyev), "Vassa Jeleznova" (M. Qorki), "Hind gözəli" (V. Vinnikov və Y. Osnos), "Fərhad və Şirin" (S. Vurğun), "Otello" (U. Şekspir; N. Fətullayevlə birgə), "Şirvan gözəli" (Ə. Məmmədxanlı) və s. tamaşalara tərtibat və geyim eskizləri vermişdir. 1960 ildən "Azərbaycanfilm" kinostudiyasında geyim üzrə quruluşçu rəssam işləmişdir. Azərb. Dövlət Rus Dram Teatrının bir sıra tamaşası, həmçinin opera, kinofilm ("Məhəbbət dastanı", "Dəli Kür", "Dədə Qorqud" və s.), rəqs ansamblı və bədii özfəaliyyət kollektivləri üçün geyim eskizləri çəkmişdir. Bir çox əsəri C. Cabbarlı ad. Azərb. Dövlət Teatr Muzeyi və A.A. Baxruşin ad. Rusiya Mərkəzi Teatr Muzeyində (Moskva) saxlanılır.

**AFGANLY** (A g a m a l o v a) **Badura Melik gyzy** — People's Painter of the Azerb. Repub.



**ƏHƏDOVA Xanımgül Həzərxan qızı** (d. 1944) — əmək fəaliyyətinə 1960 ildən Masallı r-nundakı tərəvəzçilik təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**AHADOVA Khanymgul Hazarkhan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ƏHƏDOVA Pakizə Gənci qızı** (d. 1964) — əmək fəaliyyətinə 1982 ildən Lerik r-nundakı təsərrüfatda sağıcı başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal və şəhər təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**AHADOVA Pakiza Ganji gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏHMƏDOVA Firəngiz Yusif qızı** (d. 23.9.1928, Bakı) — Azərb. müğənnisi. SSRİ xalq artisti (1967). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1955). 1946—51 illərdə Azərb. Radiosu Xorunun, 1951—88 illərdə isə Azərb. Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Azərb., rus və Qərbi Avropa bəstəkarlarının operalarında müvəffəqiyyətlə çıxış etmişdir. Əsas partiyaları: Nərgiz, Gülzar ("Nərgiz", "Şah İsmayıl", M. Maqomayev), Nigar ("Koroğlu", Ü. Hacıbəyli), Sevil ("Sevil", F. Əmirov), Səriyyə ("Azad", C. Cahangirov), Sona ("Bahadır və Sona", S. Ələsgərov), Maro ("Daisi", Z. Paliaşvili), Aida ("Aida", C. Verdi), Toska ("Toska", C. Puççini) və s. "Sənsiz" (Ü. Hacıbəyli), "Ölkəm", "Sual" (A. Zeynallı), "Arzu" (Niyazi), "Heyran olmuşam" (Ə. Abbasov), "Oxuma gözəl" (A. Rzayeva) və s. Azərb. romanslarını, eləcə də klassik rus bəstəkarlarının (P. Çaykovski, S. Raxmaninov, S. Taneyev və b.) romanslarını sənətkarlıqla ifa etmişdir. Ə. 1989 ildən Azərb. Opera və Balet Teatrında məşqçi-pedaqoq kimi fəaliyyət göstərir. SSRİ Ali Sovetinə (4-cü çağırış) və Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**AHMADOVA Firangiz Yusif gyzy** — People's Artist of the USSR.





**ƏHMƏDOVA Flora Cəfər qızı** (d. 9.12.1934, İrəvan) — Azərb. Resp. Ali Arbitraj Məhkəməsinin sədri (1979 ildən), əməkdar hüquqşünas. Azərb. Dövlət Un-tinin hüquq fakültəsini bitirmişdir (1962). Əmək fəaliyyətinə Məhkəmə Ekspertizası İn-tunda ekspert-kriminalist kimi başlamış, Azərb. Resp. Ədliyyə Nazirliyində idarə rəisi, respublikanın Baş Dövlət arbitri olmuşdur.

**AHMADOVA Flora Jafar gyzy** — chairman of the Court of Higher Arbitration of the Azerb. Repub.



**ƏHMƏDOVA Gülcənnət Surxay qızı** (d. 1953) — əmək fəaliyyətinə 1970 ildən Masallı r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**AHMADOVA Guljannat Surkhay gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ƏHMƏDOVA Gülər Mikayıl qızı** (d. 20.8.1965, Bakı) — Azərb. Resp. Milli Məclisinin (2 çağırış) deputatı, Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvü, İntizam komissiyasının katibidir. Azərb. Dövlət Pedaqoji İn-tunun riyaziyyat fakültəsini bitirmişdir (1985). Respublika Uşaq Təşkilatının sədridir.

**AHMADOVA Guler Mikayil gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub (2nd convocation).



**ƏHMƏDOVA Gülqədəm Məhmət qızı** (1922, Masallı r-nunun Sığıncaq k.—1980, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1939 ildən başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək göstəricilər əldə etmişdir.

**AHMADOVA Gulgadam Mahmat gyzy** — Hero of Socialist Labour.



**ƏHMƏDOVA Gülzar Əli qızı** (d. 1929) — əmək fəaliyyətinə 1956 ildən Bakı toxuculuq kombinatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**AHMADOVA Gulzar Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ƏHMƏDOVA Xanım İbrahim qızı** (d. 1942) — əmək fəaliyyətinə 1961 ildən Nax. MR-in Naxçıvan şəhərindəki tikiş fabrikində başlamışdır. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**AHMADOVA Khanym Ibrahim gyzy** — deputy of the Supreme Soviet of the USSR (7th convocation).



**ƏHMƏDOVA Saqibə Xalid qızı** (d. 1950) — əmək fəaliyyətinə 1967 ildən Ağdaş r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmüşdür.

**AHMADOVA Sagiba Khalid gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏHMƏDOVA Səlmi Maqsud qızı** (d. 1937) — əmək fəaliyyətinə 1953 ildən Ağdaş r-nundakı pambıqçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (6-7-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**AHMADOVA Salmi Magsud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6-7 convocations).



**ƏHMƏDOVA Səriyyə Əli qızı** (d. 1938, Şərur r-nunun Yengicə k.) — əmək fəaliyyətinə 1958 ildən Biləsuvar r-nundakı pambıqçılıq təsərrüfatında başlamışdır. Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1969). SSRİ Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.

**AHMADOVA Sariyya Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6th convocation).





**ƏHMƏDOVA Şahnaz Əhməd qızı** (1925, Cəbrayıl r-nunun Mahmudlu k.—1954, orada) — Sosialist Əməyi Qəhrəmanı (1944). 1941 ildən pambıqçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur.

**AHMADOVA Shahnaz Ahmad gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (2nd convocation).



**ƏHMƏDOVA Şəqibə İsmayıl qızı** (d. 25.9.1925, Gəncə) — Azərb. parazitoloqu, baytarlıq e.d. (1965), prof. (1967). Moskva Zoobaytarlıq İn-tunu bitirmişdir (1948). 1952—70 illərdə Azərb. Kənd Təsərrüfatı İn-tunun dosenti, Səmərqənd Kooperativ İn-tunun dosenti, kafedra müdiri və elmi işlər üzrə prorektoru, 1970 ildən Azərb. Dövlət Un-tinin onurğasızlar zoologiyası kafedrasının prof. olmuşdur. Əsas tədqiqatı heyvan helmintlərinin morfoloji və bioloji xüsusiyyətlərinə xarici mühit amillərinin təsirinin və heyvanların parazitar xəstəliklərinin öyrənilməsinə həsr edilmişdir.

**AHMADOVA Sagiba Ismayil gyzy** — doctor of veterinary science.



**ƏHMƏDOVA Tatyana Rəhim qızı** (d. 1941) —əmək fəaliyyətinə 1959 ildən başlamış, Bakı neftayırma zavodunda baş operator başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-10-cu çağırış) deputatı, Ali Sovetin Rəyasət Heyətinin üzvü olmuşdur.

**AHMADOVA Tatyana Rahim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9-10th convocations).



**ƏHMƏDOVA Zeynəb Usub qızı** (10.11.1911, Mirbəşir r-nunun Bayandur k.— 1993, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə başlamışdır, 1948 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**AHMADOVA Zeynab Usub gyzy** — Hero of Socialist Labour.



**ƏHMƏDOVA-ŞİRİNOVA Sona Həsən qızı** (d. 6.8.1932, Bakı) — Azərb. xalça ustası, SSRİ Dövlət mükafatı laureatı (1950). Moskva Bədii-Sənaye Məktəbini bitirmişdir (1954). "Azərxalça" birliyinin Bakı xalça artelində işləmişdir. Bilavasitə onun iştirakı ilə toxunmuş "İ.V. Stalin" (1949, ölçüsü 70 $m^2$; Azərb. İncəsənət Muzeyi, Bakı) və "V.İ. Lenin" (1957, ölçüsü 75 $m^2$; Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Bakı) xalıları yüksək bədii keyfiyyətə malikdir.

**AHMADOVA-SHIRINOVA Sona Hasan gyzy** — master of carpet, laureate of State Prize of the USSR.

**ƏKBƏROVA Zenfira Əsgər qızı** (d. 1959) — əmək fəaliyyətinə 1978 ildən Salyan elektrik qaynaq avadanlığı zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**AKBEROVA Zenfira Asger gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**ƏLƏKBƏROVA Aybəniz Muxtar qızı** (d. 1954) — əmək fəaliyyətinə 1972 ildən Şahbuz r-nundakı üzümçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal təsərrüfatı və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**ALEKBEROVA Aybeniz Mukhtar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ƏLƏKBƏROVA Nigar İbrahim qızı** (d. 9.3.1956, Bakı) — fəlsəfə e.n. (1984). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1979). Əmək fəaliyyətinə Azərb. Dövlət İncəsənət İn-tunda başlamış, 1992 ildən Bakı Sosial İdarəetmə və Politologiya İn-tunda aparıcı elmi işçi olmuşdur. Azərb. Resp. Milli Məclisinə (1-ci çağırış) deputat seçilmiş, Milli Məclisin Mədəniyyət məsələləri komissiyası sədrinin müavini olmuşdur. Gənc Filosoflar Beynəlxalq Assosiasiyası şurasının üzvüdür (1989). 2 monoqrafiyanın, 3 kitabın, 26-dan çox elmi, elmi-metodiki və publisistik məqalənin müəllifidir.

**ALEKBEROVA Nigar Ibrahim gyzy** — candidat of philosophy, deputy of the Milli Mejlis of the Azerb. Repub. (1st convocation).



**ƏLƏKBƏROVA Sadəgül Mahmud qızı** (d. 1944) — əmək fəaliyyətinə 1960 ildən Ağdaş r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**ALEKBEROVA Sadegul Mahmud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**ƏLƏKBƏROVA Şamama Məhərrəm qızı** (d. 1958) — əmək fəaliyyətinə 1975 ildən Lənkəran r-nundakı çayçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur.

**ALEKBEROVA Shamama Maharram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ƏLƏKBƏROVA Şövkət Feyzulla qızı** (20.10.1922, Bakı—7.2.1993, Bakı) — Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (1959). A. Zeynallı ad. Bakı Musiqi Məktəbini bitirmişdir (1942). Yaradıcılığa bədii özfəaliyyətdən başlamış (Bakıda "Kəndlilər evi"ndə), 1938-45 illərdə Azərb. Dövlət Mahnı və Rəqs Ansamblının, 1945—78 illərdə M. Maqomayev ad. Azərb. Dövlət Filarmoniyasının, 1978—93 illərdə Azərb. Dövlət Qastrol-Konsert Birliyinin solisti olmuşdur. O, bir sıra muğamların və Azərb. xalq mahnılarının, eləcə də mahnı və romansların (T. Quliyev, C. Cahangirov, Q. Hüseynli, Ş. Axundova, H. Xanməmmədov, E. Sabitoğlu və b.) mahir təfsirçisi və təbliğçisi kimi tanınmışdı. Repertuarına Yaxın və Orta Şərq xalqlarının mahnıları da daxil idi. 1981—86 illərdə Bülbül ad. orta ixtisas musiqi məktəbində dərs demişdir. Bir sıra xarici ölkələrdə, o cümlədən Fransa, İsveçrə, Şri-Lanka, Əfqanıstan, Hindistan, Misir, Əlcəzair, İran, Türkiyə, Polşa, Almaniya və s. çıxış etmişdir.

**ALEKBEROVA Shovket Feyzulla gyzy** — People's Artist of the Azerb. Repub.

**ƏLƏSGƏROVA Firəngiz Rüstəm qızı** (5.2.1903, Laçın r-nunun Ayıbazar k.—10.5.1974, Mirbəşir r-nunun Köçərli k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). 1930 ildən təsərrüfatda işləmiş, 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ALESKEROVA Firangiz Rustam gyzy** — Hero of Socialist Labour.



**ƏLƏSGƏROVA Lana Ələsgərovna** (d. 1952) — əmək fəaliyyətinə 1970 ildən Bakı Mərkəzi Univermağında başlamışdır. Azərb. Xalq Təsərrüfatı İn-tunu bitirmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və ticarət komissiyasının üzvü olmuşdur.

**ALESKEROVA Lana Aleskerovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ƏLƏSGƏROVA Ruhi Mürsəl qızı** (d. 1934) — əmək fəaliyyətinə 1954 ildən İsmayıllı r-nunun Lahıc qəsəbəsində başlamışdır. Azərb. Dövlət Un-tini bitirmişdir. Lahıc qəsəbə Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri (1979), Azərbaycan SSR Ali Sovetini (11-ci çağırış) deputatı, Ali Sovetinin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**ALESKEROVA Ruhi Mursal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏLƏSGƏROVA Solmaz Həbib qızı** (d. 16.9.1958, Gəncə) — Azərb. Dövlət Un-tini (1984) və Bakı Sosial İdarəetmə və Politologiya İn-tunu (1993) bitirmişdir. Azərb. KP Xanlar RK-nın katibi (1990–91), rayon sovetinin sədri (1991–92), Samux rayon sovetinin sədri (1992–95) işləmişdir. Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı, Milli Məclisin İnsan hüquqları üzrə daimi komissiyasının üzvü olmuşdur.

**ALESKEROVA Solmaz Habib gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub. (1st convocation).



**ƏLƏSGƏROVA Şamama Məmmədkərim qızı** (8.3.1904, İrəvan—2.4.1977, Bakı) — Azərb. mama-ginekoloqu. Sosialist Əməyi Qəhrəmanı (1969). Azərb. SSR əməkdar həkimi (1960). İkinci dünya müharibəsi illərində hospitallarda ordinator, şöbə müdiri və Azərb. SSR Xalq Səhiyyə Komissarlığı kadrlar idarəsinin rəisi olmuş, 1945 ildən ömrünün sonunadək Bakıdakı N. Krupskaya ad. 5 №-li kliniki doğum evinin (hazırda Ş. Ələsgərovanın adını daşıyır) baş həkimi işləmişdir. Tədqiqatı, əsasən, ana və uşaqların sağlamlığının qorunmasına, ginekoloji xəstəliklərin müalicə və profilaktikasına həsr olunmuşdur. Resp.-da malyariya və helmintoz xəstəliklərinə qarşı mübarizə tədbirlərində fəal iştirak etmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının üzvü olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.



**ALESKEROVA Shamama Memmedkerim gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).

**ƏLƏSGƏROVA Ülfət Ələkbər qızı** (d. 1932) — əmək fəaliyyətinə 1958 ildən sahə həkimi kimi başlamışdır. Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1957). Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının üzvü olmuşdur.

**ALESKEROVA Ulfat Alekber gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ƏLƏSGƏROVA Ziba Əlixeybər qızı** (d. 16.3.1937, Bakı) — Azərb. yüngül atleti, SSRİ idman ustası (1959). Fizika-riyaziyyat e.n. (1975). 4x200 m məsafəyə estafet qaçışında dünya rekordçusu (1959). 100 və 200 m məsafələrə qaçışda Azərb. (1957—66), 4x100 m məsafəyə estafet qaçışında SSRİ (1964) çempionu olmuşdur. Azərb.-da qadınlar arasında ilk dünya rekordçusudur. 1966 ildən Azərb. Neft Akademiyasında işləyir.

**ALESKEROVA Ziba Alikheybar gyzy** — Master of Sports of the USSR.





**ƏLİBƏYLİ Gülrux Sabir qızı** (d. 12.1.1928, Bakı) — Azərb. ədəbiyyatşünası. Filologiya e. d. (1974), prof. (1978). Azərb. EA Nizami ad. Ədəbiyyat və Dil İn-tunun baş elmi işçisi (1959—70, fasilə ilə), Azərb. Resp. mədəniyyət nazirinin müavini (1962—65) olmuşdur. 1971—1991 illərdə Azərb. Xalq Təsərrüfatı İn-tunda estetikadan dərs demişdir. Əd-tın nəzəri problemlərinə, estetika və bədiilik məsələlərinə dair əsərlərin, R.Rzaya, C.Cəfərova həsr olunmuş monoqrafiyaların, ədəbi-tənqidi məqalə və esselərin, publisistik yazıların müəllifidir. Bir sıra beynəlxalq elmi məclislərdə iştrrak etmişdir. Bədii əsərlər də yazmışdır ("Qardaşım mənim—sirdaşım mənim", "Bir ömrün iztirabları" və s. povestləri).

**ALIBEYLI Gulrukh Sabir gyzy** — doctor of philology.



**ƏLİBƏYOVA Əruziyyə Mustafa qızı** (29.3.1914, Bakı— ) — Azərb. iqtisadçısı. İqtisad e.n. (1943), prof. (1967), əməkdar iqtisadçı (1964). Azərb. Xalq Təsərrüfatı İn-tunu bitirmişdir (1936). Həmin in-tutda müəllim (1936—51) işləmiş, in-tun sənaye iqtisadiyyatı kafedrasının müdiri (1947—51), 1955 ildən Azərb. Neft və Kimya İn-tunda sənaye iqtisadiyyatı, istehsalın təşkili və planlaşdırılması kafedrasının müdiri olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**ALIBEYOVA Aruziyya Mustafa gyzy** — candidate of economics.



**ƏLİXANOVA Firuzə Məmmədqulu qızı** (10.9.1917, Ordubad—24.11.1994, Naxçıvan) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1974). İlk dəfə səhnəyə 1932 ildə Asya rolunda ("Arşın mal alan", Ü.Hacıbəyli) çıxmışdır. Yaradıcılığı C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə bağlıdır. Dram tamaşaları ilə yanaşı, musiqili əsərlərdə də yaddaqalan səhnə obrazları yaratmışdır. Rolları: Almaz ("Almaz", C.Cabbarlı), Şirin ("Fərhad və Şirin", S.Vurğun), Həcər ("Qaçaq Nəbi", S.Rüstəm), Kruçinina ("Günahsız müqəssirlər", A. Ostrovski), Leyli ("Leyli və Məcnun", Ü. Hacıbəyli), Gülçöhrə və Cahan xala ("Arşın mal alan", Ü.Hacıbəyli), Şahsənəm ("Aşıq qərib", Z. Hacıbəyli), Cənnət ("Qayınana", M. Şamxalov), Beatriça ("İki ağanın bir nökəri", K. Qoldoni), Tükəz ("Hacı Qara", M.F.Axundov), Hafizə xanım ("Pəri-cadu", Ə.Haqverdiyev), Zəhrabəyim ("Anamın kitabı", C. Məmmədquluzadə) və s. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**ALIKHANOVA Firuza Memmedgulu gyzy** — People's Artist of the Azerb. Repub.





**ƏLİQULİYEVA İsbənd Cəbrayıl qızı** (1909, Qubadlı r-nunun Çaytumas k.—1962, orada) —Sosialist Əməyi Qəhrəmanı (1948). Qubadlı r-nunun təsərrüfatlarında işləmişdir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ALIGULIYEVA Isbend Jabrayil gyzy** — Hero of Socialist Labour.

**ƏLİSKƏNDƏROVA Hürü Mustafa qızı** (1910, Qazax r-nunun Dağkəsəmən k.—8.4.1999, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1930-cu ildə Ə. Nəvai ad. təsərrüfatda başlamışdır. 1948 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ALISKENDEROVA Huru Mustafa gyzy** — Hero of Socialist Labour.



**ƏLİYAROVA Zərifə Abbasqulu qızı** (d. 3.7.1935, Naxçıvan) — fizika-riyaziyyat e.d. (1977). Azərb. SSR Dövlət mükafatı laureatı (1972). 1974 ildən Azərb. EA Fizika İn-tunda laboratoriya müdiri olmuşdur. Tədqiqatları yarımkeçirici cihazlar fizikası sahəsindədir. İxtiraları var.

**ALIYAROVA Zarifa Abbasgulu gyzy** — doctor of physics and mathematics.



**ƏLİYEVA Adcoş İbrahim qızı** (d. 25.3.1922, Erm. SSR-in Goban Kərəlilər k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1947 ildən əmək fəaliyyətinə başlamış, 1973 ildən Babək r-nundakı tərəvəzçilik-südçülük təsərrüfatında işləmişdir. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəriciləri əldə etmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Adjosh Ibrahim gyzy** — Hero of Socialist Labour.



**ƏLİYEVA Aliyə Salman qızı** (d. 1941) — əmək fəaliyyətinə 1959 ildə Yeni Bakı Neftayırma zavodunda operator köməkçisi kimi başlamış, 1961 ildən isə operator işləmişdir. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, İttifaqlar Sovetinin Mənzil-kommunal təsərrüfatı və məişət komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Aliya Salman gyzy** — deputy of the Supreme Soviet of the USSR (10th convocation).



**ƏLİYEVA Almaz Calal qızı** (1916, Samux r-nunun Əhmədbəyli k.— 1974, orada) — Sosialist Əməyi qəhrəmanı. Pambıqçılıq təsərrüfatında işləmişdir. Lenin ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Almaz Jalal gyzy** — Hero of Socialist Labour.





**ƏLİYEVA Balabacı İsa qızı** (d. 1936) — 1950 ildən əmək fəaliyyətinə başlamış, 1953 ildən Masallı r-nundakı Füzuli ad. çayçılıq təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**ALIYEVA Balabajy Isa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ƏLİYEVA Böyükxanım Abdulla qızı** (18.6.1923, Bakı—2002, Bakı, Əmircan k.) — Azərb. terapevti, Azərb. SSR əməkdar həkimi (1960), Sosialist Əməyi Qəhrəmanı (1978). 1945 ildən Ərçivan kənd sahə xəstəxanasının baş həkimi işləmişdir. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, Millətlər Şovetinin Mənzil, kommunal təsərrüfatı və məişət xidməti komissiyasının üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Boyukkhanym Abdulla gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the USSR (10th convocation).

**ƏLİYEVA Böyükxanım Həsənbala qızı** (d. 28.9.1945, Xaçmaz ş.) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (2000). Ə. Hüseynzadə ad. Azərb. Mədəniyyət və İncəsənət Un-tini bitirmişdir (1973). Həmin ildən N. Vəzirov ad. Lənkəran Dövlət Dram Teatrının aktrisasıdır. Rolları: Germiona ("Qış nağılı", U. Şekspir), Amaliya ("Qaçaqlar", F. Şiller), Gültəkin ("Aydın", C. Cabbarlı), Sədayə ("Sən yanmasan", N. Xəzri), Nihal ("Yağışdan sonra", B. Vahabzadə), Sənəm xala ("Yaxşı adam", M. İbrahimov), Anjel, Aynur ("Məhv olmuş gündəliklər", "Büllur sarayda", İ. Əfəndiyev), komissar ("Nikbin faciə", Vs. Vişnevski) və s.

**ALIYEVA Boyukkhanym Hasanbala gyzy** — People's Artist of the Azerb. Repub.



**ƏLİYEVA Çimnaz Rizvan qızı** (d. 4.12.1949, Ağdam) — əmək fəaliyyətinə 1967 ildən başlamış, Azərbaycan KP, həmçinin Azərbaycan LKGİ Ağdam rayon komitəsində müxtəlif vəzifələrdə çalışmışdır. Azərb. Dövlət Un-tinin filologiya fakültəsini bitirmişdir (1974). Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur.

**ALIYEVA Chimnaz Rizvan gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub. (1 st.convocation).



**ƏLİYEVA Dilarə Ələkbər qızı** (14.12.1929, Tbilisi—19.4.1991, Qax, Bakıda dəfn edilmişdir) — Azərb. ədəbiyyatşünası, tərcüməçi, ictimai xadim. Filologiya e.d. (1984). Gürcüstan Respublikasının əməkdar mədəniyyət işçisi (1980). Azərb. SSR EA Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyində baş elmi işçi, qədim və orta əsrlər Azərb. ədəbiyyatı şöbəsinin müdiri (1959—72), Nizami ad. Ədəbiyyat İn-nun ədəbi əlaqədər şöbəsində baş elmi işçi (1972—87) işləmişdir. 1987 ildən həmin in-tutun aparıcı elmi işçisi idi. Tədqiqatları Azərb.—gürcü ədəbi əlaqələrinə həsr olunmuşdur. Ş. Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemasının Əhməd Cavad tərəfindən edilmiş tərcüməsini aşkara çıxarmış və nəşr etdirmiş (1978), "Koroğlu" eposunun 28 qoldan ibarət yeni versiyasını əldə etmiş və çapa hazırlamışdır. Gürcü ədəbiyyatından tərcümələr etmişdir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur. Azərb.-ın müstəqilliyi uğrunda mübarizədə, qadın hərəkatında fəal iştirak etmişdir.

**ALIYEVA Dilara Alekber gyzy** — doctor of philology.



**ƏLİYEVA Elmira Mikayıl qızı** (d. 26.10.1958, Bakı) — tibb e.d, (1997), prof. (1998). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1981). 1981 ildən əmək fəaliyyətinə başlamış, 1989—90 illərdə Azərb. SSR Səhiyyə Nazirliyinin Mamalıq və Ginekologiya Elmi-Tədqiqat İn-tunda baş elmi işçi, 1990—98 illərdə Azərb. Dövlət Tibb Un-tinin III mama-ginekologiya kafedrasında assistent, 1998 ildən kafedranın prof.-u olmuş, 2002 ildən isə kafedranın müdiridir. 50-dək elmi məqalənin, 2 dərs vəsaitinin müəllifidir.

**ALIYEVA Elmira Mikayil gyzy** — doctor of medicine.



**ƏLİYEVA Fatma Ələkbər qızı** (d. 1937) — əmək fəaliyyətinə 1953 ildən Bərdə r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Fatma Alekber gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ƏLİYEVA Fatma İbrahim qızı** (d. 1949) — əmək fəaliyyətinə 1969 ildən Əzizbəyov ad. Neft və Qazçıxarma idarəsində başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Fatma Ibrahim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ƏLİYEVA Fəridə Mirzəbağır qızı** (d. 1933) — Azərb. Dövlət Un-tini bitirmişdir. 1954 ildən Naxçıvan ş.-ndəki 2 №-li orta məktəbdə müəllim işləyir. Azərb. SSR Ali Sovetinin (7-ci və 8-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Farida Mirzabagyr gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7-8th convocations).





**ƏLİYEVA Firuzə Allahverən qızı** (24.2.1912, Zəngilan r-nunun Zərnəli k.— ) Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1930 ildən başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ALIYEVA Firuza Allahveran gyzy** — Hero of Socialist Labour.



**ƏLİYEVA Gülarə Əziz qızı** (7.10.1933, Bakı—27.7.1991, Bakı) — Azərb. musiqiçisi, pianoçu, əməkdar incəsənət xadimi (1977). Sənətşünaslıq namizədi (1966). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1955). S. Rüstəmov ad. xalq çalğı alətləri orkestrində, eləcə də Ə. Dadaşov ad. xalq çalğı alətləri ansamblında çalışmışdır. 1966 ildən özünün təşkil etdiyi "Dan ulduzu" instrumental ansamblının rəhbəri idi. Eyniadlı muğamlar əsasında "Şüştər" rapsodiyası, "Humayun" süitası, "Bayatı-kürd", "Şur" fantaziyalarının müəllifidir; ansambl üçün bir sıra xalq mahnısını aranje etmişdir. Ansambl ilə Əlcəzair, Suriya, Livan, Anqola, İtaliya, Bolqarıstan, Efiopiya, İsveçrə, Hindistan, Finlandiya və s. xarici ölkələrdə çıxış etmişdir. Azərb. Mədəniyyət və İncəsənət Un-tində pedaqoji fəaliyyət göstərmiş, 1966—88 illərdə musiqi nəzəriyyəsi kafedrasının müdiri olmuşdur. "Dan ulduzu" ansamblına onun adı verilmişdir.

**ALIYEVA Gulara Aziz gyzy** — Honoured Art Worker of the Azerb. Repub., candidate of arts.



**ƏLİYEVA Gülayət Cavad qızı** (d. 1929) — əmək fəaliyyətinə 1945 ildən Ucar r-nundakı Nizami ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci və 8-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Gulayat Javad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7-8th convocations).



**ƏLİYEVA Havva Xəlil qızı** (d. 1947) — əmək fəaliyyətinə 1965 ildən Nax. MR-in Naxçıvan şəhər rabitə qovşağında teleqrafçı kimi başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, Millətlər Sovetinin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Havva Khalil gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocations).



**ƏLİYEVA Hədiqə Əşrəf qızı** (1.7.1911, Ağdam r-nunun Zəngişalı k.—1970, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1930 ildən başlamışdır. 1948 ildə yonca toxumçuluğu sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ALIYEVA Hadiga Ashraf gyzy** — Hero of Socialist Labour.



**ƏLİYEVA İfrat Səlim qızı** (d. 9.11.1939. Bakı) — Azərb. ədəbiyyatşünası. Filologiya e.d. (1988), prof. (1990). Azərb. Dövlət Un-nun (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1961). BDU-nun filologiya fakültəsinin dekan müavini (1979—93), un-tin qiyabi və axşam təhsili üzrə prorektoru olmuşdur. Çağdaş Azərb.əd-tına dair tədqiqatların, elmi məqalələrin müəllifidir.

**ALIYEVA Ifrat Salim gyzy** — doctor of philology.





**ƏLİYEVA Lalə Əyyub qızı** (d. 1922, Masallı r-nunun Qodman k.) — əmək fəaliyyətinə 1939 ildən başlamış, 1943—46-cı illərdə "Qızıl əsgər" təsərrüfatının sədri işləmişdir. Azərb. SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Lale Eyyub gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (2nd convocation).



**ƏLİYEVA Lyudmila Ağamirzə qızı** (d. 1942, Bakı) — Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1966). Həmin ildən Bakıdakı 5 №-li birləşmiş uşaq infeksiya xəstəxanasında həkim-pediatr tşləyir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmüşdür.

**ALIYEVA Lyudmila Agamirza gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏLİYEVA Mahirə Xasay qızı** (d. 16.9.1936, Qubadlı r-nunun Qubadlı qəs.) — fizika-riyaziyyat e.d. (1991), prof. (1991). Azərb. Dövlət Un-tini bitirmişdir (1958). Həmin ildən Azərb. EA-nın Fizika in-tunda işə başlamış, 1967 ildən "Yarımkeçiricilər fizikası" laboratoriyasının baş elmi işçisi vəzifəsində çalışmışdır. Azərb.-da ilk dəfə $A^3B^6$ və $A^3B^3C^6_2$ yarımkeçiricilərinin fotoelektrik, fotolüminessent, termostimullaşmış keçiricilik və s. xassələrini kompleks tədqiq etmiş, 1968 ildən "Yarımkeçiricilərdə qeyri-tarazlayıcı proseslərin tədqiqi" qrupuna rəhbərlik etmişdir. 1991 ildən Azərbaycan Dövlət Neft Akademiyasının fizika kafedrasının professorudur. 90-dan çox elmi məqalənin, 6 ixtiranın müəllifidir. Beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir.

**ALIYEVA Mahira Khasay gyzy** — doctor of physics and mathematics, professor.





**ƏLİYEVA Məlaksə Səməd qızı** (d. 1953) — əmək fəaliyyətinə 1970 ildən Tovuz r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Meleksa Samed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR ( 9th convocation).



**ƏLİYEVA Minayə Əlisahib qızı** (d. 18.12.1943, Sabirabad) — Azərb. Dövlət Un-tinin filologiya fakültəsini bitirmişdir (1967). Əmək fəaliyyətinə 1965 ildə "Azərnəşr"də başlamış, sonra "Gənclik" nəşriyyatında, Dövlət Mətbuat Komitəsində, "Yazıçı" nəşriyyatında, 1992 ildən "Hikmət" qəzeti baş redaktorunun müavini işləmişdir. Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur. Azərb. Yazıçılar Birliyinin üzvüdür. 4 kitabın müəllifidir.

**ALIYEVA Minaya Alisahib gyzy** — deputy of the the Milli Mejlis of the Azerb. Repub. (1 st convocation).



**ƏLİYEVA Minayə Mirzəbaba qızı** (d. 1949, Cəlilabad r-nunun Günəşli k.) — əmək fəaliyyətinə 1965 ildən "Moskva" təsərrüfatında başlamışdır. Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tutunu bitirmişdir (1990). SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Minaya Mirzababa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ƏLİYEVA Nəcibə Abbas qızı** (d. 22.2.1927, Gəncə) — Azərb. virusoloqu. Baytarlıq e.d. (1974), prof. (1975). Baytarlıq virusologiyası sahəsində ilk azərb. qadın alim. 1963 ildən Azərb. Elmi-Tədqiqat Baytarlıq İn-tunda mikrobiologiya və virusologiya laboratoriyasının müdiri olmuşdur. Tədqiqatı buzovlarda tənəffüs yolu xəstəliklərinin, resp.-da qoyunların virus törədicili balasalma xəstəliklərinin öyrənilməsinə və ona qarşı mübarizə tədbirləri hazırlanmasına aiddir. Keçmiş SSRİ-də ilk dəfə olaraq xəstə buzovdan qaramala məxsus adenovirus ayırmış və Azərb.-ın müxtəlif təsərrüfatlarında qaramalın qan serumunda adenovirus 1, 2, 3 və paraqrip-3 viruslarının anticisimlərinin mövcud olmasını öyrənmişdir.

**ALIYEVA Najiba Abbas gyzy** — doctor of veterinary science.



**ƏLİYEVA Nurlana Müzəffər qızı** (28.8.1946, Gəncə) — filologiya e.d. (2002). Azərb. Dövlət Un-tini bitirmişdir (1969). 1990 ildən Azərb. Dövlət Pedaqoji Kollecinin direktorudur. Elmi araşdırmaları müasir Azərbaycan nəsrinə aiddir. 100-dən çox elmi-publisistik məqalənin, bir neçə kitabın müəllifidir.

**ALIYEVA Nurlana Muzaffar gyzy** — doctor of philology.



**ƏLİYEVA Pərvanə Bayram qızı** (d. 1959, Qazax r-nu) — əmək fəaliyyətinə 1977 ildən Qazax r-nundakı Ağamalıoğlu ad. üzümçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Parvana Bayram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).





**ƏLİYEVA Reyhan Əli qızı** (d. 1960) — əmək fəaliyyətinə 1975 ildən Bakıdakı Volodarski ad. fabrikdə başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Reyhan Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏLİYEVA Rəfiqə Abbas qızı** (d. 1939) — əmək fəaliyyətinə 1957 ildən balıq kombinatının kürü sexində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Rafiga Abbas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ƏLİYEVA Rəfiqə Əlirza qızı** (d. 1932, Naxçıvan) — kimya e.d. (1998), prof. (1998), əməkdar elm xadimi (2000). Azərbaycan Dövlət Un-tinin kimya fakültəsini bitirmişdir (1956). Əmək fəaliyyətinə Un-tin kimya kafedrasında başlamış, oranın aspiranturasını bitirmiş (1960), dosent (1976) olmuşdur. BDU-nun analitik kimya kafedrasında yaradılmış "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" laboratoriyasının müdiridir. Tədqiqatları üzvi reaktivlər ilə elementlərin təyini üsullarına həsr edilmişdir. Elmi-pedaqoji fəaliyyəti 125 elmi əsərdə, o cümlədən 1 monoqrafiyada, dərs vəsaitində, metodik vəsaitdə, 12 patentdə öz əksini tapmışdır. Bir çox beynəlxalq simpozium və konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Amerika Biblioqrafik İn-tu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilmişdir. Dünya Azərbaycan Qadınlar Birliyinin fəxri sədridir. Y.Məmmədəliyev ad. mükafatın laureatıdır (2000).

**ALIYEVA Rafiga Alirza gyzy** — doctor of chemistry.



**ƏLİYEVA Rəhilə Musa qızı** (d. 1953) — əmək fəaliyyətinə 1971 ildən "Qırmızı proletar" zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Tikinti, inşaat materialları sənayesi və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Rahila Musa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR ( 9th convocation).



**ƏLİYEVA Rəhməisə Məmməd qızı** (d. 1920— ). — əmək fəaliyyətinə 1936 ildən Gürcüstan SSR-in Marneuli r-nundakı təsərrüfatda başlamışdır. Gürcüstan SSR-dən SSRİ Ali Sovetinə (5-ci çağırış) deputat seçilmişdir.

**ALIYEVA Rahmaisa Memmed gyzy** — deputy of the Supreme Soviet of the USSR from the Georgian SSR (5th convocation).



**ƏLİYEVA Ruxsarə Həmdulla qızı** (d. 3.7.1935, Bakı) — tibb e.d. (1992), prof. (1994). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1959). Əmək fəaliyyətinə 1960 ildən başlamış, 1963—88 illərdə Azərb. Elmi-Tədqiqat Əmək Gigiyenası və Peşə Xəstəlikləri İn-tunda işləmişdir. Hazırda Azərb. Dövlət Tibb Un-tinin uşaq və yeniyetmələr gigiyenası, əmək gigiyenası kafedrasında prof. vəzifəsində çalışır. Bir monoqrafiyanın, 120 elmi məqalənin, tədris vəsaitinin, 5 metodik tövsiyənin, bir ixtiranın müəllifidir.

**ALIYEVA Rukhsara Hamdulla gyzy** — doctor of medicine.





**ƏLİYEVA Sevil Heydər qızı** (d. 12.10.1955, Bakı) — Azərbaycan Respublikası "Sevil" qadınlar cəmiyyətinin sədri. Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsini bitirmişdir (1977). Musiqi təhsili də almışdır. Tarix elmləri namizədidir (1981). 1981—86 illərdə SSRİ EA Şərqşünaslıq İn-tunun elmi əməkdaşı olmuşdur. 1986 ildən musiqi sahəsində fəaliyyətini davam etdirir.

**ALIYEVA Sevil Haydar gyzy** — Chairman of the "Sevil" Women Society of Azerb. Repub.



**ƏLİYEVA Sevil Qəmbərəli qızı** (d. 1956) — əmək fəaliyyətinə 1974 ildən Binəqədi mexaniki zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Sevil Gambarali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏLİYEVA Səidə Rəsul qızı** (d. 1941) — əmək fəaliyyətinə 1961 ildən Bakıdakı idman malları fabrikində toxucu kimi başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə, ictimai təminat, bədən tərbiyəsi və idman komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Saida Rasul gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ƏLİYEVA Səkinə Abbas qızı** (d. 1925, Naxçıvan) — Azərb. Dövlət Untini bitirmişdir (1951). Əmək fəaliyyətinə müəllim kimi başlamış, Naxçıvan Muxtar Respublikasının maarif naziri, 1961—63 illərdə Naxçıvan Vilayət Partiya Komitəsinin katibi, 1963—90 illərdə Naxçıvan Muxtar Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri işləmişdir. Azərb. SSR Ali Sovetinin (6—11-ci çağırış) deputatı, Ali Sovetin Rəyasət Heyəti sədrinin müavini olmuşdur. Oktyabr İnqilabı ordeni və dörd Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Sakina Abbas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6-11th convocations).

**ƏLİYEVA Səkinə Əli qızı** (1910, İrəvan—1950, Gəncə) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1944—50 illərdə Gəncədəki Nizami ad. təsərrüfatda fəhlə işləmişdir. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ALIYEVA Sakina Ali gyzy** — Hero of Socialist Labour.



**ƏLİYEVA Səmayə Dadaş qızı** (d. 9.3.1937, Lənkəran r-nunun Tütəpəştə k.) — Sosialist Əməyi Qəhrəmanı (1966). 1966 ildə çaybecərmə sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (6-cı çağırış), Azərb. SSR Ali Sovetinin (7—8-ci çağırış) deputatı olmuşdur.

**ALIYEVA Samaya Dadash gyzy** — Hero of Socialist Labour.



**ƏLİYEVA Solmaz Səməd qızı** (d. 1944, Lənkəran r-nunun Aşağı Nüvədi k.) — Sosialist Əməyi Qəhrəmanı (1973). Əmək fəaliyyətinə 1959 ildən başlamışdır. 1972 ildə tərəvəzçilik sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (8—9-cu və 11-ci çağırış) deputatı, Ali Sovetin Aqrar-sənaye kompleksi komissiyasının üzvü olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Solmaz Samed gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (8—9, 11th convocations).



**ƏLİYEVA Südabə İsa qızı** (d. 1963) — əmək fəaliyyətinə 1980 ildən Goranboy r-nundakı pambıqçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Sudaba Isa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏLİYEVA Sürəyya Haşım qızı** (d. 12.2.1926, Şəki r-nunun Qaradağlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1943 ildən əmək fəaliyyətinə başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmşudur. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**ALIYEVA Surayya Hashym gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).





**ƏLİYEVA Şamama Tanrıverdi qızı** (d. 1938) — Sosialist Əməyi Qəhrəmanı. 1954 ildən Yevlax r-nundakı "Kommunist" təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Shamama Tanryverdi gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (8-11th convocations).



**ƏLİYEVA Şuşan Abdulla qızı** (d. 1959) — əmək fəaliyyətinə 1975 ildən Naxçıvan MR Şərur r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Shushan Abdulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10-11 convocations).



**ƏLİYEVA Tamam Əziz qızı** (1903, Şərur r-nunun Yengicə k.—1980, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə Jdanov ad. təsərrüfatda başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəpicilərinə nail olmuşdur.

**ALIYEVA Tamam Aziz gyzy** — Hero of Socialist Labour.



**ƏLİYEVA Tamara Abbas qızı** (d. 1.1.1928, Mirbəşir r-nunun Bərgüşad k.) — tibb e.d. (1964), prof. (1965). Torakal cərrahlıq sahəsində ilk azərbaycanlı cərrah qadın. Tədqiqatı, əsasən, ağ ciyər və tənəffüs borusunun salamat və yaman şişlərinə həsr olunmuşdur.

**ALIYEVA Tamara Abbas gyzy** — doctor of medicine.



**ƏLİYEVA Tamara Əli qızı** (d. 8.5.1939, Balakən r-nunun Qullar k.) — Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1963). Əmək fəaliyyətinə 1963 ildən Nizami ad. orta məktəbdə müəllim kimi başlamışdır. Balakən rayon İcra Hakimiyyəti başçının humanitar işlər üzrə müavini (1993-95), İcra Hakimiyyətinin başçısı (1995-97), Azərb. Resp. Nazirlər Kabineti yanında Mənzil-kommunal Təsərrüfatı Komitəsi sədrinin 1-ci müavini (1997-2001) işləmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Tamara Ali gyzy** — Head of the Executiue Power of a district.



**ƏLİYEVA Tamaşa Rüstəm qızı** (15.5.1921, Ağdam r-nunun Alibəyli k.) — Sosialist Əməyi Qəhrəmanı (1966). Əmək fəaliyyətinə 1941 ildən başlamış, müxtəlif təsərrüfatlara başçılıq etmiş, 1974 ildən Ağdam r-n kənd təsərrüfatı idarəsinin rəisi işləmişdir. 1965 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Tamasha Rustam gyzy** — Hero of Socialist Labour.





**ƏLİYEVA Tamuris Nağı qızı** ( d. 1928, Bakı) — filologiya e.d. (1984), prof. (1985). Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsini (1951), Xarici Dillər İn-tunu (1953) bitirmişdir. Əmək fəaliyyətinə 1949 ildən ingilis dili müəlliməsi kimi başlamış, sonradan Azərb. Neft və Kimya İn-tunda rus dilini tədris etmişdir. 1965 ildən Azərb. Dövlət Pedaqoji Un-tində rus dili kafedrasının müdiri işləyir. 120-dən çox elmi əsərin müəllifi, ali məktəblər üçün rus dili dərsliyinin həmmüəllifidir. Rus Dili və Ədəbiyyatı Müəllimləri Beynəlxalq Assosiasiyasının üzvü (1979-92) olmuşdur. Beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir.

**ALIYEVA Tamuris Nagy gyzy** — doctor of philology.

**ƏLİYEVA Təyibə Hüseyn qızı** (d. 6.7.1933, Ordubad) — Azərb. SSR Dövlət mükafatı laureatı (1980). 1950-88 illərdə Ordubad konserv zavodunda fəhlə işləmişdir. Lenin ordeni, I və III dərəcəli Əmək Şöhrəti ordeni ilə təltif edilmişdir.

**ALIYEVA Teyiba Huseyn gyzy** — laureate of the State Prize of the Azerb. SSR.



**ƏLİYEVA Tura Atamoğlan qızı** (d. 1926, Salyan r-nunun Xalac k.) — əmək fəaliyyətinə 1937 ildən başlamış, pambıqçılıq briqadiri işləmişdir. Azərb. SSR Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur. Lenin ordeni, Oktyabr İnqilabi, Xalqlar Dostluğu, Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**ALIYEVA Tura Altamoglan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6th convocation).



**ƏLİYEVA Validə Mustafa qızı** (d. 1927) — Azərb. əməkdar mühəndisi. Azərb. Dövlət Un-tiin kimya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə "Sintetik kauçuk" zavodunda kimyaçı-mühəndis kimi başlamışdır. Azərb. SSR Ali Sovetinin (4-cü çağırış) deputatı olmuşdur.

**ALIEVA Valida Mustafa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (4th convocation).



**ƏLİYEVA Yaxşıxanım Bəxtiyar qızı** (d. 1947) — əmək fəaliyyətinə 1964 ildən Abşeron r-nundakı Məhəmmədli südçülük təsərrüfatında sağıcı başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**ALIEVA Yakhshykhanum Bakhtiyar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ƏLİYEVA Zemfira Məmmədəli qızı** (25.12.1941, Şəmkir r-nunun Morul k.— 26.11.1995, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1982). Yaradıcılığa 1958 ildə C.Cabbarlı ad. Gəncə Dövlət Dram Teatrında başlamış, səhnədə ilk dəfə Sara ("Solğun çiçəklər", C.Cabbarlı) rolunda çıxış etmişdir. Burada o, həmçinin Tərgül ("Məhsəti", K.Ağayeva), Dilarə ("Şərqin şəhəri", Ə.Məmmədxanlı), Medeya ("Medeya", Evripid), Nərmin ("Unuda bilmirəm", İ.Əfəndiyev) və s. obrazlar yaratmışdır. 1971-89 illərdə C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası olmuşdur: Sona ("Dəli yığıncağı", C.Məmmədquluzadə), Roza, Xumar ("Şeyda", "Şeyx Sənan", H. Cavıd), Korinkina ("Günahsız müqəssirlər", A.Ostrovski), Mədinə ("Mənim nəğməkar bibim", Ə.Əylisli), Elektra ("Elektra", Sofokl). 1989 ildən Azərb. Milli Dram Teatrının aktrisası olmuşdur: ana ("Gecə döyülən qapılar", N.Xəzri), Nərgiz ("Hara gedir bu dünya", B.Vahabzadə) və s. Televiziya tamaşalarında ("Yad qızı", Orxan Kamal; "Manas" və s.) da yaddaqalan obrazlar yaratmışdır. "Azərbaycanfilm"in "Böyük dayaq", "Pəncərə", çoxseriallı "İtkin gəlin" filmlərində çəkilmişdir.

**ALIEVA Zemfira Memmedali gyzy** — People's Artist of the Azerb. Repub.



**ƏLİYEVA Zeynəb Aqil qızı** (d.1958) — əmək fəaliyyətinə 1976 ildən Füzuli r-nundakı "Rusiya" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**ALIEVA Zeynab Agil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (1st convocation).



**ƏLİYEVA Zərifə Əziz qızı** (28.4.1923, Nax. MR, Şahtaxtı k. — 24.4.1985, Moskva; məzarı Bakıya — Fəxri Xiyabana köçürülmüşdür) — Azərb. oftalmoloqu, tibb e.d. (1976), prof. (1979). Azərb. SSR EA-nın həqiqi üzvü (1983), əməkdar elm xadimi. 1947 ildə N.Nərimanov ad. Azərb. Dövlət Tibb İn-tunu bitirdikdən sonra Azərb. Elmi-Tədqiqat Oftalmologiya İn-tunda elmi işçi, 1969 ildən Ə.Əliyev ad. Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunda göz xəstəlikləri kafedrasının dosenti, prof., görmə orqanının peşə patologiyasını öyrənən laboratoriyanın rəhbəri, 1982 ildən oftalmologiya kafedrasının müdiri olmuşdur. Tədqiqatı, əsasən, kimya və elektrotexnika istehsalı sahəsində çalışan işçilərin peşə ilə əlaqədar göz xəstəliklərinin öyrənilməsinə, profilaktika və müalicəsinə yönəlmişdir. Oftalmologiyanın müasir problemlərinə aid bir sıra elmi əsərin müəllifidir. Oftalmoloqların Ümumittifaq Elmi Cəmiyyəti idarə heyəti və Azərb. Oftalmologiya Cəmiyyəti idarə heyətinin üzvü idi. SSRİ EA-nın akad. M.İ.Averbax ad. mükafatını almış ilk qadın alimdir. Çoxsaylı elmi məqalələrin, 10 monoqrafiyanın, bir kəşfin və 12 səmərələşdirici təklifin müəllifidir.

**ALIEVA Zarifa Aziz gyzy** — doctor of medicine, academician of the Azerbaijan Academy of Sciences.





**ƏLİYEVA Zərifə Fətulla qızı** (d. 1941) — əmək fəaliyyətinə 1956 ildən Astara r-nunda başlamış, müxtəlif işlərdə çalışmışdır. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı, İttifaq Sovetinin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**ALIYEVA Zarifa Fatulla gyzy** — deputy of the Supreme Soviet of the USSR (7th convocation).



**ƏLİYEVA Zərifə Hacıyov qızı** (d. 1918) — əmək fəaliyyətinə 1934 ildən Zaqatala r-nundakı tütünçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**ALIEVA Zarifa Hajiyov gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ƏLİYEVA Zibər Həsən qızı** (d. 12.4.1932, Yevlax r-nunun Səmədabad k.) — əmək fəaliyyətinə 1952 ildən Yevlax tütün-fermentləmə zavodunda başlamış, müxtəlif işlərdə çalışmışdır. Azərb. SSR Ali Sovetinin (7-ci və 8-ci çağırış) deputatı olmuşdur.

**ALIEVA Zibar Hasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7-8th convocations).



**ƏLİYEVA Zibər Süleyman qızı** (d. 1961) — əmək fəaliyyətinə Ağdam r-nunda başlamışdır. Pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**ALIYEVA Zibar Suleyman gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).



**ƏLİZADƏ Afina Cavad qızı** (d.1930, Salyan) — filologiya e.d. (1998). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1953). 1955 ildən Azərb. EA Nizami ad. Dil və Ədəbiyyat İn-tunda laborant, kiçik elmi işçi işləmişdir. Hazırda Nəsimi ad. Dilçilik İn-tutunda aparıcı elmi işçidir. Azərb. dilçiliyində ilk dəfə olaraq ədəbi dilin aparıcı üslublarından biri olan elmi üslubu tarixi aspektdə tədqiq etmişdir. 90-dan artıq elmi məqalənin, iki kitabın müəllifi, bir sıra fundamental əsərlərin həmmüəllifidir.

**ALIZADE Afina Javad gyzy** — doctor of philology.



**ƏLİZADƏ Firəngiz Əliağa qızı** (d.28.5.1947, Bakı) — Azərb. bəstəkarı, pianoçu. Azərb. Resp. xalq artisti (2000). Azərb. Dövlət Konservatoriyasını (1970, U.Xəlilovun fortepiano sinfini, 1972; Q.Qarayevin bəstəkarlıq sinfini) bitirmişdir. Fortepiano sonatasının (1970), fortepiano ilə ork. üçün konsertin (1972), simli kvartet (1974), simfoniya (1976), "Vətən haqqında nəğmələr" oratoriyası (N.Xəzrinin sözlərinə), violonçel ilə fortepiano üçün "Habilsayağı" (1979), orqan üçün fantaziya (1982), "Ağ atlı haqqında əfsanə" rok-operası (1985), "Üç akvarel" vokal silsiləsi (N.Rəfibəylinin sözlərinə), simli kvartet üçün "Dilogiya-I" (1988), "Dilogiya-II" (1989), "Boş beşik" (1993) baletinin, "Dərviş" (Nəsiminin sözlərinə, 2000) əsərinin, kinofilmlərə musiqi və s.-nin müəllifidir. Bir çox müasir musiqi festivallarında iştirak etmişdir (İtaliya, İsveç, Qərbi Berlin, Meksika, ABŞ, İngiltərə, Hollandiya). 20 əsr bəstəkarlarından A.Şönberq, A.Berq, O.Messian, C.C.Keys, A.Şnitke, S.Qubaydulina, E.Denisov, V.Silvestrov və b.-nın, həmçinin öz əsərlərini pianoçu kimi böyük ustalıqla ifa edir. 1970 ildən Azərb. Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) dərs deyir. Ə. 1990 ildən Azərb. Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibidir.

**ALIZADE Firangiz Aliaga gyzy** — People's Artist of the Azerb.Repub.



**ƏLİZADƏ Məryəm Əli qızı** (d. 1950, Bakı) — sənətşünaslıq doktoru (1998), prof. (1999). Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1969). Əmək fəaliyyətinə 1972 ildə Azərb. EA-nın Teatr və Kino şöbəsində başlamış, 1976-78 illərdə Azərb. Dövlət İncəsənət İn-tutunda teatr tarixi kafedrasında müəllim, 1978 ildən dosent işləmiş, 1999 ildən prof. işləyir. 200-dən çox elmi məqalənin müəllifidir.

**ALIZADE Maryam Ali gyzy** — doctor of arts.



**ƏLİZADƏ Validə Mövsum qızı** (d.31.1.1946, Bakı) — biologiya e.d. (1994). Azərb. Dövlət Un-tinin biologiya fakültəsini bitirmişdir (1968). 1972 ildən Azərb. EA Botanika İn-tunun kiçik elmi işçisi, 1980 ildən böyük elmi işçisi, 1990 ildən aparıcı elmi işçisi olmuş, 1996 ildən İn-tun elmi işlər üzrə direktor müavini və "Bitki fiziologiyası" şöbəsinin müdiridir. Tədqiqatları bitkilərin stresə qarşı davamlılığının hüceyrə və molekulyar mexanizmlərinin aydınlaşdırılması və tənziminə həsr olunmuşdur. 100-dən çox elmi əsərin, 2 ixtiranın və 1 monoqrafiyanın müəllifidir. Bir çox beynəlxalq konqres və konfranslarda məruzələrlə çıxış etmişdir. 1996 ildən Azərb. Resp. Prezidenti yanında Ali Attestasiya Komissiyasının biologiya elmləri üzrə ekspert şurasının üzvüdür.

**ALIZADE Valida Movsum gyzy** — doctor of biology.





**ƏLMƏRDANOVA Sücaət Məmməd qızı** (d. 1935) — əmək fəaliyyətinə 1949 ildə Naxçıvan MSSR Ordubad baramaçılıq fabrikində fəhlə kimi başlamış, 1952 ildən isə sarıyıcı işləmişdir. SSRİ Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**ALMARDANOVA Sujaet Memmed gyzy** — deputy of the Supreme Soviet of the USSR (6th convocation).



**ƏMİNƏ YUSİF QIZI** (əslində Yusifqardaş qızı) (d.24.9.1936, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. Xalq artisti (1998). M.F.Axundov ad. Pedaqoji Rus Dili və Ədəbiyyatı İn-tunu bitirmişdir (1961). Azərb. Dövlət Gənc Tamaşaçılar Teatrının (1958-64), Azərb. Milli Dram Teatrının (1964-74) aktrisası olmuşdur. Rolları: Qulu ("Anacan", Y.Əzimzadə), Səbirə ("Son məktub", R.İsmayılov), Humay ("Komsomol poeması", İ.Coşğun; S.Vurğunun eyniadlı poeması əsasında), Ülkər ("Söz yarası", Q.Rəsulov), Əliman ("Ana tarla", Ç.Aytmatov), Esse ("Şeytanın şagirdi", B.Şou) və s. 1974 ildən "Azərbaycanfilm" kinostudiyasında işləyir. "Şərikli çörək", "Sən nə üçün susursan?", "Bizim küçənin uşaqları", "Musiqi müəllimi" və s. filmlərdə, , televiziya tamaşalarında çəkilmişdir. Bədii qiraət ustasıdır.

**AMINA YUSIF GYZY** (Yusifgardash) — People's Artist of the Azerb. Repub.



**ƏMİRASLANOVA Firuzə Qoca qızı** (d. 1931) — əmək fəaliyyətinə 1946 ildən Şəmkir r-nundakı N. Nərimanov ad. təsərrüfatda başlamışdır. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**AMIRASLANOVA Firuza Qoja gyzy** — deputy of the Supreme Soviet of the USSR (7th convocation).



**ƏMİROVA Xuraman Qoca qızı** (1.7.1925, Şəmkir r-nunun Yeniabad k.— 1999) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1944 ildən əmək fəaliyyətinə başlamışdır. 1948 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**AMIROVA Khuraman Goja gyzy** — Hero of Socialist Labour.



**ƏMRAHOVA Dürdanə Heybət qızı** (d. 1941) — əmək fəaliyyətinə 1958 ildən başlamış, müxtəlif təsərrüfatlarda başlamışdır. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**AMRAHOVA Durdana Heybat gyzy** — deputy of the Supreme Soviet of the USSR (7th convocation).



**ƏSƏDOVA Lalə Həsən qızı** (d. 1955) — əmək fəaliyyətinə 1975 ildən Bakı çörək zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**ASADOVA Lala Hasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ƏSƏDOVA Məleykə Əlifağa qızı** (d.23.4.1967, Neftçala) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (2000). Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1987). 1989-93 illərdə Azərb. Gənclər Teatrında işləmiş, burada, Gültəkin ("Aydın", C.Cabbarlı), Leyli ("Leyli və Məcnun", M.Füzuli), Nəzifə ("Dağ tikirik", V.Səmədoğlu) və s. rollarda çıxış etmişdir. 1993 ildən Azərb. Milli Dram Teatrının aktrisasıdır. Rolları: Kordeliya ("Kral Lir", V.Şekspir), Şirin ("Fərhad və Şirin", S.Vurğun), İlkcan ("Pompeyin Qafqaza yürüşü", N.Həsənzadə), Selcan ("Özümüzü kəsən qılınc", B.Vahabzadə) və s. Televiziya filmlərində də çəkilmişdir ("Yad qızı", "Taleyin qisməti beləymiş" və s.). "İtkin gəlin" teleserialında yaratdığı Əfsanə obrazı ona geniş şöhrət qazandırmışdır.



**ASADOVA Maleyka Alifaga gyzy** — People's Artist of the Azerb. Repub.



**ƏSƏDOVA Sayalı Dadaş qızı** (d.1950) — əmək fəaliyyətinə 1969 ildən Biləcəri dəmir yolu stansiyasında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**ASADOVA Sayaly Dadash gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ƏSƏDOVA Urqiyyə Qara qızı** (d.1926) — əmək fəaliyyətinə 1961 ildən Mincəçevir toxuculuq fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Tikinti, inşaat materialları sənayesi və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**ASADOVA Urgiyya Gara gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ƏSGƏROVA Dilqəm Kamil qızı** (d.1959) — əmək fəaliyyətinə 1979 ildən Yevlax ilkin yun emalı fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**ASGEROVA Dilgam Kamil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏSGƏROVA Əntiqə Abıəli qızı** (d.1961) — əmək fəaliyyətinə 1979 ildən Lənkəran r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**ASGEROVA Antiga Abiali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏSGƏROVA Firuzə Məmmədəli qızı** (d.1950) — əmək fəaliyyətinə 1968 ildən Gədəbəy r-nundakı "Moskva" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**ASGEROVA Firuza Memmedali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ƏSGƏROVA Gilas Humbət qızı** (d.1933) — əmək fəaliyyətinə 1948 ildən Tovuz r-nundakı Nizami ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci və 10-cu çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları komissiyasının üzvü olmuşdur.

**ASGEROVA Gilas Humbat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th and 10th convocations).





**ƏSGƏROVA Gültəkin Məlik qızı** (20.11.1960, Bakı — 19.7.1992, Ağdam r-nu, Aranzəmin yüksəkliyi) — Azərbaycanın Milli Qəhrəmanı (1993, ölümündən sonra). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1985). Əmək fəaliyyətinə 8 №-li təcili yardım stansiyasında başlamış, 1991 ildən Uroloji kliniki xəstəxanada işləmişdir. 1992 ilin aprelindən könüllü cəbhəyə yollanmış, Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərmişdir. Aranzəmin yüksəkliyi uğrunda gedən döyüşlərdə 19 iyul 1992 ildə qəhrəmancasına həlak olmuşdur.

**ASGEROVA Gultekin Melik gyzy** — National Hero of Azerbaijan.



**ƏSGƏROVA Leyla Şamil qızı** (d. 1949, Ağcabədi r-nunun Rəncbərlər k.) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmidir (1977). Əmək fəaliyyətinə 1966 ildən başlamış, 1983-91 illərdə Ağcabədi Rayon partiya komitəsinin katibi, 1991-92 illərdə Ağcabədi rayon İHB-nın müavini işləmişdir. 2000 ildən Ağcabədi rayon İHB-nın aqrar məsələlər üzrə müavini işləyir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur.

**ASGEROVA Leyla Shamil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (12th convocation).



**ƏSGƏROVA Münəvvər Mehbalı qızı** (d. 6.3.1914, Culfa r-nunun Kirna k.—2001, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1938 ildə Culfa r-nunda başlamışdır. 1947 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ASGEROVA Munavvar Mehbaly gyzy** — Hero of Socialist Labour.





**ƏSGƏROVA Pambıq Paşa qızı** (d. 1953) — əmək fəaliyyətinə 1969 ildən Kürdəmir r-nundakı Şirvani ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**ASGEROVA Pambyg Pasha gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ƏSGƏROVA Roza Qasım qızı** (d. 15.8.1929, Naxçıvan) — biologiya e.d. (1977). 1956 ildən Azərb. EA-nın Botanika İn-tunda baş elmi işçi, 1988 ildən aparıcı elmi işçi olmuş, 1993 ildən "Ali bitkilərin sistematikası" şöbəsinin müdiridir. Respb-da ilk dəfə müasir bitkilərin tozcuqlarının morfologiyası (polimorfologiya) və onun sistematikaya tətbiqi (polinosistematika) ilə məşğul olmuşdur. Çiçəkli bitkilərin sistematikasına aid 90-a qədər elmi əsərin və 1 monoqrafiyanın müəllifidir. "Azərbaycan florası" çoxcildliyinin müəlliflərindəndir. Müxtəlif beynəlxalq konqreslərdə çıxış etmişdir.

**ASGEROVA Roza Gasym gyzy** — doctor of biology.



**ƏSGƏROVA Salatın Əziz qızı** (1961, Bakı—9.1.1991, Şuşa yaxınlığında) — Azərbaycanın Milli Qəhrəmanı (1992, ölümündən sonra). Azərb. Dövlət Un-tini bitirmişdir (1985). 1988 ildən "Molodyoj Azerbayjana" qəzetində müxbir işləmişdir. 1990-cı illərdə dəfələrlə Qarabağda ezamiyyətdə olmuş, döyüş zonalarından reportajlar hazırlamışdır. 1991 ilin 9 yanvarında Şuşa yaxınlığında erməni silahlı qüvvələrinin pusqudan avtomat silahdan açdığı atəşlə qətlə yetirilmişdir.

**ASGEROVA Salatyn Aziz gyzy** — National Hero of Azerbaijan.



**ƏSGƏROVA Sevda Məmmədqulu qızı** (d.1.10.1954, Bakı) — Azərb. musiqi tədqiqatçısı və pedaqoq. Pedaqoji e.d. (1994). Ü.Hacıbəyli ad. Azərb. Dövlət Konservatoriyasını (1978) bitirmişdir. 1978 ildən Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyət göstərir. 1994 ildən metodika və pedaqoji təcrübə kafedrasının prof. Vəzifəsində işləyir. 1992 ildən Bakı Musiqi Akademiyasının ixtisasartırma fakültəsinin dekanıdır. Tədqiqatları müsiqi pedaqogikası və psixologiyası, musiqi tərbiyəsinin pedaqogikası, musiqi ifaçılığı prosesində kiçik yaşlı şagirdlərin yaradıcı təxəyyülünün formalaşdırılması, musiqi qabiliyyətlərinin psixologiyası, Azərb.-da müsiqi müəlliminin professional hazırlığının elmi əsasları və s. məsələlərə həsr olunmuşdur. Musiqinin tədrisinə dair monoqrafiyaların, elmi məqalələrin, tədris vəsaitlərinin, proqramların müəllifidir.

**ASGEROVA Sevda Memmedgulu gyzy** — doctor of education.



**ƏYYUBOVA Amaliya Abdulla qızı** (26.3.1934, Qazax r-nunun Dağ Kəsəmən k.) — tibb e.d. (1981), prof. (1983), əməkdar elm xadimi (2000). 1963 ildən Azərb. Tibb Un-tində çalışır, 1989 ildən Uşaq xəstəlikləri kafedrasının mudiridir. Azərb.-da ilk dəfə olaraq allergiya xəstəliklərinin yayılması, onun strukturu, kliniki formalarının müalicəsi və profilaktikasını tədqiq etmişdir. 250-dək elmi əsərin, dərslik və monoqrafiyaların müəllifidir. Beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir. Azərb. Allerqoloq, İmmunoloq və İmmunoreabilitoloqlar Cəmiyyətinin prezidentidir.

**EYYUBOVA Amaliya Abdulla gyzy** — doctor of medicine.



**ƏYYUBOVA Bənövşə Mahmud qızı** (d.1953) — əmək fəaliyyətinə 1971 ildən Qazax r-nundakı Vaqif ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-10-cu çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**EYYUBOVA Banovsha Mahmud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9-10th convocation).



**ƏZİMOVA Cahan Həsən qızı** (d. 13.9.1932, Qəbələ r-nunun Kürd k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1948 ildən başlamış, 1955 ildən Nizami ad. təsərrüfatda tütünçü işləmişdir. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**AZIMOVA Jahan Hasan gyzy** — Hero of Socialist Labour.

**ƏZİMOVA Cülsarə Fərhad qızı** (d.1962, Ağsu) — əmək fəaliyyətinə 1979 ildən Ağsu r-nundakı M.Əzizbəyov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**AZIMOVA Gulsara Farhad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ƏZİMOVA Şəfiqə Əli qızı** (d.1929) — əmək fəaliyyətinə 1948 ildən Bakıdakı 1№-li ayaqqabı Fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Rəyasət Heyətinin üzvü olmuşdur.

**AZIMOVA Shafiga Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).





**ƏZİMOVA Təzə Əziz qızı** (d. 1910) —əmək fəaliyyətinə 1943 ildən başlamışdır. 1964 ildən Qusar r-nundakı S.M.Kirov ad. təsərrüfatda sağıcı işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**AZIMOVA Taza Aziz gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ƏZİZBƏYOVA Püstə Əzizağa qızı** (29.12.1929, Bakı — 8.1.1998, Bakı) — Azərb. tarixçisi, tarix e.d. (1961), prof. (1962), Azərb. SSR EA-nın həqiqi üzvü (1989). 1955-61 illərdə Azərb. Tarixi Muzeyinin sovet dövrü şöbəsinin müdiri, 1961 ildən isə həmin muzeyin direktoru olmuşdur. Azərb. KP tarixinin və Azərb.-da sosializm quruculuğu tarixinin tədqiqatçılarındandır. Sovet Qadınları Komitəsinin (1968), Amerika Muzeyləri Assosiasiyasının (1964) üzvü olmuşdu. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**AZIZBEYOVA Pusta Azizaga gyzy** — doctor of history, full member of the Azerbaijan Academy of Sciences.



**ƏZİZBƏYOVA Zibeydə Salam qızı** (d.30.12.1915, Şamaxı—may, 1985, Bakı) — biologiya e.d. (1965). 1967 ildən Azərb. SSR EA L.M. Komarov ad. Botanika İn-tunda bitkilərin duza davamlılığı laboratoriyasının müdiri işləmişdir. Tədqiqatları, əsasən, bitkilərin duza davamlılığının öyrənilməsinə həsr edilmişdir.

**AZIZBEYOVA Zibeyda Salam gyzy** — doctor of biology.



**ƏZİZOVA Dürsədəf Rüstəm qızı** (d.1944) — əmək fəaliyyətinə 1959 ildən Salyan r-nundakı Q.Səmədov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**AZIZOVA Dursadaf Rustam gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ƏZİZOVA Fazilə Fərəculla qızı** (d.1954) — əmək fəaliyyətinə 1973 ildən Salyan r-nundakı M.Əzizbəyov ad. pambıqçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, anaları və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**AZIZOVA Fazila Farajulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ƏZİZOVA Xavər Yaqub qızı** (10.8.1915, Cəlilabad — 13.9.1976, orada) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1940 ildən Cəlilabad r-nundakı "Bakı fəhləsi" təsərrufatında başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**AZIZOVA Khaver Yagub gyzy** — Hero of Socialist Labour.

# F



**FEYZULLAYEVA Aida Hənifə qızı** (d. 15.11.1939, Bakı) — Azərb. ədəbiyyatşünası. Filologiya e.d. (1995). 1969 ildən Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tunun ədəbi əlaqələr şöbəsində fəaliyyət göstərir (1997 ildən aparıcı elmi işçi). Tədqiqatları Azərb.-rus ədəbi əlaqələri tarixi və problemlərinə həsr olunmuşdur. "Azərbaycan yazıçıları Rusiyada", "Türkologiyanın Rusiyada təşəkkülü, inkişaf mərhələləri və problemləri" və s. monoqrafiyaların müəllifidir. Resp.-nın ali məktəblərində pedaqoji fəaliyyət göstərmişdir.

**FEYZULLAYEVA Aida Hanifa gyzy** — doctor of philology.



**FƏRƏCOVA Adilə Yusif qızı** (d.1926) — əmək fəaliyyətinə 1949 ildən Kirovabad yağ-piy kombinatında başlamış, 1959 ildən Gəncə mexanizm zavodunda milçi işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**FARAJOVA Adila Yusif gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).





**FƏRƏCOVA Kübra Yəhya qızı** (16.5.1907, Quba—1988, Bakı) — Azərb. pediatrı. Tibb e.d. (1970), prof. (1971), əməkdar həkimi (1960). 1931—1979 illərdə Kürdəmir qız məktəbinin təşkilatçısı və müəllimi, Azərb. SSR Xalq Səhiyyə Komissarının müavini, AKP MK-da təlimatçı, Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərb. SSR Səhiyyə naziri, N.K.Krupskaya ad. Ana və Uşaq Mühafizəsi İn-tunun direktoru və s. vəzifələrdə işləmişdir. Tədqiqatı, əsasən, uşaqların fiziki inkişafına, ana və uşaqların mühafizəsinə həsr olunmuşdur. SSRİ Ali Sovetinin (2-ci çağırış), Azərb. SSR Ali Sovetinin (2—3-cü çağırış) deputatı olmuşdur. Elmi-tədqiqat Pediatriya İn-tuna onun adı verilmişdir. 2 Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**FARAJOVA Kubra Yahya gyzy** — doctor of medicine, deputy of the Supreme Soviet of the USSR (2nd convocation).



**FƏRƏCOVA Maral Səməd qızı** (1915, Beyləqan r-nunun Dünyamallar k.—1988) — Sosialist Əməyi Qəhrəmanı (1948). Azərb. SSR pambıq ustası (1953). 1934—70 illərdə Jdanov r-nundakı G.Əsədov ad. təsərrüfatda işləmişdir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəriciləri əldə etmişdir.

**FARAJOVA Maral Samed gyzy** — Hero of Socialist Labour.



**FƏRHADOVA Gülarə Məmmədtağı qızı** (d.1944, Bakı) — texnika e.d., prof. (1995). Elmi işləri, əsasən, heterogen kataliz proseslərinin texnologiyasına həsr olunmuşdur. 150-dən artıq elmi əsərin, o cümlədən 19 müəlliflik şəhadətnaməsinin müəllifidir. Beynəlxalq simpozium və konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

**FARHADOVA Gulara Memmedtagy gyzy** — doctor of technics.

**FƏRHADOVA Suruş Cabbar qızı** (d.1928) — Azərbaycan Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1958). Əmək fəaliyyətinə 1946 ildən başlamış, 1961 ildən Füzuli rayonundakı "Rusiya" təsərrüfatının sədri işləmişdir. Azərb. SSR Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**FARHADOVA Surush Jabbar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6th convocation).



**FƏRZƏLİYEVA Zərifə Musa qızı** (d. 1959) — əmək fəaliyyətinə 1976-cı ildən Ağcabədi r-nundakı S. Vurğun ad. pambıqçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**FARZALIYEVA Zarifa Musa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**FƏRZULLAYEVA Gülü Mösü qızı** (d. 3.7.1930, Prişib) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1947—78 illərdə Cəlilabad r-nun "Bakı fəhləsi" təsərrüfatında işləmişdir. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**FARZULLAYEVA Gulu Mosi gyzy** — Hero of Socialist Labour.



**FƏTƏLİYEVA Səriyyə Əbdül qızı** (d. 1950) — əmək fəaliyyətinə 1965-ci ildən Şamaxı r-nundakı S.Ə.Şirvani ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**FATALIYEVA Sariyya Abdul gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**FƏTTAYEVA Səriyyə Paşa qızı** (d.1914, Masallı r-nunun Şatıroba k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1933—1956-cı illərdə Masallı r-nundakı Kirov ad. təsərrüfatda işləmişdir. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail oliuşdur.

**FATTAYEVA Sariyya Pasha gyzy** — Hero of Socialist Labour.



**FƏTULLAYEVA Bəsti Xanalı qızı** (d. 1921, Masallı r-nunun Çaxırlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1959). 1937—64 illərdə Masallı r-nundakı "Pravda" təsərrüfatında, 1965—82 illərdə Sumqayıtda toxuculuq fabrikində usta işləmişdir. 1958 ildə heyvandarlıq sahəsində yüksək əmək göstəriciləri əldə etmişdir. Azərb. SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur.

**FATULLAYEVA Basti Khanali gyzy** — Hero of Socialist Labour.





**FƏTULLAYEVA Fəridə Əli qızı** (d.1951) — əmək fəaliyyətinə 1968-ci ildən Ordubad r-n Aqrar-Sənaye birliyinin konserv zavodunda fəhlə başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**FATULLAYEVA Farida Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**FƏTULLAYEVA Vəfa Nüsrət qızı** (25.8.1945, Bakı—21.5.1987, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. əməkdar artisti (1982). Azərb. SSR Dövlət mükafatı laureatı (1984). 1970 ildən Azərb. Dövlət Dram Teatrının aktrisası olmuşdur. Rolları: Gülgəz ("Mahnı dağlarda qaldı", İ.Əfəndiyev), Şirin ("Məhəbbət əfsanəsi", N.Hikmət), Tənzilə ("Sən yanmasan", N.Xəzri), Şərəfnisə ("Müsyö Jordan və dərviş Məstəli şah", M.F.Axundov), Beatriçe ("Heç nədən hay-küy", U.Şekspir), Bənövşə ("Kəndçi qızı", M.İbrahimov), Zeynəb ("Sizi deyib gəlmişəm", Anar) və s. Televiziya tamaşalarında çəkilmişdir ("Göz həkimi", "Alov", "Atayevlər ailəsi" və s.).

**FATULLAYEVA Vafa Nusrat gyzy** — Honoured Artist of the Azerb. Repub.

**FİLİPPOVA Antonina Mixaylovna** (19.2.1897, Oryol—8.4.1976, Volqoqrad) — Azərb. Resp. xalq artisti (1943). Tula, Novosibrsk və s. ş.-lərdə, 1935—50 illərdə S.Vurğun ad. Azərb. Rus. Dram Teatrında çıxış etmişdir. Rolları: Avqustina Yakovlevna ("Konsert", A.Fayko), Sonya ("Dvoryanlar", N.Poqodin), dayə ("Romeo və Cülyetta", U.Şekspir), Murzavetskaya, Qalçixa ("Qurdlar və qoyunlar", "Günahsız müqəssirlər", A.Ostrovski), Gülzar ("Şərqin səhəri", Ə.Məmmədxanlı), Qraçova ("Xəzər üzərində şəfəq", İ.Qasımov) və s.

**FILIPPOVA Antonina Mikhaylovna** — People's Artist of the Azerb. Respub.



# G

**GİNZBURQ Raxil Solomonovna** (1.6.1920, Bakı—6.12.1995, Bakı) — Azərb. Resp. xalq artisti (1964). Səhnə fəaliyyətinə 1941 ildən başlamış, 1943-cü ildən Azərb. Dövlət Rus Dram Teatrının aktrisası olmuşdur. Rolları: Nina ("Maskarad", M.Lermontov), Negina ("İstedadlar və pərəstişkarlar", A.Ostrovski), İrina ("Yç bacı", A.Çexov), Polya, Liza ("Meşşanlar", "Günəşin övladları", M.Qorki), Valya, Lidiya ("İrkutsk əhvalatı", "Köhnə dəbli komediya", A.Arbuzov), Mariya Stüart ("Mariya Stüart", F.Şiller), Epifaniya, Eliza ("Milyonçu xanım", "Piqmalion", B.Şou), Katarina ("Şıltaq qızın yumşalması", U.Şekspir), Şirin ("Fərhad və Şirin", S.Vurğun), Gültəkin ("Aydın", C.Cabbarlı), Klitemnestra ("Mənim məhəbbətim Elektra", L.Dürko), Sara Bernar ("Lanqust gülüşü", C.Marrel) və s.



**GINZBURG Rakhil Solomonovna** — People's Artist of the Azerb. Repub.

**GÖVHƏR AĞA** (1796, Şuşa—1888, orada; Ağdamda Cavanşir nəslinə mənsub İmarət qəbiristanlığında dəfn edilmişdir) — Azərb. şairi, mesenat. Qarabağ xanı İbrahimxəlil xanın qızı, Ağabəyim ağanın bacısı, X.Natəvanın bibisi. Anası gürcü knyazı Abaşidzenin qızı Cavahir xanım idi. Mükəmməl təhsil almış, maarif və mədəniyyətə maraq göstərmiş, sənət adamlarına, alim və şairlərə hamilik etmişdir. 1789 ildə İbrahimxəlil xanın Şuşada tikdirdiyi məscidi (indi "Gövhər ağa məscidi" adı ilə məşhurdur) təmir və bərpa etdirmişdir. "Məclisi-fəramuşan"ın məşğələləri çox vaxt bu məscidin hücrələrində keçirilərdi. Azərb. və fars dillərində şerlər yazmışdır. Bəzi mənbələrdə qəzəl və fəxriyyələri olduğu göstərilir. Ədəbi irsindən hələlik, azərb.-ca bir beyt, farsca bir fərd (beyt) məlumdur. X.Natəvanı tərbiyə edib, böyütmüş, ona musiqini, şeri, rəsmi sevdirmişdir.



**GOVSHAR AGA** — poetess.



**GÜLƏHMƏDOVA-MARTINOVA Gülcahan Şüaulla qızı** (d. 23.6.1925, Bakı) — Azərb. rejissoru. Azərb. SSR xalq artisti (1981). Azərb. SSR Dövlət mükafatı laureatı (1972). İlk azərb. qadın rejissorlardandır. 1952–82 illərdə S.Vurğun ad. Azərb. Dövlət Rus Dram Teatrında işləmişdir. Ən yaxşı tamaşaları: "Mariya Stüart" (1965, F.Şiller), "Sirano de Berjerak" (1965, E.Rostan), "Sən həmişə mənimləsən" (1967, İ.Əfəndiyev), "Antiqona" (1968, J.Anuy), "Varşava melodiyası" (1969, L.Zorin), "Həmişə təmizlikdə" (1970, E.Braginski və E.Ryazanov), "Komandorun addımları" (1971, V.Korostılyov), "Sakit üfüqlərdə" (1975, B.Vasilyev), "Şəhərin yay günləri" (1978, Anar), "Əldən düşmüş at" (1979, F.Saqan), "On üçüncü sədr" (1981, A.Abdullin) və s. 1982-ci ildən Ş. Məmmədova ad. opera studiyasının rejissorudur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**GULAHMADOVA-MARTINOVA Guljahan Shuaulla gyzy** — People's Artist of the Azerb. Repub.



**GÜLƏLİYEVA Fəzilə Rəcəb qızı** (d. 1957) — əmək fəaliyyətinə 1978 ildən Quba r-nunun V.İ. Lenin ad. təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xarici işlər Komissiyasının üzvü olmuşdur.

**GULALIYEVA Fazila Rajab gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocations).



**GÜLMƏTOVA Gülsoltan Hacıkərim qızı** (d.1960) — əmək fəaliyyətinə 1977-ci ildən Qusar r-nundakı M.Əbilov adına təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur.

**GULMETOVA Gulsoltan Hajıkerim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



# H



**HACƏHMƏDOVA Alagöz Ramazan qızı** (d.1940) — əmək fəaliyyətinə 1958 ildən Zaqatala r-nunun İliç ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**HAJAHMADOVA Alagoz Ramazan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HACƏLİYEVA Minayə Məmmədəli qızı** (d. 1938) — əmək fəaliyyətinə 1963 ildən Xaçmaz konserv zavodunda başlamışdır. SSRİ Ali Sovetinin (8—9-cu çağırış) deputatı olmuşdr.

**HAJALIYEVA Minaya Memmedali gyzy** — deputy of the Supreme Soviet of the USSR (8–9th convocations).

**HƏCƏR** (1860, Qubadlı, Yuxarı Mollu k. — 1914) — Qaçaq Nəbinin ömür yoldaşı. Əri ilə birlikdə əlinə silah götürüb iyirmi beş ildən artıq at belində qaçaq həyatı keçirmiş, Azərbaycandakı kəndli hərəkatında fəal iştirak etmişdir.

**HAJAR** — wife and sellow-fighter of Gachag Nabi.



**HACIYEVA Almas Əsəd qızı** (d. 1933) — Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir. Əmək fəaliyyətiinə 1953 ildən müəllim kimi başlamış, 1971–78 illərdə Ağdaş Rayon Partiya Komitəsinin katibi, Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1978–82 illərdə Ağdaş Rayon Partiya Komitəsinin birinci katibi, 1982 ildən Saatlı Rayon Partiya Komitəsinin birinci katibi işləmişdir. SSRİ Ali Sovetinin (4–5-ci çağırış) və Azərb. SSR Ali Sovetinin (10–11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, anaları və uşaqları mühafizə komissiyasının, Aqrar-sənaye kompleksi komissiyasının üzvü olmuşdur.

**HAJIYEVA Almas Asad gyzy** — deputy of the Supreme Soviet of the USSR (4-5th convocations).



**HACIYEVA Badam Əziz qızı** (d. 20.12.1927, Füzuli r-nunun Mollaməhərrəmli k. — 16.8.1959, orada) — Sosialist Əməyi Qəhrəmanı (1947). Əmək fəaliyyətinə 1943 ildən Füzuli r-nunun təsərrüfatlarında başlamışdır. 1946 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**HAJIYEVA Badam Aziz gyzy** — Hero of Socialist Labour.



**HACIYEVA Əcəb Məhərrəm qızı** (d. 1924, Ağdam r-nunun Mərzili k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1938 ildən Xocavənd r-nunda başlamışdır. 1949 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**HAJIYEVA Ajab Maharram gyzy** — Hero of Socialist Labour.



**HACIYEVA Gültəkin Yunis qızı** (d. 13.10.1973, Bakı) — Azərb. Resp. Milli Məclisinin (2-ci çağırış) deputatı, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyası sədrinin müavini, Avropa Şurasının Parlament Assambleyasında Milli Məclisin daimi nümayəndə heyətinin üzvü, Azərb. Dövlət Un-tinin şərqşünaslıq və hüquq fakültələrini bitirmişdir.

**HAJIYEVA Gultekin Yunis gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub. (2 nd convocation).



**HACIYEVA Xoşqədəm Hamoy qızı** (d. 1935) — əmək fəaliyyətinə 1957 ildən başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**HAJIYEVA Khoşgadam Hamoy gyzy** — — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**HACIYEVA İradə Mirqavan qızı** (d. 1958) — əmək fəaliyyətinə 1976 ildən Bakıdakı 1№-li mətbəədə mürəttib kimi başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**HAJIYEVA İrada Mirgavan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**HACIYEVA Qəndab Bayram qızı** (d.1928) — 1948 ildən Ermənistanın Krasnoselsk r-nunda əmək fəaliyyətinə başlamış, 1961 ildən Azərb. boru-prokat zavodunda, 1963 ildən Gəncə alüminium zavodunda işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Rəyasət Heyətinin üzvü olmuşdur.

**HAJIYEVA Gandab Bayram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HACIYEVA Qızıllı Həsən qızı** (d. 1956, Naxçıvan) — əmək fəaliyyətinə 1973 ildən Naxçıvan MSSR İliç r-nundakı H.Cavid ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovet sədrinin müavini olmuşdur.

**HAJIYEVA Gyzylly Hasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**HACIYEVA Maarifə Hüseyn qızı** (d. 1938, Gədəbəy r-nu) — filologiya e.d. (1990), prof. 1962 ildən əmək fəaliyyətinə başlamış, 1968 ildən Azərb. Xalq Təsərrüfatı İn-tunun Azərbaycan dili kafedrasında işləmiş, hazırda Azərb. İqtisad Un-tinin prof. vəzifəsində çalışır. 14 kitabın (dərslik və dərs vəsaiti, monoqrafiya, elmi-metodiki vəsait) və 150-yə yaxın elmi məqalənin müəllifidir. Beynəlxalq konqres və simpoziumlarda məruzələrlə çıxış etmişdir.

**HAJIYEVA Maarifa Huseyn gyzy** — doctor of philology.





**HACIYEVA Nina Alekseyevna** (d. 1926, Mordva MSSR-in Saransk ş.) — bilologiya elmləri doktoru (1969), prof. (1980). Azərb. SSR Dövlət mükafatı laureatı (1972). M.V.Lomonosov ad. Moskva Dövlət Un-tini bitirmişdir (1950). 1960 ildən Azərb. SSR EA Fiziologiya İn-tunda laboratoriya müdiri işləmişdir. Tədqiqatı görmə və somatik-visseral analizatorlar sistemində afferent siqnalların formalaşma və tənzimlənmə mexanizmlərinin elektrofizioloji öyrənilməsinə və s. həsr edilmişdir. Beynəlxalq biofizika və fiziologiya konqreslərində çıxış etmişdir.

**HAJIYEVA Nina Alekseyevna** — doctor of biology



**HACIYEVA Ninel Zeynal qızı** (q. 4.12.1926, Bakı) — filologiya e.d. (1970), prof. (1980). 1954–79 illərdə SSRİ EA Dilçilik İn-tunun baş elmi işçisi, 1979 ildən həmin in-tun müxtəlif ailələrə mənsub dillərin müqayisəli-genetik tədqiqi qrupunun rəhbəri olmuşdur. Azərb. dilinə, türk dillərinin sintaksisinə və müqayisəli-tarixi qrammatikasına, türkologiyanın nəzəri problemlərinə dair tədqiqatların müəllifidir. Beynəlxalq türkoloji konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir.

**HAJIYEVA Ninel Zeynal gyzy** — doctor of philology



**HACIYEVA Rəbiyyə Camal qızı** (d. 1929, Balakən r-nunun Tülü k. — 1997, orada) — Əmək fəaliyyətinə N.Nərimanov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

**HAJIYEVA Rabiyya Jamal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR.



**HACIYEVA Solmaz Adil qızı** (d. 1930, Bakı) — Azərbaycan Sənaye İn-tunu bitirmişdir (1953). Əmək fəaliyyətinə 1953 ildən "Azneftgeofizika" trestində başlamış, 1958–60 illərdə Suraxanı Rayon Partiya Komitəsinin sənaye üzrə katibi, 1960–68 illərdə Suraxanı Rayon Partiya Komitəsinin birinci katibi, 1968–73 illərdə Bakı şəhər İcraiyyə Komitəsi təşkilat şöbəsinin müdiri, 1973–87 illərdə Bibiheybət NQÇİ rəisinin müavini, 1987–92 illərdə "Azneft" İB-də yardımçı kənd təsərrüfatı və xidmət şöbəsinin rəisi, 1992–94 illərdə baş mütəxəssis, ARDNŞ-də İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri şöbəsinin rəisi işləmiş, 2000 ildən ARDNŞ-nin birinci vitse-prezidentinin xarici işlər üzrə böyük referentidir. Azərb. SSR Ali Sovetinin ( ) deputatı olmuşdur. "Azərbaycanın neftçi qadınları" cəmiyyətinin sədridir (1994 ildən).

**HAJIYEVA Solmaz Adil gyzy** — — deputy of the Supreme Soviet of the Azerb. SSR ( th convocation).



**HACIYEVA Sona Salman qızı** (25.6.1907, Şəki — 24.12.1979, Bakı) — Azərb. aktrisası. Azərb. Respb. xalq artisti (1949). Səhnə fəaliyytinə 1920 ildə Bakıda Əli Bayramov klubu nəzdindəki dram dərnəyində başlamış, 1923–79 illərdə Azərb. Dram Teatrının aktrisası olmuşdur. 1927 ilədək teatrda opera və musiqili komediyalarda çıxış etmişdir: Leyli, Əsli, Asya ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", Ü.Hacıbəyli), Şahsənəm ("Aşıq qərib", Z.Hacıbəyli) və s. Dram tamaşalarında Sona ("Hacı Qara", M.F.Axundov), Xumar ("Şeyx Sənan", H.Cavid), Atlas ("Həyat" M.İbrahimov), Gülnar, Mehriban ("Vaqif", "Xanlar", S.Vurğun), Zinyət ("Toy", S.Rəhman), Ofelya, Cülyetta ("Hamlet", "Romeo və Cülyetta", U.Şekspir), Qalçixa ("Günahsız müqəssirlər", A.Ostrovski), Anna ("Həyatın dibində, M.Qorki), Solmaz, Sevil, Gülüş, Almas, Sona ("Od gəlini", "Sevil, "Almas", "1905-ci ildə", C.Cabbarlı) kimi və s. yaddaqalan obrazlar yaratmışdır. "Bəxtiyar", "Qızmar günəş altında", "O olmasın, bu olsun", "Səhər" filmlərində çəkilmişdir. "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

**HAJIYEVA Sona Salman gyzy** — People's Artist of the Azerb. Repub.



**HACIYEVA Sürəyya Xəlil qızı** (d. 21.3. 1938, Nax.MR Ordubad r-nunun Əndəmic k.) — SSRİ Dövlət mükafatı laureatı (1982). Əmək fəaliyyətinə 1954 ildə Y.Məmmədəliyev ad. Ordubad baramaaçan fabrikində başlamış, 1966 ildən Bakı Volodarski ad. tikiş fabrikində tikişçi işləmişdir. Qırmızı Əmək Bayrağı, II və III dərəcəli Əmək Şöhrəti və Oktyabr İnqilabı ordenləri ilə təltif edilmişdir.

**HAJIYEVA Surayya Khalil gyzy** — laureate of the State Prize of the USSR.





**HACIYEVA Şəfiqə Tahir qızı** (d. 1932) — əmək fəaliyyətinə 1948 ildən Astara r-nundakı Lenin ad. təsərrüfatda başlamış, 1957 ildən Leninneft NMİ-də yağlayıcı işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**HAJIYEVA Shafiga Tahir gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HACIYEVA Zərqələm Teymur qızı** (d. 1929) — əmək fəaliyyətinə 1943 ildən Şəmkir r-nundakı H.Aslanov ad. təsərrüfatda başlamışdır. 1950 tldə həmin təsərrüfatda yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**HAJIYEVA Zargalam Teymur gyzy** — deputy of the Supreme Soviet of the USSR (5th convocation).



**HACIYEVA Züleyxa Hacıbaba qızı** (d. 25.8.1923, Bakı) — Azərb. diktoru, XX əsrdə Azərbaycanın 10 ən görkəmli idmançılarından biri. Azərb. Resp. əməkdar artisti (1979). SSRİ idman ustası (1941). Gimnastika üzrə 7 dəfə Azərb. çempionu (1941–48). Azərb. Sənaye İn-tunu bitirmişdir (1948). Bakı Şəhər Bədən Tərbiyəsi və İdman Komtəsində sədr müavini (1952–55) işləmiş, 1942–92 illərdə Azərb. radiosunun diktoru olmuşdur. Azərb. radiosunda bir çox verilişlərin (Səhər gimnastikası, "Poeziya dəqiqələri", "Axşamınız xeyir" və s.), aparıcısı olmuşdur.

**HAJIYEVA Zuleykha Hajıbaba gyzy** — Honoured Artist of the Azerb. Repub.



**HAQVERDİYEVA Firəngiz Abdulla qızı** (d.1948) — əmək fəaliyyətinə 1966 ildən Qazax r-nundakı "Komintern" təsərrüfatında üzümçü kimi başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**HAGVERDİYEVA Firangiz Abdulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**HAQVERDİYEVA Pəri Abbas qızı** (d.1948) — əmək fəaliyyətinə 1948 ildən Biləsuvar r-nundakı "Kommunizm yolu" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**HAGVERDİYEVA Peri Abbas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HAQVERDİYEVA Sofiya Həsən qızı** (d.1.8.1930, Bakı) — iqtisad e.d. (1984). Azərb. Dövlət Un-tini bitirmişdir (1954). Əmək fəaliyyətinə 1954 ildən müəllim kimi başlamış, 1954–58 illərdə Azərb. Dövlət Univesitetində baş laborant, Azərb. SSR EA İqtisadiyyat İn-tunda 1958–65 illərdə kiçik elmi işçi, 1965–89 illərdə böyük elmi işçi, 1989–95 illərdə aparıcı elmi işçi işləmişdir. 1995 ildən AMEA İqtisadiyyat İn-tunda "Xarici iqtisadi əlaqələr" şöbəsinin baş elmi işçisidir. Tədqiqatı Azərb.Resp-nın dünya ölkələri ilə xarici iqtisadi əlaqələrinin öyrənilməsinə həsr edilmişdir.

**HAGVERDİYEVA Sofiya Hasan gyzy** — doctor of economics.



**HASİLOVA Xalidə Məmməd qızı** (10.4.1920, Zaqatala ş.—5.12.1996, Bakı) — Azərb. yazıçısı, əməkdar mədəniyyət işçisi (1974). "Kiçik hekayələr" (1950), "Lalənin kitabı" (1955), "Ulduzlu papaq" (1960), "Yaşıl ayna" (1971) və s. kitabları kiçik və məktəbyaşlı uşaqlara həsr olunmuşdur. "İki yoldaş" (1955), "Sular durulur" (1958), "Ləpələr" (1964), "Zəhra" (1966), "Unutmaram" (1969), "Kaman" (1972), "Nəğməli könül" (1976), "Xatirə" (1978), "Məhəbbət olanda" (1979) hekayə və povest kitabları müasirlərimizin həyatından bəhs edir. "Göyərçin" jurnalının (1966–1972), "Azərbaycan qadını" jurnalının (1972–96) baş redaktoru işləmişdir. Resp. Qadınlar Şurası Rəyasət Heyətinin üzvü (1975 ildən) olmuşdur. Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**HASİLOVA Khalida Memmed gyzy** — writer, Honoured Cultural Worker.



**HAŞIMOVA Famılə Savalan qızı** (d.1936) — əmək fəaliyyətinə 1954 ildən Laçın r-nunun təsərrüfatlarında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının üzvü olmuşdur.

**HASHIMOVA Famila Savalan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**HAŞIMOVA Şahnaz Həsən qızı** (d.2.6.1957, Gəncə) — Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (2000). Q. Hüseynli ad. Gəncə Musiqi Məktəbini bitirmişdir (1979). 1971–73 illərdə bədii özfəaliyyət kollektivlərinin "Oxu, tar" festivalının iştirakçısı olmuşdur. 1975 ildən "Göy-göl" xalq çalğı alətləri ansamblının (1977 ildən "Göy-göl" Dövlət Mahnı və Rəqs Ansamblının) solistidir. 1997 ildən Gəncə Dövlət Filarmoniyasının direktorudur. Repertuarına xalq mahnıları ("Uca dağlar", "Qaragilə", "Şuşanın dağları", və s.), muğamlar (Kəsmə şikəstə, Qarabağ şikəstəsi, Mirzə Hüseyn segahı, Şahnaz, Dəstgah və s.), Azərb. bəstəkarlarının mahnıları, həmçinin türk, fars, tacik, əfqan, ərəb və s. xalqların mahnıları daxildir.

**HASHIMOVA Shahnaz Hasan gyzy** — People's Artist of the Azerb. Repub.



**HEYDƏROVA Ayna Səftər qızı** (d. 1914, Kürdəmir r-nunun Karrar k.–24.6.1970) — əmək fəaliyyətinə 1937 ildən başlamış, müxtəlif sahələrdə başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, Əmək şöhrəti ordeni ilə təltif edilmişdir.

**HEYDAROVA Ayna Saftar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).





**HEYDƏROVA Gülnaz Rəhim qızı** (d. 1955) — əmək fəaliyyətinə 1973 ildən Ermənistan SSR-in Vardenis r-nundakı Nərimanov ad. təsərrüfatda başlamışdır. Tütünçü işləmişdir. Ermənistan SSR-dən SSRİ Ali Sovetinə (10-cu çağırış) deputat seçilmişdir.

**HEYDAROVA Gulnaz Rahim gyzy** — deputy of the Supreme Soviet of the USSR from the Armenian SSR (10th convocation).



**HEYDƏROVA Nazilə Ağəli qızı** (d.1962) — əmək fəaliyyətinə 1979 ildən başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, anaları və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**HEYDAROVA Nazila Agali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**HEYDƏROVA Tamara Bəbir qızı** (d. 1927, Ermənistanın Gorus r-nunun Şamsiz k) — Sosialist Əməyi Qəhrəmanı (1953). Əmək fəaliyyətinə 1943 ildən Ağdam r-nundakı Natəvan ad. üzümçülük təsərrüfatında başlamışdır. 1952 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**HEYDAROVA Tamara Bebir gyzy** — Hero of Socialist Labour.





**HEYRAN XANIM Dünbuli** (?, Naxçıvan—?,Təbriz) — Azərb. şairi. 18 əsrin sonlarında Dünbuli Kəngərli xanları ailəsində doğulmuşdur. Naxçıvanda təhsil almış, ərəb və fars dillərini, klassik Azərb. və fars əd.-tını öyrənmişdir. 19 əsrin əvvəllərində Rusiya–İran toqquşmaları dövründə çoxlu xoylu naxçıvanlılar ilə birlikdə H.X.-ın da ailəsi Naxçıvandan İrana köçürülmüşdür. 19 əsrin 60-cı illərində vəfat etmişdir. Füzuli ədəbi məktəbinin davamçılarından, klassik Azərb. poeziyasının tanınmış nümayəndələrindəndir. Azərb. və fars dillərində, əsasən, aşiqanə şerlər yazmışdır. Rudəki, Həsənoğlu, Sədi, Hafiz, Nəsimi, Nəvai, Füzuli, Qövsi Təbrizi və b.-na nəzirələri var. Əruzun heca vəzninə yaxın bəhrlərində, sadə xalq dilində yazmışdır. Bəzi şerləri şifahi xalq əd-tı nümunələrinə yaxındır. Əsərlərinin 3 əlyazması (Bakı, Tehran və Tbilisi nüsxələri) məlumdur; bunlardan ən mükəmməli şairənin sifarişi ilə yazılmış Bakı nüsxəsidir. Həmin nüsxə Azərb. Resp. Əlyazmalar İn-tunda saxlanılır.

**HEYRAN Khanym Dunbuli** — Azerb. poetess.



**HƏBİBOVA Sürəyya Qara qızı** (d. 1939) — əmək fəaliyyətinə Kəlbəcər r-nundakı "Pravda" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**HABİBOVA Surayya Gara gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HƏBİBOVA Zeynəb Xudaverdi qızı** (1907, Masallı r-nunun Hiskədərə k.—1987) — əmək fəaliyyətinə 1930 ildən Masallı r-nunun Kirov ad. təsərrüfatın başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (1-2 çağırış) deputatı olmuşdur.

**HABİBOVA Zeynab Khudaverdi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (1st-2nd convocations).



**HƏMİDOVA Zülhəccə Baxış qızı** (d.1925) — əmək fəaliyyətinə 1941 ildən Şəkidəki ipək kombinatında toxucu kimi başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Ticarət və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**HAMİDOVA Zulhajja Bakhysh gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HƏMZƏYEVA İzzət Əsədulla qızı** (d.15.1.1923, Bakı) — tibb e.d. (1968). 1960 ildən Azərb. Elmi–Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İn-tunda radiasiya, immunologiya və mikrobiologiya şöbəsinin müdüri işləmişdir. Tədqiqatı, əsasən, şüalanmanın bioloji təsirinə, habelə xroniki şüalanmanın orqanizmə təsirinə həsr edilmişdir.

**HAMZAYEVA Izzat Asadulla gyzy** — doctor of medicine.



**HƏMZƏYEVA Zəroş Mirzəbağır qızı** (d.22.3.1925, Babək r-nunun Nehrəm k.) — Azərb. Resp. xalq artisti (1967). 1941–97 illərdə C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası olmuşdur. Müxtəlif səpkili səhnə obrazları yaratmışdır: Xumar ("Şeyx Sənan", H.Cavid), Həcər ("Qaçaq Nəbi", S.Rüstəm), Dezdemona ("Otello", U.Şekspir), Kruçinina ("Günahsız müqəssirlər", A. Ostrovski), Zinyət ("Toy", S.Rəhman), Xuraman ("Vaqif", S.Vurğun), Məhsəti ("Məhsəti", K.Ağayeva), Sevinc ("Sənsiz", Ş. Qurbanov) və s. Azərb. Dövlət Akademik Dram Teatrının səhnəsində "Vaqif" tamaşasında Xuraman rolunu oynamışdır. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**HAMZAYEVA Zarosh Mirzabagyr gyzy** — People's Artist of the Azerb. Repub.



**HƏSƏNƏLİYEVA Kamilə Əliyar qızı** (d.1947, Bakı) — əmək fəaliyyətinə 1962 ildən başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-12-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**HASANALIYEVA Kamila Aliyar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10–12th convocations).



**HƏSƏNOVA Aidə Məhər qızı** (d.1958) — əmək fəaliyyətinə 1978 ildən Yevlax r-nundakı ilkin yun emalı fabrikində çeşidləyici kimi başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komisyasının üzvü olmuşdur.

**HASANOVA Aida Mahar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**HƏSƏNOVA Bəyaz Həsənalı qızı** (1918, Cəbrayıl r-nunun Mahmudlu k.—1990) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1935 ildən Cəbrayıl r-nundakı Lenin ad. təsərrüfatda başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**HASANOVA Bayaz Hasanali qyzy** — Hero of Sosialist Labour.





**HƏSƏNOVA Çiçək Məmmədəli qızı** (d. 1914, Qubadlı r-nunun Zilanlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1936 ildən Qubadlı r-nunun təsərrüfatlarında başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**HASANOVA Chichek Memmedali qyzy** — Hero of Sosialist Labour.



**HƏSƏNOVA Əminə Səbi qızı** (d. 1958) — əmək fəaliyyətinə 1975 ildən Astara r-nundakı Lenin ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**HASANOVA Amina Sabi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**HƏSƏNOVA Fatma Əkbər qızı** (d. 25.2.1928, Şəmkir r-nunun Koltəhnəli k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1942 ildən Şəmkir r-nundakı M.Əzizbəyov ad. təsərrüfatda başlamışdır. 1949 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir.

**HASANOVA Fatma Akbar gyzy** — Hero of Socialist Labour.





**HƏSƏNOVA Fatma Həsən qızı** (d. 1946) — əmək fəaliyyətinə 1962 ildən başlamış, Şəki İpək İstehsal Birliyində toxucu işləmişdir. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, İttifaq Soveti Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**HASANOVA Fatma Hasan gyzy** — deputy of the Supreme Soviet of the USSR (10th convocation).



**HƏSƏNOVA Gövhər Tehran qızı** (d. 1961) — əmək fəaliyyətinə 1978 ildən Lənkəran r-nundakı Nizami ad. təsərrüfatda başlamışdırr. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, İttifaq Sovetinin Mandat komissiyasının üzvü olmuşdur.

**HASANOVA Govhar Tehran gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).



**HƏSƏNOVA Gülbacı Gülağa qızı** (d. 1943) — əmək fəaliyyətinə 1964 ildən Dəvəçi r-nundakı N.Nərimanov ad. təsərrüfatda tərəvəzçi kimi başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**HASANOVA Gulbajy Gulaga gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HƏSƏNOVA Gülxar İbrahim qızı** (d.10.12.1918, Şəmkir r-nunun Kolxozkənd k.) — Azərb. müğənnisi (soprano). Azərb. Resp. xalq artisti (1982). Bakı Teatr Texnikumunda oxumuş (1935–37), ADU-nu bitirmişdir (1959). Səhnə fəaliyyətinə Azərb. Gənc Tamaşaçılar Teatrında başlamışdır (1936–42). 1942–80 illərdə Azərb. Opera və Balet Teatrının solisti olmuşdur; 1980 ildən teatrın məşqçi pedaqoqudur. Leyli və Leylinin anası, Əsli, xanəndə qız ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu", Ü.Hacıbəyli), Şahsənəm ("Aşıq Qərib", Z.Hacıbəyli), Ərəbzəngi ("Şah İsmayıl", M.Maqomayev), Təravət xanım ("Bahadır və Sona", S.Ələsgərov), ana ("Gəlin qayası", Ş.Axundova) və s. partiyalarda çıxış etmişdir. Lenin ordeni, "Şərəf nişanı" ordeni, Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**HASANOVA Gulkhar İbrahim gyzy** — People's Artist of the Azerb. SSR.



**HƏSƏNOVA Gülüstan Ağəli qızı** (d.25.5.1925, İsmayıllı r-nunun Kürdması k.) — Sosialist Əməyi Qəhrəmanı (1981). Əmək fəaliyyətinə 1943 ildən İsmayıllı r-nundakı "Sovet Azərbaycanının 40 illiyi" təsərrüfatında sağıcılıqla başlamış, təsərrüfatda yüksək göstəricilər qazanmışdır. Azərb. SSR Ali Sovetinin (8–10-cu çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir.

**HASANOVA Gulustan Agali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8–10th convocations).



**HƏSƏNOVA Həbibə Baladayı qızı** (d. 1932) — Moskva Yüngül Sənaye Texnoloji İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1955 ildən başlamış, müxtəlif vəzifələrdə, o cümlədən Azərb SSR Yerli Sənaye nazirinin müavini (1961), Məişət xidməti naziri (1963) işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**HASANOVA Habiba Baladayi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).





**HƏSƏNOVA Xanımcan Ayət qızı** (d. 1950) — əmək fəaliyyətinə 1968 ildən Astara r-nundakı "Şəfəq" təsərrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, Millətlər Sovetinin Xalq təhsili və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**HASANOVA Khanymjan Ayat gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).



**HƏSƏNOVA Kəsirə Nəcəfəli qızı** (d.29.5.1950, Lənkəran r-nunun Aşağı Nüvəli k.) — SSRİ Dövlət mükafatı laureatı (1984). Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1984). Əmək fəaliyyətinə 1967 ildən Lənkəran r-nundakı B.Abbasov ad. təsərrüfatda başlamışdır. 1983 ildə tərəvəzçilik sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (9–10-cu çağırış) deputatı olmuşdur. Oktyabr İnqilabı və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**HASANOVA Kasira Najafali gyzy** — deputy of the Supreme Soviet of the USSR (9–10th convocations).



**HƏSƏNOVA Qələmnaz Cəfi qızı** (d. 1963) — əmək fəaliyyətinə 1980 ildən Jdanov r-nındakı "Bakı" təsərrüfatında pambıqçı kimi başlamışdır (1975). Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Mandat komissiyasının üzvü olmuşdur.

**HASANOVA Galamnaz Jafi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**HƏSƏNOVA Qızqayıt Salman qızı** (d.1924) — Sosialist Əməyi Qəhrəmanı (1948), Pambıq ustası (1957). Azərbaycan Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1938 ildən Biləsuvar r-nundakı Telman ad. təsərrüfatda başlamış, 1953 ildən həmin təsərrüfatın sədri işləmişdir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərbaycan KP MK üzvü, SSRİ Ali Sovetinin (5–6-cı çağırış), Azərb. SSR Ali Sovetinin (2–12-ci çağırış) deputatı, Ali Sovetin Aqrar-sənaye kompleksi komissiyasının üzvü olmuşdur. 6 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı və "Oktyabr İnqilabı ordenləri ilə təltif edilmişdir.

**HASANOVA Gizgayit Salman gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the USSR (5-6th convocations).



**HƏSƏNOVA Məlahət İbrahim qızı** (d. 25.4.1958, Erm. Resp. Basarkeçər r-nunun Kiçik Mərzə k.) — Azərb. Resp. Milli Məclisinin (2-ci çağırış) deputatı, "Parlament qadınları" ictimai birliyinin sədridir (2000 ildən). Azərb. Dövlət Tibb İn-tutunu (1982), Bakı Dövlət Un-tinin hüquq fakültəsini (2000) bitirmişdir. Əmək fəaliyyətinə 1983 ildən Bakının Nizami r-nundakı 19 №-li poliklinikada həkim kimi başlamış, 1988—98 illərdə 17 №-li uşaq poliklinikasında baş həkim işləmiş, 1998—2000 illərdə Azərb. Resp. Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini olmuşdur. Qadın problemlərinə həsr olunmuş 4 kitabın müəllifidir. "Heydər Əliyev və Azərbaycan dövlətçiliyində qadın məsələsi" kitabı Türkiyə Qadınlar Birliyinin mükafatına layiq görülmüşdür (2002).

**HASANOVA Malahat Ibrahim gyzy** — deputy of Milli Mejlis of the Azerb. Repub. (2nd convocation).

**HƏSƏNOVA Məryəm Damad qızı** (d.25.7.1938, Xızı) — Dəvəçi r-nu, Zarat kənd orta məktəbinin direktoru. 1961-ci ildə Bakı Dövlət Universitetini bitirmişdir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur.

**HASANOVA Maryam Damad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (12th convocation).



**HƏSƏNOVA Məryəm Kərim qızı** (d. 1922, Gəncə) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1941 ildən Gəncədəki Nizami ad. təsərrüfatda başlamışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**HASANOVA Maryam Kerim gyzy** — Hero of Socialist Labour.



**HƏSƏNOVA Mülayim Mehdi qızı** (d. 1927, Ağdam) — Sosialist Əməyi Qəhrəmanı (1955). Əmək fəaliyyətinə 1947 ildən Ağdam r-nundakı Natəvan ad. təsərrüfatda başlamışdır. 1954 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**HASANOVA Mulayim Mehdi gyzy** — Hero of Socialist Labour.



**HƏSƏNOVA Reyhaniyyə Ziya qızı** (d.27.2.1942, Tatarıstan Resp., Qızıl Ordu r-nu) — texnika e.d. (1991). Kazan Kimya–Texnologiya İn-tutunu bitirmişdir (1963). Əmək fəaliyyətinə 1963–65 illərdə Sumqayıt sintetik kauçuk zavodunda başlamış, 1965–66 və 1970–72 illərdə Azərb. EA Y.Məmmədəliyev ad. Neft-Kimya Prosesləri İn-tutunda kiçik elmi işçi, 1966–69 illərdə həmin institutun aspirantı, 1970–72 illərdə kiçik elmi işçi, 1972–91 illərdə böyük elmi işçi olmuşdur. 1992 ildən institutun aparıcı elmi işçisidir. Tədqiqatları, əsasən, sintetik və yarımsintetik yağlar və qeyri-ənənəvi üsulla yağların alınmasını təmin edən texnologiyanın işlənib hazırlanmasına həsr edilmişdir. 115 elmi əsəri, o cümlədən 1 monoqrafiya, 24 müəllif şəhadətnaməsi və patenti vardır. Sürtkü yağlarına dair beynəlxalq simpozium və konfranslarda məruzələrlə çıxış etmişdir.

**HASANOVA Reyhaniyya Ziya gyzy** — doctor of technics.



**HƏSƏNOVA Sayad Ədil qızı** (d.18.3.1928, Füzuli r-nunun Dövlətyarlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1939 ildən Füzuli r-nunun təsərrüfatlarında başlamışdır. 1947 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**HASANOVA Sayad Adil gyzy** — Hero of Socialist Labour.



**HƏSƏNOVA Sədaqət Xudu qızı** (d. 1956) — əmək fəaliyyətinə 1974 ildən Gəncə Çörək-Qənnadı Məmulatları Sənayesi İstehsal Birliyində başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq İstehlakı malları və ticarət komissiyasının üzvü olmuşdur.

**HASANOVA Sadagat Khudu gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**HƏSƏNOVA Sədr Səttar qızı** (d. 1956) — əmək fəaliyyətinə 1972 ildən Astara r-nundakı "Kommunist" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**HASANOVA Sadr Sattar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**HƏSƏNOVA Simuzər Əli qızı** (d. 1960) — əmək fəaliyyətinə 1977 ildən Mirbəşir r-nundakı "Pravda" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**HASANOVA Simuzar Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**HƏSƏNOVA Sultanxanım Qüdrət qızı** (d. 1938, Yardımlı r-nunun, Avar k.) — əmək fəaliyyətinə 1952 ildən Yardımlı r-nundakı "28 Aprel" ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur. Oktyabr İnqilabı və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**HASANOVA Sultankhanym Gudrat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HƏSƏNOVA Südabə Cəmşid qızı** (d. 5.2.1947, Naxçıvan MR, Şərur r-nunun Yengicə k.) — Azərb. Resp. Ali Məhkəməsinin sədri (2000 ildən). Azərb. Dövlət Un-tini bitirmişdir (1971). Əmək fəaliyyətinə 1963 ildə Şərur Rayon Xalq Məhkəməsində məhkəmə iclası katibi kimi başlamış, 1971–72 illərdə Abşeron Rayon Xalq Məhkəməsində təcrübəçi-hakim, 1972–73 illərdə Ədliyyə Nazirliyi məhkəmə orqanları idarəsində məsləhətçi, 1973–79 illərdə Binəqədi Rayon Xalq Məhkəməsində xalq hakimi, 1980–87 illərdə Azərb. KP MK-nın inzibati orqanlar şöbəsində təlimatçı, 1987 ildən Ədliyyə nazirinin 1-ci müavini, 1998 ildən Azərb. Resp. Ədliyyə naziri vəzifələrində işləmişdir.



**HASANOVA Sudaba Jamshid gyzy** — Chairman of the Supreme Court of the Azerb. Repub.



**HƏSƏNOVA Sürəyya Lətif qızı** (d. 1937) — əmək fəaliyyətinə 1950 ildən Kəlbəcər r-nundakı H.Hacıyev ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**HASANOVA Surayya Latif gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HƏSƏNOVA Şamama Əbdülhəsən qızı** (d. 1945) — əmək fəaliyyətinə 1961 ildən Astara r-nunun təsərrüfatlarında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**HASANOVA Shamama Abdulhasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HƏSƏNOVA Şamama Mahmudəli qızı** (d. 7.11.1923, Füzuli r-nunun Arayatılı k.) — iki dəfə Sosialist Əməyi Qəhrəmanı (1947, 1950). B.Bağırova ilə birlikdə iki əl ilə pambıq yığımı hərəkatının təşəbbüsçüsü. Ölkədə 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş ilk qadınlardan biri. Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1966). Əmək fəaliyyətinə 1942 ildən Füzuli r-nundakı "1 May" təsərrüfatına rəhbərlik etmişdir. 1953 ildən həmin kolxozun sədri işləmişdir. 1946 və 1949 illərdə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (4–11-ci çağırış), Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı, 1955 ildən AKP MK üzvü seçilmişdir. SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini (1960–74) olmuşdur. 5 dəfə "Lenin ordeni, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir. Arayatılı kndə büstü qoyulmuşdur.

**HASANOVA Shamama Mahmudali gyzy** — Hero of Socialist Labour (twise), deputy of the Supreme Soviet of the USSR (4–11th convocations).





**HƏSƏNOVA Zalxay Mahmud qızı** (d. 31.12.1941, Zaqatala r-nunun Aşağı Tala k.) — Sosialist Əməyi Qəhrəmanı (1975). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1976). Əmək fəaliyyətinə 1958 ildən Zaqatala r-nundakı S.Vurğun ad. təsərrüfatda başlamışdır. 1974 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı, Millətlər Soveti Səhiyyə və sosial təminat komissiyasının Azərb. SSRİ Ali Sovetinin (8–10-cu çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**HASANOVA Zalkhay Mahmud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8–10th convocations).



**HƏSƏNOVA Zəminə Həsən qızı** (d.10.5.1922, Sumqayıtın Corat qəs.) — Sosialist Əməyi Qəhrəmanı (1960). Əmək fəaliyyətinə 1936 ildən ibtidai məktəb müəllimi kimi başlamış, müxtəlif vəzifələrdə, o cümlədən 1952 ildən Azərbaycan boru-prokat zavodunda stan operatoru, usta köməkçisi, usta, baş sinkləyici işləmişdir. SSRİ Ali Sovetinin (6-cı çağırış), Azərb. SSR Ali Sovetinin (6–7-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur. Lenin ordeni, Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir.

**HASANOVA Zamina Hasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6–7th convocations).



**HƏSƏNOVA Zərnigar Qəhrəman qızı** (d. 1949) — əmək fəaliyyətinə 1969 ildən Ağcabədi r-nundakı S.Vurğun ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə komissiyasının üzvü olmuşdur.

**HASANOVA Zarnigar Gahraman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**HƏSƏNOVA Züleyxa Əsgərəli qızı** (d. 31.1.1927, Masallı r-nunun Gəyəçöl k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1941 ildən başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik komissiyasının üzvü olmuşdur.

**HASANOVA Zuleykha Asgerali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HƏSƏNOVA Züleyxa Məhərrəm qızı** (d. 1923) — AKP yanında Ali Partiya Məktəbini bitirmişdir. Əmək fəaliyyətinə 1939 ildən Şuşada toxucu kimi başlamışdır. 1942–45 illərdə İkinci dünya müharibəsinin iştirakçısı olmuş, 1946 ildən rəhbər işlərdə çalışmışdır, 1963–75 illərdə Mingəçevir Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1975 ildən Azərb. Resp. Əhaliyə Məişət Xidməti naziri işləmişdir. Azərb. SSR Ali Sovetinin (7–10-cu çağırış) deputatı olmuşdur.

**HASANOVA Zuleykha Maharram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7–10th convocations).



**HƏSƏNOVA Zümrüd Malik qızı** (d. 1912—) — əmək fəaliyyətinə 1931 ildən başlamış, müxtəlif işlərdə çalışmış, o cümlədən 1953 ildən Goranboy r-nundakı pambıqçılıq təsərrüfatında briqadir işləmişdir. SSRİ Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**HASANOVA Zumrud Malik gyzy** — deputy of the Supreme Soviet of the USSR (5th convocation).



**HƏSƏNOVA–ƏLİYEVA Diləfruz İsaq qızı** (d. 1947) — əmək fəaliyyətinə 1966 ildən Bakıdakı 1№-li tikiş fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**HASANOVA-ALIYEVA Dilafruz Isag gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HİDAYƏTOVA Həcər Baba qızı** (d. 1939) — əmək fəaliyyətinə 1955 ildən başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**HIDAYATOVA Hajar Baba gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HÜMBƏTOVA Məleykə İsa qızı** (d. 17.3.1929, Füzuli r-nunun Babı k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1945 ildən Füzuli r-nunun təsərrüfatlarında başlamışdır. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**HUMBATOVA Maleyka Isa gyzy** — Hero of Socialist Labour.





**HÜMBƏTOVA Sürmayə Adil qızı** (d. 1928) — əmək fəaliyyətinə 1943 ildən başlamış, 1955 ildən Şəki 1№-li baramaaçma fabrikində baramaaçan işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**HUMBATOVA Surmaya Adil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HÜMBƏTOVA Tamara Əhməd qızı** (d. 25.12.1929, Gəncə) — Sosialist Əməyi Qəhrəmanı (1980). İqtisad e.n. (1962). Əmək fəaliyyətinə 1954 ildən başlamışdır. 1963–74 illərdə AKP İsmayıllı Rayon Komitəsinin, 1975–83 illərdə Abşeron Rayon Komitəsinin birinci katibi işləmişdir. Azərb. SSR Ali Sovetinin (9–11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, analar və uşaqları mühafizə komissiyasının sədri olmuşdur. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**HUMBATOVA Tamara Ahmad gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HÜSEYNOVA Abıhəyat Yaqub qızı** (d. 1936) — əmək fəaliyyətinə 1953 ildən Tovuz r-nundakı təsərrüfatda başlamışdır. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı, İttifaq Sovetinin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Abihayat Yaqub gyzy** — deputy of the Supreme Soviet of the USSR (7th convocation).



**HÜSEYNOVA Azadə Cəbrayıl qızı** (d. 2.1.1937, Bakı) – texnika e.d. (1980), prof. (1981). Azərbaycan Sənaye İns-tutu bitirmişdir (1959). AMEA Neft-Kimya Prosesləri İn-tunda laboratoriya müdiridir. Elmi fəaliyyəti neft kimyasının və neft emalının tullantısız texnoloji proseslərinin elmi əsaslarının işlənməsinə, müxtəlif növ neft xammalından olefin karbohidrogenlərin və yüksəkoktanlı etilləşməmiş Aİ–93 benzininin alınmasına, ağır neft xammalını emal etmək üçün yeni texnoloji sistem və katalizatorların yaradılmasına yönəlmişdir. 188 elmi əsərin, o cümlədən 15 ixtiranın və patentin müəllifidir.

**HUSEYNOVA Azada Jabrayil gyzy** — doctor of technics.



**HÜSEYNOVA Dəryaxanım Abbas qızı** (d. 1947) — əmək fəaliyyətinə 1966 ildən "Bakı fəhləsi" zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Ticarət, əhaliyə məişət xidməti və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Daryakhanym Abbas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HÜSEYNOVA Dilarə Əşrəf qızı** (d. 22.8.1941, Bakı) — fizika-riyaziyyat e.d. (1992). Azərbaycan Dövlət Un-tini bitirmişdir (1963). Əmək fəaliyyətinə 1963 ildən Azərb. EA Fizika İn-tunda başlamış, 1993 ildən həmin in-tun aparıcı elmi işçisidir. 70-dən çox elmi məqalənin müəllifidir. Beynəlxalq konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Haqqında "XX əsrin görkəmli şəxsiyyətləri", "XX əsrdə kim kimdir" bioqrafik ensiklopediyalarında məlumatlar verilmişdir.

**HUSEYNOVA Dilara Ashraf gyzy** — doctor of physics and mathematics.





**HÜSEYNOVA Dilşad İbrahim qızı** (d. 1960) — əmək fəaliyyətinə 1977 ildən Astara r-nundakı Azərbaycan SSR-in 50 illiyi ad. təsərrüfatda sağıcı kimi başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Dilshad Ibrahim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**HÜSEYNOVA Dina Sadıq qızı** (4.11.1928, Şamaxı—16.8.1998, Bakı) — tarix e.d. (1993). Azərbaycan Dövlət Un-tini bitirmişdir (1952). Əmək fəaliyyətinə 1952 ildən Azərb. SSR Baş Arxiv İdarəsində başlamış, 1961—1998 illərdə AMEA Tarix İn-tunda kiçik elmi işçi, baş elmi işçi və aparıcı elmi işçi vəzifələrində işləmişdir. Tədqiqatları XIX sonu—XX əsrin əvvəllərində Xəzər gəmiçiliyinin tarixinə, Azərb. ziyalılarının formalaşması və fəaliyyətinin araşdırılmasına həsr olunmuşdur. Çoxcildli "Azərbaycan tarixi"nin IV və V cildlərinin hazırlanmasında iştirak etmişdir. "Azərbaycan ziyalıları (XIX əsrin sonu—XX əsrin əvvəllərində)" və "Əlibəy Hüseynzadə" monoqrafiyalarının müəllifidir.

**HUSEYNOVA Dina Sadyg gyzy** — doctor of history.



**HÜSEYNOVA Eleonora Məcid qızı** (d. 25.7.1947, Bakı) — Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri (1994 ildən). Azərb. Dövlət Xarici Dillər İn-tunu bitirmişdir (1970). Filologiya elmləri namizədidir.

**HUSEYNOVA Eleonora Mejid gyzy** — candidate of philology, ambassador extraordinary and plenipotentiary of the Azerb. Repub. in the Repub. of France.



**HÜSEYNOVA Elmira Mehralı qızı** (12.2.1933, Bakı—24.1.1945, Bakı) — Azərb. heykəltəraşı, əməkdar rəssam (1967). İ.Y. Repin ad. Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İn-tunu bitirmişdir (1960). "Kolxozçu qız" (1957), "Fəhlə" (1958), "Ailə" (1960), "Ana" (1970) və s. əsərlərin müəllifidir. Monumental heykəltəraşlıq sahəsində də fəaliyyət göstərmişdir (Sumqayıtda C. Cabbarlının abidəsi, 1966; Bakıda Azərbaycan Milli Ensiklopediyasının binası qarşısında H. Zərdabinin abidəsi, 1983).

**HUSEYNOVA Elmira Mehraly gyzy** — Honoured Painter of the Azerb. Repub.



**HÜSEYNOVA Fatma Məmməd qızı** (d. 1949) — əmək fəaliyyətinə Saatlı r-nundakı "Moskva" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Gənclər Komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Fatma Memmed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HÜSEYNOVA Fatma Rza qızı** (d. 14.10.1939, Sabirabad r-nunun Abdulyan k.) — Sosialist Əməyi Qəhrəmanı (1981). Azərbaycan Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1982). Əmək fəaliyyətinə 1957-ci ildən Sabirabad r-nundakı Lenin ad. təsərrüfatda başlamışdır. 1980 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, Millətlər Sovetinin Mandat komissiyasının üzvü, Azərb. SSR Ali Sovetinin (9-cu və 11-ci çağırış) deputatı, olmuşdur. 2 dəfə Lenin ordeni, 2 Qırmızı Əmək bayrağı ordeni, 2 "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**HUSEYNOVA Fatma Rza gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the USSR (10th convocation).



**HÜSEYNOVA Güləmbər Məmməd qızı** (d. 1933) — əmək fəaliyyətinə 1955 ildən Mənzil-kommunal kontorunda başlamış, 1970 ildən isə Azneft İstehsalt Birliyinin Neftqazçıxarma idarəsində operator işləmişdir. Yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, İttifaq Sovetinin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Gulambar Memmed gyzy** — deputy of the Supreme Soviet of the USSR (10th convocation).



**HÜSEYNOVA Hicran Kamran qızı** (d. 13.8.1955, Bakı) — siyasi elmlər doktoru (2001). Azərb.-da siyasi elmlər doktoru adını almış ilk qadın. Azərb. Dövlət Un-tini bitirmişdir (1977). Əmək fəaliyyətinə 1977 ildən orta məktəb müəllimi kimi başlamış, 1988 ildə BDU-nun "siyasi tarix" kafedrasında, 1992 ildə Beynəlxalq münasibətlər kafedrasında baş müəllim olmuş, 1993 ildən dosentidir. 1999 ildən Azərb. Resp. Qadın Problemləri üzrə Dövlət Komitəsinin "Beynəlxalq əlaqələr və informasiya" şöbəsinin müdiri, 2000 ildən BDU-nun beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin elmi işlər üzrə dekan müavinidir. Tədqiqatları müasir beynəlxalq münasibətlər, beynəlxalq münasibətlərdə lobbizm, müasir inteqrasiya prosesləri mövzularına həsr olunmuşdur. 20-dən çox elmi əsərin, bir sıra metodiki vəsaitin müəllifidir.

**HUSEYNOVA Hijran Kamran gyzy** — doctor of politics.



**HÜSEYNOVA Humay Qərib qızı** (d. 1959) — əmək fəaliyyətinə 1978 ildən Gəncə xalça-mahud kombinatında toxucu kimi başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Humay Qarib gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**HÜSEYNOVA Humay Məşədi Mehdiqulu qızı** (d. 25.4.1924, Quba) — Sosialist Əməyi Qəhrəmanı (1980). Azərb. SSR Dövlət mükafatı laureatı (1978). Əmək fəaliyyətinə 1946 ildən başlamışdır. 1957 ildən Bakı Biskvit f-kinin Şərq şirniyyatı sexində çalışmışdır. 2 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**HUSEYNOVA Humay Mehdigulu gyzy** — Hero of Socialist Labour.



**HÜSEYNOVA Xalidə Abbasqulu qızı** (d. 1947) — əmək fəaliyyətinə 1964 ildən Salyan r-nundakı "Yeni Muğan" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı olmuşdur.

**HUSEYNOVA Khalida Abbasgulu gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**HÜSEYNOVA Xavər Teymur qızı** (d. 1942) — Azərbaycan Dövlət Un-tini bitirmişdir. Əmək fəaliyyətinə 1961 ildən başlamış, Azərb. Dövlət Un-tində, EA-nın Kibernetika İn-tutunda işləmiş, 1971 ildən orta məktəbdə müəllimlik etmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Khaver Teymur gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).





**HÜSEYNOVA Kifayət Abbas qızı** (d. 1962) — əmək fəaliyyətinə 1981 ildən Gəncə Çörək-Qənnadı Sənayesi İstehsal Birliyində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Aqrar - sənaye kompleksi komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Kifayat Abbas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**HÜSEYNOVA Qənirə Yusif qızı** (d. 1940) — əmək fəaliyyətinə 1959 ildən Gəncə ş.-dəki S. Orconikidze ad. Toxuculuq kombinatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Qanira Yusif gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HÜSEYNOVA Lətifə Müseyib qızı** (d. 19.12.1925, Bakı) — tibb e.d. (1969), prof. (1970). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1949). 1949—53 illərdə in-tutun hospital pediatriya kafedrasında kliniki ordinator, 1953—60 illərdə laborant, 1960—1968 illərdə assistent, 1968—70 illərdə dosent, 1970 ildə prof., 1970—87 illərdə 3-cü uşaq xəstəlikləri kafedrasının müdiri olmuş, 1987 ildən isə müalicə-profilaktika fakültəsinin uşaq xəstəlikləri kafedrasında prof. vəzifəsində işləyir. Tədqiqatı uşaq orqanizminin normal və patologiyasında yaş xüsusiyyətlərinə aiddir. 170-dək elmi məqalənin, o cümlədən dərs vəsaitlərinin, metodik tövsiyələrin müəllifidir.

**HUSEYNOVA Latifa Museyib gyzy** — doctor of medicine.



**HÜSEYNOVA Maral Mənsim qızı** (d. 1941) — Azərb. çay ustası. Əmək fəaliyyətinə 1958 ildən başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-9-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Maral Mansim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8—9th convocations).



**HÜSEYNOVA Maya Mirzə qızı** (d. 1939) — əmək fəaliyyətinə 1957 ildən Bakı modelli ayaqqabı fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Plan -büdcə komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Maya Mirza gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**HÜSEYNOVA Nailə Əli qızı** — Beyləqan r-nundakı "Bakı" təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur.

**HUSEYNOVA Naila Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (12th convocation).



**HÜSEYNOVA Nərgiz Mirbağır qızı** (d. 1.6.1944, Bakı) — tibb e.d. (1990), prof. (1993). Azərb. Dövlət Tibb İn-tutunu bitirmişdir (1967). 1967 ildən Caparidze ad. şəhər kliniki xəstəxanasının uşaq şöbəsində həkim-ordinator, 1976—1989 illərdə Ana və Uşaqların Mühafizəsi Elmi-Tədqiqat İn-tunda baş elmi işçi işləmişdir. 105-dən artıq elmi işin, o cümlədən 1 dərslik, 1 məlumat kitabı, 1 testlər kitabı, 3 metodiki göstəriş, 12 səmərələşdirici təklifin müəllifidir.

**HUSEYNOVA Nargiz Mirbagyr gyzy** — doctor of medicine.



**HÜSEYNOVA Nəsibə Ağaismayıl qızı.** (d. 25.1.1926, Bakı) — tibb e.d. (1969), prof. (1970), əməkdar həkim (1990). Azərb. Dövlət Tibb İn-tutuna daxil olmuş (1943), Moskvadakı N.İ. Piroqov ad. II-ci Tibb İn-tutunu bitirmişdir (1948). 1948 ildən Azərb. Dövlət Tibb İn-tutunun uşaq xəstəliklərinin propedevtikası kafedrasının kliniki ordinatoru, 1950—51 illərdə Laçın ş.-dəki qadın və uşaq məsləhətxanasının müdiri, 1955—59 illərdə Ana və Uşaqların Mühafizəsi Elmi-Tədqiqat İn-tunda baş elmi işçi, şöbə müdiri, 1959 ildən ATİ-nin hospital pediatriya kafedrasının dosenti, 1969 ildən həmin kafedranın prof., 1970—92 illərdə ATİ-nin müalicə-profilaktika fakültəsinin uşaq xəstəlikləri kafedrasının müdiri olmuş, 1992 ildən həmin kafedranın prof. vəzifəsində işləyir. 1971—76 illərdə Bakı ş.-nin baş pediatrı, 1976 ildən Azərb. Resp. Səhiyyə nazirliyinin baş uşaq qastroenteroloqudur. Tədqiqatı uşaqların qidalanması məsələlərinə aiddir. 200-dən artıq elmi məqalənin və metodiki tövsiyələrin müəllifidir.

**HUSEYNOVA Nasiba Agaismayil gyzy** — doctor of medicine, Honoured Physician of the Azerb. Repub.



**HÜSEYNOVA Növrəstə Bağır qızı** (1905, Nax. MR, Şərur r-nunun Qarabağlar k. — 3.2.1982, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1933 ildən Şərur r-nundakı K. Marks ad. təsərrüfatda başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**HUSEYNOVA Novrasta Bagyr gyzy** — Hero of Socialist Labour.





**HÜSEYNOVA Rəfiqə Həsən qızı** (d. 1935) — əmək fəaliyyətinə 1958 ildən Sumqayıt ş-indəki sintetik kauçuk zavodunda laborant kimi başlamışdır. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni ilə təltif edilmşidir.

**HUSEYNOVA Rafiga Hasan gyzy** — deputy of the Supreme Soviet of the USSR (8th convocation).



**HÜSEYNOVA Rəhilə Allahverdi qızı** (d. 1948, Göyçay r-nunun Potu k.) — əmək fəaliyyətinə 1963 ildə Kalinin ad. təsərrüfatda başlamışdır. Azərb. Dövlət Kənd, Təsərrüfatı İn-tunu bitirmişdir (1981). Azərb. SSR Ali Sovetinin (9-10-cu çağırış) deputatı, Ali Sovetin mənzil-kommunal təsərrüfatı və məişət xidməti komissiyasının üzvü, Azərb. KP MK-nın üzvü olmuşdur.

**HUSEYNOVA Rahila Allahverdi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9–10th convocations).



**HÜSEYNOVA Sofya Həsən qızı** (d. 17.2.1926, Bakı) — Azərb. Resp. xalq artisti (1982). 1942 ildən C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləyir. Klassik və müasir dramaturqların əsərlərində müxtəlif səpkili obrazlar yaratmışdır: Kruçinina, Larisa ("Günahsız müqəssirlər", "Cehizsiz qız", A. Ostrovski), Xuraman ("Vaqif", S. Vurğun), Sara ("Solğun çiçəklər", C.Cabbarlı), Tərgül ("Məhsəti", K. Ağayeva), Nərminə ("Göz həkimi", İ. Səfərli) və s. Azərb-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**HUSEYNOVA Sofya Hasan gyzy** — People's Artist of the Azerb. Repub.



**HÜSEYNOVA Sona Şirəli qızı** (d. 1936) — əmək fəaliyyətinə 1953 ildən başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Sona Shirali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HÜSEYNOVA Şəfiqə Müslüm qızı** (d. 1938) — əmək fəaliyyətinə 1964 ildən Gəncə xalça kombinatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə, ictimai təminat, bədən tərbiyəsi və idman komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Shafiga Muslum gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**HÜSEYNOVA Tamara Hacıbaba qızı** (d. 14.12.1937, Quba) — tibb e.d. (1975), prof. (1982). Stomatologiya sahəsində azərb.-lı qadınlar arasında ilk tibb e. d. Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1960). 1976 ildən Ə.Əliyev ad. Azərb. Dövlət Həkimləri Təkmilləşdirmə İn-tunun prorektoru, 1981 ildən N.Nərimanov ad. Azərb. Dövlət Tibb İn-tunun cərrahi stomatologiya kafedrasının müdiri olmuş, 1985 ildən stomatologiya kafedrasının müdiri, kafedranın prof. vəzifəsində işləyir. Tədqiqatı, əsasən, Azərb.-ın qədim sakinlərinin diş-çənə sisteminin və üz-çənə nahiyəsinin odontogen iltihabı proseslərinə həsr olunmuşdur. Beynəlxalq konqreslərdə elmi məruzələrlə çıxış etmişdir. 167 elmi işin müəllifidir.

**HUSEYNOVA Tamara Hajibaba gyzy** — doctor of medicine.



**HÜSEYNOVA Zenfira Həmzəxan qızı** (d. 1953) — əmək fəaliyyətinə 1969-ci ildən Lerik r-nundakı Engels ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Zenfira Hamzakhan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**HÜSEYNOVA Zərnişan Bayram qızı** (d. 1963) — əmək fəaliyyətinə 1979-cu ildən Abşeron r-nundakı, S. Əliyev ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**HUSEYNOVA Zarnishan Bayram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**HÜSEYNOVA Züleyxa İsmayıl qızı** (29.5.1924, Bakı—24.5.1996, Bakı) — İctimai və dövlət xadimi. Texnika e.n., prof. Azərb. Sənaye İn-un bitirmişdir. Əmək fəaliyyətinə 1952 ildən Energetika İn-unda başlamış, müxtəlif vəzifələrdə, o cümlədən Ali və Orta ixtisas təhsili komitəsinin sədri, Azərb. SSR Ali və Orta İxtisas Təhsili naziri (1965), Azərb. Həmkarlar İttifaqları Şurasının sədri (1970) olmuşdur. SSRİ Ali Sovetinin (7—8-ci çağırış) deputatı, Millətlər Sovetinin Gənclərlə iş üzrə komissiyası sədrinin müavini, SSRİ Parlament qrupu komissiyasının üzvü, Azərb. KP MK-nın üzvü olmuşdur.

**HUSEYNOVA Zuleykha Ismayil gyzy** — Minister of Higher and Secondary Educational Establishment of the Azerb. SSR, deputy of the Supreme Soviet of the USSR (7–8th convocations).





**HÜSEYNOVA Zülfiyyə Yusif qızı** (d. 15.10.1970, Beyləqan r-nu) — sambo üzrə 5 qat dünya, 2 qat Avropa çempionu, hərbçilərin Olimpiya və dünya çempionu, tələbələr arasında dünya çempionu. Dəfələrlə beynəlxalq turnirlərin qalibi və mükafatçısı olmuşdur.Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu (1994), Azərb. Dövlət Un-tinin hüquq fakültəsini (1998) bitirmişdir. Bakı Baş Gömrük İdarəsinin Qaçalmalçılıqla mübarizə şöbəsində inspektor vəzifəsində işləyir.

**HUSEYNOVA Zulfiyya Yusif gyzy** — world champion on unarmed self-defence.



**HÜSNÜNOVA Mahirə Əkbər qızı** (d. 1962) — əmək fəaliyyətinə 1978 ildən Masallı r-nundakı "1 May" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**HUSEYNOVA Mahira Akper gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



# X

**XANLAROVA Anaxanım Hüseyn qızı** (d. 28.10.1915, Bakı) —Texnika e.d. (1969), prof. (1970). 1940—45 illərdə SSRİ EA Azərb. Filialının Kimya İn-tunda kiçik elmi işçi, 1945—52 illərdə Azərb. SSR EA Neft İn-tunda baş elmi işçi, laboratoriya müdiri, Qeyri-üzvi və Fiziki kimya İn-tunda laboratoriya müdiri (1968—71), Dənizneftqazelmilayihə İn-tunda korroziya laboratoriyasının (1952—68) və korroziya şöbəsinin müdiri (1971—80), 1980 ildən in-tun elmi-texniki şöbəsinin korroziya üzrə baş mütəxəssisi işləmişdir. Tədqiqatı metalları dəniz korroziyasına, metal və qeyri-metal əsaslı örtüklərin yaradılması və tətbiqinə həsr olunmuşdur.



**KHANLAROVA Anakhanym Huseyn gyzy** — doctor of technics.

**XANLAROVA Zeynəb Yəhya qızı** (d. 28.12.1936, Bakı) — Azərb. müğənnisi, xanəndə. Azərb. Resp. xalq artisti (1975). SSRİ xalq artisti (1980). Azərb. SSR Dövlət mükafatı laureatı (1985). M.Ə. Sabir ad. Bakı Pedaqoji məktəbini (1956) və A.Zeynallı ad. Bakı Musiqi Texnikumunu (1961) bitirmişdir. 1961 ildən opera və balet teatrının solistidir. Ü. Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında Leyli və Əsli obrazlarını yaratmışdır. Repertuarında muğam (Şahnaz, Mahur, Qatar, Bayatı-Şiraz və s.), təsnif və Azərb. xalq mahnıları, Azərb. bəstəkarlarının (Q. Qarayev, F. Əmirov, T. Quliyev, C. Cahangirov, A. Məlikov, E. Sabitoğlu, Ə. Tağıyev və b.) və Şərq xalqlarının mahnıları geniş yer tutur. Azərb. qadın xanəndələri içərisində "Çahargah" muğamının ilk ifaçılarındandır. O, həmçinin bir sıra mahnıların müəllifidir. Dünyanın əksər ölkələrində konsertlər vermişdir. Haqqında "Salam, Zeynəb!" adlı sənədli televiziya filmi çəkilmişdir. Azərb. SSR Ali Sovetinin (11—12-ci çağırış) deputatı olmuş, Azərb. Resp. Milli Məclisinin (1—2-ci çağırış) deputatıdır. Azərb-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.



**KHANLAROVA Zeynab Yahya gyzy** — People's Artist of the USSR, deputy of the Milli Mejlis of the Azerb. Repub. (1st and 2st convocations).



**XANMƏMMƏDOVA Səmayə Rizvan qızı** (d. 1938) — əmək fəaliyyətinə 1963-cü ildən Neftçala r-nundakı balıq kombinatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin təbiəti mühafizə komissiyasının üzvü olmuşdur.

**KHANMEMMEDOVA Samaya Rizvan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**XƏLƏFOVA Fəxriyyə Rafiq qızı** (d.31.12.1969, Bakı) - Azərbaycan modelyeri. Azərb. Dövlət Un-tini (1990), aspiraturanı (1994), Türkiyə Ali İxtisaslaşdırılmış Bədii Dizayn Məktəbini (1997) bitirmişdir. 1988 ildən peşəkar modelyer kimi moda sahəsində fəaliyyət göstərir. "Sirr", "Neft ilahəsi", "Ays", "Ümid ritmləri" kimi moda kolleksiyaları Rusiya, Qazaxıstan, Gürcüstan, Belorus və Almaniyada nümayiş etdirilmişdir. "EKSPO-2000" Ümumdünya sərgisində və bir sıra beynəlxalq moda müsabiqələrində münsiflər heyətinin üzvü və sədri olmuşdur. Beynəlxalq müsabiqələrdə diplom və mükafatlara layiq görülmüşdür.

**KHALAFOVA Fakhriyya Rafig gyzy** – Azerb. modelyer.



**XƏLİLOVA Anası Xıdır qızı** (d. 1921) — əmək fəaliyyətinə 1938 ildə Ağdaş r-nunun "Zəhmət" təsərrüfatında başlamışdır. 1962 ildə SSRİ Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**KHALİLOVA Anasy Khydyr gyzy** — deputy of the Supreme Soviet of the USSR (6th convocation).





**XƏLİLOVA Firəngiz Məmmədəli qızı** (d. 1928) — Gəncə Pedaqoji İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1952 ildən müəllim kimi başlamışdır. SSRİ Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**KHALILOVA Firangiz Memmedali gyzy** — deputy of the Supreme Soviet of the USSR (5th convocation).



**XƏLİLOVA Gülyaz Mahmud qızı** (d. 1954) — əmək fəaliyyətinə 1973 ildə Gürcüstan SSR-in Marneuli r-nundakı Sadaxlı tütünçülük təsərrüfatında başlamışdır. Gürcüstan SSR-dən SSRİ Ali Sovetinə (10-cu çağırış) deputat seçilmişdir.

**KHALILOVA Gulyaz Mahmud gyzy** — deputy of the Supreme Soviet of the USSR (10th convocation).

**XƏLİLOVA Məlahət Xəlil qızı** (d. 1951) — Azərb. KP Ağdaş RK-nın birinci katibi (1982–87) işləmişdir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur.

**KHALİLOVA Malahat Khalil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (12th convocation).



**XƏLİLOVA Solmaz Musa qızı** (d. 8.8.1942, Astara r-nunun Pensər k.) — əmək fəaliyyətinə 1960 ildən başlamış, müxtəlif işlərdə çalışmışdır. Azərb. KP MK üzvü, SSRİ Ali Sovetinin, Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur. III dərəcəli Əmək şöhrəti ordeni ilə təltif edilmişdir.

**KHALILOVA Solmaz Musa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (2 nd and 11th convocations).



**XƏLİLOVA Şəfiqə Məsmalı qızı** (d. 1936) — əmək fəaliyyətinə 1953 ildən Qazax r-nundakı Lenin ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**KHALILOVA Shafiga Mesmaly gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**XƏLİLOVA Şükufə Xankişi qızı** (d. 1956) — əmək fəaliyyətinə 1973 ildən Xaçmaz konserv kombinatında başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, Millətlər Sovetinin Gənclərlə iş üzrə komissiyasının üzvü olmuşdur.

**KHALILOVA Shukufa Khankishi gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).



**XƏLİLOVA Tamilla Əbdülməcid qızı** (29.5.1940, Bakı) — filologiya e.d. (1987), prof. (1990). Azərb. Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tunu bitirmişdir (1964). 1966—90 illərdə Azərb. Tibb Un-tinin rus dili kafedrasında müəllim, baş müəllim, dosent, professor vəzifələrində işləmiş, 1992 ildən həmin kafedranın müdiridir. 80-dən çox elmi əsərin, o cümlədən 4 monoqrafiya, dərslik və dərs vəsaitlərinin müəllifidir. Beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir.

**KHALILOVA Tamilla Abdulmejid gyzy** — doctor of philology.





**XƏLİLOVA Yasəmən Süleyman qızı** (d. 1963, Salyan r-nunun Ptatman Gəncəli k.) — 1990 ildə Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1977 ildən Salyan r-nundakı "Yeni Muğan" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**KHALILOVA Yasemen Suleyman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**XƏLİLOVA Zərifə Məmmədəli qızı** (d. 1932) — əmək fəaliyyətinə 1959-cu ildən başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı olmuşdur.

**KHALILOVA Zarifa Memmedali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**XLEBUNOVA Qalina Nikolayevna** (d. 1941) — əmək fəaliyyətinə 1959 ildən başlamış, müxtəlif işlərdə çalışmışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**KHLEBUNOVA Galina Nikolayevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**XUDAVERDİYEVA Günəş Məmməd qızı** (d. 10.5.1941, Ağstafa r-nunun Qıraq Kəsəmən k.) — Azərb. Resp. Ali Məhkəməsinin üzvü (2000 ildən). Azərb. Dövlət Un-tinin hüquq fakültəsini bitirmişdir (1966). 1975 ildən Azərb. SSR Ali Məhkəməsinin üzvü, 1980 ildən Ədliyyə Nazirliyində məhkəmə orqanları idarəsinin məsləhətçisi, 1992 ildən Bakı şəhər məhkəməsinin üzvü işləmişdir.

**KHUDAVERDIYEVA Gunesh Memmed gyzy** — member of the Supreme Court of the Azerb. Repub.



**XUDAYAROVA Tovuz Vəli qızı** (d. 1950) — əmək fəaliyyətinə Naxçıvan tikiş fabrikində başlamışdır. SSRİ Ali Sovetinin (9 və 10-cu çağırış) deputatı, Millətlər Sovetinin Xalq istehlakı malları və ticarət komissiyasının üzvü olmuşdur.

**KHUDAYAROVA Tovuz Veli gyzy** —deputy of the Supreme Soviet of the USSR (9–10th convocation).



**XUTRAYEVA Müzalifə Məhəmməd qızı** (d. 10.3.1920, Balakən r-nunun Qaravəli k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə Balakən r-nunun M.V. Qasımov ad. təsərrüfatında başlamış, 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**KHUTRAYEVA Muzalifa Mahammad gyzy** — Hero of Socialist Labour.



# İ

**İBRAHİMXƏLİLOVA Qəribə Süleyman qızı** (d. 3.3.1929, Şəki r-nunun Orta Zəyid k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1947 ildən Şəki r-nundakı Lenin ad. təsərrüfatda başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**IBRAHIMKHALILOVA Gariba Suleyman gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).



**İBRAHİMLİ Fikriyyə İbrahim qızı** (d. 15.6.1955, Naxçıvan) — tibb e.d. (1993). Azərb. Dövlət Tibb Un-tini bitirmişdir (1978). Əmək fəaliyyətinə 1978 ildən 1 №-li Bakı şəhər kliniki xəstəxanasında başlamış, Azərb. Dövlət Tibb İn-tunun mərkəzi elmi-tədqiqat laboratoriyasında həkim-laborant (1982-83), kiçik elmi işçi (1983-88) olmuşdur. 1988 ildən şöbə müdiridir. O, həmçinin Azərbaycan Tibb Un-tində kliniki farmakologiya kafedrasının prof.-dur (1996 ildən). Tədqiqatı patoloji fiziologiya və daxili xəstəliklər sahəsinə aiddir.

**IBRAHIMLI Fikriyya Ibrahim gyzy** — doctor of medicine.





**İBRAHİMOVA Ballı Müseyib qızı** (d.1941) — əmək fəaliyyətinə 1958 ildən Tovuz r-nundakı Telman ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**IBRAHIMOVA Bally Museyib gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**İBRAHİMOVA Bilqeyis İsmayıl qızı** (9.7.1917, Çita vil.-nin Ust-Karsk k.—9.7.1981, Bakı) — tibb e.d., prof. (1970). Azərb. Dövlət Tibb İn-tunun II fakultativ terapiya kafedrasının müdiri işləmişdir (1970 ildən). Tədqiqatı mədə-bağırsaq xəstəliklərinə, əsasən, mədə xorası məsələlərinə həsr olunmuşdur.

**IBRAHIMOVA Bilgeyis Ismayil gyzy** — doctor of medicine.



**İBRAHİMOVA Fatma Məhərrəm qızı** (d.1959) — əmək fəaliyyətinə 1975 ildən Lenin ad. Şəki İpək İstehsal Birliyində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**IBRAHIMOVA Fatma Maharram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**İBRAHİMOVA Gülüstan Xudu qızı** (d. 1955, Masallı r-nunun Bambaşı k.) — əmək fəaliyyətinə 1972 ildən Masallı r-nunun Bambaşı k.-də başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, anaları və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**IBRAHIMOVA Gulustan Khudu gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**İBRAHİMOVA Xoşqədəm Şaban qızı** (d. 1962) — əmək fəaliyyətinə 1979 ildən Yevlax r-nundakı "Qələbə" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**IBRAHIMOVA Khoshgadam Shaban gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**İBRAHİMOVA Münəvvər Cəfər qızı** (d.5.5.1946, Quba r-nunun Xucbala k.) — kimya e.d. (2000). Azərb. Dövlət Un-tinin kimya fakültəsini bitirmişdir. AMEA Neft-Kimya Prosesləri İn-tunda baş laborant, kiçik elmi işçi (1974-85) işləmiş, 1985 ildən in-tun baş elmi işçisidir. Tədqiqatı reaksiyaya qabil oliqomerlərin, o cümlədən doymamış oliqoefirlərin müxtəlif katalitik sistemlərin iştirakı ilə sintezi, kimyəvi çevrilmələri, alınan məhsulların fiziki-mexaniki xassələrinin öyrənilməsi sahəsinə aiddir. 65 elmi əsəri, o cümlədən 1 patent və 12 müəlliflik şəhadətnaməsi vardır.

**IBRAHIMOVA Munavvar Jafar gyzy** — doctor of chemistry.





**İBRAHİMOVA Rəhilə Adıgözəl qızı** (d. 1934) — əmək fəaliyyətinə Ə.Qarayev ad. Bakı neftayırma zavodunda başlamışdır. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı, İttifaq Sovetinin Təbiəti mühafizə komissiyasının üzvü olmuşdur.

**IBRAHIMOVA Rahila Adygozal gyzy** — deputy of the Supreme Soviet of the USSR (8th convocation).



**İBRAHİMOVA Səkinə Həbib qızı** (d. 1960, Naxçıvan MR) — əmək fəaliyyətinə 1977 ildən Şərur r-nunun Dimitrov ad. təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**IBRAHIMOVA Sakina Habib gyzy** — deputy of the Supremew Soviet of the Azerb. SSR (11th convocation).



**İBRAHİMOVA Solmaz Zeynal qızı** (d.1928) — Azərb. Dövlət Pedaqoji Dillər İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1955 ildən Sumqayıtın Corat qəsəbəsində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**IBRAHIMOVA Solmaz Zeynal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).





**İBRAHİMOVA Şərqiyyə Allahverdi qızı** (d. 1944) — əmək fəaliyyətinə 1959 ildən Lənkəran tədarük kontorunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7–8-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**IBRAHIMOVA Shargiyya Allahverdi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7–8th convocations).

**İBRAHİMOVA Züleyxa Qasım qızı** (1878, Ağdam r-nunun Gülablı k. — 22.1.1972, Bərdə r-nunun Türkmən k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Bərdə r-nundakı Türkmən k.-ndəki "Şərq" təsərrüfatında 1940–50 illərdə işləmiş, 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**IBRAHIMOVA Zuleykha Gasym gyzy** — Hero of Socialist Labour.



**İMAMƏLİYEVA Gülzar Manaf qızı** (5.12.1907, Qroznı ş.—1997) — tibb e.d. (1966), prof. (1967). Cənubi Qafqazda brusellyoz xəstəliyini öyrənən ilk azərb. qadın alim. Azərb. Dövlət Tibb İn-tunun infeksion xəstəliklər kafedrasının müdiri (1973 ildən) işləmişdir. Tədqiqatı, əsasən, brusellyoz xəstəliyinin və endemik qayıdan yatalağın müalicəsi və profilaktikasına həsr olunmuşdur. 113-dən çox elmi işin, o cümlədən 2 monoqrafiyanın müəllifidir.

**IMAMALIYEVA Gulzar Manaf gyzy** — doctor of medicine.



**İMAMQULİYEVA Fatma Məhərrəm qızı** (15.6.1923, Şahbuz r-nunun Şahbuz k., 2002, orada) — Sosialist Əməyi Qəhrəmanı (1950). Şahbuz və Şərur rayonlarının müxtəlif təsərrüfatlarında işləmişdir. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur.

**IMAMGULIYEVA Fatma Maharram gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (3 rd convocation).



**İMAMVERDİYEVA Tərlan Nəsib qızı** (d. 1956) — əmək fəaliyyətinə 1974 ildə Babək r-nundakı "Naxçıvan" üzümçülük təsərrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, Millətlər Sovetinin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**IMAMVERDIYEVA Tarlan Nasib gyzy** — deputy of the Supreme Soviet of the USSR (10th convocation).



**İMANQULİYEVA Aida Nəsir qızı** (10.10.1939, Bakı — 19.9.1992, Bakı) — filologiya e.d. (1988), prof, (1991). Azərb. EA Şərqşünaslıq İn-tunda baş elmi işçi, ərəb filologiyası şöbəsinin müdiri (1976-88), həmin in-tun direktor müavini və direktoru (1988-1992) işləmişdir. Müasir ərəb əd-tının tarixi və nəzəri problemlərinə, görkəmli nümayəndələrinin həyat və yaradıcılığına, ərəb — Qərbi Avropa, rus, habelə Azərb. ədəbi əlaqələrinə dair tədqiqatların müəllifidir. Bir sıra beynəlxalq elmi məclislərdə iştirak etmişdir.

**IMAMGULIYEVA Aida Nasir gyzy** — doctor of philology.



**İMANOVA Səkinə Dadaş qızı** (12.8.1908, Ağdam r-nunun Qaradağlı k. — 12.8.1975, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1932 ildən Ağdam r-nundakı Telman ad. təsərrüfatda başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**IMANOVA Sakina Dadash gyzy** — Hero of Socialist Labour.



**İSABABAYEVA Həcər Muştaq qızı** (d. 1.6.1938, Bakı) — Sosialist Əməyi Qəhrəmanı (1977). Əmək fəaliyyətinə 1953 ildən Bakının Yasamal r-nundakı 9 №-li rabitə şöbəsində başlamışdır. Lenin ordeni ilə təltif edilmişdir.

**ISABABAYEVA Hajar Mushtag gyzy** — Hero of Socialisr Labour.



**İSAYEVA Şəkər Allahverən qızı** (d.1933) — əmək fəaliyyətinə 1952 ildən Goranboy r-nunun təsərrüfatlarında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**ISAYEVA Shakar Allahveren gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**İSGƏNDƏROVA Ayna Heybət qızı** (d.1957) — əmək fəaliyyətinə 1977 ildən Xaçmaz r-nundakı "Xəzər" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur.

**ISGENDEROVA Ayna Heybat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**İSGƏNDƏRZADƏ Zərifə Əlirza qızı** (d. 22.7.1935, Bakı) — fizika-riyaziyyat e.d. (1973), prof. (1982). M.V.Lomonosov ad. Moskva Dövlət Un-tini bitirmişdir (1959). 1959—80 illərdə Azərb. EA-nın Fizika İn-tunda işləmiş (1970 ildən laboratoriya müdiri), 1980 ildən Azərb. Texniki Un-tinin Yarımkeçiricilər və dielektriklər kafedrasının, 1991 ildən Mikro-elektronika və tətbiqi fizika kafedrasının müdiri, 1995-2000 illərdə un-tin elm və texnika üzrə prorektoru işləmiş, 2000 ildən Elektronika kafedrasının müdiridir. Tədqiqatları yarımkeçirici cihazlar fizikası, bərk cisim elektronikası, mikroelektronikanın fiziki əsasları və s. sahəsindədir.

**ISGENDERZADE Zarifa Alirza gyzy** — doctor of physics and mathematics.



**İSLAMOVA Xalidə Səfərəli qızı** (d. 1957, Xızı r-nu) — Azərb. Texnologiya İn-tunu bitirmişdir (1986). Əmək fəaliyyətinə 1974 ildən Sumqayıt kompressor zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal təsərrüfatı və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**ISLAMOVA Khalida Safarali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**İSMAYILOVA Ballı Əli qızı** (d. 1927) — əmək fəaliyyətinə 1943 ildən başlamış, Kürdəmir r-nunun müxtəlif təsərrüfatlarında işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**ISMAYILOVA Bally Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**İSMAYILOVA Ceyran Əziz qızı** (d.1949) — əmək fəaliyyətinə 1968 ildən Gədəbəy r-nundakı "Moskva" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**ISMAYILOVA Jeyran Aziz gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**İSMAYILOVA Çimnazxanım Bərnəli qızı** (d. 1952, Bakı) — Azərb. Neft və Kimya İn-tunu bitirmişdir (1988). Əmək fəaliyyətinə "Balaxanıneft" NQÇİ-də başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-11-ci çağırış) deputatı, Ali Sovetin Aqrar-sənaye komissiyasının üzvü olmuşdur.

**ISMAYILOVA Chimnazkhanym Bernaly gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9–11th convocations).





**İSMAYILOVA Gülidə Şamil qızı** (d.1953) — əmək fəaliyyətinə 1972 ildən Bərdə r-nundakı M.Əzizbəyov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**ISMAYILOVA Gulida Shamil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**İSMAYILOVA Naibə İsmayıl qızı** (d.1950, Göyçay r-nunun Mallı Şıxlı k.) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1981). Əmək fəaliyyətinə 1966 ildən Göyçay r-nunun "Azərbaycan" təsərrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (9–10-cu çağırış) deputatı, Millətlər Sovetinin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur. Xalqlar dostluğu, Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**ISMAYILOVA Naiba Ismayil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9–10th convocations).



**İSMAYILOVA Ramizə Zülfüqar qızı** (d. 1929) Azərb. Dövlət Un-tini bitirmişdir. Əmək fəaliyyətinə Bakı ş.-dəki 190 №-li orta məktəbdə başlamışdır. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı, Millətlər Sovetinin Qanunvericilik aktları komissiyasının üzvü olmuşdur.

**ISMAYILOVA Ramiza Zulfugar gyzy** — deputy of the Supreme Soviet of the USSR (8th convocation).





**İSMAYILOVA Səkinə Qulu qızı** (d.4.2.1956, Bakı) — Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (1992). A. Zeynallı ad. Bakı Musiqi Texnikumunu bitirmişdir (1978). 1980 ildən Azərb. Opera və Balet Teatrının solistidir. Partiyaları: Leyli, Əsli ("Leyli və Məcnun", "Əsli və Kərəm", Ü. Hacıbəyli), Cülbahar ("Gəlin qayası", Ş.Axundova), Şahsənəm ("Aşıq Qərib", Z.Hacıbəyli), Ərəbzəngi ("Şah İsmayıl", M.Maqomayev) və s. Repertuarında muğam (Segah, Qatar, Simayi-şəms və s.), təsnif və xalq mahnıları geniş yer tutur. Xarici ölkələrdə (Fransa, Belçika, Lüksemburq, Avstriya, Yaponiya, Türkiyə, Hindistan, İsveç, Almaniya və s.) çıxış etmişdir.

**ISMAYILOVA Sakina Gulu gyzy** — People's Artist of the Azerb. Repub.



**İSMAYILOVA Sodar Məbud qızı** (d. 15.3.1930, Şəki r-nunun Baş Zəyzit k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1946 ildən Baş Zəyzit k.-ndəki "Şəfəq" təsərrüfatında başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ISMAYILOVA Sodar Mabud gyzy** — Hero of Socialist Labour.



**İSMAYILOVA Sona Əhməd qızı** (d. 1.1.1927, Tərtər r-nunun Qaraağacı k.—1989, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1936 ildən Tərtər r-nunun Qaraağacı k.-ndəki "Bakı fəhləsi" təsərrüfatında başlamışdır. 1948 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ISMAYILOVA Sona Ahmad gyzy** — Hero of Socialist Labour.



**İSMAYILOVA Tahirə Səfər qızı** (d. 1957) — əmək fəaliyyətinə 1972 ildən Lənkəran r-nundakı Puşkin ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**ISMAYILOVA Tahira Safar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocatiion).



**İSMAYILOVA Tükəzban Məhərrəm qızı** (d. 21.12.1923, Bakı) — Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (1993). Bakı Musiqi Texnikumunu bitirmişdir (1942). Azərb. Dövlət Filarmoniyasının (1939-46, 1949-78), Azərb. Radio Verilişləri Komitəsi xorunun solisti (1946-49) olmuşdur. 1978 ildən Azərb. Dövlət Qastrol-Konsert Birliyinin solistidir. Repertuarında muğam, təsnif, xalq mahnıları ("Kürdün gözəli", "Yeri, dam üstə yeri", "Qarabağ şikəstəsi", "Qaragöz" və s.) və Azərb. bəstəkarlarının mahnıları əsas yer tutur. Pedaqoji fəaliyyət göstərir. Xarici ölkələrdə (Almaniya, Polşa, İraq, İran, Türkiyə, Misir, Əlcəzair və s.) qastrolda olmuşdur. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**ISMAYILOVA Tukazban Maharram gyzy** — People's Artist of the Azerb. Repub.



**İSMAYILOVA Zəkiyyə Cəbrayıl qızı** (d. 12.8.1941, Tovuz ş.) — biologiya e. d. (1991), prof. (1992). Farmakologiya sahəsində ilk azərbaycanlı qadın e.d. və prof. Leninqrad Kimya-Əczaçılıq İn-tunu bitirmişdir (1964). Leninqrad Un-tinin hərbi kafedrasında (1965-66), Leninqrad Kimya-Əczaçılıq İn-tunun farmakologiya kafedrasında (1966-67) pedaqoji fəaliyyət göstərmiş, 1967 ildən Azərb. Tibb Un-tinin farmakologiya kafedrasında assistent (1967-70), baş müəllim (1970-77), dosent 1977-91), 1991-94 illərdə kafedra müdiri işləmiş, 1994 ildən həmin kafedranın professorudur. Beynəlxalq elmi konfrans və konqreslərdə məruzələrlə çıxış etmişdir. 120-dən artıq elmi əsərin və 5 ixtiranın müəllifidir.

**ISMAYILOVA Zakiyya Jebrayil gyzy** — doctor of biology.



**İSMAYILZADƏ Şəfiqə İsa qızı** (d. 12.10. 1918, Gəncə) — tibb e.d. (1952). Azərb. Elmi-Tədqiqat Oftalmologiya İn-tunda göz zədələnmələri və onların profilaktikası şöbəsinin müdiri (1958 ildən) işləmişdir. Tədqiqatı, əsasən, göz zədələnmələrinin mikrocərrahlığı, müalicəsi və profilaktikasına həsr olunmuşdur.

**ISMAYILZADE Shafiga Isa gyzy** — doctor of medicine.



**İSRAFİLBƏYLİ Solmaz Hüseyn qızı** (d. 13.3.1928, Bakı) — tibb e.d. (1974), prof. (1979), əməkdar elm xadimi (1987). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1949). 1968 ildən Ə.Əliyev ad. Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunun mama-ginekologiya kafedrasının müdiridir. 1982-89 illərdə Azərb. Resp. Baş ginekoloqu, 1974 ildən Resp. Mama-Ginekoloqlar cəmiyyətinin sədri olmuşdur. 165 elmi məqalənin, 3 monoqrafiyanın müəllifidir. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**ISRAFILBEYLI Solmaz Huseyn gyzy** — doctor of medicine.



**İSRAFİLOVA Nelufər Möhsün qızı** (4.10.1926, Bakı—31.1.1996, Bakı) — tibb e.d. (1969), prof. (1971). Ə.Əliyev ad. Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunda pediatriya kafedrasının müdiri (1969 ildən) işləmişdir. Tədqiqatı, əsasən, uşaqlarda mitral qüsurlara, böyrək xəstəliklərinə və s. həsr olunmuşdur.

**ISRAFILOVA Nelufar Mustafa gyzy** — doctor of medicine.





**İSRAYILOVA Sevda Mustafa qızı** (d. 1959) — əmək fəaliyyətinə 1976 ildən Göyçay r-nundakı konserv zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**ISMAYILOVA Sevda Mustafa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**İVANOVA Aleftina Vasilyevna** (d. 1951) — əmək fəaliyyətinə 1969 ildən başlamış, Mingəçevir toxuculuq kombinatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**IVANOVA Aleftina Vasilyevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**İVÇENKO Raisa Yevgenyevna** (d. 1937) — əmək fəaliyyətinə 1958 ildən başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**IVCHENKO Raisa Yevgenyevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10–11th convocations).



# K



**KAŞIYEVA Qeysər Seyfulla qızı** (7.6.1893, Tiflis — 17.4.1972, Bakı) — rəssamlıq təhsili almış ilk azərb. qadın. Qafqaz İncəsənətini Təşviq Cəmiyyətinin nəzdindəki rəssamlıq siniflərində oxumuşdur (1907-08). Yaradıcılığının ilk dövründə Tiflisdə qadın xeyriyyə cəmiyyətlərinin keçirdiyi mədəni tədbirlər üçün afişa və məramnamələr tərtib etmişdir. 1907-15 illərdə akvarel, qara tuş, karandaş və kömürlə çoxlu rəsm, portret və mənzərə çəkmişdir ("İ.Qonçarovun portreti", 1909, "Azərbaycan ziyalısı", 1912, "Göl sahili", 1914, "Küpəgirən qarı", 1915). Sovet hakimiyyəti illərində Əli Bayramov ad. qadınlar klubunda çalışmış, "Şərq qadını" jurnalına illüstrasiyalar çəkmişdir. Rəsm albomları Azərb. Dövlət İncəsənət Muzeyində saxlanılır.

**KASHIYEVA Geysar Seyvulla gyzy** — painter.



**KAŞİRSKAYA Vera Qriqoryevna** (d. 1936) — əmək fəaliyyətinə 1957 ildən Quba r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**KASHIRSKAYA Vera Griqoryevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**KAZIMOVA Solmaz Cəmil qızı** (d.5.10.1951, Qubadlı r-nunun Xanlıq k.) — əmək fəaliyyətinə 1968 ildən Qubadlı r-nunun Xanlıq k.-ndəki "Pravda" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-10-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**KAZYMOVA Solmaz Jemil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9—10th convocations).



**KAZIMOVA Şəfiqə Həmid qızı** (d. 1946) — əmək fəaliyyətinə 1965 ildən Naxçıvan ş.-ndəki 5 №-li tikiş fabrikində başlamışdır. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı olmuşdur.

**KAZYMOVA Shafiga Hamid gyzy** — deputy of the Supreme Soviet of the USSR (8th convocation).



**KAZIMOVA Züriyyə Hüseyn** qızı (d.1958) — əmək fəaliyətinə 1975 ildən Naxçıvan MR Ordubad baramaaçma fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**KAZYMOVA Zuriyya Huseyn gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**KAZIMZADƏ Qumral-Rəna Zəki qızı** (d. 5.11.1942, Bakı) — texnika e. d. (1998), prof. (1999). Azərb. Dövlət Pedaqoji Un-tini bitirmişdir (1965). 1969 ildən Azərb. Dövlət Neft Akademiyasında assistent, dosent, prof. olmuş, hazırda elektrotexnikanın nəzəri əsasları kafedrasının mudiridir. Kembricin Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən "XX əsrin 2000 ən görkəmlı alimi" diplomuna layiq görülmüş və "Kim kimdir" Beynəlxalq Sorğu kitabına daxil edilmişdir. Həmçinin Amerika Bioqrafiya İn-tu Bioqrafiya Assosiasiyasının həqiqi üzvü seçilmiş, 2000-2001 ilin "Beynəlxalq Qadını" adına layiq görülmüş, "2002 ilin Beynəlxalq şəxsiyyəti" adını almış, Kembricdə nəşr olunmuş "XX əsrin 2000 intellektualı" Beynəlxalq sorğu kitabının 28-ci nəşrinə və XXI əsrdə "Kim kimdir" sorğu kitabının birinci nəşrinə daxil edilmişdir. Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü seçilmişdir. Bir sıra dərslik və dərs vəsaitlərinin, həmçinin "Rusca-azərbaycanca elektrotexnika terminləri lüğəti"nin müəllifidir.

**KAZYMZADE Gumral-Rena Zaki gyzy** — doctor of technics.



**KƏLƏNTƏRLİ Münəvvər Səməd qızı** (1912, Lənkəran — 5.2.1963, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. əməkdar artisti (1959). 1933 ildən səhnə fəaliyyətinə başlamış, əvvəllər milli opera tamaşalarında, sonralar, əsasən, musiqili komediyalarda çıxış etmişdir. Rolları: Sənəm ("O olmasın, bu olsun", Ü.Hacıbəyli), Gövhər ("Gözün aydın", F.Əmirov), Tamam ("Ulduz", S.Ələsgərov), Xədicə ("Qızılaxtaranlar", T.Quliyev), Nisə ("Durna", S.Rüstəmov), Kəblə Fatma ("Hacı Kərmin aya səyahəti", A.Rzayev) və b. Kinoda çəkilmişdir ("Sevimli mahnı", "Qızmar günəş altında", "Görüş", "O olmasın, bu olsun"). "Arşın mal alan" (1945) filmində yaratdığı Cahan xala obrazına görə 1946 ildə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

**KELENTERLI Munavvar Samed gyzy** — Honoured Artist of the Azerb. Repub.



**KƏMİNƏ Fatma xanım** (1841, Şuşa — sentyabr, 1898, Şuşa) — Azərb. şairi. Mirzə Fatma xanım adı ilə də tanınmışdır. Azərb. və fars dillərində yazmışdır. X.B.Natəvanın yaxın rəfiqəsi olmuş, "Məclisi-fəramuşan" və "Məclisi-üns" ədəbi məclislərində fəal iştirak etmişdir. Ədəbi irsi dövrümüzə tam gəlib çatmamışdır. S.Ə. Şirvani, F.B.Köçərli və b. Onun yaradıcılığını yüksək qiymətləndirmişlər.

**KAMINA Fatma khanym** — poetess.



**KƏRİMOVA Afərdə Rəsul qızı** (d. 1935) — Azərb. Neft və Kimya İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1957 ildən Ə.Qarayev ad. Bakı neftayırma zavodunda başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (6-cı çağırış) deputatı, Ali Sovetin Rəyasət Heyəti komissiyasının üzvü olmuşdur.

**KERIMOVA Aferda Rasul gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6th convocation).



**KƏRİMOVA Aşafatma Hidayət qızı** (d. 1.7.1929, Ucar r-nunun Qaradağlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1943 ildən Ucar r-nundakı pambıqçılıq təsərrüfatında başlamışdır. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**KERIMOVA Ashafatma Hidayat gyzy** — Hero of Socialist Labour.



**KƏRİMOVA Başxanım Mərdan qızı** (18.10.1920, Tovuz r-nunun Əsrik Cırdaxan k. — 1995, orada) — Sosialitst Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1937 ildən Tovuz r-nunun Abulbəyli k.-ndəki Nizami ad. üzümçülük təsərrüfatında başlamışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur.

**KERIMOVA Bashkhanym Mardan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (3 rd convocation).



**KƏRİMOVA Bəyimxanım Şıxverdi qızı** (d. 1921) — əmək fəaliyyətinə 1946 ildən başlamış. 1962 ildən Bakıdakı neftçıxarma idarəsinin 2 №-li mədənində neftçıxarma operatoru işləmişdir. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**KERIMOVA Beyimkhanym Shykverdi gyzy** — deputy of the Supreme Soviet of the USSR (7th convocation).



**KƏRİMOVA Dürdanə Nəsib qızı** (d. 1927, Gəncə) — fizika-riyaziyyat e.n. (1970), prof. (1983). Gəncə Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1949). 1951-1974 illərdə Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunda assistent, baş müəllim, 1974 ildən dosent işləmiş, 1983 ildən İn-tun professorudur. 1975-95 illərdə İn-tun fizika kafedrasının müdiri olmuşdur. 320 elmi məqalənin, dərslik, dərs vəsaiti və monoqrafiyanın müəllifidir.

**KERIMOVA Durdane Nasib gyzy** — candidate of physics and mathematics.





**KƏRİMOVA Düymə Kazım qızı** (27.2.1927, Tovuz r-nunun Azaflı k. — 1996) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1943 ildən Tovuz r-nundakı Nizami ad. təsərrüfatda başlamışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**KERIMOVA Duyma Kazym gyzy** — Hero of Socialist Labour.



**KƏRİMOVA Elmira Məmmədəli qızı** (d.1.1.1942, Goranboy r-nunun Qızıl Hacılı k.) — fizika-riyaziyyat e.d. (1992). Azərb. Dövlət Un-tinin fizika fakültəsini bitirmişdir (1963). 1966 ildən AMEA Fizika İn-tunda işləyir, 1993 ildən kristallofizika laboratoriyasının rəhbəridir. 250 elmi məqalə, 12 ixtira və 2 patentin müəllifidir. Bir sıra beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. İngiltərədə nəşr olunan Beynəlxalq Bioqrafiya Mərkəzinin" XX əsrin görkəmli şəxsiyyətləri" və "XX əsrdə kim kimdir" ensiklopediyalarında haqqında məlumat dərc edilmişdir. Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən elm sahəsində "İlin qadını", ABŞ Bioqrafiya İn-tu tərəfindən "2001 və 2002 illərin beynəlxalq qadını" adına layiq görülmüşdür.

**KERIMOVA Elmira Memmedali gyzy** — doctor of physics and mathematics.



**KƏRİMOVA Əntiqə Nurəddin qızı** (d.1957) — əmək fəaliyyətinə 1977 ildən Qazıməmməd xalça fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**KERIMOVA Antiga Nuraddin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).





**KƏRİMOVA Flora Ələkbər qızı** (d.23.7.1941, Bakı) — Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (1992). A.Zeynallı ad. Bakı Musiqi Texnikumunu (1964), Azərb. Dövlət Tibb Un-tini (1971) və Azərb. Dövlət Konservatoriyasını (1977) bitirmişdir. 14 yaşından bədii özfəaliyyət kollektivlərində, Azərb. Dövlət Tibb İn-tunun "Çinar" ansamblında, 1960-ci illərdə Azərb. Dövlət Filolrmoniyasında çıxış etmişdir. 1983 ildən Azərb. Teleradio Verilişləri Şirkətinin solistidir. Repertuarında Azərb. bəstəkarlarının (T.Quliyev, E.Sabitoğlu, E.İbrahimova, O.Rəcəbov, R.Mirişli və b.) mahnıları başlıca yer tutur. Azərb. Dövlət Opera və Balet Teatrında Leyli ("Leyli və Məcnun", Ü.Hacıbəyli) partiyasında çıxış etmiş (1966), "Qanun naminə" (1969) bədii filmində çəkilmişdir.

**KERIMOVA Flora Alekber gyzy** — People's Artist of the Azerb. Repub.



**KƏRİMOVA Gülbənövşə Qurban qızı** (25.4.1918, Zaqatala r-nunun Yengiyan k.—1983) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1936 ildən Zaqatala r-nunun "Yeni yol" təsərrüfatında başlamış, 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (3-cü sağırış) deputatı olmuşdur.

**KERIMOVA Gulbanovsha Gurban gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (3rd convocation).



**KƏRİMOVA Qərinə Rəhim qızı** (d.16.6.1964, Bakı) — Azərb. Resp. xalq artisti (1998). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1986). Azərb. Dövlət Akademik Opera və Balet Teatrının solistidir (1986 ildən). Musiqi ifaçılarının VII Zaqafqaziya müsabiqəsinin (1985) laureatı, vokalçıların M.Qlinka ad. XII Ümumittifaq müsabiqəsinin (1987) III mükafatçısı olmuşdur. Vokalçıların Bülbül ad. I Beynəlxalq müsabiqəsində (1997) 3-cü mükafata layiq görülmüşdür. Opera teatrının səhnəsində Nigar ("Koroğlu", Ü.Hacıbəyli), Sevil ("Sevil", F.Əmirov), Aida ("Aida", C.Verdi), Toska ("Toska", C.Puççini), Mikaela ("Karmen", J.Bize) və s. aparıcı partiyaları ifa etmişdir. Xarici ölkələrdə qastrollarda olmuşdur

**KERIMOVA Garina Rahim gyzy** — People's Artist of the Azerb. Repub.



**KƏRİMOVA Manya İsgəndər qızı** (18.6.1919, Goranboy r-nunun Bağçakürd k. — 29.8.1986, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1933 ildən Goranboy r-nundakı B.Bağırova ad. təsərrüfatda başlamış, müxtəlif vəzifələrdə işləmişdir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 3 dəfə Lenin ordeni, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**KERIMOVA Manya Isgender gyzy** — Hero of Socialist Labour.



**KƏRİMOVA Marina Həsən qızı** (d. 3.1.1943, Bakı) — tibb e. d. (1975), prof. (1978). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1966). 1975-78 illərdə Azərb. Tibb İn-tu qidanın gigiyenası kafedrasının dosenti, 1978-79 illərdə prof., 1979-87 illərdə kafedranın müdiri, 1987-99 illərdə kommunal gigiyena və qidanın gigiyenası kafedrasının müdiri işləmişdir. 185 elmi işin, o cümlədən 7 dərs vəsaitinin müəllifidir.

**KERIMOVA Marina Hasan gyzy** — doctor of medicine.



**KƏRİMOVA Məhcəbin Məmi qızı** (d.1941) — əmək fəaliyyətinə 1962 ildən Ordubad baramaaçma fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-8-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**KERIMOVA Mahjebin Memi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7–8th convocations).



**KƏRİMOVA Narıncı Mansur qızı** (d.1.7.1953, Sabirabad r-nunun Sarxanbəyli k.) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1986). Əmək fəaliyyətinə 1968 ildən Sabirabad r-nundakı "İşıqlı yol" təsərrüfatında başlamış, müxtəlif vəzifələrdə işləmidir. Azərb. SSR Ali Sovetinin (9 və 10-cu çağırış) deputatı olmşudur. Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**KERIMOVA Narynj Mansur gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9—10th convocations).



**KƏRİMOVA Rəfiqə Fərzulla qızı** (d.1938, Masallı r-nunun Ağakişibəyli k.) — əmək fəaliyyətinə 1954 ildən Masallı r-nunun Sabir ad. təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**KERIMOVA Rafiga Farzulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6th convocation).



**KƏRİMOVA Sevgili Əmiraslan qızı** (23.4.1910, Tovuz r-nunun Əsrik Cırdaxan k. — 1994, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1931 ildən Tovuz r-nundakı Nizami ad. təsərrüfatda başlamışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**KERIMOVA Sevgili Amiraslan gyzy** — Hero of Socialist Labour.





**KƏRİMOVA Sürəyya Abbasqulu qızı** (d.15.2.1922, Ağdam r-nunun Qaradağlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Azərb. pambıq ustası (1957). Əmək fəaliyyətinə 1939 ildən Ağdam r-nundakı Telman ad. təsərrüfatda başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (8 və 9-cu çağırış), Azərb. SSR Ali Sovetinin (2–5-ci çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni; Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**KERIMOVA Surayya Abbasgulu gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the USSR (8–9th convocations).

**KƏRİMOVA Yeganə Gülalı qızı** (d.16.1.1961, Kürdəmir r-nunun Şahsevən k.) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1976 ildən Kürdəmir r-nunun Topal-Həsənli k-ndəki "Moskva" təsərrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur.

**KERIMOVA Yegane Gulaly gyzy** — deputy of the Supreme Soviet of the USSR (12th convocation).



**KNYAZEVA İnnaida Vasilyevna** (d.1937) — əmək fəaliyyətinə 1960 ildən tikişçi kimi başlamış, təlimatçı-təyyarəçi, 2-ci pilot, 1970 ildən Azərb. Mülki Aviasiya İdarəsi Zabrat müəssisəsində təyyarəçi işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**KNYAZYEVA Innaida Vasilyevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**KOJEVNİKOVA Mariya Nikolayevna** (d.1940) — əmək fəaliyyətinə 1957 ildən Şamaxı r-nundakı İliç ad. təsərrüfatda başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**KOZHEVNIKOVA Mariya Nikolayevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**KOLTUNOVA Qalina Borisovna** (5.10.1918, Bakı—1994, Bakı) — Azərb. SSR xalq artisti (1981). Bakı Teatr Texnikumunu bitirmişdir (1944). 1941 ildən Azərb. Dövlət Rus Dram Teatrında (1949-52 illərdə fasilələrlə) çıxış etmişdir. Rolları: Qlafira ("Qurdlar və qoyunlar", A.Ostrovski), Nataşa ("Üç bacı", A.Çexov), Liza ("Canlı meyit", L.Tolstoy), Nazlı ("Şərqin səhəri", Ə.Məmmədxanlı), Bənövşə ("Kəndçi qızı", M.İbrahimov), Nadejda ("Mənim ümidlərim", M.Şatrov) və b. Azərb. SSR Ali Sovetinin (10 və 11-ci çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**KOLTUNOVA Galina Borisovna** — People's Artist of the Azerb. Repub., deputy of the Supreme Soviet of the Azerb. SSR (10–11th convocations).



**KONKİNA Anna Kuzminiçna** (d.1922) — əmək fəaliyyətinə 1938 ildən Gədəbəy r-nundakı "İliç yolu" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**KONKINA Anna Kuzminichna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**KOSAYEVA Sayalı İbrahimxəlil qızı** (1883, indiki Qazax r-nunun Dağ Kəsəmən k. — 25.8.1971, orada) — Azərbaycanda qadın hərəkatı təşkilatçılarından biri. Azərb.-da Sovet hakimiyyəti qurulduqdan sonra Qazax Qəza Komitəsində qadınlar bölməsinin təşkilində, qadınların ictimai-siyasi həyata cəlb edilməsi və maariflənməsində fəaliyyət göstərmişdir. Yoxsul komitələri və kənd sovetlərinin işində yaxından iştirak etmiş, K. banditizmə qarşı mübarizədə fərqləndiyi üçün şəxsi silahla mükafatlandırılmışdır. Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri təltif edilmişdir.

**KOSAYEVA Sayaly Ibrahimkhalil gyzy** — delegate of the 4th and 7th congresses of Soviets of the Azerb. SSR.



**KRUPNOVA Valentina İvanovna** (d. 1943) — əmək fəaliyyətinə 1960 ildən quşçuluq fabrikində başlamış, müxtəlif işlərdə çalışmış, o cümlədən tikiş fabrikində tikişçi işləmişdir. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı, Millətlər Sovetinin Ticarət, məişət xidməti və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**KRUPNOVA Valentina Ivanovna** — deputy of the Supreme Soviet of the USSR (8th convocation).



**KUZİBABAŞVİLİ Sofya Pavlovna** (d.1940) — əmək fəaliyyətinə 1963 ildən Qax r-nundakı Nizami ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**KUZIBABASHVILI Sofya Pavlovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**KÜKÜYEVA Rəfiqə Müsrüf qızı** (d.1947) — əmək fəaliyyətinə 1966 ildən Qəbələ r-nundakı Kuybışev ad. təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları komissiyasının üzvü olmuşdur.

**KUKUYEVA Rafiga Mushruf gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



# Q



**QACAR Xurşid** (1894, Naxçıvan—1963) — Azərb. opera müğənnisi. Azərb. Resp. əməkdar incəsənət xadimi. Vokal təhsilini Moskva Konservatoriyasında almışdır. Təhsilini bitirdikdən sonra Moskvada xalq Maarif Komissarlığının incəsənət şöbəsində işləmiş, Moskva estrada ansamblının solisti olmuşdur. 1924—34 illərdə Azərb. Opera və Balet Teatrında fəaliyyət göstərmiş, Gülzar ("Şah İsmayıl", M. Maqomayev), Xurşidbanu, Gülçöhrə və Asya, Gülnaz ("Şah Abbas və Xurşidbanu", Arşın mal alan", "O olmasın, bu olsun", Ü. Hacıbəyli), Mikaela ("Karmen", J. Bize) və s. partiyalarda çıxış etmişdir. 1934 ildən "Azərnəşr"də özünün təşəbbüsü ilə yaratdığı müsiqi nəşriyyatının müdiri işləmiş, eyni zamanda 1935 ildə Azərb. Opera və Balet Teatrı nəzdində studiya yaratmış, tələbələrin ifasında "Demon" (A. Rubinşteyn), "Çar gəlini" (N. Rimski-Korsakov) operalarını tamaşaya hazırlamışdır. Dügah, Rast, Segah-Zabul muğamlarının nota alınmasında xidməti var.

**GAJAR Khurshid** — Honoured Art Worker of the Azerb. Repub.



**QACAR Sürəyya Sədrəddin qızı** (1.5.1910, Şuşa—1992) — Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (1954). 1927 ildə Bakı Pedaqoji Texnikumunu bitirmişdir. 1927—39 illərdə Azərb. Opera və Balet Teatrının solisti olmuş, burada Leyli, Əsli, Gülnaz, Asya ("Leyli və Məcnun", "Əsli və Kərəm", "O olmasın, bu olsun", "Arşın mal alan", Ü. Hacıbəyli), Şahsənəm ("Aşıq Qərib", Z. Hacıbəyli) partiyalarında çıxış etmişdir. 1940 ildən Azərb. Dövlət Filarmoniyasında solist (fasilələrlə), 1968 ildən vokal üzrə məsləhətçi-müəllim işləmişdir. Repertuarında Azərb. xalq mahnıları, muğamlar, eləcə də xarici ölkə xalqlarının və bəstəkarlarının mahnıları əsas yer tutmuşdur. 2 "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**GAJAR Surayya Sadraddin gyzy** — People's Artist of the Azerb. Repub. and the Arm. Repub.





**QAFAROVA Elmira Mikayıl qızı** ( 1934, Bakı — 2.8.1993, Bakı) — Filologiya e.n.. Azərbaycan Dövlət Un-tini bitirmişdir. Komsomol və partiya işində çalışmışdır: 1961 ildən Azərb. KP MK-nın təlimatçısı, Azərb. LKGİ MK katibi, 1966 ildən birinci katibi, 1970 ildən Azərbaycan KP MK mədəniyyət şöbəsi müdirinin müavini, Bakı Şəhər Partiya Komitəsinin katibi, 1980 ildən Azərb. SSR maarif naziri, 1983 ildən Azərb. SSR Xarici İşlər naziri, 1989 ildən Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin sədri, 1990—92 illərdə Azərb. SSR Ali Sovetinin sədri işləmişdir. Azərb. SSR Ali Sovetinin (7, 10—12-ci çağırış) deputatı olmuşdur.

**GAFAROVA Elmira Mikayil gyzy** — candidate of philology, chairman of the Presidium of the Supreme Soviet of the Azerb. SSR.



**QAFAROVA Mötəbər Qüdrət qızı** (d. 1960) — əmək fəaliyyətinə 1977 ildə Lənkəran mebel fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**GAFAROVA Motabar Gudrat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**QAFAROVA Roza Zeynal qızı** (d. 29.11.1926, Yerevan—23.6.1996) — biologiya. e.d. (1967), prof. (1968), əməkdar elm xadimi (1970). Azərb. Pedaqoji İn-tunun insan və heyvan fiziologiyası kafedrasının müəllimi və dosenti (1954—67), 1967 ildən biologiya, 1976 ildən biologiya-coğrafiya fakültəsinin dekanı olmuşdur. Tədqiqatı ekoloji fiziologiya və yaş fiziologiyası sahəsindədir.

**GAFAROVA Roza Zeynal gyzy** — doctor of biology.



**QAFAROVA Südabə Fahil qızı** (d. 1961) — əmək fəaliyyətinə 1977 ildən Lerik r-nunun "Sosialist Kubası" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal təsərrüfatı və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**GAFAROVA Sudaba Fahil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**QAFFAROVA Almaz Adı qızı** (d. 1942) — Azərb. Pedoqoji Dillər İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1961 ildən başlamış, komsosmol-partiya işində çalışmışdır. 1979 ildən Bakı Ali Partiya Məktəbinin laboratoriya müdiri, Azərb. KP MK partiya-təşkilat işi şöbəsinin bölmə müdiri, inspektoru, 1983 ildən Azərb. KP Ağsu RK-nın birinci katibi işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, ana və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**GAFAROVA Almaz Ady gyzy** — deputy of the Supreme Soviet of the Azerb. Repub.



**QAİBOVA Mehparə Tələt qızı** (d. 9.5.1944, Bakı) — filologiya e. d. (1987), prof. (1990). Azərb. Dövlət Pedaqoji Dillər İn-tunu bitirmişdir (1966). 1975 ildən həmin in-tun ingilis dili leksikası kafedrasında dosent, elmi katib, 1982—84 illərdə baş elmi işçi vəzifəsində işləmişdir. 1984 ildən ingilis dilinin üslubiyyatı və leksikası kafedrasının müdiridir. Bir sıra elmi məqalələrin və monoqrafiyaların müəllifidir.

**GAIBOVA Mehpara Talat gyzy** — doctor of philology.





**QARAYEVA Gülmirə Zaman qızı** (d. 1961) — əmək fəaliyyətinə 1978 ildən Bakı dəri-qalantereya fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**GARAYEVA Gulmira Zaman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).

**QARAYEVA Həlimə Muxtar qızı** (d. 1931, Ordubad r-nunun Kotam k.) — Azərb. SSR Dövlət mükafatı laureatı (1982). Azərb. SSR əməkdar heyvandarı (1976). Əmək fəaliyyətinə 1947 ildən Ordubad r-nunun Kotam təsərrüfatında başlamışdır. Oktyabr İnqilabı və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**GARAYEVA Halima Mukhtar gyzy** — laureate of the State Prize of the Azerb. SSR.



**QARAYEVA Nadya Paşa qızı** (d. 1941) — əmək fəaliyyətinə 1959 ildən Qazax r-nunun Vaqif ad. təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**GARAYEVA Nadya Pasha gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**QARAYEVA Ninel İsrafil qızı** (d. 25.5.1932, Bakı) — biologiya e. d. (1975), prof. AMEA-nın müxbir üzvü (2001). M.V. Lomonosov ad. Moskva Dövlət Un-tini bitirmişdir (1955). 1960 ildən Azərb. Resp. EA-nın Nəbatat İn-tunda müxtəlif vəzifələrdə işləmiş, hazırda laboratoriya müdiridir. Xəzər florasını tədqiq etmiş, floranın inkişaf yolu və mənşəyi haqqında hipotez irəli sürmüşdür. Elm üçün 2 yeni cins, 1 fəsilə və 9 növün təsvirini vermişdir. Yosunlar üzrə Beynəlxalq nomenklatura komitəsinin (London) işçi qrupunun tərkibində fəaliyyət göstərmişdir. İngiltərədə şərəfinə *Karayevia Bucht. et Round* adlı yeni cins təsvir edilmişdir. 90-dan artıq elmi əsərin, 2 monoqrafiyanın müəllifidir. Bir sıra beynəlxalq konqres və konfranslarda məruzələrlə çıxış etmişdir.

**GARAYEVA Ninel Israfil gyzy** — doctor of biology.



**QARAYEVA Ülkər Mayıl qızı** (d. 1914, Şəmkir r-nunun Morul k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəalyyətinə 1940 ildən Şəmkir r-nunun Morul kəndindəki M. Əzizbəyov ad. təsərrüfatda başlamışdır. 1949 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**GARAYEVA Ulker Mayil gyzy** — Hero of Socialist Labour.



**QASIMOVA Aidə Şahlar qızı** (d. 2.6.1957, Ağdam) — filologiya e. d. (2001). Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsini bitirmişdir (1980). 1981 ildən Azərb. Dövlət Un-tində çalışmış, 1987 ildən ərəb dili kafedrasında baş laborant, 1988 ildən müəllim, 1993 ildən baş müəllim işləmiş, 1996 ildən dosent əvəzi işləyir. 3 monoqrafiyanın, 1 metodiki vəsaitin, 1 müntəxəbat və 35 elmi məqalənin müəllifdir.

**GASYMOVA Aida Shahlar gyzy** — doctor of philology.



**QASIMOVA Cəmilə Qiyas qızı** (d. 1936) — əmək fəaliyyətinə 1956 ildən Gəncə ş-indəki tikiş fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**GASYMOVA Jamila Giyas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**QASIMOVA Dilarə Yaqub qızı** (d. 1943) — tibb e. d. (1989). Rusiya Təbiiyyat Elmləri Akademiyasının həqiqi üzvü (1999). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1965). Əmək fəaliyyətinə Azərb. Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İn-tunda başlamışdır. Poliomielit üzrə Resp. Milli sertifikasiya komissiyasının sədridir.

**GASYMOVA Dilara Yagub gyzy** — doctor of medicine, full member of the Russian Natural Academy of Sciences.



**QASIMOVA Elmira Məmməd qızı** (d. 9.2.1951, İmişli r-nunun Yalavac k.) — Azərb. Dövlət Pedaqoji İn-tunu (1974) və Bakı Sosial İdarəetmə və Politologiya İn-tunu bitirmişdir (1992). Əmək fəaliyyətinə 1967 ildən İmişli r-nunda başlamış, 1987 ildən Azərb. KP İmişli RK katibi, 1993—95 illərdə İmişli RİH başçısının humanitar məsələlər üzrə müavini işləmişdir. Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**QASYMOVA Elmira Memmed gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub (1 st convocation).





**QASIMOVA Fidan Əkrəm qızı** (d.17.6.1947, Bakı) — Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (1982), SSRİ xalq artisti (1988). Azərb. Resp. Dövlət mükafatı laureatı (1984). Azərb. Dövlət Konservatoriyasını (1971) və Moskva Konservatoriyasının aspiranturasını (1974) bitirmişdir. İsveçrə (1973, Cenevrə) və Niderlandda (1975, Hertogenbos) keçirilən bejnəlxalq müsabiqələrin iştirakçısı, musiqiçilərin C.Viotti ad. müsabiqəsinin (1977, Verçelli ş., İtaliya; birinci mükafat) laureatıdır. Beynəlxalq müsabiqələr laureatı adına layiq görülmüş ilk azərb. qadın müğənnidir. 1974 ildən Azərb. Opera və Balet Teatrının solistidir. Partiyaları: Nigar ("Koroğlu", Ü.Hacıbəyli), Mikaela ("Karmen", J.Bize), Marqarita ("Faust", Ş.Quno), Mimi, Çio-Çio-san ("Bohema", "Çio-Çio-san", C.Puççini), Tatyana ("Jevgeni Onegin", P.Çaykovski), Dezdemona, Aida ("Otello", "Aida", C.Verdi), Sevil ("Sevil", F.Əmirov) və s. Repertuarına Azərb. (Ü.Hacıbəyli, A.Zeynallı, Q.Qarayev, A.Məlikov, Niyazi), rus (M.Qlinka, P.Çaykovski, S.Raxmaninov), Qərbi Avropa (A.Stradella, İ.S.Bax, G.F.Hendel və b.) bəstəkarlarının kamera-vokal əsərləri, eləcə də Azərb. xalq mahnıları ("Laçın", "Qubanın ağ alması", "Girdim yarın bağçasına", "Evləri var xana-xana" və s.) daxildir. 1974 ildən Azərb.Dövlət Konservatoriyasında dərs deyir (1990 ildən prof.). 1992 ildən İstanbul Dövlət Un-ti Konservatoriyasının prof.-dur. Xarici ölkələrdə (Çexoslovakiya, Almaniya, Danimarka, Portuqaliya, Belçika, Rumıniya, Hollandiya, Türkiyə və s.) qastrolda olmuşdur. Kinoda çəkilmişdir ("Torpaq. Dəniz. Od. Səma"). Azərb.-ın Şöhrət ordeni ilə təltif edilmişdir.

**QASYMOVA Fidan Akram gyzy** — People's Artist of the Azerb. Repub.? People's Artist of the USSR.



**QASIMOVA Həbibə Süleyman qızı** (d. 24.8.1922, Bakı) — biologiya e. d. (1963), prof. (1965), əməkdar elm xadimi (1980). Torpaq mikrobiologiyası sahəsində ilk azərbaycanlı qadın alim. Azərb. Dövlət Uniiversitetini bitirmişdir (1944). 1967 ildən Azərb. Dövlət Uniiversitetinin ibtidai bitkilərin sistematikası və mikrobiologiya kafedrasının müdiri, biologiya fakültəsinin dekanı işləmiş, 1988 ildən mikrobiologiya kafedrasının prof.-dur. 150-dən artıq elmi əsərin, 5 tədris kitabının, 2 ixtiranın müəllifidir. İllinoys ştatı (ABŞ) Elmlər Akademiyasının həqiqi üzvüdür.

**QASYMOVA Habiba Suleyman gyzy** — doctor of biology.





**QASIMOVA Xatın Məhərrəm qızı** (d. 1938) — əmək fəaliyyətinə 1956 ildən Tovuz r-nundakı "Şəfəq" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**QASYMOVA Khatyn Maharram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**QASIMOVA Xavər Əbdülbarı qızı** (d. 1946) — əmək fəaliyyətinə 1966 ildən Sabirabad r-nundakı "Leninqrad" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları komissiyasının üzvü olmuşdur.

**QASYMOVA Khaver Abdulbary gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**QASIMOVA Xuraman Əkrəm qızı** (d.6.6.1951, Bakı) — Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (1986). Azərb. Dövlət mükafatı laureatı (1984). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1975). 1976 ildən Azərb. Opera və Balet Teatrının solistidir. Əsas partiyaları: Sevil və Dilbər ("Sevil", F.Əmirov), Nigar ("Koroğlu", Ü.Hacıbəyli), Mimi və Müzetta ("Bohema", C.Puççini), Dezdemona, Aida ("Otello", "Aida", C.Verdi), Tatyana ("Yevgeni Onegin", P.Çaykovski) və s. İfaçıların 5-ci Zaqafqaziya müsabiqəsinin (1977, I-ci mükafat), vokalistlərin M.Qlinka ad. 7-ci Ümumittifaq müsabiqəsinin (1977) və Mariya Kallas ad. Beynəlxalq müsabiqəsinin (Afina, 1981; həmçinin "Qran pri" qızıl medalına layiq görülmüşdür), eləcə də ifaçıların P.Çaykovski ad. 8-ci Beynəlxalq müsabiqəsinin (Moskva, 1982) laureatıdır. Kinofilmlərə çəkilmişdir ("Mən ki gözəl deyildim", "Həyat bizi sınayır"). 1982 ildən Bakı Musiqi Akademiyasında dərs deyir (1993 ildən solo oxumaq kafedrasının müdiri, 1996 ildən prof.). 1994 ildən İstanbul Dövlət Un-ti konservatoriyasının prof.-dur. Bir sıra xarici ölkələrdə (Bolqarıstan, Çexoslovakiya, Malta, Fransa, Avstriya, Norveç, Türkiyə, Finlandiya və s.) çıxış etmişdir. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**QASYMOVA Khuraman Akram gyzy** — People's Artist of the Azerb. Repub.



**QASIMOVA İradə Mikayıl qızı** ( d. 1962) — əmək fəaliyyətinə 1981 ildən Bakıdakı 1 №-li universal mağazasında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**QASYMOVA Irada Mikayil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**QASIMOVA İzzətxanım Qulam qızı** (d. 1926) — əmək fəaliyyətinə 1943 ildən Bakıdakı "Qırmızı proletari" zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə, ictimai təminat, bədən tərbiyəsi və idman komissiyasının üzvü olmuşdur.

**QASYMOVA Izzatkhanym Gulam gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**QASIMOVA Kübra Tapdıq qızı** (d. 1942) — əmək fəaliyyətinə 1960 ildən Sabirabad r-nundakı "Pravda" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci cağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**QASYMOVA Kubra Tapdyg gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**QASIMOVA Məlahət Hüseyn qızı** (d. 1958) — əmək fəaliyyətinə 1976 ildən Tovuz r-nundakı "Qələbə" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**GASYMOVA Malahat Huseyn gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**QASIMOVA Münəvvər Cavad qızı** (3.12.1924, Bakı—10.1.1990, Bakı) — tibb e. d. (1973). 1967 ildən Elmi-Tədqiqat Oftalmologiya İn-tunun qlaukoma şöbəsinin müdiri işləmişdir. Tədqiqatı, əsasən, qlaukoma xəstəliyinin müalicə və diaqnostikasına həsr olunmuşdur. Qlaukomanın zəhərli reagentlərin normadan artıq olması nəticəsində əmələ gələ bilməsini keçmiş SSRİ-də ilk dəfə müəyyən etmişdir.

**QASYMOVA Munavvar Javad gyzy** — doctor of medicine.



**QASIMOVA Rəfiqə Kamal qızı** (d. 1947) — əmək fəaliyyətinə 1963 ildən Quba r-nundakı xalça fabrikində başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**GASYMOVA Rafiga Kamal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**QASIMOVA Sadə Qafar qızı** (d. 1935) — əmək fəaliyyətinə 1951 ildən Saatlı r-nundakı M.B. Qasımov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə, ictimai təminat, bədən tərbiyəsi və idman komissiyasının üzvü olmuşdur.

**GASYMOVA Sade Gafar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).

**QASIMOVA Sona Əhməd qızı** (16.2.1912, Maykop—18.1.1977, Bakı) — Azərb.-ın ilk qadın idmançılarından biri, Azərb. SSR əməkdar bədən tərbiyəsi və idman xadimi (1964), resp. dərəcəli hakim (1950). Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1953). 1934 ildə keçirilmiş Zaqatala—Bakı piyada yürüşündə iştirak etmiş, 1937 ildə qumbara tullamaq üzrə Azərb.-ın qadın idmançıları arasında ilk dəfə Zaqafqaziya rekordçusu adını qazanmışdır. Azərb. LKGİ Zaqatala RK-nın birinci katibi olmuş (1943), 1941—44 illərdə döyüşçülərin ümumi icbari təhsil sistemində qumbara tullamaq üzrə təlimatçı kimi fəaliyyət göstərmiş, 1944 ildən bədən tərbiyəsi təşkilatlarında, 1958 ildən AHİŞ-də məsul vəzifələrdə çalışmışdır.

**GASYMOVA Sona Ahmad gyzy** — Honoured Sports Worker of the Azerb. SSR.



**QASIMOVA Sünbül Qasım qızı** (d. 1961) — əmək fəaliyyətinə 1976 ildən Xanlar r-nundakı S. Vurğun ad. təsərrüfatda sağıcı kimi başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**GASYMOVA Sunbul Gasym gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).



**QASIMOVA Svetlana Çingiz qızı** (d. 11.6.1938, Gəncə) — Azərb. Dövlət Un-tini (1940) və Moskvadakı İctimai Elmlər Akademiyasını bitirmişdir. 1971 ildən Bakı Şəhər İcraiyyə Komitəsinin sədr müavini, 1975 ildən Azərb. SSR Ticarət nazirinin müavini, 1979 ildən Ticarət naziri, 1983 ildən Azərbaycan KP MK katibi, 1988 ildən Bakı Şəhər Partiya Komitəsinin katibi, 1990 ildən Azərbaycan Dövlət Əmək Komitəsi sədrinin birinci müavini və sədri vəzifələrində işləmişdir. Azərb. SSR Ali Sovetinin (10—12-ci çağırış) deputatı olmuşdur. Azərb. Resp. Mərkəzi Seçki Komissiyasının üzvüdür (2000 ildən).



**QASYMOVA Svetlana Chingiz gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10—12 convocations), member of the Central Election Commission of the Azerb. Repub.

**QASIMOVA Tamilla Qaraş qızı** (d. 29.4.1940, Bakı) — texnika e.n. (1967), prof. (1992). Azərb. Dövlət Neft və Kimya İn-tunu bitirmişdir (1962). 1962—64 illərdə həmin in-tda elektrik maşınları və aparatları kafedrasının assistenti, 1968—70 illərdə Energetika fakültəsinin dekan müavini, 1968—80 illərdə elektrik maşınları və aparatları kafedrasının dosenti işləmiş, 1981 ildən kafedranın müdiridir. 87 elmi və elmi-metodiki işin, o cümlədən 3 müəlliflik şəhadətnaməsi və 21 tədris-metodiki vəsaitin müəllifidir. Azərb.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir.



**GASYMOVA Tamilla Garash gyzy** — candidate of technics, professor.

**QASIMOVA Zərifə Əlibaba qızı** (d. 1938) — Azərb. SSR Dövlət mükafatı laureatı. Əmək fəaliyyətinə 1957 ildən S.Orconikidze ad. Gəncə toxuculuq kombinatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10 və 11-ci çağırış) deputatı, Ali Sovetin Energetika komissiyasının üzvü olmuşdur.



**GASYMOVA Zarifa Alibala gyzy** — laureate of the State Prize of the Azerb. SSR, deputy of the Supreme Soviet of the Azerb. SSR (10–11 convocations).



**QASIMOVA Zülqədə Allahverdi qızı** (d. 8.10.1932, Şəki r-nunun Vəzərət k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1944 ildən "Şəfəq" təsərrüfatında başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**GASYMOVA Zulgada Allahverdi gyzy** — Hero of Socialist Labour.



**QAYIBOVA Xədicə Osman qızı** (24.5.1893, Tiflis — 1938) — ilk azərb. pianoçu qadınlardan biri. Tiflisdə "Müqəddəs Nina" qız məktəbində oxumuş, fortepiano üzrə xüsusi kurs keçmişdir (1901-11). 1919 ildən Bakıda yaşamışdır. Azərb.-da musiqi təhsili sisteminin yaradılmasında iştirak etmişdir. 1920 ilin iyununda onun təşəbbüsü və rəhbərliyi ilə Bakıda "Qısa müddətli Şərq musiqisi kursları" ("Şərq konservatoriyası" da adlanırdı) açılmışdı. Fortepianoda muğamların ilk ifaçılarından biri kimi məşhurlaşmışdı. Repertuarına Qərb və rus bəstəkarlarının əsərləri də daxil idi. Şəxsiyyətə pərəstiş dövrünün qurbanı olmuş, 1938 ilin oktyabr ayında Bakıda güllələnmişdir. Sonralar bəraət almışdır.

**GAYIBOVA Khadija Osman gyzy** — one of the first Azerbaijan woman pianist.



**QAZIYEVA Rəfiqə Salam qızı** (d. 12.2.1939, Bakı) — Azərbaycan Neft və Kimya İn-tunu bitirmişdir. Partiya işində müxtəlif vəzifələrdə çalışmış, 1980 ildən Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin katibi, 1991 ildən Azərb. SSR Ali Soveti sədrinin müavini, 1992 ildən Azərb. Resp. Prezidenti Aparatının təltif şöbəsinin müdiri, 1994—95 illərdə Azərb. Resp. Milli Məclisinin təhsil, elm, din və mədəniyyət məsələləri üzrə komissiyasının eksperti, 1998 ildən Azərb.Resp. Konstitusiya Məhkəməsi kadrlar bölməsinin müdiri işləmişdir. Azərb. SSR Ali Sovetinin (10—12-ci çağırış) deputatı olmuşdur. Xalqlar dostluğu ordeni ilə təltif edilmişdir.

**GAZIYEVA Rafiga Salam gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10—12th convocations).





**QAZIYEVA Sevil Həmzət qızı** (1.6.1940, Zaqatala r-nunun Aşağı Tala k.—23.9.1963, Beyləqan) — Azərb.-da ilk qadın mexanizator, Sosialist Əməyi Qəhrəmanı (1963; ölümündən sonra). Beyləqan r-nundakı 5 nömrəli Mil pambıqçılıq təsərrüfatında traktorçu, pambıqyığan maşının sürücü-mexaniki və traktor-tarlaçılıq briqadasının başçısı işləmişdir. Azərb. SSR Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**GAZIYEVA Sevil Hamzat gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (6th convocation).



**QAZIYEVA Zəhra Kərim qızı** (2.5.1912, Naxçıvan—1998) — Azərb. əməkdar həkimi (1960). Azərbaycan Tibb İn-tunu bitirmişdir (1942). Əmək fəaliyyətinə 1930 ildən Bərdə r-nunun Otuzikilər k.-ndə müəllim kimi başlamış, 1942 ildə İn-tu qurtardıqdan sonra Bərdə r-nundakı kənd xəstəxanasında baş həkim işləmişdir. SSRİ Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**GAZIYEVA Zahra Kerim gyzy** — Hero of Socialist Labour.



**QƏDİMOVA Sara Bəbiş qızı** (d.31.5. 1922, Bakı) — Azərb. müğənnisi. Azərb. Resp, xalq artisti (1963). 1941—43 illərdə A.Zejnallı ad. Bakı Musiqi Texnikumunda oxumuşdur. 1942—78 illərdə M.Maqomayev ad. Azərb. Dövlət Filarmoniyasının solisti olmuş, 1957—62 illərdə eyni zamanda Azərb. Dövlət Opera və Balet Teatrında Leyli və Əsli ("Leyli və Məcnun", "Əsli və Kərəm", Ü.Hacıbəyli) partiyalarında çıxış etmişdir. 1978 ildən Azərb. Dövlət Qastrol-Konsert Birliyinin solistidir. Repertuarına muğamlar (Şahnaz, Qatar və s.), Azərb. bəstəkarlarının əsərləri, Azərb. xalq mahnıları və xarici ölkə xalqlarının mahnıları daxildir. Mahur-hindi, Şur, Bayatı-Şiraz dəstgahlarını ifa edən ilk qadın müğənnilərdəndir. Bir çox xarici ölkədə (İran, İraq, Liviya, Sudan, Almaniya, Monqolustan, Efiopiya, Mərakeş, Bolqarıstan, İndoneziya, Qvineya, Tunis və s.) çıxış etmişdir. Azərb-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**GADIMOVA Sara Bebish gyzy** — People's Artist of the Azerb. Repub.



**QƏDİROVA Firəngiz Rüstəm qızı** (d. 1926) — Azərb. Sənaye İn-tunu bitirmişdir. 1950—1953 illərdə neft mədənlərində mühəndis işləmişdir. 1958 ildən rayon partiya komitəsinin katibi, 1960 ildən neft mədənləri idarəsində partiya komitəsinin katibi olmuşdur. SSRİ Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**GADIROVA Firangiz Rustam gyzy** — deputy of the Supreme Soviet of the USSR (6th convocation).



**QƏDİROVA Xanımqız Məhərrəməli qızı** (d. 1913— ) — əmək fəaliyyətinə 1930 ildən Lənkəran r-nunun çayçılıq təsərrüfatlarında başlamışdır. Yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**GADIROVA Khanymgyz Maharramali gyzy** — deputy of the Supreme Soviet of the USSR (5th convocation).



**QƏDİROVA Nina Georgiyevna** (d. 16.3.1931, Xakasiya MV-nin Qlavstan k.) — tarix e. d. (1984). 1941 ildən Azərb.-da yaşayır. Azərb. Dövlət Un-tini bitirmişdir (1954). Əmək fəaliyyətinə 1954 ildən Azərb. SSR EA Tarix və Fəlsəfə İn-tunda başlamışdır. Hazırda Azərb. MEA Tarix İn-tunda aparıcı elmi işçidir. 40-dan çox elmi və elmi-populyar məqalələrin müəllifi, çoxcildli "Azərbaycan tarixi"nin VII cildinin müəlliflərindən biridir.

**GADIROVA Nina Georgiyevna** — doctor of history.



**QƏDİROVA Sayad Allahverdi qızı** (d. 1929) — əmək fəaliyyətinə 1944 ildən Yevlax r-nundakı "Bakı" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Ticarət və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**GADIROVA Sayad Allahverdi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**QƏDİROVA Törə Qədir qızı** (31.12.1927, Bakı — 4.8.1997, Bakı) — tibb e. d. (1959), prof. (1961), əməkdar elm xadimi (1981). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1949). Əmək fəaliyyətinə 1951 ildən həmin in.-tda başlamışdır. 1968-88 illərdə Azərb. SSR Səhiyyə Nazirliyinin baş uşaq nevropatoloqu, 1988-97 illərdə Azərb. Nevropatoloqlar Cəmiyyətinin sədri olmuşdur. Tədqiqatları neyrohematologiya, neyroqrip və s. ilə bağlı xəstəliklərin diaqnostikası və müalicəsinə aiddir. 150-dən çox elmi əsərin, o cümlədən 6 monoqrafiyanın, dərsliklərin müəllifidir.

**GADIROVA Tore Gadir gyzy** — doctor of medicine.



**QƏDRİ Fatma Qədir qızı** (14.4.1907, Odessa — 29.2.1968, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1943). Bakı Teatr Texnikumunu və Azərb. Pedaqoji İn-tunu bitirmişdir (1926). Səhnə fəaliyyətinə 1927 ildə Bakı Türk İşçi Teatrında başlamış, burada Nübar ("Cancur Səməd", M.Əfəndiyev; J.B.Molyerin "Zorən xəstə" əsərinin təbdili), Sürucuin ("Hind qızı", Ə.Hamid), Oa-Şen ("Çin tanrısı", F.Pavlovun "Tunc büt" əsəri üzrə), Gülüş və Sevil ("Sevil", C.Cabbarlı), Xumar ("Şeyx Sənan", H.Cavid), Esmeralda ("Paris Notrdam kilsəsi", V.Hüqonun eyniadlı əsəri üzrə), Gülbahar ("Anamın kitabı", C.Məmmədquluzadə) kimi səhnə obrazları yaratmışdır. 1932-35 illərdə Bakı Rus Dram Teatrının aktrisası olmuş, 1935 ildən Azərb. Milli Dram Teatrında işləmişdir. Əsas rolları: Maşa ("Dubrovski", A.S.Puşkin), Xuraman ("Vaqif", S.Vurğun), Cülyetta, Emiliya ("Romeo və Cülyetta", "Otello", U.Şekspir), Luiza ("Məkr və məhəbbət", F.Şiller), Larisa, Katerina ("Cehizsiz qız", "Tufan", A.Ostrovski), Polina ("Ögey ana", O.Balzak), Gültəkin ("Aydın", C.Cabbarlı), Məhəbbət ("Məhəbbət", M.İbrahimov). 1933 ildən pedaqoji fəaliyyət göstərmişdir.



**GADRI Fatma Gadir gyzy** — People's Artist of the Azerb. Repub.



**QƏHRƏMANOVA Sara Kamal qızı** (d.1936) — Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1960 ildən Şamaxı səhiyyə müəssisələrində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə, ictimai təminat, bədən tərbiyəsi və idman komissiyasının üzvü olmuşdur.

**GAHRAMANOVA Sara Kamal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**QƏHRƏMANOVA Sədaqət Məmmədyar qızı** (d.1.3.1949, Şəmkir ş.) — Əli Bayramlı Şəhər İcra Hakimiyyətinin başçısı (1995 ildən). Bakı Sosial İdarəetmə və Politologiya İn-tunu bitirmişdir (1977). Əmək fəaliyyətinə 1966 ildən başlamış, 1978-83 illərdə Əli Bayramlı Şəhər Partiya Komitəsinin katibi, 1983-91 illərdə Əli Bayramlı Şəhər Xalq Nəzarəti Komitəsinin sədri və Şəhər Statistika İdarəsinin rəisi, 1991-95 illərdə Əli Bayramlı Şəhər Xalq Deputatları Sovetinin sədri işləmişdir.

**GAHRAMANOVA Sadagat Memmedyar gyzy** — Head of the Executive Power of Ali Bayramly City.



**QƏMBƏROVA Zeynəb Çərkəz qızı** (d. 12.6.1916, Ağdaş r-nunun Ərəbocaq k.—1978, orada) — Sosialist Əməyi Qəhrəmanı (1951). Əmək fəaliyyətinə 1930 ildən Ağdaş r-nundakı "Şəfəq" təsərrüfatında başlamış, müxtəlif işlərdə çalışmış, həmin təsərrüfatın sədri (1954—76) işləmişdir. 1950 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (3, 5—8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur. 3 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**GAMBAROVA Zeynab Cherkez gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (3 rd, 5th and 8th convocations).





**QƏMƏR Bəyim Şeyda** (1881, Şuşa — 1933, Bakı) — Azərb. şairi, dramaturq. Cəfərqulu xan Nəvanın nəvəsidir. Şuşa qız gimnaziyasını bitirmişdir. Gənc yaşlarından şerə həvəs göstərən Qəmər Bəyimə "Şeyda" təxəllüsünü onun şerlərinə valeh olan X.Natəvan vermişdir. Ədəbi irsi hələlik əldə olunmamışdır. Yalnız Ziba xanım Ləlinin eyni rədifli şerinə cavab olaraq yazdığı "Ağan canı" rədifli qəzəli və "Zülmün daşqını" adlı pyesi (1918, əlyazması Azərb. EA Əlyazmalar İn-tunda saxlanılır) məlumdur.

**GAMAR Beyim Sheyda** — Azerbaijani poetess, dramatist.



**QƏNİYEVA Anaxanım İsmayıl qızı** (20.9.1914, Bakı — 24.10.1976, Bakı) — Sosialist Əməyi Qəhrəmanı (1971). Əmək fəaliyyətinə 1930 ildə arteldə fəhləliklə başlamış, 1941 ildən Azərb. SSR Yeyinti Sənayesi sistemində işləmişdir.

**GANIYEVA Anakhanym Ismayil gyzy** — Hero of Socialist Labour.



**QƏNİYEVA Ziba Paşa qızı** (d. 20.8.1923, Özb. SSR-in Gülüstan ş.) — İkinci dünya müharibəsi qəhrəmanı, filologiya e.n. (1965). 1940 ildə Lunaçarski ad. Moskva Dövlət Teatr Sənəti İn-tuna daxil olmuşdur. Müharibənin ilk günlərində könüllü cəbhəyə getmiş, Şimal-Qərb cəbhəsində vuruşan 3-cü Moskva kommunist diviziyasında snayper olmuşdur. 1955—56 illərdə Bakı Ali Partiya Məktəbində dil və ədəbiyyat kafedrasının müdiri, 1956 ildən SSRİ EA Şərqşünaslıq İn-tunda elmi işçi olmuşdur. Qırmızı Bayraq, Qırmızı Ulduz ordenləri ilə təltif edilmişdir.

**GANIYEVA Ziba Pasha gyzy** — candidate of philology.



**QOCAYEVA Münəvvər Məhəmməd qızı** (d.1961) — əmək fəaliyyətinə 1978 ildən Zaqatala r-nundakı fındıqtəmizləmə zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Energetika komissiyasının üzvü olmuşdur.

**GOJAYEVA Munavvar Mahammad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**QOLOVİNA İraida Antonovna** (d.13.2.1930, Bakı) — Azərb. SSR əməkdar neft və qaz sənayesi işçisi (1986). Əmək fəaliyyətinə 1948 ildən "Abşeronneft" NQÇİ-də başlamışdır. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur. Xalqlar dostluğu və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**GOLOVINA Iraida Antonovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (12th convocation).



**QONÇABƏYİM**, Q ö n ç ə b ə y i m (təqr. 1827, Naxçıvan —?) — Azərb. şairi. "Naxçıvanın sonuncu xan"ı olan Ehsan xanın qızıdır. 1837 ildə Naxçıvanda açılmış rus məktəbinə daxil olmuş, rus və fars dillərini öyrənmiş, Şərq əd-tına maraq göstərmişdir. "Qönçeyi-ülfət" ədəbi məclisinin iştirakçılarından olmuşdur. "Bəyim" təxəllüsü ilə lirik şerlər yazmışdır. "Şahzadə İbrahim" dastanına daxil edilən və Bəyimin dilindən deyilən şerlərin bir qisminin ona aidliyi ehtimal olunur. Ehsan xanla tanış olan gürcü şairi N.Barataşvili Naxçıvanda ikən onunla görüşmüş (1845), yaradıcılığı ilə maraqlanmış, ona şer həsr etmiş ("Qoncabəyimin nəğməsi"), bir şerini gürcü əlifbası ilə göçürərək, tərcümə olunmaq üçün Tiflisə göndərmişdi. O, həmin şerin məclislərdə oxunması üçün xanəndə Səttara və şəkili Cəfərə verilməsini məsləhət görmüşdü. İ.K.Yenikolopovun yazdığına görə, Barataşvilinin ondan tərcümə etdiyi bir şeri xanəndə Səttar gürcü dilində ifa edirmiş.

**GONCHABEYIM** — Azerbaijani poetess.



**QORDEYEVA Valentina Vasilyevna** (d. 1940) — əmək fəaliyyətinə 1959 ildən Bakıdakı tikiş fabrikində başlamışdır. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**GORDEYEVA Valentina Vasilyevna** — deputy of the Supreme Soviet of the USSR (7th convocation).



**QUBÇENKO Lidiya Qriqoryevna** (d. 1937) — Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1955 ildən başlamış, partiya işində müxtəlif vəzifələrdə çalışmışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, anaları və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**GUBCHENKO Lidiya GriGoryevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**QULİYEVA Akifə Məlikəhməd qızı** (d.1959) — əmək fəaliyyətinə 1975 ildən Ağsu r-nundakı "Komsomol" üzümçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Akifa Melikahmad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**QULİYEVA Ayna Baba qızı** (1920, Neftçala r-nunun Qırmızıkənd k.—1993, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1934 ildən Neftçala r-nunun N.Nərimanov ad. təsərrüfatında başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (4-cü çağırış) deputatı olmuşdur.

**GULIYEVA Ayna Baba gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (4th convocation).



**QULİYEVA Badam Oruc qızı** (d.1924, Erm. SSR, Sisyan r-nunun Dəstəgird k.) — əmək fəaliyyətinə 1940 ildən Qubadlı r-nundakı S.Vurğun ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Badam Oruj gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**QULİYEVA Ceyran Lələkişi qızı** (d.1915) — əmək fəaliyyətinə 1937 ildən Şuşa r-nundakı M.Əzizbəyov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**GULIYEVA Jeyran Lelekishi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**QULİYEVA Cənnət Baba qızı** (d.1927, Neftçala r-nunun Qırmızıkənd k.) — Sosialist Əməyi Qəhrəmanı (1947). Əmək fəaliyyətinə 1944 ildən N.Nərimanov adına təsərrüfatda başlamış, müxtəlif işlərdə çalışmışdır. 1946 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**GULIYEVA Jannat Baba gyzy** — Hero of Socialist Labour.

**QULİYEVA Dilarə Tarverdi qızı** (d. 1962) — əmək fəaliyyətinə 1980 ildən Nax. MR Şahbuz r-nundakı "Qırmızı Oktyabr" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal və şəhər təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Dilara Tarverdi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**QULİYEVA Gülçöhrə Kamil qızı** (d.1.7.1956, Qubadlı r-nunun Məmər k.) — Bakı Sosial İdarəetmə və Politologiya İn-tunu bitirmişdir (1991). Əmək fəaliyyətinə 1976 ildən Qubadlı r-nundakı Telman ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Energetika komissiyasının üzvü olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**GULIYEVA Gulchohra Kamil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**QULİYEVA Hökümə Fərman qızı** (d. 3.9.1950, Bakı) — biologiya e. d. (1999), prof. (2001). Azərb. Dövlət Un-tini bitirmişdir (1975). 1974 ildən Azərb. EA Zoologiya İn-tunda kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi vəzifələrində işləmişdir. 2001 ildən Bakı Dövlət Un-tinin onurğasızlar zoologiyası kafedrasının prof.-dur. Tədqiqatları həşəratların ekoloji fiziologiyası və biokimyası, həmçinin böyümə və inkişafının hormonal tənziminə həsr olunmuşdur. 40-dan artıq elmi işin, 2 monoqrafiyanın, tövsiyələrin müəllifidir.

**GULIYEVA Hokuma Farman gyzy** — doctor of biology.



**QULİYEVA Xurşid Cəmil qızı** (d.25.12.1919, Ordconikidzc ş., Murtazovo st.) — tibb e.d. (1965), prof. (1967), əməkdar həkim (1966). Azərb.-da cərrahlar arasında ilk qadın elmlər doktoru, cərrahiyyə kafedrasının müdiri (1971—80). Tədqiqatı, əsasən, ətrafların, qara ciyər və dalağın patologiyası problemlərinə həsr olunmuşdur. Zond və kontrast maddə vasitəsilə qan damarlarının angioqrafiyası metodunu keçmiş SSRİ-də ilk dəfə Q. işləyib hazırlamış və bu yeniliyə görə A.B. Vişnevski ad. medalla təltif edilmişdir. 104 elmi işin, 11 səmərələşdirici təklifin, monoqrafiyanın müəllifidir.

**GULIYEVA Khurshid Jamil gyzy** — doctor of medicine.



**QULİYEVA İlhamə Məzahir qızı** (d. 17.8.1943, Bakı) —Azərb. Resp.xalq artisti (1998). Azərb. Dövlət Un-tini bitirmişdir (1969). 1965-70 illərdə Azərb. Dövlət Teleradio Verilişləri Şirkəti Estrada Orkestrinin, 1970-80 illərdə Azərb. Dövlət Filarmoniyasının solisti olmuşdur. 1980 ildən Azərb. Dövlət Qastrol-Konsert Birliyinin ("Azkonsert") solistidir. Repertuarına Azərb. və xarici ölkə bəstəkarlarının əsərləri daxildir. Bir sıra xarici ölkələrdə (İngiltərə, İspaniya, Danimarka, Türkiyə, Almaniya və s.) qastrolda olmuşdur. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**GULIYEVA Ilhama Mazahir gyzy** — People's Artist of the Azerb. Repub.



**QULİYEVA Kifayət Əli qızı** (d. 1953) — əmək fəaliyyətinə 1968 ildən Cəlilabad r-nundakı "Moskva" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı. Ali Sovetin Ticarət və əhaliyə məişət xidməti komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Kifayat Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**QULİYEVA Qəndab Həbib qızı** (d.10.8.1949, Füzuli ş.) — Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (1992). A.Zeynallı ad. Bakı Musiqi Məktəbini bitirmişdir (1980). 1982 ildən Azərb. Opera və Balet Teatrının solistidir. Partiyaları: Leyli, Əsli, ("Leyli və Məcnun", "Əsli və Kərəm"; Ü.Hacıbəyli), Ərəbzəngi ("Şah İsmayıl", M. Maqomayev), Şahsənəm ("Aşıq Qərib", Z. Hacıbəyli), Xanəndə qız ("Vaqif", R.Mustafayev), Gülbahar ("Gəlin qayası", Ş.Axundova) və s. Repertuarında muğamlar (Şahnaz, Cahargah, Bayatı-Şiraz, Qarabağ şikəstəsi, Mahur-hindi, Heyratı və s.), xalq mahnıları ("Apardı sellər Saranı", "Qaçaq Nəbi", "Gül açdı", "Bağçada güllər", "Əlində sazın qurbanı", "Qara xal yar") və Azərb. bəstəkarlarının mahnıları geniş yer tutur. Xarici ölkələrdə (Yaponiya, Almaniya, Finlandiya, Avstraliya, İsveç, Kanada, Əfqanıstan, Tunis, Əlcəzair, İraq və s.) çıxış etmişdir.



**GULIYEVA Gandab Habib gyzy** — People's Artist of the Azerb. Repub.



**QULİYEVA Lalə Hüseyn qızı** (d.5.4.1942, Bakı) — filologiya e. d. (1992), prof. (1993). Azərb. Pedaqoji Dillər İn-tunu bitirmişdir (1964). 1964-70 illərdə həmin in-tun rus dilçiliyi kafedrasında baş laborant, müəllim, baş müəllim, 1971-82 illərdə Azərb. Dövlət Un-ti rus dilçiliyi kafedrasında dosent, 1982-90 illərdə Azərb. Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tunda ümumi və rus dilçiliyi kafedrasının müdiri olmuş, 1990 ildən Bakı Dövlət Un-tinin rus dilçiliyi kafedrasının müdiridir. Tədqiqatları dialektologiya və onomastika sahəsinə aiddir. 3 monoqrafiya, 4 metodiki vəsait və 80-dən artıq elmi məqalənin müəllifidir.

**GULIYEVA Lale Huseyn gyzy** — doctor of philology.

**QULİYEVA Mahirə Həmid qızı** (d.13.5.1950, Bakı) — f. e. d. (1991). Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsini bitirmişdir (1972). Əmək fəaliyyətinə 1973 ildən Azərb. EA Resp. Əlyazmaları Fondunda başlamışdır. 1979-80 illərdə İraqda tərcüməçi işləmişdir. 1985 ildən Azərb. EA-nın Ədəbiyyat İn-tunun böyük elmi işçisidir. Tədqiqatı klassik Şərq poetikası və ədəbiyyatşünaslıq nəzəriyyəsinə aiddir. 3 monoqrafiya və 60-dan artıq elmi məqalənin müəllifidir.

**GULIYEVA Mahira Hamid gyzy** — doctor of philology.



**QULİYEVA Maral Rüstəm qızı** (d.8.6.1935, Şəmkir r-nunun Keçili k.) — Sosialist Əməyi Qəhrəmanı (1972). Əmək fəaliyyətinə 1952 ildən "Sosializm" təsərrüfatında başlamışdır. 1971 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (6-8-ci çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**GULIYEVA Maral Rustam gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (6–8th convocations).





**QULİYEVA Məleykə Salman qızı** (d.1918, Ağdam r-nunun Mirəşelli k.) — Sosialist Əməyi Qəhrəmanı (1960). Əmək fəaliyyətinə 1936 ildən K.Marks ad. təsərrüfatda başlamış, 1962 ildən həmin kolxozun sədri işləmişdir. 1959 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (6-cı çağırış) və Azərb. SSR Ali Sovetinin (2—5 və 7-ci çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, 3 Qırmızı Əmək Bayrağı və Oktyabr İnqilabı ordenləri ilə təltif edilmişdir.

**GULIYEVA Maleyka Salman gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the USSR (6th convocation).

**QULİYEVA Narı Əbülfəz qızı** (d.10.7.1928, Naxçıvan MR Culfa r-nunun Kırna k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1944 ildən Culfa r-nundakı Lenin ad. təsərrüfatda başlamışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**GULIYEVA Nary Abulfaz gyzy** — Hero of Socialist Labour.

**QULİYEVA Növrəstə Bağır qızı** (1905, Şərur r-nunun Qarabağlar k.— 1982, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1931 ildən başlamışdır. 1948 ildə kənd təsərrüfatı sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**GULIYEVA Novrasta Bagyr gyzy** — Hero of Socialist Labour.



**QULİYEVA Nüyvər Xəlil qızı** (d.1929, Şəki r-nunun Bideyiz k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1944 ildən K.Marks ad. təsərrüfatda başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**GULIYEVA Nuyvar Khalil gyzy** — Hero of Socialist Labour.



**QULİYEVA Rüxsarə Məmməd qızı** (d.2.5.1920, Bakı) — Sosialist Əməyi Qəhrəmanı (1966). Əmək fəaliyyətinə 1941 ildən Bakı biskvit fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Ticarət və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Rukhsara Memmed gyzy** — Hero of Socialist Labour, deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**QULİYEVA Sevda Dadaş qızı** (d.1962) — əmək fəaliyyətinə 1979 ildən "Bakı fəhləsi" maşınqayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Sevda Dadash gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**QULİYEVA Səmayə Əli qızı** (d1.6.1927, Bakı) — tibb e.d. (1966), prof. (1976), əməkdar həkim (1966). Ə.Əliyev ad. Azərbaycan Həkimləri Təkmilləşdirmə İn-tunun patofiziologiya kafedrasının müdiri (1957 ildən), Resp. Patofizioloqlar Cəmiyyətinin sədri (1966 ildən) olmuşdur. Tədqiqatı, əsasən, allergiya, eksperimental onkologiya və Naftalan nefti probleminə həsr olunmuşdur.

**GULIYEVA Samaya Ali gyzy** — doctor of medicine.



**QULİYEVA Səmayə Qəni qızı** (d. 1943) — əmək fəaliyyətinə 1958 ildən Astara r-nunun təsərrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı olmuşdur.

**GULIYEVA Samaya Gani gyzy** — deputy of the Supreme Soviet of the USSR (8th convocation).



**QULİYEVA Sənubər Şirməmməd qızı** (d.26.6.1958, Yardımlı r-nunun Nisəkələ k.) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1992). Əmək fəaliyyətinə 1975 ildən Yardımlı r-nunun təsərrüfaktlarında başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**GULIYEVA Sanubar Shirmemmed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**QULİYEVA Şəfiqə Əşrəf qızı** (d.1949) — əmək fəaliyyətinə Nax. MR Culfa r-nundakı Sabir ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Shafiga Ashraf gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**QULİYEVA Şükufə Bəşir qızı** (d.1935) — əmək fəaliyyətinə 1952 ildən Tərtər r-nundakı İliç ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Shukufa Bashir gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**QULİYEVA Tərlan Gürzalı qızı** (d.1954) — əmək fəaliyyətinə 1971 ildən Yevlax r-nundakı S.Vurğun ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Tarlan Gurzaly gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**QULİYEVA Zemfira Mikayıl qızı** (d.1950) — əmək fəaliyyətinə 1967 ildən Bakı elektrik maşınqayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Zemfira Mikayil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**QULİYEVA Zenfira Kərim qızı** (d.1942) — əmək fəaliyyətinə 1964 ildən M.D.Hüseynov ad. Gəncə xalça-mahud kombinatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Zenfira Kerim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**QULİYEVA Zeynəb Əhməd qızı** (d. 1949) — əmək fəaliyyətinə 1965 ildən Ermənistan SSR-in Vardenis r-nundakı Daşkənd k.-ndə tütünçü kimi başlamışdır. Ermənistan SSR-dən SSRİ Ali Sovetinə (9-cu çağırış) deputat seçilmişdir.

**GULIYEVA Zeynab Ahmad gyzy** — deputy of the Supreme Soviet of the USSR from the Armenian SSR (9th convocation).





**QULİYEVA Zəhra Tahir qızı** (d.18.1.1923, Bakı) — Azərb. Resp. Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri (1998 ildən). Tibb e.d. (1967), prof. (1968), əməkdar elm xadimi (1981). Azərb. Dövlət Tibb İn-tunun rektoru (1972-83) işləmişdir. Azərb. Oftalmoloqlar Cəmiyyətinin sədridir (1976 ildən). Tədqiqatı, əsasən, traxoma, gözün refraksiyası, rəng duyğusu və ona müxtəlif amillərin təsiri, tor qİşa və görmə siniri xəstəliklərində görmə orqanının funksiyasının öyrənilməsinə həsr olunmuşdur. 150-dən artıq elmi işin, 3 monoqrafiya, dərslik və bir neçə dərs vəsaitinin, ixtira və səmərələşdirici təkliflərin müəllifidir. Amerika Bioqrafiya İn-tu tərəfindən "2001-ci ilin qadını" seçilmişdir. SSRİ Ali Sovetinin (8 və 9-cu çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri və Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**GULIYEVA Zahra Tahir gyzy** — doctor of medicine, chairman of the State Committee on Woman Problems of the Azerb. Repub.



**QULİYEVA Zöhrə Müsəllim qızı** (d.1953) — əmək fəaliyyətinə 1972 ildən Tovuz r-nundakı S.Vurğun ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**GULIYEVA Zohra Musallim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**QULİYEVA Zümrüd İsmayıl qızı** (d.1.4.1950, Goranboy r-nunun Baxçakürd k.) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1950 ildən Goranboy r-nundakı Bəsti Bağırova ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur. Lenin ordeni, Oktyabr İnqilabı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**GULIYEVA Zumrud Ismayil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**QULYAYEVA Mariya Zaxarovna** (d.1925) — əmək fəaliyyətinə 1940 ildə Voronej vilayətindəki "Krasnı partizan" təsərrüfatında başlamışdır. 1948 ildən Sumqayıt ş.-nin müəssisələrində işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Plan – büdcə komissiyasının üzvü olmuşdur.

**GULYAYEVA Mariya Zakharovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**QURBANƏLİYEVA Sevda Firudin qızı** (d.13.11.1960, Gəncə) — sənətşünaslıq doktoru (1995), prof. (1996). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1948). Əmək fəaliyyətinə 1948 ildən Q.Hüseynli ad. Musiqi Texnikumunda müəllim kimi başlamışdır. Hazırda Gəncə Dövlət Un-tində "Musiqi fənləri" kafedrasının müdiridir. Tədqiqatı ədəbiyyat və musiqinin qarşılıqlı əlaqələri probleminə aiddir.

**GURBANALIYEVA Sevda Firudin gyzy** — doctor of arts



**QURBANOVA Famılə Şabələd qızı** (d.1947) — əmək fəaliyyətinə 1964 ildən Kürdəmir r-nundakı "Oktyabr" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları komissiyasının üzvü olmuşdur.

**GURBANOVA Famila Shabalad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**QURBANOVA Gülnarə Şıxəli qızı** (d.10.3.1953, Bakı) — fəlsəfə e.d. (1980). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1976). Bakı Dövlət Un-tinin etika və estetika kafedrasının dosentidir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı, Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı, Milli Məclisin İnsan hüquqları komissiyasının üzvü olmuşdur.

**GURBANOVA Gulnara Shykhali gyzy** — doctor of philosophy.



**QURBANOVA Gülsənəm Qurbanismayıl qızı** (d.1953) — əmək fəaliyyətinə 1970 ildən Zaqatala r-nundakı "Kommunizm yolu" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə komissiyasının üzvü olmuşdur.

**GURBANOVA Gulsanam Gurbanismayil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**QURBANOVA Gülşən Ağadadaş qızı** (d.19.12.1950, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1998). Ə.Hüseynzadə ad. Azərb. Mədəniyyət və İncəsənət İn-tunu bitirmişdir (1974). Həmin ildən Gənc Tamaşaçılar Teatrında çıxış edir. Rolları: Mərcan ("Mənim nəğməkar bibim", Ə.Əylisli), Eyzəngül ("Şirinbala bal yığır", S.Qədirzadə), Çiçək ("Ana laylası", İ.Coşğun), Nabat ("Tamahkar", S.S.Axundov), Şahnaz ("Şəhərli oğlan", Q.Rəsulov), Almagül ("Fudzi dağında qonaqlıq", Ç.Aytmatov), Gülarə ("Məhəbbət novellası", Ş.Xurşud və Ə.Hacıyev), Nera ("Zəncirlənmiş Prometey", C.Məmmədov), Gülnaz ("Pul dəlisi", Ə.Orucoğlu), ana ("Bala bələ sözündəndir", Ə.Əmirli) və s. Kinoda çəkilir, televiziya tamaşalarında çıxış edir.

**GURBANOVA Gulshan Agadadash gyzy** — People's Artist of the Azerb. Repub.





**QURBANOVA Həvayət Hacı qızı** (d.13.2.1937, Goranboy r-nunun Sarov k.) — Sosialist Əməyi Qəhrəmanı (1966). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1955 ildə başlamışdır, müxtəlif vəzifələrdə, o cümlədən 1969-72 illərdə Nax. MSSR Kənd Təsərrüfatı Nazirliyində aqronom, 1972-75 illərdə Nax. MSSR kompleks-zona təcrübə st.-nda kiçik elmi işçi, 1975-76 illərdə "Azərkəndtəsərrüfatıtexnika" Naxçıvan resp. birliyində böyük aqronom işləmişdir. 1965 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (6 və 7-ci çağırış) deputatı olmuşdur.

**GURBANOVA Hevayat Hajy gyzy** — Hero of Socialist Labour.



**QURBANOVA Hökumə Abbasəli qızı** (2.6.1913, Bakı — 1.2.1988, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1960). SSRİ xalq artisti (1965). 1931 ildə Bakı Pedaqoji Texnikumunu bitirmişdir, 1931-32 illərdə Azərb. Dövlət Konservatoriyasında fortepiano sinfi üzrə oxumuşdur. Aktyorluq fəaliyyətinə 1933 ildə "Azərbaycanfilm" kinostudiyasında başlamış, C.Cabbarlının təşəbbüsü ilə "Almaz" (1936) filmində Yaxşı rolunda çəkilmişdir. 1939 ildən Azərb. Milli Dram Teatrında çıxış etmişdir. Tamara ("Vaqif", S.Vurğun) onun teatr səhnəsində ilk roludur. Yaradıcılığının ilk illərində Gülbahar ("Müsibəti-Fəxrəddin", N.Vəzirov), Şirin ("Fərhad və Şirin", S.Vurğun), Afaq ("Nizami", M.Hüseyn), Vəfa ("Vəfa", R.Rza), İnci ("Xoşbəxtlər", S.Rəhman) rollarının ifa etmişdir. Onun yaratdığı Sona ("1905-ci ildə", C.Cabbarlı), Xuraman ("Vaqif", S.Vurğun), Germiona ("Qış nağılı", U.Şekspir), Xumar ("Şeyx Sənan", H.Cavid), Süsən ("Namus", A.Şirvanzadə), Vasantasena ("Hind gözəli", Y.Osnos və V.Vinnikov), Solmaz ("Od gəlini", C.Cabbarlı), Həyat ("Həyat", M.İbrahimov), Həcər ("Qaçaq Nəbi", S.Rüstəm), Məryəm ("Fərhad və Şirin", S.Vurğun), Südabə ("Səyavuş", H.Cavid), Reyhan ("Cavanşir", M.Hüseyn), Məhmənəbanu ("Məhəbbət əfsanəsi", N.Hikmət), Janna d'Ark ("Orlean qızı", F.Şiller), Mariya Tüdor ("Mariya Tüdor", V.Hüqo), Kleopatra ("Antoni və Kleopatra", U.Şekspir) obrazları Azərb. teatrı tarixində əhəmiyyətli yer tutur. Kleopatra roluna görə 1965 ildə M.F.Axundov ad. Resp. mükafatına layiq görülmüşdür. Müasir pyeslərdə, həmçinin komediyalarda eyni müvəffəqiyyətlə çıxış etmişdir: Bənövşə ("Kəndçi qızı", M.İbrahimov), Sevinc ("Sənsiz", Ş.Qurbanov), Xanuma ("Xanuma", A.Saqareli) və "Bir ailə" (1943), "Onu bağışlamaq olarmı?" (1960), "Mən rəqs edəcəyəm" (1963), "İnsan məskən salır" (1968) və s. filmlərə çəkilmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**GURBANOVA Hokuma Abbasali gyzy** — People's Artist of the USSR.



**QURBANOVA İnna Musa qızı** (d.26.1.1937, Şamaxı) — biololgiya e.d. (1992). Azərb. Dövlət Un-tini bitirmişdir (1962). Əmək fəaliyyətinə 1962 ildən Azərb. EA Botanika İn-tunun bitki fiziologiyası laboratoriyasında başlamışdır. 2002 ildən AMEA Botanika İn-tunun biofizika laboratoriyasının baş elmi işçisidir. Tədqiqatı, əsasən, ali bitkilərin xloroplastikalarında fotokimyəvi reaksiyalar zamanı fosfolipidlərin və lipid təbiətli maddələrin rolunun aydınlaşdırılması, xloroplast membranlarında xlorofil-zülal komplekslərinin təşkili və biosintezi prinsiplərinin öyrənilməsi və s. məsələlərə həsr olunmuşdur. 96 elmi işin müəllifidir. Bir sıra beynəlxalq konqres və simpoziumlarda elmi məruzələrlə çıxış etmişdir. Kembric Beynəlxalq Bioqrafiya Mərkəzinin buraxdığı "Kim kimdir" kitabında haqqında məlumat verilmişdir.

**GURBANOVA Inna Musa gyzy** — doctor of biology.



**QURBANOVA Mahmuzər Yusif qızı** (d.1937, Qazax r-nunun Əskipara k. — 1983) — Sosialist Əməyi Qəhrəmanı (1982). Əmək fəaliyyətinə 1958 ildən Abşeron r-nunun Binə qəsəbəsindəki təsərrüfatda başlamışdır, 1961 ildən Hövsan südçülük təsərrüfatında işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-10-cu çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur. 4 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**GURBANOVA Mahmuzar Yusif gyzy** — Hero of Socialist Labour.



**QURBANOVA Nailə Qurban qızı** (d. 1962) — əmək fəaliyyətinə 1979 ildən Zaqatala r-nundakı tütünçülük təsərrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, Millətlər Sovetinin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**GURBANOVA Naila Gurban gyzy** —deputy of the Supreme Soviet of the USSR (11th convocation).





**QURBANOVA Rəfiqə Əhməd qızı** (d.1938, Şəki) — kimya e.d. (1992). Azərb. Dövlət Un-tinin kimya fakültəsini bitirmişdir (1961). Əmək fəaliyyətinə 1965 ildən Sumqayıt Sintetik Kauçuk zavodunun mərkəzi laboratoriyasında böyük mühəndis vəzifəsində başlamışdır. 1978-93 illərdə Azərb. EA Polimer Materialları İn-tunda "Polimer örtüklər" laboratoriyasının rəhbəri işləmişdir. Elmi axtarışları, əsasən, polistirolun bəzi fiziki-mexaniki xassələrinin yaxşılaşdırılmasına, həmçinin respublikanın ekoloji problemlərinin həllinə yönəlmişdir. 200-dən çox elmi əsərin, o cümlədən 30 müəlliflik şəhadətnaməsinin, 2 dərsliyin müəllifdir. Bir sıra beynəlxalq konqres və simpoziumların iştirakçısı olmuşdur. Pedaqoji fəaliyyət göstərir.

**GURBANOVA Rafiga Ahmed gyzy** — doctor of chemistry.



**QURBANOVA Solmaz Cəbrayıl qızı** (d.13.11.1939, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1991). Səhnə fəaliyyətinə Azərb. Gənc Tamaşaçılar Teatrında başlamış, yeniyetmə oğlan rollarında çıxış etmişdir: Qavroş (V.Hüqonun "Səfillər" romanı əsasında), Antonio ("Puerto Sorido alovları", M.Minçkovski), Rəcəb ("Anacan", Y.Əzimzadə; Azərb. Resp. festivalının mükafatı, 1956), Petya ("İnqilab naminə", M.Şatrov), Kamal ("Sehrli yaylıq", K.Həsənov) və s. 1955 ildən həmin teatrın aktrisasıdır. Rolları: İo ("Zəncirlənmiş Prometey", Esxil), Cülyetta, Culiya ("Romeo və Cülyetta", "İki veronalı", U.Şekspir), kraliça ("İki ağanın bir nökəri", K.Qoldoni), Cemma ("Ovod", E.Voyniç), Flavio ("Sükut divarı", P.Missini), Yaqut ("Məlikməmməd", Ə.Abbasov), Paşa xala ("Unutmayın", Y.Əzimzadə), Dilarə ("Ötən ilin son gecəsi", Anar), Şəcərət ("Əlvida, Hindistan", Q.Rəsulov), Afərid ("Söhrab və Rüstəm", İ.Coşğun) və s.

**GURBANOVA Solmaz Jabrayil gyzy** — People's Artist of the Azerb. Repub.



**QURBANOVA Tamara Məmməd qızı** (d.13.6.1930, Şəmkir r-nunun Bitdili k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1944 ildən R.Əliyev ad. təsərrüfatda başlamışdır. 1948 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir.

**GURBANOVA Tamara Memmed gyzy** — Hero of Socialist Labour.

# L



**LADİNA İnna Borisovna** (d.1961) — əmək fəaliyyətinə 1978 ildən Bakı hesablama texnikasına texniki xidmət və onun təmiri zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**LADINA Inna Borisovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**LETUÇAYA Larisa Kon stantinovna** (d.1960) — əmək fəaliyyətinə 1977 ildən Gəncə cihazqayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**LETUCHAYA Larisa Konstantinovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**LƏLƏYEVA Şəmsiyət Soltanməcid qızı** (d.20.3.1926, Balakən r-nunun Bedağar k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1943 ildən Balakən r-nunun "Moskva" təsərrüfatında başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (3,5,6-cı çağırış) deputatı olmuşdur.

**LALAYEVA Shamsiyat Soltanmejid gyzy** — Hero of Socialist Labour.



**LİSİNA Veronika Konistantinovna** (d.1960) — əmək fəaliyyətinə 1976 ildən Əli Bayramov ad. Bakı Tikiş İstehsalatı Birliyində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**LISINA Veronika Konstantinovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



# M



**MAHMUDBƏYOVA Məhbubə Kərim qızı** (11.6. 1902, Şuşa — 13.1.1976, Bakı) — tibb e. d. (1961), prof. (1963), əməkdar həkim (1960). 1933-70 illərdə Azərb. Dövlət Tibb İn-tunun mama-ginekologiya kafedrasında dosent, prof., müdir işləmişdir. 1968-74 illərdə resp. mama-ginekoloqları elmi cəmiyyətinin sədri olmuşdur. Tədqiqatı, əsasən, qadın, ana və uşağın sağlamlığının qorunması probleminə həsr edilmişdir. "Ürək-damar sistemi xəstəlikləri zamanı hamiləlik və doğuş" monoqrafiyası (1973) böyük elmi-praktiki əhəmiyyətə malikdir.

**MAHMUDBEYOVA Mahbuba Kerim gyzy** — doctor of medicine.



**MAHMUDBƏYOVA Məryəm Fərəmaz qızı** (d.2.1.1921, Naxçıvan) — tibb e.d. (1966), əməkdar həkim (1973). 1953 ildən Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İn-tunda işləmiş, 1976-79 illərdə Azərb. Elmi-Tədqiqat Qanköçürmə və Hematologiya İn-tunda immun-hematologiya şöbəsinin müdiri olmuşdur. Tədqiqatı müasir təbabətin aktual məsələlərinin (bioloji aktivliyi yüksək olan makromolekulların, zülalların, nuklein turşusunun həll olunan antigen fraksiyalarının) öyrənilməsinə həsr olunmuşdur. Antigen quruluşa aid tədqiqatlarından immun preparatların istehsal texnologiyası sahəsində, habelə xəstəliklərin profilaktika və diaqnostikasında geniş istifadə edilir.

**MAHMUDBEYOVA Maryam Faramaz gyzy** — doctor of medicine.





**MAHMUDOVA Ağgül Maşallah qızı** (d. 1951) — əmək fəaliyyətinə 1968 ildən Füzuli r-nundakı 28 Aprel təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9 və 10-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**MAHMUDOVA Aggul Mashallah gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9—10th convocations).



**MAHMUDOVA Fatma Yaqub qızı** (d. 30.12.54, Ağdam) — Azərb. Resp. xalq artisti (2001). Azərb. İncəsənət Un-tini bitirmişdir (1994). Səhnə fəaliyyətinə Ağdam Dövlət Dram Teatrında başlamışdır (1968 ildən). 1994 ildən Azərb. Dövlət Musiqili Komediya Teatrının aktrisasıdır. Rolları: Sara ("Solğun çiçəklər", C.Cabbarlı), Həcər ("Qaçaq Nəbi", S.Rüstəm), Məryəm ("Fərhad və Şirin", S.Vurğun), Təhminə ("Təhminə və Zaur", Anar; Ağdam dram teatrının səhnəsində), Xurma ("Hərənin öz ulduzu", S.Ələsgərov), Ağuçu Gülbikə ("Bankir adaxlı") və s.

**MAHMUDOVA Fatma Yagub gyzy** — People's Artist of the Azerb. Repub.



**MAHMUDOVA Firəngiz Məhəmməd qızı** (d. 1960) — əmək fəaliyyətinə 1975 ildən Ağdam r-nundakı "1 May" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**MAHMUDOVA Firangiz Mahammad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MAHMUDOVA Xədicə Mürvət qızı** (d. 6.7. 1929, Cəlilabad r-nunun Prişib ş.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1949 ildən Cəlilabad r-nunun "Bakı fəhləsi" təsərrüfatında başlamışdır. 1949 ildən tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MAHMUDOVA Khadija Murvat gyzy** — Hero of Socialist Labour.



**MAHMUDOVA Qüdrət Siley qızı** (d. 1955) — əmək fəaliyyətinə 1974 ildən Naxçıvan MR-in Şərur r-nundakı M.Qorki ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**MAHMUDOVA Gudrat Siley gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**MAHMUDOVA Rəfiqə Heyyət qızı** (d. 1958) — əmək fəaliyyətinə 1976 ildən Bərdə r-nundakı 26 Bakı komissarı ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**MAHMUDOVA Rafiga Heyyat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).





**MAHMUDOVA Rəsmiyyə Sovet qızı** (d. 1962) — əmək fəaliyyətinə 1981 ildən Ağdaş r-nundakı Kirov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**MAHMUDOVA Rasmiyya Sovet gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MAHMUDOVA Sona Yediyar qızı** (1923, Zərdab r-nunun Pərvanlı k. — yanvar, 1992) — əmək fəaliyyətinə 1940 ildən Pərvanlı kənd orta məktəbində başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**MAHMUDOVA Sona Yediyar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).



**MAHMUDOVA Tamilla Zahid qızı** (d. 21.4.1931, Bakı) — Azərb. pianoçusu. Azərb. SSR xalq artisti (1974). Moskva Konservatoriyasını (1954) və aspiranturasını (1957) bitirmişdir. 1947 ildən Azərb. Radio Komitəsində solist olmuşdur. 1954 ildən Moskonsertin solistidir. Repertuarına rus və Qərbi Avropa klassiklərinin, müasir xarici ölkə bəstəkarlarının əsərləri daxildir. M. Azərb. bəstəkarlarından Q.Qarayev, F.Əmirov, C.Hacıyev və A.Məlikovun fortepiano əsərlərinin ilk ifaçılarındandır. Xarici ölkələrdə (İngiltərə, Belçika, Macarıstan, Hindistan, Polşa, Zambiya və s.) qastrolda olmuşdur.

**MAHMUDOVA Tamilla Zahid gyzy** — People's Artist of the Azerb. Repub.



**MAHMUDOVA Zərnişan Əliş qızı** (d. 1938) — əmək fəaliyyətinə 1961 ildən Bakı şəhərində başlamış, müxtəlif işlərdə çalışmışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, ana və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**MAHMUDOVA Zarnishan Alish gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MANAFOVA Asya Sərdar qızı** (d. 3.1.1941, Qusar ş.) — Azərb. Resp. Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədri (1995 ildən). Azərb. Dövlət Neft və Kimya İn-tunu (1964), Moskvadakı İctimai Elmlər Akademiyasını (1979) bitirmişdir. Əmək fəaliyyətinə 1959 ildən başlamış, 1965 ildən Azərb. EA Elmi-Tədqiqat "Olefinlər" İn-tunda, təcrübə zavodunda, 1969 ildən Qusar şəhər sanitar-epidemioloji stansiyasında kimyaçı-mühəndis, laboratoriya müdiri, 1974 ildən Azərb. KP Qusar RK-nın katibi, 1979 ildən Azərb. KP MK-da məsul işçi, 1981 ildən Masallı Rayon İcraiyyə Komitəsinin sədri, 1990 ildən Azərb. KP Qusar RK-nın birinci katibi, Rayon Sovetinin sədri, İcra Hakimiyyətinin başçısı, 1992 ildə Azərb. Resp. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Şöbə rəisi işləmişdir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuş, Azərb. Resp. Milli Məclisinin (1 və 2-ci çağırış) deputatıdır.

**MANAFOVA Asya Sardar gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub. (1 st and 2 nd convications).



**MANAFOVA Linaida Yusif qızı** (d. 1940) — əmək fəaliyyətinə 1959 ildən Kalinin ad. Bakı geofizika cihazları zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**MANAFOVA Linaida Yusif gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**MANSUROVA Mərcan Qəhrəman qızı** (1.7.1908, Cəlilabad r-nunun Əliqasımlı k. — 15.5.1989) — Sosialist Əməyi Qəhrəmanı (1949). Gənc yaşlarından ömrümün sonuna kimi Əliqasımlı kəndində təsərrüfatda müxtəlif işlərdə çalışmışdır. 1948 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilər əldə etmişdir. Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**MANSUROVA Marjan Gahraman gyzy** — Hero of Socialist Labour.



**MARKİNA Pelageya İvanovna** (d. 1919) — Azərb. Dövlət Un-tini bitirmişdir. Əmək fəaliyyətinə 1941 ildən Azərb. Neft Sənayesi Müəssisələrinin Texniki Təchizat Trestində başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**MARKINA Pelageya Ivanovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation)



**MEFTAHƏTDİNOVA Zemfira Əli qızı** (d. 28.5. 1963, Bakı) — XXVII Yay Olimpiya Oyunlarının qızıl medalçısı (Sidney, 2000), stend atıcılığı üzrə dünya çempionu (2001). Azərb. Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1984). 1976 ildən "Dinamo" idman cəmiyyətində stend atıcılığı ilə məşğul olmuşdur. 1979 ildən idman ustasıdır. 1993 ildə Avropa çempionatında I yeri, 1995 ildə Dünya çempionatında I yeri, 1999 ildə Qran-pri yarışlarında (Hindistan) I yeri, Dünya Kuboku mərhələlərində I və II yeri, 2000 ildə Qran-pri yarışlarında (Hindistan) I yeri tutmuşdur. 6 Dünya rekordu, 2 Olimpiya rekordu qazanmışdır. 1994 ildən polis orqanlarında işləyir, polis mayorudur. Hazırda "Dinamo" cəmiyyəti tədris-idman şöbəsinin rəisidir. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**MEFTAHETDINOVA Zemfira Ali gyzy** — world champion on shooting.



**MEHDİYEVA Ceyran Əli qızı** (1.4.1914, Gədəbəy qəs.—1998, Şəmkir) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1936 ildən Şəmkir r-nunun K. Setkin ad. təsərrüfatında başlamışdır. 1949 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MEHDIYEVA Jeyran Ali gyzy** — Hero of Socialist Labour.



**MEHDİYEVA Gülxara İzzət qızı** (1.7. 1920, Cəlilabad r-nunun Ocaqlı k.—1999) — Sosialist Əməyi Qəhrəmanı (1950). 1975 ilədək "1 May" təsərrüfatında fəhlə işləmişdir. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MEHDIYEVA Gulkhara Izzat gyzy** — Hero of the Socialist Labour.



**MEHDİYEVA Gülnarə Hüseyn qızı** (d. 1954) — əmək fəaliyyətinə 1972 ildən başlamış, müxtəlif işlərdə çalışmışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**MEHDIYEVA Gulnara Huseyn gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).





**MEHDİYEVA Nisbət Canməmməd qızı** (1.1. 1937, Şamaxı r-nunun Göylər k.) — tarix e. d. (1991), prof. (1991). Azərb. Dövlət Un-tini bitirmişdir (1960). Əmək fəaliyyətinə 1960 ildən Azərb. EA Tarix İn-tunda başlamış, 1973-91 illərdə Azərb. Dövlət Un-ti SSRİ tarixi kafedrasında dosent işləmiş, 1991 ildən həmin un-tinin Türk və Qafqaz xalqları tarixi kafedrasının prof.-dur. Tədqiqatı ictimai təşkilatlar, yaradıcılıq ittifaqları və cəmiyyətlərinin fəaliyyətinə həsr edilmişdir. 41 elmi məqalə, monoqrafiya, dərs vəsaiti, dərslik, proqram və metodiki tövsiyənin müəllifidir.

**MEHDIYEVA Nisbat Janmemmed gyzy** — doctor of history.



**MEHDİYEVA Nisə Əşrəf qızı** (d. 12.4.1928, Bakı) — biologiya e.d. (1969). Mikologiya sahəsində ilk azərbaycanlı qadın elmlər doktoru. M.V.Lomonosov ad. Moskva Dövlət Un-tini bitirmişdir. 1955-71 illərdə Azərb. SSR EA Biologiya bölməsinin elmi katibi, EA-nın Torpaqşünaslıq və Aqrokimya İn-tunda laboratoriya müdiri, EA-nın Zoologiya İn-tunda mikrobiologiya bölməsinin rəhbəri, 1972 ildən EA-nın Mikrobiologiya bölməsinin direktoru olmuş, 1981 ildən laboratoriya müdiridir. Tədqiqatı ümumi və tətbiqi mikrobiologiyaya aiddir.

**MEHDIYEVA Nisa Ashraf gyzy** — doctor of biology.



**MEHDİYEVA Rəhilə Hüseyn qızı** (d. 1957) — əmək fəaliyyətinə 1976 ildən Bakı şin zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**MEHDIYEVA Rahila Huseyn gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MEHDİYEVA Sevil Hacı qızı** (d.9.9. 1942, Lənkəran) — filologiya e.d. (1993), prof. (1998). Azərb. Resp. əməkdar müəllimi (2000). Azərb. Dövlət Un-tinin filologiya fakültəsini bitirmişdir (1964). Əmək fəaliyyətinə orta məktəb müəllimi kimi başlamış, 1968 ildən Azərb. EA Nəsimi ad. Dilçilik İn-tunda işləmişdir. Tədqiqatı Azərb. dili tarixinin müxtəlif problemlərinə həsr edilmişdir. 2 monoqrafiya, 3 metodiki vəsait, 110-dan artıq elmi, elmi-kütləvi və metodiki məqalənin müəllifi, 6 kollektiv monoqrafiyanın həmmüəllifidir.

**MEHDIYEVA Sevil Hajy gyzy** — doctor of philology.



**MEHDİYEVA Səlimə İbrahim qızı** (d. 21.5.1941, Naxçıvan ş.) — fizika-riyaziyyat e.d. (1988), prof. (1993). Azərb. Dövlət Un-tinin fizika fakültəsini bitirmişdir (1963). 1968 ildən Azərb. EA Fizika İn-tunda elmi katib, 1976 ildən laboratoriya müdiri vəzifələrində işləmiş, hazırda İn-tun elmi işlər üzrə direktor müavinidir. Tədqiqatı selen və onun əsasında alınan nizamsız quruluşlu sistemlərdə, həmçinin qeyri-üzvi xətti polimer yarımkeçiricilərdə elektron proseslərinin araşdırılmasına aiddir. 125 elmi məqalənin, 9 ixtiranın, bir monoqrafiyanın müəllifidir. Beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir. İngiltərə Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən 1998-2000 illərdə "İlin qadını" adına layiq görülmüşdür. Həmin mərkəzin nəşr etdirdiyi "XX əsrin görkəmli şəxsiyyətləri" kitabında haqqında məlumat verilmişdir.

**MEHDIYEVA Salima Ibrahim gyzy** — doctor of physics and mathematics.



**MEHDİYEVA Turan Camal qızı** (22. 11. 1928, Aşqabad — 1991, Bakı) — tibb e.d. (1969), prof. (1971). Türkmənistan Dövlət Tibb İn-tunu bitirmişdir (1948). Əmək fəaliyyətinə Türkmənistanda başlamış, 1952 ildən Azərb. Dövlət Tibb İn-tunda II mamalıq-ginekologiya kafedrasında kliniki ordinaturaya daxil olmuşdur. 1956-68 illərdə həmin kafedrada assistent, dosent vəzifəsində işləmişdir. Özünün təşəbbüsü ilə ATİ-nin pediatriya fakültəsində təşkil olunmuş III mamalıq-ginekologiya kafedrasına rəhbərlik etmişdir (1969-76). 1976-91 illərdə 1 müalicə-profilaktika fakültəsinin 1 mamalıq-ginekologiya kafedrasının müdiri işləmişdir. 1959 ildə Azərb.-da onun rəhbərliyi ilə sonsuzluqla mübarizə kabineti təşkil olunmuşdur.

**MEHDIYEVA Turan Jamal gyzy** — doctor of medicine.



**MEHRİCAN XATIN** (XIII əsrin əvvəlləri) — sultan Toğrulun qızı, Atabəylər dövlətinin axırıncı hökmdarı Müzəffərəddin Özbəyin arvadı. Xarəzmşah Cəlaləddin Azərbaycana soxulanda Özbək Təbrizdən Gəncəyə, oradan da Naxçıvana, Əlincə qalasına qaçmışdı. Onun Təbrizdə qalan arvadı Mehrican xatın özünün nüfuzu hesabına Xoy, Səlmas və Urmiyəni öz idarəçiliyində saxlaya bilmişdi. Mehrican xatın 1225 ildə Təbrizli Şəmsəddinlə birlikdə Təbriz, Xoy, Naxçıvan şəhərlərinin işğalçılardan azad olunmasında böyük hünər göstərmişdir.

**MEHRİJAN Khatyn** (at the beginning of the XIII century) — daughter of sultan Togrul, wife of Muzaffaraddin Ozbeyin, last ruler of the Atabeyler state.





**MƏCİDOVA Mənsurə Həbib qızı** (d. 1936) — əmək fəaliyyətinə 1954 ildən başlamışdır. 1964 ildən Xaçmaz r-nundakı 1 №-li təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**MEJIDOVA Mansura Habib gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**MƏDƏTOVA Suqra Qənbər qızı** (d. 1940, Ağcabədi r.-nun) — Sosialist Əməyi Qəhrəmanı (1976), Azərb. SSR Dövlət mükafatı laureatı (1982). Əmək fəaliyyətinə 1958 ildən Ağcabədi r-nunun Çaparidze ad. təsərrüfatında başlamışdır. 1975 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.

**MADATOVA Sugra Ganbar gyzy** — Hero of Socialist Labour.



**MƏDİNƏ Gülgün** (təxəllüsü; tam adı və familiyası Mədinə Nurulla qızı Ə l ə k b ə r z a d ə; 17.1.1926, Bakı—1991, Bakı) — Azərb. şairi. 1938 ildə ailəsilə Cənubi Azərb.-ın Ərdəbil ş.-nə köçmüşdür. 1947 ildən mühacirətdə yaşamışdır. Cənubi Azərb.-da milli azadlıq və demokratik hərəkatının (1941-46) fəal iştirakçısı olmuşdur. Vətən məhəbbətinin, sülh və xalqlar dostluğunun tərənnümü "Təbrizin baharı" (1950), "Təbriz qızı" (1956), "Şerlər" (1962), "Xatirələrimin nəğməsi" (1969), "Dünyamızın sabahı" (1974), "Arzu da ömürdür" (1976), "Ömrə yelkən ümidlərim" (1981) və s. şer və poema kitablarının əsas mövzularıdır. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**MEDINA Gulgun** — Azerb. poetess.



**MƏHƏRRƏMOVA Ağca Ağacan qızı** (d. 1942) — əmək fəaliyyətinə 1959 ildən Ağcabədi r-nundakı S.Vurğun ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**MAHARRAMOVA Agja Agajan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation)



**MƏHƏRRƏMOVA Rəhilə Cavad qızı** (d. 7.11.1923, Bakı) — Azərb. dilçisi. Filologiya e.d. (1969), prof. (1996). Azərb. SSR EA Nəsimi ad. Dilçilik İn-tu Azərb. dili tarixi şöbəsinin baş elmi işçisi (1960–68), müdiri (1968-74) olmuş, 1978 ildən həmin şöbənin baş elmi işçisidir (1960-68; 1978 ildən). Tədqiqatları ümumi dilçilik, ədəbi dil tarixi, leksikologiya, üslubiyyat və s. sahələrə aiddir. 125 elmi məqalənin, 5 kitabın müəllifidir.

**MAHARRAMOVA Rahila Javad gyzy** — doctor of philology.



**MƏHƏRRƏMOVA Sevil İmamqulu qızı** (d. 1951) — əmək fəaliyyətinə 1966 ildən İmişli r-nundakı M.Əzizbəyov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-10-cu çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**MAHARRAMOVA Sevil Imamgulu gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9–10th convocations).





**MƏHƏRRƏMOVA Səcarə Vəli qızı** (d. 1947) — əmək fəaliyyətinə 1965 ildən Qazax r-nundakı "Komsomol" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**MAHARRAMOVA Sajara Veli gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MƏHSƏTİ GƏNCƏVİ** (?, Gəncə — ?, Gəncə) — 12 əsr Azərb. şairi. Həyatı haqqında məlumat çox azdır. Onun Ömər Xəyyamdan əvvəl və ya sonra yaşaması, harada anadan olması haqqında müxtəlif mübahisəli fikirlər vardır. Son tədqiqatlar onun təqr. 11 əsrin axırlarında Gəncədə doğulduğunu, təhsil aldığını, Şərq ədəbiyyatı və musiqisinə yaxından bələd olduğunu göstərir. Yaradıcılığının ən məhsuldar dövrünü Sultan Mahmud Səlcuqinin və onun əmisi Sultan Səncər Səlcuqinin saraylarında keçirmişdir. Fars dilində, əsasən, rübai janrında yazmışdır. Ədəbi irsi dövrümüzədək tam halda gəlib çatmamışdır. 13-15 əsrlərə aid cüng və təzkirələrdə iki yüzə yaxın rübaisi və bir neçə başqa lirik şeri saxlanılmışdır. Yalnız öz dövründə deyil, sonralar da görkəmli rübai ustası kimi tanınmış, bu isə bəzən başqa sənətkarların rübailərinin də ona aid edilməsinə səbəb olmuşdur. Məhəbbət lirikası Yaradıcılığında əsas yer tutur.

**MEHSETI GANJAVI** — Azerb. poetess lived in the XII century.



**MƏLİKASLANOVA Püstə Süleyman qızı** (d. 2.12. 1926, Füzuli ş.) – tibb e.d. (1970), prof. (1983), əməkdar elm xadimi. Resp. əməkdar həkimi, Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1949). 1957 ildən Azərb. Elmi-Tədqiqat Göz Xəstəlikləri İn-tunda patomorfologiya laboratoriyasına rəhbərlik edir. 200-dən artıq elmi əsərin, 2 monoqrafiyanın, 20 səmərələşdirici təklifin, 2 patentin müəllifidir.

**MELIKASLANOVA Pusta Suleyman gyzy** — doctor of medicine, Honoured Science Worker of the Azerb. Repub.



**MƏLİKOVA Afaq Süleyman qızı** (d.18.1.1947, Bakı) — Azərb. rəqqasəsi. Azərb. Resp. xalq artisti (1978). Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1963). 1963-74 illərdə Azərb. Dövlət Mahnı və Rəqs Ansamblının solisti olmuşdur. 1974 ildən Azərb. Dövlət Rəqs Ansamblının solisti və məşqçi pedaqoqudur. Əsasən, Azərb. xalq rəqslərinin ifaçısı olan M.-nın repertuarına Şərq xalqları rəqsləri də daxildir. Bir sıra xarici ölkədə (Türkiyə, MƏR, Polşa, Fransa, İngiltərə, Kanada, Portuqaliya, Almaniya, İspaniya və s.) çıxış etmişdir.

**MELIKOVA Afag Suleyman gyzy** — People's Artist of the Azerb. Repub.



**MƏLİKOVA Əşrəfxanım Əbdülağa qızı** (d.1947, Bakı) — əmək fəaliyyətinə 1965 ildə başlamış, 1969 ildən Azərneft İstehsalat Birliyinin neftqazçıxarma idarəsində operator işləmişdir. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, Millətlər Sovetinin Elm və texnika komissiyasının üzvü olmuşdur.

**MELIKOVA Ashrafkhanym Abdulaga gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**MƏLİKOVA Qəribsoltan Həsənbəy qızı** (11.6.1896, Zərdab k. — 9.3.1967, Bakı) — maarif xadimi, əməkdar müəllim (1948). H.Zərdabinin qızı. Tiflisdə rus gimnaziyasında təhsil almışdır. Pedaqoji fəaliyyətə 1910 ildən başlamışdır. Bakıdakı rus-tatar (rus-Azərb.) qız məktəblərində dərs demişdir (1918-20). 1956 ilədək Bakı məktəblərində müəllim işləmişdir. Lenin ordeni ilə təltif edilmişdir.

**MELIKOVA Garibsoltan Hasanbey gyzy** — Honoured Teacher of Azerbaijan.





**MƏLİKOVA Məsumə Fazil qızı** (d. 22. 11. 1929, Bakı) — hüquq e.d. (1973), prof. (1974), Azərb. EA-nın müxbir üzvü (1989). Azərb. əməkdar hüquqşünası (1969). Azərb. AAK-nın iqtisadiyyat, fəlsəfə və hüquq üzrə Ekspert Şurasının sədri. 1956-68 illərdə Bakı Dövlət Un-tinin dövlət hüququ kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 1968 ildən dövlət və hüququnun nəzəriyyəsi və tarixi kafedrasının müdiridir. Tədqiqatı Azərb. maarifçiliyində siyasi və hüquqi ideologiya tarixinin öyrənilməsinə həsr olunmuşdur. Qədim "Avesta"dakı hüquqi və siyasi ideyaları araşdırmış, dövlət formalarının və qanunların elmi təhlilini vermişdir. 150-dən çox elmi məqalənin, monoqrafiya, dərslik və s. müəllifidir. 1978-95 illərdə Azərb. Konstitusiyasının hazırlığı üzrə konstitusiya komissiyasının üzvü olmuşdur. "Şərəf nişanı" ordeni, Azərb-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**MELIKOVA Mesuma Fazil gyzy** — doctor of law, corresponding member of the Azerbaijan National Academy of Sciences.



**MƏLİKOVA Nəcibə Haşım qızı** (25.10.1921, Bakı — 27.7.1992, Bakı) — Azərb. aktrisası. Azərb. SSR xalq artisti (1974). Azərb. Dövlət Teatr İn-tunu bitirmişdir (1951). Səhnə fəaliyyətinə 1938 ildən Azərb. Dövlət Dram Teatrında başlamış, sonralar resp.-nın müxtəlif teatrlarında, "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərmişdir. 1952 ildən (fasilələrlə) Azərb. Dövlət Dram Teatrında çıxış etmişdir. Rolları: Estreliya ("Sevilya ulduzu", Lope de Veqa), Şölə xanım, Şəhrəbanu xanım ("Lənkəran xanının vəziri", "Müsyö Jordan və dərviş Məstəli şah", M.F.Axundov), Xumar ("Şeyx Sənan", H.Cavid), Xuraman ("Vaqif", S.Vurğun), Sofiya İvanovna ("Zıkovlar", M.Qorki), Safiyə xatun ("Qılınc və qələm", M.Ordubadi), Oqudalova ("Cehizsiz qız", A.Ostrovski) və s. "Fətəli xan" (1947), "Bakının işıqları" (1950), "Ögey ana" (1959), "Aygün" (1961; televiziya filmi), "Məhəbbət dastanı" (1961), "Əhməd haradadır?" (1964), "Arşın mal alan" (1966), "Qanun naminə" (1969) və s. filmlərdə yaddaqalan obrazlar yaratmışdır.

**MELIKOVA Najiba Hashym gyzy** — People's Artist of the Azerb. SSR.



**MƏLİKOVA Tubu Həsən qızı** (5.5.1916, Bakı — 10.12.1975, Bakı) — Sosialist Əməyi Qəhrəmanı (1966). Əmək fəaliyyətinə 1929 ildən Bakı toxuculuq kombinatı nəzdindəki toxuculuq fabrikində başlamışdır. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**MELIKOVA Tubu Hasan gyzy** — Hero of Socialist Labour.



**MƏLİKOVA-ABAYEVA Hənifə xanım** (5.5.1856, Nalçik — 1929, Bakı) — Azərb.-nın ilk maarifçi qadınlarından biri. Tiflisdə "Müqəddəs Nina" qız məktəbində təhsil almış, həyat yoldaşı H.Zərdabi ilə birlikdə "Əkinçi" qəzetinin nəşrində fəal iştirak etmişdir. Öz mənzilində məktəb açmış (1880), yaşlılara dərs demiş (1904-08), Bakıdakı "Nicat" cəmiyyəti qadın bölməsinin yaradıcılarından olmuşdur. Bakıda ilk müsəlman qız məktəbinin (1901-05), şəhər dövlət 1-ci rus-tatar (rus-Azərb.) qız məktəbinin (1909-19) müdiri işləmişdir.

**MELIKOVA-ABAYEVA Hanifa khanym** — one of the first enlightener women of Azerbaijan.



**MƏMMƏDBƏYOVA Leyla Ələsgər qızı** (d.17.9.1909, Bakı) — ilk azərb. təyyarəçi qadınlarından biri. Əmək fəaliyyətinə 1930 ildən başlamışdır. Bakı (1931) və Moskva (1933) təyyarəçilik məktəblərini bitirmişdir. Tuşino təyyarə meydanında paraşütlə tullanan ilk azərb. qadın, paraşüt idmanı üzrə Zaqafqaziya çempionu (1934) olmuşdur.

**MEMMEDBEYOVA Leyla Alesger gyzy** — one of the first Azerbaijani pilot women.



**MƏMMƏDBƏYOVA Leyla Hüseynağa qızı** (d.12.5.1922, Quba) — tibb e.d. (1967), prof. (1970). Azərb. Elmi-Tədqiqat Eksperimental və Kliniki Tibb İn-tunda patomorfologiya laboratoriyasının müdiri (1963 ildən) işləmişdir. Tədqiqatı, əsasən, ürək-damar sisteminin patologiyasına həsr olunmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**MEMMEDBEYOVA Leyla Huseynaga gyzy** — doctor of medicine.





**MƏMMƏDƏLİYEVA Sevda Yusif qızı** (d.14.11.1946, Bakı) — fəlsəfə e.d. (1994), prof. (1997), AMEA-nın müxbir üzvü (2001). Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü (1997), Rusiya Elmlər Akademiyasının əcnəbi üzvü (1999), NOOSFERA Beynəlxalq Akademiyasının həqiqi üzvü (2000). Azərb. Resp. Mədəniyyət nazirinin müavinidir (1999 ildən). Azərb. Dövlət Un-tini bitirmişdir (1967). 1970-83 illərdə Azərb. EA-nın elmi-tədqiqat in-tlarında kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində işləmişdir. 1983 ildən Azərb. Memarlıq və İnşaat Un-tində pedaqoji fəaliyyət göstərmiş, dosent, prof., kafedra müdiri işləmişdir. Tədqiqatı sosial fəlsəfə və kulturologiya sahəsinə aiddir. 100-dən çox elmi işin, tədris materiallarının və 5 monoqrafiyanın müəllifidir. Avropa Şurasının "Steys" və "Münaqişənin mədəniyyət vasitəsilə aradan qaldırılması" regional layihələrinin milli koordinatorudur.

**MEMMEDALIYEVA Sevda Yusif gyzy** — doctor of philosophy.



**MƏMMƏDQULUZADƏ-CAVANŞİR Həmidə xanım Əhmədbəy qızı** (19.1.1873, Ağcabədi r-nunun Kəhrizli k. — 6.2.1955, Bakı) — Azərb.-ın ilk maarifçi qadınlarından biri, C.Məmmədquluzadənin həyat yoldaşı. Kəhrizli k.-də qadınlar üçün ilk məktəb və toxuculuq emalatxanası açmışdı (1907). Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin (1908-17) yaradıcılarından biri və sədr müavini olmuşdur. "Molla Nəsrəddin" jurnalının nəşrində, onun səhifələrində qadın azadlığı məsələlərinin işıqlandırılmasında xidməti olmuşdur. Atasının və C.Məmmədquluzadənin bioqrafiyalarını, M.Ə.Sabir haqqında xatirələrini yazmış, Azərb. yazıçılarından ruscaya tərcümələr etmişdir.

**MEMMEDGULUZADE-JAVANSHIR Hamida khanym Ahmadbey gyzy** — one of the first enlightener women of Azerbaijan.



**MƏMMƏDOVA Asya Əli qızı** (d. 5.4.1928, Füzuli r-nunun Dövlətyarlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1944 ildən Füzuli r-nunun Telman təsərrüfatında başlamış, müxtəlif vəzifələrdə, o cümlədən Füzuli r-n komsomol komitəsinin katibi, Dövlətyarlı kənd Sovetinin sədri, 1959 ildən Füzuli r-n baramaqurutma idarəsinin müdiri olmuşdur. 1947 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**MEMMEDOVA Asya Ali gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDOVA Asiya Salman qızı** (d.1940) — əmək fəaliyyətinə 1957 ildən Tovuz r-nundakı Engels təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10 və 11-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üvzü olmuşdur.

**MEMMEDOVA Asiya Salman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10–11th convocations).



**MƏMMƏDOVA Bacıxanım Rəzzaq qızı** (d.1950, Masallı r-nunun Ərkivan k.) — əmək fəaliyyətinə 1968 ildən Masallı r-nundakı K.Marks ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üvzü olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**MEMMEDOVA Bajykhanym Razzad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**MƏMMƏDOVA Bilqeyis Mir Əbdülqəni qızı** (d.27.9.1931, Bakı) — prof. (1997). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1957). 1957 ildən konservatoriyanın musiqi nəzəriyyəsi kafedrasında prof. vəzifəsində işləyir. 1953-62 illərdə Azərb. Dövlət musiqi nəşriyyatının baş redaktoru, 1962-66 illərdə "Azərnəşr"də İncəsənət redaksiyasının müdiri, 1969-79 illərdə Azərb. Dövlət Konservatoriyasında tədris və elmi işlər üzrə prorektor olmuş, həmçinin 1974-77 illərdə konservatoriyanın rektoru vəzifəsini icra etmişdir. Bir sıra elmi yazıların, dərs vəsaitlərinin müəllifidir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**MEMMEDOVA Bilgeys Mir Abdulgani gyzy** — musicologist, professor.





**MƏMMƏDOVA Əminə Rəhim qızı** (d.1936) — əmək fəaliyyətinə 1947 ildən başlamış, 1 №-li Bakı ayaqqabı fabrikində işləmışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı olmuşdur.

**MEMMEDOVA Amina Rahim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**MƏMMƏDOVA Əsmər Vəli qızı** (25.5.1911, Qazax r-nunun Əzizbəyli k.—1998) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1938 ildən Qazax r-nundakı Əzizbəyov ad. təsərrüfatda başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MEMMEDOVA Asmar Veli gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDOVA Əsmətxanım Bəyəhməd qızı** (d. 5.3.1941, Bakı) — Azərb. Resp. Milli Məclisinin (1-ci və 2-ci çağırış) deputatı. Filologiya e.n. (1972). Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsini bitirmişdir (1965). 1969 ildən Azərb. Dövlət Un-tinin dosentidir. 60-dan artıq elmi məqalənin müəllfiidir. Bir sıra beynəlxalq simpozium və konfransların iştirakçısı olmuşdur.

**MEMMEDOVA Asmatkhanym Beyahmad gyzy** — candidate of philology, deputy of the Milli Mejlis of the Azerb. Repub (1st and 2nd convocations).



**MƏMMƏDOVA Əzizə Əbdülbağı qızı** (1892, Tiflis — 14.8.1961, Bakı) — Azərb. aktrisası. Azərb. SSR əməkdar artisti (1936). İlk azərb. aktrisalarından biri. Səhnə fəaliyyətinə Bakıda, Əli Bayramov klubu nəzdindəki dram dərnəyində başlamış, sonralar Bakı Azad Tənqid-Təbliğ Teatrında (1921-25), Bakı Türk İşçi Teatrında çıxış etmişdir. Əsas rolları: Tükəz, Ziba ("Hacı Qara", "Lənkəran xanının vəziri", M.F.Axundov), Hafizə ("Pəri cadu", Ə.B.Haqverdiyev), Fatmanisə, Gülnisə, Şərəbanı ("Almas", "Solğun çiçəklər", "Yaşar", C.Cabbarlı), Zalxa ("Toy", S.Rəhman), Sənəm ("Göz həkimi", İ.Səfərli), Vasilisa ("Həyatın dibində", M.Qorki) və s. İlk azərb. kino aktrisalarından olmuş, "Hacı Qara", "İsmət", "Almas", "Yeni horizont", "Görüş", "Səhər" və s. filmlərdə çəkilmişdir. Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**MEMMEDOVA Aziza Abdulbagy gyzy** — Honoured Artist of the Azerb. SSR.



**MƏMMƏDOVA Fatma Fərman qızı** (d.1955) — əmək fəaliyyətinə 1971 ildən Kəlbəcər r-nundakı "Oktyabr" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Fatma Farman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MƏMMƏDOVA Fatma Mustafa qızı** (d.1927) — əmək fəaliyyətinə 1940 ildən Şəki ipəkçilik kombinatında başlamış, yüksək əmək göstəricilərı əldə etmişdir. SSRİ Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**MEMMEDOVA Fatma Mustafa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).



**MƏMMƏDOVA Firəknaz Əmiraslan qızı** (d.1921). — Azərb. pambıq ustası. Əmək fəaliyyətinə Füzuli r-nundakı M.B. Qasımov ad. təsərrüfatda başlamış, müxtəlif işlərdə çalışmışdır. 1963 ildən həmin təsərrüfatda briqadir işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**MEMMEDOVA Firaknaz Amiraslan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**MƏMMƏDOVA Gülçöhrə Hüseyn qızı** (d. 23.4.1953, Erm. Resp. Vedi r-nunun Vedi k.) — memarlıq d. (1999), prof. (2000). Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, Şərq ölkələri Memarlıq Akademiyasının müxbir üzvü. Azərb. İnşaat Mühəndisləri İn-tunu bitirmişdir (1976). 2000 ildən Azərb. Memarlıq və İnşaat Un-tinin rektorudur. Tədqiqatı Azərb. orta əsrlər memarlığının araşdırılmasına aiddir. Azərb. Resp. Milli Məclisinin (2-ci çağırış) deputatı, Milli Məclisin Elm və təhsil məsələləri üzrə daimi komissiyasının üzvüdür.

**MEMMEDOVA Gulchohra Huseyn gyzy** — doctor of architecture, deputy of the Milli Mejlis of the Azerb. Repub. (2 nd convocation).



**MƏMMƏDOVA Güləbətin Əliş qızı** (d.14.1.1920, Ağcabədi r-nunun Arazbarı k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1937 ildən Ağcabədi r-nunun Caparidze ad. təsərrüfatında başlamış, müxtəlif işlərdə, o cümlədən Üzeyir kənd sovetinin sədri işləmişdir. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**MEMMEDOVA Gulabatin Alish gyzy** — Hero of Socialist Labour.





**MƏMMƏDOVA Gülxar İsi qızı** (d.19.2.1923, Ağdam r-nunun Mahrızlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1951). Əmək fəaliyyətinə 1941 ildən Ağdam r-nunun Orconikidze ad. təsərrüfatında başlamışdır. 1950 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MEMMEDOVA Gulkhar Isi gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDOVA Humay Ələkbər qızı** (d.8.3.1925, Şəmkir r-nunun Təzəkənd k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1942 ildən Şəmkir r-nunun Əzizbəyov ad. təsərrüfatında başlamış, müxtəlif sahələrdə çalışmışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**MEMMEDOVA Humay Alekber gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDOVA Mehparə Qara qızı** (d.22.4.1910, Zəngilan r-nunun Tərəkəmə k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1942 ildən Zəngilan r-nunun təsərrüfatlarında başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MEMMEDOVA Mehpara Gara gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDOVA Mehparə Orduxan qızı** (d.1962) — əmək fəaliyyətinə 1979 ildən Biləsuvar r-nundakı "Komsomol" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Mehpara Ordukhan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MƏMMƏDOVA Mədinə Nurməmməd qızı** (d.1947) — əmək fəaliyyətinə 1966 ildən Bakı quşçuluq fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Ticarət, əhaliyə məişət xidməti və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Medina Nurmemmed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR ((8th convocation).



**MƏMMƏDOVA Məsmə Müseyib qızı** (d.28.8.1923, Salyan) — Azərb. idmançısı, gimnast. SSRİ idman ustası (1949), Azərb. SSR əməkdar məşqçisi (1957), Ümumittifaq dərəcəli hakim (1958). Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1950). Gimnastika üzrə Azərb. çempionu (1937-38), beynəlxalq yarışların iştirakçısı və mükafatçısı olmuşdur. 1950-70 illərdə AzDBTİ-də müəllim, 1970 ildən Azərb. İncəsənət İn-tunda bədən tərbiyəsi və idman kafedrasının müdiri işləmişdir.

**MEMMEDOVA Masma Museyib gyzy** — Master of Sports of the USSR.



**MƏMMƏDOVA Mətanət Səfər qızı** (d. 10.3.1951, Əli Bayramlı r-nunun Dadaşbəyli k.) — əmək fəaliyyətinə 1967 ildən Sabirabad r-nunun "Kommunizm" təsərrüfatında başlamış, 1974-1997 illərdə pambıqçılıq briqadiri işləmişdir. SSRİ Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur. Oktyabr İngilabi və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**MEMMEDOVA Metanet Safar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**MƏMMƏDOVA Nargilə Seydi qızı** (d.1960) — əmək fəaliyyətinə 1978 ildən Şəki r-nunun təsərrüfatlarında başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, İttifaq Sovetinin Mənzil-kommunal və şəhər təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Nargila Seydi gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).



**MƏMMƏDOVA Natalya Məmməd qızı** (d. 1958) — əmək fəaliyyətinə 1975 ildən Ağdam r-nundakı Telman ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, ana və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Natalya Memmed gyzy** —deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).





**MƏMMƏDOVA Nazilə Camal qızı** (d. 1962) — əmək fəaliyyətinə 1980 ildən Sumqayıt üst trikotaj paltarı fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal və şəhər təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Nazila Jamal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MƏMMƏDOVA Nəzakət Məmmədhüseyn qızı** (d. 1962) — əmək fəaliyyətinə 1979 ildən Naxçıvan MR Babək r-nundakı Orçonikidze ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, anaları və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Nezaket Memmedhuseyn gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MƏMMƏDOVA Nüşabə Əli qızı** (d. 1958) — əmək fəaliyyətinə İmişli r-nundakı A.Aslanov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Nushaba Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**MӘMMӘDOVA Pakizә Qurban qızı** (d. 17.3.1913, Qәbәlә r-nunun Böyük Әmili k.—1983) — Sosialist Әmәyi Qәhrәmanı (1950). Әmәk fәaliyyәtinә 1938 ildәn Qәbәlә r-nundakı Ә.Bayramov ad. tәsәrrüfatında başlamışdır. 1949 ildә tütünçülük sahәsindә yüksәk әmәk göstәricilәrinә nail olmuşdur.

**MEMMEDOVA Pakiza Gurban gyzy** — Hero of Socialist Labour.



**MӘMMӘDOVA Pakizә Mәmmәd qızı** (1920, Laçın r-nunun Cәfәrabad k. — 12.4.1999) — әmәk fәaliyyәtinә 1941 ildәn Qubadlı r-nunun tәsәrrüfatlarında başlamışdır. Azәrb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**MEMMEDOVA Pakiza Memmed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**MӘMMӘDOVA Pәrvin Şamxal qızı** (d. 9.4.1943, Bakı) — kimya e.d. (1992). AMEA-nın Aşqarlar Kimyası İn-tunun laboratoriya müdiridir. Azәrb. Dövlәt Neft Akademiyasında pedaqoji fәaliyyәt göstәrir. Tәdqiqatı sürtkü yağları vә yağlayıcı-soyuducu mayelәrin keyfiyyәtinin yaxşılaşdırılması üçün yüksәk effektivli aşqarların sintezi vә tәtbiqinә hәsr olunmuşdur. 100-dәn artıq elmi mәqalәnin, 16 müәlliflik şәhadәtnamәsinin vә 7 patentin müәllifidir.

**MEMMEDOVA Parvin Shamkhal gyzy** — doctor of chemistry.





**MӘMMӘDOVA Rәfiqә Әli qızı** (1936, Astara r-nunun Әrçivan k. — 1991) — Azәrb. Xalq Tәsәrrüfatı İn-tunu bitirmişdir (1959). Әmәk fәaliyyәtinә Resp. Dövlәt Statistika İdarәsi Astara r-n müfәttişliyindә başlamış, müxtәlif vәzifәlәrdә, o cümlәdәn Yardımlı r-n partiya Komitәsinin 1-ci katibi işlәmişdir (1973-80). Azәrb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Plan-büdcә komissiyasının üzvü olmuşdur. Qırmızı Әmәk Bayrağı vә "Şәrәf nişanı" ordenlәri ilә tәltif edilmişdir.

**MEMMEDOVA Rafiga Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**MӘMMӘDOVA Rüxsarә Allahverdi qızı** (d. 1953) — әmәk fәaliyyәtinә Ağdaş r-nundakı "Qafqaz" tәsәrrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, Millәtlәr Sovetinin qadın әmәyi vә mәişәti mәsәlәlәri, ana vә uşaqların mühafizәsi komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Rukhsara Allahverdi gyzy** — deputy of the Supreme Soviet of the USSR (10th convocation).



**MӘMMӘDOVA Sara İslam qızı** (17.12. 1948, Cәbrayıl r-nunun Cocuq Mәrcanlı k.) — әmәk fәaliyyәtinә 1966 ildәn Cәbrayıl r-nunun Cocuq Mәrcanlı k.-ndәki "Azәrbaycan" tәsәrrüfatında başlamışdır. Azәrb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Sara Islam gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**MƏMMƏDOVA Siddiqə Rza qızı** (d. 8.3.1925, Şərur r-nunun Şəhriyar k.) — biologiya e.d. (1971), prof. (1973), əməkdar elm xadimi (1978), AMEA-nın həqiqi üzvü (2001). Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1945). 1952-63 illərdə AKTİ-də assistent, dosent vəzifələrində çalışmış, 1963 ildən Azərb. Elmi-Tədqiqat Bitkiləri Mühafizəsi İn-tunun direktorudur. 170-dən artıq elmi məqalənin, 5 tədris vəsaiti, 2 soraq kitabı, 3 monoqrafiyanın müəllifidir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının sədri olmuşdur. 2 Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" və Azərb-ın "Şöhrət" ordenləri ilə təltif edilmişdir.

**MEMMEDOVA Siddiga Rza gyzy** — doctor of biology, full member of the ANAS.



**MƏMMƏDOVA Sona Abbasəli qızı** (16.4. 1928, Erm. SSR-in Qəmərli r.-nu — 1980) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1942 ildən Samux r-nunun "Azərbaycan" təsərrüfatında başlamışdır. 1949 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.

**MEMMEDOVA Sona Abbasali gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDOVA Sovqat Baba qızı** (d. 1931. Şəki r-nunun Bideyiz k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1948 ildə Şəki r-nunun Lenin ad. təsərrüfatında başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MEMMEDOVA Sovgat Baba gyzy** — Hero of Socialist Labour.





**MƏMMƏDOVA Suğra Məmməd qızı** (d. 22.3. 1926, Şəmkir r-nunun Təzəkənd k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1941 ildən Şəmkir r-nunun Əzizbəyov ad. təsərrüfatında başlamışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**MEMMEDOVA Sugra Memmed gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDOVA Svetlana Həmid qızı** (1939, Naxçıvan ş. — 24. 1.1990, Bakı) — kimya e.d. (1988), prof. Azərb. Neft və Kimya İn-tunu bitirmişdir. Sumqayıt Polimer Materialları İn-tunda işləmişdir. Tədqiqatları yüksək molekullu birləşmələr kimyasına həsr edilmişdir. 130-dan artıq elmi əsərin, 40-dan çox ixtiranın müəllifi olmuşdur. Bakıdakı qanlı yanvar faciəsi zamanı həlak olmuşdur.

**MEMMEDOVA Svetlana Hamid gyzy** — doctor of chemistry.



**MƏMMƏDOVA Şəfa Salik qızı** (d. 1958) — əmək fəaliyyətinə 1976 ildən Ağdaş r-nundakı S.M.Kirov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Shafa Salik gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**MƏMMƏDOVA Şəfiqə Haşım qızı** (d. 30.3.1945, Dərbənd) — Azərb. Resp. xalq artisti (1982). SSRİ Dövlət mükafatı laureatı (1981). Azərb. SSR Dövlət mükafatı laureatı (1980). Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1967). Həmin ildən Azərb. Dövlət Dram Teatrında çıxış etmişdir. Rolları: Maşa ("Canlı meyit", L.Tolstoy), Gertruda ("Hamlet", U.Şekspir), Sevda ("Xəyyam", H.Cavid), Sona ("Dəli yığıncağı", C.Məmmədquluzadə), Tahirə ("Nağıl başlananda", İ.Qasımov), Anjel ("Məhv olmuş gündəliklər", İ.Əfəndiyev), Dilarə ("Şəhərin yay günləri", Anar) və s. Kino aktrisası kimi də tanınmış, "Qaraca qız", "Bizim Cəbiş müəllim", "Dədə Qorqud", "Xoşbəxtlik qayğıları", "Çarvadarların izi ilə", "Ad günü" (televiziya filmi), "İstintaq" və s. filmlərdə çəkilmişdir. 1982 ildən Azərb. Dövlət İncəsənət İn-tunda müəllim, baş müəllim, dosent, kafedra müdiri, prof. vəzifələrində işləmişdir. Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Shafiga Hashym gyzy** — People's Artist of the Azerb. Repub.



**MƏMMƏDOVA Şəlalə Ağakərim qızı** (d. 19.6. 1952, Salyan) — Azərb. Resp. Ali Məhkəməsinin hakimi (1982 ildən), Ali Məhkəmənin İntizam komissiyasının üzvü. Azərb. Dövlət Un-tinin hüquq fakültəsini bitirmişdir (1977). 1977-82 illərdə Azərb. Resp. prokurorluğu mülki işlərin məhkəmə baxışına nəzarət şöbəsində prokuror, böyük prokuror vəzifələrində işləmişdir.

**MEMMEDOVA Shelale Agakerim gyzy** — judge of the Supreme Court of the Azerb. Repub.





**MƏMMƏDOVA Şövkət Həsən qızı** (18.4.1897, Tiflis — 8.6.1981, Bakı) — Azərb. müğənnisi, pedaqoq, musiqi xadimi; ilk azərb. professional qadın müğənni, SSRİ xalq artisti (1938). Tiflisdə musiqi məktəbini bitirdikdən (1910) sonra təhsilini davam etdirmək üçün 1911 ildə Milana getmiş, burada məşhur müğənni D.Ambroziodan dərs almışdır (ikinci dəfə Milanda 1927-29 illərdə olmuşdur). 1917-21 illərdə Kiyev Konservatoriyasında oxumuş, burada R. Qlierlə birgə verdikləri konsertlərdə Azərb. musiqisini təbliğ etmişdir. Onun təşəbbüsü ilə 1923 ildə Bakı Teatr Texnikumu (1923-25 illərdə direktoru olmuşdur) açılmış, not nəşriyyatı təsis edilmişdir. Azərb. Opera və Balet Teatrının səhnəsində ilk dəfə 1921 ildə Violetta ("Traviata", C.Verdi) partiyasında çıxış etmiş, 1948 ilədək (fasilələrlə) teatrın solisti olmuşdur. Azərb. opera səhnəsində rus və dünya vokal sənətinin ən yaxşı ənənələrini milli musiqi xüsusiyyətləri ilə əlaqələndirmişdir. Əsas partiyaları: Rozina ("Sevilya bərbəri", C.Rossini), Lakme ("Lakme", L.Delib), Cilda ("Riqoletto", C.Verdi), Olimpiya ("Hofmanın nağılları", J.Offenbax), Marqarita Valua ("Hugenotlar", C.Meyerber), Qar qız ("Qar qız", N.Rimski-Korsakov), Antonida ("İvan Susanin", M.Qlinka), və s. Yaradıcılığında Şahsənəm ("Şahsənəm", R.Qlier), Nərgiz, Gülzar ("Nərgiz", "Şah İsmayıl", M.Maqomayev), Gülçöhrə ("Arşın mal alan", Ü.Hacıbəyli) partiyaları xüsusi yer tutmuşdur. Repertuarına Azərb. xalq mahnıları, rus və Qərb bəstəkarlarının kamera-vokal əsərləri daxil idi. Tbilisi, Odessa, Moskva, Kiyev, Leninqrad, Daşkənd, Paris və Təbrizdə çıxış etmişdir. Azərb. Teatr Cəmiyyətinin ilk sədri olmuşdur (1945-52). 1945-81 illərdə Azərb. Dövlət Konservatoriyasında pedaqoji fəaliyyət göstərmişdir (1949 ildən prof.). Azərb. SSR Ali Sovetinin (1-4 çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, 2 Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**MEMMEDOVA Shovket Hasan gyzy** — People's Artist of the USSR.

**MƏMMƏDOVA Tamara Qara qızı** (d.1955) — əmək fəaliyyətinə 1972 ildən Şəmkir r-nundakı N.Nərimanov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üvzü olmuşdur.

**MEMMEDOVA Tamara Gara gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**MƏMMƏDOVA Umileyla Əli qızı** (d.1916, Qazax r-nunun Köçəskər k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1931 ildən Qazax r-unndakı Nizami ad. təsərrüfatda başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**MEMMEDOVA Umileyla Ali gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDOVA Venera Yusif qızı** (d. 1954) — Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1971 ildən Nax. MR Babək r-nundakı Keştaz səkkizillik məktəbində başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, Millətlər Sovetinin Gənclərlə iş üzrə komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Venera Yusif gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).



**MƏMMƏDOVA Yasəmən Niftalı qızı** (d. 1924, Qazax r-nunun Qıraq Kəsəmən k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1941 ildən Qazax r-nunun "İskra" təsərrüfatında başlamış, 1958 ildən Yenikənd k. XDS İcraiyyə Komitəsinin sədri olmuşdur. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəriciləri qazanmışdır. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**MEMMEDOVA Yasaman Niftaly gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDOVA Zivər Nəcəfqulu qızı** (14.6.1902, Bakı — 22.4.1980, Bakı) — ilk azərb. heykəltəraş qadın. Bakı Ali Rəssamlıq Məktəbini bitirmişdir (1924). 1930-40 illərdə yaratdığı Ə.Əzimzadə, H.Sarabski, M.Əzizbəyov, Sovet İttifaqı Qəhrəmanı İ.Süleymanov, Bəsti Bağırova və b.-nın büst-portretləri, Ü. Hacıbəylinin heykəli (gips, 1950) ən yaxşı işlərindəndir. Kiçik plastika əsərləri və tətbiqi sənət nümunələri (kasa, vaza, külqabı və s.) də yaratmışdır.

**MEMMEDOVA Zivar Najafgulu gyzy** — first Azerbaijani woman sculptor.



**MƏMMƏDOVA Zülfirə Ramazan qızı** (d.1963) — əmək fəaliyyətinə 1981 ildən Quba r-nundakı Lenin ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üvzü olmuşdur.

**MEMMÉDOVA Zulfira Ramazan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MƏMMƏDOVA Zümrüd Bayram qızı** (d. 1940) — əmək fəaliyyətinə 1958 ildən Oğuz r-nunun "Qələbə" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**MEMMEDOVA Zumrud Bayram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10—11th convocations).





**MƏMMƏDOVA-KOSMODEMYANSKAYA Dürrə Ələbbas qızı** (d.25.12.1923, Şəki ş.) — 2-ci dünya müharibəsi iştirakçısı, baş leytenant, SSRİ tibb xidməti əlaçısı. Azərb. SSR əməkdar səhiyyə işçisi (1981). 1940 ildə Bakı Əczaçılıq Texnikumunu bitirmişdir. Müharibənin ilk günlərindən könüllü cəbhəyə getmiş, Qara Dəniz Donanmasında 43 №-li hərbi hospitalda xidmət etmiş, Novorossiysk ş.-nin azad edilməsi uğrunda gedən döyüşlərdə 18-ci Ordunun tərkibində tibb işçisi kimi iştirak etmişdir. 1948 ildə ordudan tərxis olunmuşdur. 1949-51 illərdə Leninqradda, 1951-61 illərdə Uzaq Şərqdə hərbi hospitallarda işləmiş, 1961 ildən Bakıda, Baş Apteklər İdarəsi sistemində çalışır. Qırmızı Ulduz, II dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif edilmişdir.

**MEMMEDOVA-KOSMODEMYANSKAYA Durra Alabbas gyzy** — Honoured Public Health Worker of the Azerb. SSR.

**MƏMMƏDRƏHİMOVA Minarə Abduləli qızı** (d.21.10.1922, Qəbələ r-nunun Böyük Əmili k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1943 ildən Qəbələ r-nundakı Ə.Bayramov ad. təsərrüfatda başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MEMMEDRAHIMOVA Minara Abdulali gyzy** — Hero of Socialist Labour.



**MƏMMƏDZADƏ Hədiyyə Xəlil qızı** (1892, Gürcüstanın Asxuri k. — 1951, Bakı) — müəllim, maarifçi. Bakıda 2-ci rus-müsəlman qız məktəbində oxumuş, 1909 ildə "Səadət" cəmiyyətinin Ağdaşda açdığı ilk qız məktəbində müdir işləmişdir. "Məktəb", "İşıq" jurnallarında çıxış etmiş, xalqı maarifə çağırmışdır. 1914-18 illərdə Tiflisdə Qafqaz müsəlman qadınları "Xeyriyyə cəmiyyətinin" təşkil etdiyi uşaq himayədarlığı evində tərbiyəçi işləmişdir. Ali təhsil aldıqdan sonra Bakıda, Zaqatalada və s. yerlərdə müəllimlik etmişdir.

**MEMMEDZADE Hadiyya Khalil gyzy** — teacher, enlightener.



**MƏNSİMOVA Miryaqut Mirbəşir qızı** (d.1950) — əmək fəaliyyətinə 1966 ildən Lənkəran mebel fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-10-cu çağırış) deputatı, Ali Sovetin Xalq İstehlakı malları və ticarət komissiyasının üzvü olmuşdur.

**MANSIMOVA Miryagut Mirbashir gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9—10th convocations).



**MƏSİMOVA Şərqiyyə Bəhram qızı** (d.1939) — əmək fəaliyyətinə 1955 ildən Şəmkir r-nunun Əzizbəyov ad. təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı. Ali Sovetin Səhiyyə, ictimai təminat, bədən tərbiyəsi və idman komissiyasının üzvü olmuşdur.

**MASIMOVA Shargiyya Bahram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**MƏSİYEVA Surə Hüseyn qızı** (d. 1948, Yardımlı r-nunun Sarvan k.). — əmək fəaliyyətinə Yardımlı r-nunun N.Nərimanov ad. təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**MESIYEVA Sura Huseyn gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).





**MİKAYILOVA Türfə Məhəmməd qızı** (d.1948) — əmək fəaliyyətinə 1967 ildən Dəvəci r-nundakı Pirəbədil təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**MIKAYILOVA Turfa Mahammad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**MİLOSERDOVA Anna Kireyevna** (d. 1939) — əmək fəaliyyətinə 1958 ildən Ə.Qarayev ad. Bakı neftayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputiatı, Ali Sovetin Qadınların əməyi və məişəti, ana və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**MILOSERDOVA Anna Kireyevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MİRZƏLİYEVA Məhəbbət Mirzəxan qızı** (d.17.10.1949, Bakı) — filologiya e.d. (1996). Azərb. Dövlət Un-tini bitirmişdir (1971). 1975-81 illərdə Azərb. EA Nəsimi ad. Dilçilik İn-tunun türk dillərinin müqayisəli tədqiqi şöbəsində kiçik elmi işçi, 1981-91 illərdə böyük elmi işçi, 1991-93 və 1997-2001 illərdə in-tun nəzəri və tətbiqi dilçilik şöbəsinin böyük elmi işçisi olmuşdur. 2002 ildən in-tun türk dillərinin müqayisəli tədqiqi şöbəsinin müdiridir. Bir çox elmi məqalələrin və monoqrafiyaların müəllifidir.

**MIRZALIYEVA Mahabbat Mirzakhan gyzy** — doctor of philology.





**MİRZƏYEVA Arəstə Məmmədəli qızı** (d.8.2.1917, Füzuli r-nunun Mahmudlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1930 ildən Füzuli r-nunun N.Nərimanov ad. təsərrüfatında başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb.SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur.

**MIRZAYEVA Aresta Memmedali gyzy** — Hero of Socialist Labour.



**MİRZƏYEVA Mənsurə Meybulla qızı** (d. 12.8.1924, Cəlilabad r-nunun Alar k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1942 ildən M.Əzizbəyov ad. təsərrüfatda başlamışdır.1949 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Ticarət və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**MIRZAYEVA Mansura Meybulla gyzy** — Hero of Socialist Labour.



**MİRZƏYEVA Şükufə Şamil qızı** (20.12.1925, Ağdam r-nunun Cülablı k. — 9.10.1980, Bakı) — Azərb. filosofu. Fəlsəfə e.d. (1963), prof. (1964). Azərb. Dövlət Un-tini bitirmişdir (1944). Əmək fəaliyyətinə 1944 ildən Azərb. EA Fəlsəfə İn-tunda başlamışdır. Azərb. xalqının estetik fikir tarixi və estetikanın problemləri ilə məşğul olmuşdur. Bədii, ədəbi-tənqidi və incəsənətə dair əsərləri var.

**MIRZAYEVA Shukufa Shamil gyzy** — doctor of philosophy.

**MİRZƏYEVA Züleyxa İzzət qızı** (d. 1920, Cəlilabad r-nunun Ocaqlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1939 ildən başlamış, tütünçülük və pambıqçlıq təsərrüfatlarında manqabaşçısı işləmişdir. 1949 ildə tütünçülükdə yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MIRZAYEVA Zuleykha Izzat gyzy** — Hero of Socialist Labour.



**MOLLAÇİYEVA Havva İsa qızı** (10.9.1900, Balakən r-nunun Meşəşambul k. — mart, 2000) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1920 ildən Balakən r-nunun Meşəşambul kəndinin təsərrüfatlarında başlamışdır. 1947 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.

**MOLLACHIYEVA Havva Isa gyzy** — Hero of Socialist Labour.



**MOLLAYEVA Kərimət Mahama qızı** (d.1.6.1920, Balakən r-nunun Meşəşambul k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1937 ildən Balakən r-nundakı "Sovet Gürcüstanı" təsərrüfatında başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**MOLLAYEVA Kerimat Mahama gyzy** — Hero of Socialist Labour.





**MOLLAZADƏ Səyyarə Məmməd qızı** (d.22.1.1933, Qax r-nunun İlisu k.) — filologiya e.d. (1980), prof. (1981). 1965-69 illərdə Azərb. Tibb İn-tunun Azərb. və rus dilləri kafedrasında müəllim, baş müəllim, dosent işləmişdir. 1969 ildən Azərb. Tibb Un-tinin Azərb. dili kafedrasının müdiridir. Azərb. dilinin toponimikasına, onomastikasına, dialektologiyasına, areal dilçiliyə dair tədqiqatların, o cümlədən 150-dən çox elmi məqalənin, 5 monoqrafiyanın və 5 metodiki vəsaitin müəllifidir.

**MOLLAZADE Sayyara Memmed gyzy** — doctor of philology.



**MÖMİNƏ xatın** (? — sentyabr, oktyabr, 1175, Naxçıvan) — Azərb. atabəyi Şəmsəddin Eldəgizin zövcəsi, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın anası. Ərinin və oğlanlarının hakimiyyətləri dövründə böyük siyasi nifuza malik olmuşdur. Sultanla atabəylər arasında normal münasibətlərin qurulmasına çalışmış, ara müharibələrinin qarşısını almışdır. Naxçıvanda dahi Əcəminin ucaltdığı möhtəşəm Möminə xatın türbəsi (1186) bu qadının şərəfinə tikilmişdir.

**MOMINA khatun** — Mahammad Jahan Pahlevan and Gyzyl Arslan's mother.



**MÖVLANOVA Səlminaz Abiddin qızı** (d.1936) — əmək fəaliyyətinə 1951 ildən başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Ticarət, əhaliyə məişət xidməti və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**MOVLANOVA Salminaz Abiddin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**MÖVLUDOVA Həcər Sərvər qızı** (d. 1961) — əmək fəaliyyətinə 1978 ildən Saatlı r-nundakı partiyanın XXI qurultayı ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**MOVLUDOVA Hajar Sarvar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MÖVSÜMOVA Şamama Məhərrəm qızı** (d.1932) — əmək fəaliyyətinə 1944 ildə Ermənistan SSR-in Kirov r-nundakı Nərimanov ad. təsərrüfatda başlamışdır. 1949 ildən Azərb. SSR Şəmkir r-nundakı H.Aslanov ad. təsərrüfatda işləmişdir. Azərb. KP MK-nın üzvü, SSRİ Ali Sovetinin (6-cı çağırış), Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı olmuşdur.

**MOVSUMOVA Shamama Maharram gyzy** — deputy of the Supreme Soviet of the USSR (6th convocation).



**MUXTAROVA Əsməd İmaməmməd qızı** (d.3.4.1944, Bakı) — tarix e.d. (1991), prof. Azərb. Dövlət Un-tinin tarix fakültəsini bitirmişdir (1967). Un-tin "Türk və Qafqaz xalqları tarixi" kafedrasının müdiridir. Tədqiqatları türk xalqlarının qədim dövr və orta əsrlər tarixi, dövlətçilik tarixinin öyrənilməsinə aiddir. "Tarix və onun problemləri" jurnalının baş redaktorudur. 40-dan çox elmi məqalə, proqram, dərslik, dərs vəsaiti və monoqrafiyanın müəllifidir.

**MUKHTAROVA Asmad Imammemmed gyzy** — doctor of history.





**MUXTAROVA Fatma Səttar qızı** (26.3.1893, Cənubi Azərbaycan, Urmiya — 19.10.1972, Bakı) — Azərb. müğənnisi. Azərb. SSR xalq artisti (1940). Gürc. SSR əməkdar artisti (1936). Kiçik yaşlarından ailəsi ilə birlikdə Rusiyaya (əvvəllər Rostova, sonra isə Peterburqa) köçmüşdür. Atasını erkən itirmiş, ailəsini saxlamaq üçün Rusiyanın şəhərlərində (Peterburq, Saratov və s.) "Katya" adı ilə şarmanka, eləcə də qarmonun müşayiəti ilə oxumuş, təlxək və oyunbazlarla birlikdə çıxış etmişdir. "Saratovskiye vedomosti" qəzetinin redaktoru N.M.Arxangelskinin, Saratov Konservatoriyasının prof. M.Y.Medvedevin köməyi ilə 1914 ildə Saratov Konservatoriyasını bitirdikdən sonra Moskvaya köçmüş, F.İ.Şalyapinin vasitəsilə S.İ.Ziminin opera teatrına dəvət olunaraq 1917 ilədək burada oxumuşdur. 1920 ildən Kazan, Leninqrad, Kiyev, Xarkov, Odessa, Tbilisi və s. ş.-lərin opera teatrlarında oxumuş, 1938-53 illərdə M.F.Axundov ad. Azərb. Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Əsas partiyaları: Marfa, Marina Mnişek ("Xovanşina", "Boris Qodunov", M.Musorqski), Lyubaşa ("Çar gəlini", N.Rimski-Korsakov), Amneris ("Aida", C.Verdi), Dalila ("Samson və Dalila", K.Sen-Sans), Aksinya ("Sakit Don", İ.Dzerjinski), Əzra ("Nizami", Ə.Bədəlbəyli) və s. Yaradıcılığının zirvəsi Karmen ("Karmen", J.Bize) partiyasıdır. Konsert proqramları ilə də çıxış etmişdir. Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**MUKHTAROVA Fatma Sattar gyzy** — People's Artist of the Azerb.SSR.



**MUXTAROVA Nübar Muxtar qızı** (d. 30.8.1948, Litva Resp., Şyaulyay ş.) — pedaqoji e. d. (1996), prof. (1997). Azərb. Dövlət Pedaqoji İn-tunun pedaqogika və psixologiya fakültəsini bitirmişdir (1971). 1987—91 illərdə BDU-nun pedaqogika və psixologiya kafedrasında müəllim və dosent işləmişdir. 1991 ildən BDU-nun pedaqogika kafedrasının müdiridir. Tədqiqatı gənclərdə milli şüur və milli mənliyin tərbiyə edilməsi probleminə həsr edilmişdir. 2 monoqrafiya, 2 dərslik, 50-dən çox məqalə və tədris proqramlarının müəllifidir. "Pedaqoji aləm" adlı elmi-populyar jurnalın təsisçisi və baş redaktorudur.

**MUKHTAROVA Nubar Mukhtar gyzy** — doctor of education.



**MURADƏLİYEVA Elmira Böyükağa qızı** (d. 1.10.1950, Bakı) — tarix e. d. (1991), prof. (1992). Azərb. Dövlət Un-tini bitirmişdir (1973). Həmin ildən Un-tdə müəllim kimi fəaliyyətə başlamış, 1982 ildən Azərbaycan tarixi kafedrasının dosenti vəzifəsində işləmişdir. 1992 ildən isə həmin kafedranın professorudur. Tədqiqatı Azərbaycan tarixçiliyində yeni dövr üzrə mənbəşünaslığa həsr edilmişdir. 50-dən artıq elmi əsərin müəllifidir.

**MURADALIYEVA Elmira Boyukaga gyzy** — doctor of history.



**MURADƏLİYEVA Nailə Bəybala qızı** (d. 1945, Bakı) — filologiya e. d. (1991). Azərb. Dövlət Un-tini bitirmişdir. Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tunun ədəbi əlaqələr şöbəsində laborant, kiçik elmi işçi işləmişdir. Hazırda in-tun nəzəriyyə şöbəsinin böyük elmi işçisidir. 2 monoqrafiya, bir neçə məcmuə, 50-dən çox məqalənin müəllifidir. Ədəbiyyatşünaslığa dair bir sıra beynəlxalq simpozium və konfransların iştirakçısıdır.

**MURADALIYEVA Naila Beybala gyzy** — doctor of philology.

**MURADXANOVA Badam Qədir qızı** (11.4.1924, Qəbələ r-nunun Mamaylı k.–1991) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə Ə. Bayramov ad. təsərrüfatda başlamış, manqabaşçısı işləmişdir. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MURADKHANOVA Badam Gadir gyzy** — Hero of Socialist Labour.





**MURADOVA Bahar Əvəz qızı** (d. 20.3.1962, Füzuli) — Azərb. Resp. Milli Məclisinin (2-ci çağırış) deputatı, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvü. Azərb. Dövlət Un-tinin filologiya fakültəsini (1990) və Azərbaycan Un-tinin hüquq fakültəsini (2000) bitirmişdir.

**MURADOVA Bahar Avaz gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub. (2 nd convocation).



**MURADOVA Rübabə Xəlil qızı** (22.3.1933, Ərdəbil — 1983,Bakı) — Azərb. müğənnisi. Azərb. SSR xalq artisti (1971). A. Zeynallı ad. Bakı Musiqi Məktəbini bitirmişdir (1955). 1954 ildən Azərb. Opera və Balet Teatrının solisti olmuşdur. Əsas partiyaları: Leyli, Əsli ("Leyli və Məcnun", "Əsli və Kərəm", Ü.Hacıbəyli), Ərəbzəngi ("Şah İsmayıl", M.Maqomayev), Şahsənəm ("Aşıq Qərib", Z.Hacıbəyli), Sənəm ("Gəlin qayası", Ş. Axundova) və s. Muğam, təsnif və xalq mahnılarının mahir ifaçısı idi. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**MURADOVA Rubaba Khalil gyzy** — People's Artist of the Azerb. SSR.



**MURADOVA Şahbaz Məmməd qızı** (d. 1940, İmişli r-nunun Sarıxanlı k.) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1975). Əmək fəaliyyətinə 1957 ildən İmişli r-nundakı Jdanov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**MURADOVA Shahbaz Memmed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**MURADOVA Tərana Hüseyn qızı** (d. 6.8.1965, Bakı) — Azərb. Resp. xalq artisti (1998). Bakı Xoreoqrafiya Məktəbini (1983), Azərb. Dövlət İncəsənət İn-tunu (1991) bitirmişdir. 1982 ildən Azərb. Dövlət Rəqs Ansamblında ifaçı-rəqqasə, 1985 ildən solist, 1995 ildən isə həm də ansamblın baletmeysteridir. Azərb. xalq rəqsləri ("Naz eləmə", "Qavalla rəqs", "Vağzalı", "Mirzəyi"), ispan, qaraçı və digər xalqların rəqsləri repertuarında geniş yer tutur. Ə. Bədəlbəylinin "Qız qalası" baletində gürcü qızının partiyasını oynamışdır. "Səyyah" uşaq rəqs ansamblının bədii rəhbəridir. Bir sıra xarici ölkələrdə çıxış etmişdir.

**MURADOVA Tarana Huseyn gyzy** — People's Artist of the Azerb. Repub.



**MUSABƏYOVA Umnisə Süleyman qızı** (9.10.1902, Qəbələ — 15.11.1974, Bakı) — Azərb. oftalmoloqu. Tibb e.d. (1936), prof. (1943), Azərb. SSR EA m. üzvü (1962), əməkdar elm xadimi (1957). 1945 ildən ömrünün sonunadək N.Nərimanov ad. Azərb. Dövlət Tibb İn-tunun göz xəstəlikləri kafedrasına başçılıq etmişdir. Tədqiqatı, əsasən, traxoma, qlaukoma xəstəliklərinə, görmə sinirinin patologiyasına və s. həsr edilmişdir. Ümumdünya oftalmoloqlar (Brüssel, 1958), Afrika-Asiya ölkələri göz həkimlərinin 1-ci (Qahirə, 1958), 2-ci (Tunis, 1960), 3-cü (İstanbul, 1964), 4-cü (Beyrut, 1968) konqreslərinin iştirakçısı, Sovet Sülhü Müdafiə Komitəsinin (1955-74), Sovet Qadınları Komitəsinin (1963-74) üzvü, Azərb. SSR Oftalmoloqlar Cəmiyyətinin sədri (1957-74) olmuşdur. SSRİ Ali Sovetinə (5-ci və 6-cı çağırış), Azərb. SSR Ali Sovetinə (4-cü çağırış) deputat seçilmişdir. Lenin ordeni ilə təltif edilmişdir.

**MUSABEYOVA Umnisa Suleyman gyzy** — doctor of medicine.

**MUSAQOVA Mesed Abdusəməd qızı** (20.5.1921, Zaqatala r-nunun Danaçı k.—30.11.1972, orada) — Sosialist Əməyi Qəhrəmanı (1966). Əmək fəaliyyətinə 1932 ildən Zaqatala r-nunun K. Marks ad. təsərrüfatında başlamışdır. 1964—65 illərdə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmşdur.

**MUSAGOVA Mesed Abdusamed gyzy** — Hero of Socialist Labour.





**MUSAYEVA Sərmayə Musa qızı** (d. 1960, Masallı r-nunun Ağakişibəyli k.) — Azərb. Dövlət Un-tini bitirmişdir (1988). Əmək fəaliyyətinə 1977 ildən Masallı r-nundakı Sabir ad. təsərrüfatda başlamış, müxtəlif işlərdə çalışmışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur.

**MUSAYEVA Sarmaya Musa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**MUSAYEVA Sifayı Əbülfət qızı** (15.6.1931, Yardımlı r-nunun Abasabad k.—29.3.1996) — Sosialist Əməyi Qəhrəmanı (1967). Əmək fəaliyyətinə 1948 ildən Biləsuvar r-nunun İsməzli kəndindəki təsərrüfatda başlamışdır. 1966 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Lenin ordeni və 2 Qırmızı Əmək bayrağı ordeni ilə təltif edilmişdir.

**MUSAYEVA Sifayi Abulfat gyzy** — Hero of Socialist Labour.



**MUSAYEVA Tamilla Həşim qızı** (d. 31.12.1931, Bakı) — tarix e. d. (1980), prof. (1982). Azərb. SSR Dövlət mükafatı laureatı (1984). Azərb. Dövlət Un-tini bitirmişdir (1954). AMEA-nın A. Bakıxanov ad. Tarix İn-tunda fəaliyyətə başlamışdır. 1983 ildən həmin in-tun aparıcı elmi işçisidir. Tədqiqatları Azərb.-da mədəni quruculuq tarixinə, xalq təhsilinin inkişafı məsələlərinə həsr edilmişdir. 66 elmi əsərin, 2 monoqrafiyanın, 25 publisistik məqalənin müəllifidir.

**MUSAYEVA Tamilla Hashim gyzy** — doctor of history.



**MUSAYEVA Tərlan Həsən qızı** (d. 22.1.1955, Bərdə r-nunun Kələntərli k.) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1973 ildə Bərdə r-nunun "Qarabağ" təsərrüfatında mexanizator kimi başlamışdır. 1989 ildən S.Ağamalıoğlu ad. təsərrüfatda sədr müavini və sədr, 1992 ildən Bərdə Rayon XDS-nin sədri vəzifəsində çalışmışdır. SSRİ Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, İttifaq Sovetinin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü, Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı və Xalqlar dostluğu ordenləri ilə təltif edilmişdir.

**MUSAYEVA Tarlan Hasan gyzy** — deputy of the Supreme Soviet of the USSR (10–11th convocations).



**MUSAYEVA Zəminə Ağabəy qızı** (d. 1961) — əmək fəaliyyətinə 1980 ildən Cəlilabad r-nundakı Kalinin ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**MUSAYEVA Zamina Agabey gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**MUSAYEVA-İBRAHİMOVA Azadə Şahbaz qızı** (d. 28.10.1946, Lənkəran) — filologiya e. d. (1994), prof. (1999). Azərb. Dövlət Un-tini bitirmişdir (1968). 1974 ildən Azərb. EA-nın Əlyazmalar İn-tunda işləyir. 1984 ildən in-tun baş elmi işçisidir. Tədqiqatı Azərb. əlyazma kitabı, orta əsrlərdə Azərb. mühacirət ədəbiyyatına həsr edilmişdir. 100-dən artıq elmi məqalənin, 10 kitabın müəllifi və tərtibçisidir. Beynəlxalq simpozium, konfrans və seminarlarda məruzələrlə çıxış etmişdir.

**MUSAYEVA-IBRAHIMOVA Azada Shahbaz gyzy** — doctor of philology.





**MUSTAFAYEVA Bəsirə Səbzəli qızı** (d. 1960) — əmək fəaliyyətinə 1977 ildən Masallı r-nundakı "Sovet Ukraynası" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur.

**MUSTAFAYEVA Basira Sabzali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**MUSTAFAYEVA Fərdinə Əhməd qızı** (d. 1942) — əmək fəaliyyətinə 1960 ildən başlamış, 1966 ildən Volodarski ad. tikiş fabrikində işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**MUSTAFAYEVA Fardina Ahmad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**MUSTAFAYEVA Güllü Hacağa qızı** (12.11.1921, Tür.SSR-in Cərco ş.— Bakı) — Azərb. boyakarı. Azərb. əməkdar rəssamı (1973). Azərb. Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir (1938). Tematik tablolar və portretlər yaratmışdır ("Leyli və Məcnun məktəbdə", 1941, "Şairə Məhsətinin portreti", 1947, "Professor Ü.Musabəyovanın portreti", 1957, "Paris. Rəssamlıq meydanı", 1961). Yaradıcılığında uşaq portretləri xüsusi silsilə təşkil edir ("Bizim uşaqlar" silsiləsi, 1964-80).

**MUSTAFAYEVA Gullu Hajaga gyzy** — Honoured Painter of the Azerb. SSR.

**MUSTAFAYEVA Gülnənə Məhəmməd qızı** (5.6.1915, Quba r-nunun Afurca k.) — Azərb. xalça ustası. SSRİ Dövlət mükafatı laureatı (1950). 1943—60 illərdə Qonaqkənd xalça artelində toxucu, sex müdiri, artelin sədri vəzifələrində işləmiş, 1960—68 illərdə Qonaqkənddəki "Qumaş" xalça fabrikində fəaliyyət göstərmişdir. Bilavasitə onun iştirakı ilə toxunmuş "İ.V. Stalin" xalısı (1949, ölçüsü 70 m²; Azərb. İncəsənət Muzeyi, Bakı) yüksək bədii keyfiyyətə malikdir. Onun toxuduğu "Qolluçiçi", "Açgülçiçi", "Herat-Pirəbədil" və s. çeşidli xalçalar Azərb. Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində, Azərb. Tarixi Muzeyində və digər muzeylərdə saxlanılır.

**MUSTAFAYEVA Gulnene Mahammad gyzy** — laureate of the State Prize of the USSR.



**MUSTAFAYEVA Rəfiqə Şahgül qızı** (d. 21.6.1936, Bakı) — pedaqoji e. d. (1987), prof. (1990). Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü (2002). Azərb. Resp. əməkdar müəllimi (1992). Qafqazda ilk qadın pedaqoji elmlər doktoru, prof. Azərb. Dövlət Un-tini bitirmişdir (1959). Əmək fəaliyyətinə 1960 ildən orta məktəb müəllimi kimi başlamış, 1972—79 illərdə Azərb. Elmi-Tədqiqat Pedaqoji Elmlər İn-tunda kiçik elmi işçi, baş elmi işçi vəzifələrində çalışmış, 1979 ildən Resp. Mərkəzi Müəllimləri Təkmilləşdirmə İn-tunda baş müəllim, dosent işləmiş, 1984 ildən həmin in-tun "Pedaqogika" kafedrasının müdiridir. 14 kitabın, monoqrafiya və dərsliyin, 100-dən artıq məqalənin müəllifidir.

**MUSTAFAYEVA Rafiga Shahgul gyzy** — doctor of education.



**MUSTAFAYEVA Sədayə İsmayıl qızı** (d. 15.7.1926, Şəki) — Azərb. Reps. xalq artisti (1981). 1941 ildə ilk dəfə səhnəyə çıxmış, Şəki, Ağdaş və Göyçay teatrlarında fəaliyyət göstərmişdir. 1950 ildən C. Cabbarlı ad. Gəncə Dövlət Dram Teatrının aktrisasıdır. Rolları: Sara, Gültəkin ("Solğun çiçəklər", "Aydın", C. Cabbarlı), Xuraman, Şirin ("Vaqif", "Fərhad və Şirin", S. Vurğun), Həyat, Bənövşə ("Həyat", "Kəndçi qızı", M.İbrahimov), Nargilə ("Sən həmişə mənimləsən", İ.Əfəndiyev), Anacan ("Anacan", Y.Əzimzadə), Zərri ("Həmyerlilər", A.Məmmədov), Emiliya ("Otello", U.Şekspir), Aliyə ("Dairəni genişləndirin", İ.Qasımov), Şahnigar ("Dəli Kür", İ.Şıxlı), Naciyə ("Yad qızı", O.Kamal), Bahar ("Bahar", M.H.Təhmasib) və s. "Azərbaycanfilm" kinostudiyasında "Qanun naminə", "Şərikli çörək", "Gün keçdi", "Qayınana" və s. filmlərdə çəkilmişdir.

**MUSTAFAYEVA Sadaya Ismayil gyzy** — People's Artist of the Azerb. Repub.





**MUSTAFAYEVA Solmaz Nəriman qızı** (d. 1.1.1950, Çin Xalq Resp., Dalyan ş.) — fizika-riyaziyyat e.d. (1990). Azərb. Dövlət Un-tini bitirmişdir (1972). 1975 ildən AMEA-nın Fizika İn-tunda işləyir. 1993 ildən kristalların fizikası laboratoriyasında aparıcı elmi işçidir. Tədqiqatları mürəkkəb tərkibli yarımkeçirici maddələrin fizikası və bərk cisimlərin elektronikası sahəsindədir. 220 elmi əsərin və 24 ixtiranın müəllifidir. Nyu-York EA-nın üzvüdür (1997). Kembric Bioqrafiya Mərkəzi (İngiltərə) tərəfindən nəşr edilən kitabda haqqında məlumat verilmişdir. Amerika Bioqrafiya İn-tu nəzdindəki tədqiqatçıların məsləhət şurasının üzvüdür (2001).

**MUSTAFAYEVA Solmaz Nariman gyzy** — doctor of physics and mathematics.



**MUSTAFAYEVA Sürmə Əhəd qızı** (d. 1.7.1923, Kürdəmir r-nunun Qaraqocalı k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1940 ildən Kürdəmir r-nunun təsərrüfatlarında başlamış, müxtəlif işlərdə çalışmışdır. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.

**MUSTAFAYEVA Surma Ahad gyzy** — Hero of Socialist Labour.



**MUSTAFAYEVA Telli Çərkəz qızı** (d. 1948) — əmək fəaliyyətinə 1965 ildən başlamış, Tovuz r-nundakı S.M.Kirov ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**MUSTAFAYEVA Telli Cherkez gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**MUSTAFAYEVA Telmurə Rəcəb qızı** (d. 1939) — əmək fəaliyyətinə 1960 ildən Qəbələ r-nundakı K.Marks ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə, ictimai təminat, bədən tərbiyəsi və idman komissiyasının üzvü olmuşdur.

**MUSTAFAYEVA Telmura Rajab gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**MÜRSƏLOVA Minə xanım Əliağa qızı** (d. 10.8.1932, Bakı) — kimya e. d. (1996). Azərb. Neft və Kimya İn-tunu bitirmişdir (1955). Əmək fəaliyyətinə 1955 ildə Yeni Bakı neftayırma zavodunda başlamış, 1958—74 illərdə Azərb. EA-nın Neft İn-tunda, Y.H.Məmmədəliyev ad. Neft-Kimya Prosesləri İn-tunda və onun Sumqayıt filialında kiçik elmi işçi və baş elmi işçi, 1974—95 illərdə Azərb. Elmi-Tədqiqat Layihə Qaz İn-tunda baş elmi işçi, laboratoriya müdiri və direktorun elmi işlər üzrə müavini vəzifəsində işləmişdir. 1995 ildən "Dənizneftqazlayihə" İn-tunda işləyir. 200-dən artıq elmi işin, o cümlədən 45 ixtiranın müəllifidir. Beynəlxalq konfranslarda dəfələrlə çıxış etmişdir.

**MURSALOVA Mina khanym Aliaga gyzy** — doctor of chemistry.



**MÜRSƏLOVA Şəfaqət Ağaveyis qızı** (d. 1961) — əmək fəaliyyətinə 1980 ildən Azərb. Yerli Sənaye Nazirliyinin Mədəni-məişət metal məmulatı zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**MURSALOVA Shafagat Agaveyis gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**MÜTƏLLİMOVA Firəngiz Bəhər qızı** (d. 1.5.1959, Ağcabədi r-nu) — Azərb. Resp. xalq artisti (2000). Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1980). 1980 ildən Azərb. Dövlət Akademik Milli Dram Teatrının səhnəsində (1993—96 illərdə fasilələrlə) çıxış edir. Rolları: Bəyim ("Xurşudbanu Natəvan", İ.Əfəndiyev), Aynur ("Büllur sarayda", İ.Əfəndiyev), Qumral ("Əliqulu evlənir", S.Rəhman), Əsmər ("Günah", M.Əlizadə), Aypara ("Fəryad", B.Vahabzadə), Sevər ("Bu dünyanın adamları", Hidayət) və s. Televiziya tamaşalarında da çəkilmişdir: Gülnar ("Səni axtarıram", Aslan Qəhrəmanov), Mərcan ("Evləri köndələn yar", Anar) və s.

**MUTALLIMOVA Firangiz Beher gyzy** — People's Artist of the Azerb. Repub.



**MÜZƏFFƏROVA Təbriz Fərrux qızı** (d. 1944) — əmək fəaliyyətinə 1961 ildən Lerik r-nundakı Sabir ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**MUZAFFAROVA Tabriz Farrukh gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**MYASNİKOVA Zinaida İsayevna** (d. 1942) — əmək fəaliyyətinə 1957 ildən Cəlilabad r-nunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9, 10–11-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**MYASNIKOVA Zinaida Isayevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9, 10–11h convocations).

# N



**NADİROVA Tahirə Hüseyn qızı** (d. 1957) — əmək fəaliyyətinə 1974 ildən Dəvəçi r-nundakı N. Nərimanov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Qadınların Əməyi və məişəti, ana və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**NADIROVA Tahira Huseyn gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**NAĞIYEVA Aybəniz Fərman qızı** (d. 1959) — əmək fəaliyyətinə 1977 ildən Goranboy r-nundakı "Azərbaycan" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**NAGIYEVA Aybeniz Farman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**NAĞIYEVA Cahan Heydər qızı** (d. 1940) — Azərb. çay ustası. Əmək fəaliyyətinə 1955 ildən Lənkəran r-nundakı "Kommunist" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7—8-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**NAGIYEVA Jahan Heydar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7—8th convocations).



**NAĞIYEVA Elmira Əli qızı** (d. 25.1.1946, Bakı) — texnika e. d. (2001). Azərb. Dövlət Un-tini bitirmişdir (1971). Əmək fəaliyyətinə 1966 ildən Azərb. EA Aşqarlar Kimyası İn-tunda başlamış, texnik, böyük texnik, kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində işləmişdir. 2001 ildən həmin in-tun aparıcı elmi işçisidir. Tədqiqatı mineral və sintetik yağlara əlavə olunan aşqarların sintezinə həsr olunmuşdur. 80 elmi əsərin, o cümlədən 30 ixtiranın müəllifidir.

**NAGIYEVA Elmira Ali gyzy** — doctor of technics.



**NAMAZOVA Adilə Əvəz qızı** (d. 9.9.1926, Ağdam r-nunun Seyidli k.) — Azərb. pediatrı, kardioloq. Tibb e.d. (1965), prof. (1966), SSRİ Tibb EA-nın m. üzvü (1971), əməkdar elm xadimi (1981), Azərb. EA-nın həqiqi üzvü (1983), Rusiya Federasiyası Tibb EA-nın həqiqi üzvü (1993), Azərb. SSR Dövlət mükafatı laureatı (1982). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1949). 1965 ildən Azərb. Tibb İn-tunun pediatriya kafedrasının müdiridir. Tədqiqatı, əsasən, uşaqlarda revmatizm və ürək-damar xəstəliklərinə həsr olunmuşdur. Azərb.-da pediatriya elmi məktəbinin yaradıcısıdır. 300 elmi əsərin, 8 monoqrafiya və dərsliyin, 5 ixtiranın müəllifidir. Azərb. Pediatrlar Cəmiyyətinin sədridir (1967 ildən). Azərb. Resp. Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü, Türkdilli Ölkələrin Pediatrlar Cəmiyyətinin vitse-prezidentidir. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur. Azərb-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**NAMAZOVA Adila Evez gyzy** — doctor of medicine, academician of the Russian Federation Academy of Medicine.





**NAMAZOVA Bəsti Eyyub qızı** (1904, Tovuz r-nunun Əsrik Cırdaxan k.—1995) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1931 ildən Tovuz r-nundakı Nizami ad. təsərrüfatda başlamışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**NAMAZOVA Basti Eyyub gyzy** — Hero of Socialist Labour.



**NAMAZOVA Gülxanım Rəhim qızı** (1.6.1920, Tovuz r-nunun Yuxarı Öysüzlü k.—1990, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1938 ildən Tovuz r-nunun Nizami ad. təsərrüfatında başlamışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**NAMAZOVA Gulkhanym Rahim gyzy** — Hero of Socialist Labour.



**NAMAZOVA Həcər Ağakişi qızı** (d. 1921, Tovuz) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə Tovuz r-nunun Nizami ad. təsərrüfatında başlamış, müxtəlif işlərdə çalışmışdır. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**NAMAZOVA Hajar Agakishi gyzy** — Hero of Socialist Labour.





**NAMAZOVA Zümrüd Aydın qızı** (d. 1950) — əmək fəaliyyətinə 1965 ildən Şəki r-nundakı Daşüz camışçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının üzvü olmuşdur.

**NAMAZOVA Zumrud Aydin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**NATƏVAN Xurşudbanu Mehdiqulu xan qızı** (avqust, 1832, Şuşa — 2.10.1897, Şuşa, Ağdamda "İmarət" qəbiristanında dəfn olunmuşdur) — Azərb. şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. "Xan qızı" adı ilə də tanınmışdır. Bibisi Gövhər xanım tərbiyə edib böyütmüş, ona musiqini, şeri, rəsmi sevdirmişdir. Şərq dillərini öyrənmiş, Firdovsi, Nizami, Sədi, Hafiz, Nəvai, Füzuli və b. klassiklərin əsərlərini oxumuşdur. Dövrünün qabaqcıl ziyalılarından olan Xasay xan Usmiyevə ərə getmiş, Dağıstanı gəzmiş, Tiflisdə, Bakıda olmuşdur. 1858 ildə Bakıda A.Düma (ata) ilə görüşmüş, öz əl işlərindən ona hədiyyə vermişdir. Düma isə ona nəfis fiqurlu şahmat bağışlamışdır. 1872 ildə Şuşada "Məclisi-üns" ədəbi məclisini təşkil etmişdir. 1873 ildə Şuşaya su kəməri çəkdirmişdir; bu su kəməri "Xan qızı bulağı" adı ilə məşhurdur. Araz çayından Mil düzünə qədər su kəməri çəkdirməyə təşəbbüs göstərmişdir. Yaradıcılığa 50-ci illərdən ənənəvi Şərq mövzu və janrlarında şerlərlə başlamışdır. Qəzəllərində məhəbbət, təbiət gözəllikləri ("Gülün", "Qərənfil" və s.) tərənnüm olunur. 16 yaşlı oğlu Mir Abbasın ölümündən sonra bədbin ruhlu şerlər yazmışdır ("Ağlaram", "Olaydı", "Getdi", "Sənsiz", "Ölürəm" və s.). İstedadlı rəssam olmuşdur. Onun bədii tikmələri, "Gül dəftəri" (1886) adlı albomundakı rəsmlər buna sübutdur. Bakıda heykəli, Şuşada büstü, Ağdamda isə qəbirüstü abidəsi qoyulmuşdur.

**NATAVAN Khurshudbanu Mehdigulu khan gyzy** — Azerbaijani poetess.



**NEMƏTOVA Məşədixanım Sədulla qızı** (d. 5.1.1924, Bakı) — tarix e.d. (1969), Azərb. MEA-nın müxbir üzvü (2001). ADU-nun şərqşünaslıq fakültəsini bitirmişdir (1948). Əmək fəaliyyətinə 1953 ildən Azərb. SSR EA Tarix İn-tunda başlamışdır (1971 ildən epiqrafika qrupunun rəhbəridir). 1993 ildən Arxeologiya İn-unda eyniadlı qrupun rəhbəridir. Azərb.-ın orta əsrlər epiqrafik abidələrini tədqiq edir. Ermənistan, Gürcüstan və Dağıstan ərazilərindəki müsəlman kitabələri haqqında da tədqiqatları var. 300-dən artıq elmi əsərin, o cümlədən 12 monoqrafiyanın müəllifidir.

**NEMATOVA Meshedikhanym Sadulla gyzy** — doctor of history.



**NEMƏTOVA Nərminə Ağarəhim qızı** (d. 1958, Bakı) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1987). Əmək fəaliyyətinə 1976 ildən Göyçay r-nundakı Bığır narçılıq təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**NEMATOVA Narmina Agarahim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**NƏBİYEVA Əminə Əkbər qızı** (d. 1955) — əmək fəaliyyətinə 1976 ildən Bakı şüşə zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**NABIYEVA Amina Akber gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**NƏBİYEVA Kifayət Söhrab qızı** (d. 1958) — əmək fəaliyyətinə 1977 ildən Ucar pambıqtəmizləmə zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**NABIYEVA Kifayat Sohrab gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**NƏBİYEVA Nəsibə Nəbi qızı** (d. 1947) — əmək fəaliyyətinə 1966 ildən Quba r-nundakı Lenin ad. təsərrüfatda başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**NABIYEVA Nasiba Nabi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**NƏCƏFOVA Fəhruz Xanoğlan qızı** (d. 1938) — əmək fəaliyyətinə 1959 ildən Kəlbəcər r-nundakı M.F. Axundov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**NAJAFOVA Fehruz Khanoglan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9–10th convocations).



**NƏCƏFOVA Hökümə Yusif qızı** (d.19.11.Bakı) — ilk azərb. qadın tarzən, bəstəkar. Azərb. Sənaye İn-tunu (1937) və A.Zeynallı ad. Azərb. Dövlət Musiqi Məktəbini (1939) bitirmişdir. Azərb. Dövlət Konservatoriyasında xalq musiqisi üzrə bəstəkarlıq kursunda (1942-48; Ü.Hacıbəylinin sinfində) oxumuşdur. 1936-47 illərdə Azərb. Dövlət Filarmoniyası xalq çalğı alətləri orkestrində tarda çalmışdır. Bakının müxtəlif musiqi məktəblərində və mədəniyyət saraylarında dərs demişdir. Bir sıra mahnı, romans və rəqslər ("Şənlik rəqsi", "Rəqs melodiyası") bəstələmişdir. 1938 ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında tarda Bayatı-Şiraz muğamını ifa etmişdir. Fortepiano üçün "Yarım gəldi" (1945), "Arzu" (1946), fortepiano ilə oxumaq üçün "Uşaq mahnıları" (1967), "Mahnılar" (1968, 1975) və "Ana yurdum" (1986) adlı mahnı və romanslar not kitablarının müəllifidir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**NAJAFOVA Hokuma Yusif gyzy** — composer.



**NƏRİMANOVA Amalya Həmid qızı** (d. 1956) – əmək fəaliyyətinə 1971 ildən başlamış, Ağdam r-nundakı təsərrüfatlarda işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**NARIMANOVA Amalya Hamid gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9–10th convocations).



**NƏRİMANOVA Zemfira Əli qızı** (d. 20.4.1959, Bakı) — Azərb. Resp. xalq artisti (2000). Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (198 ). Həmin ildən Azərb. Milli Akademik Dram Teatrının aktrisası kimi səhnə fəaliyyətinə başlamışdır. Rolları: Nastya ("Həyatın dibində", M. Qorki), Çiçək ("Torpağa sancılan qılınc", N. Xəzri), Arzu ("Kimdir haqlı", B. Vahabzadə), Ayxanım ("Yayda qartopu oyunu", V. Səmədoğlu), Gülnaz ("Tənha iydə ağacı", İ. Əfəndiyev), Züleyxa ("Ah, Paris, Paris!", Elçin), Sofa ("Yad adam", D. Frank) və s. Televiziya tamaşalarında ("Pəncərədə işıq", "Sarıköynəklə Valehin nağılı", "Göz həkimi", "İtkin gəlin" və s.) çəkilmişdir.

**NARIMANOVA Zemfira Ali gyzy** — People's Artist of the Azerb. Repub.





**NƏSİBOVA Aybəniz Abbas qızı** (d. 1960) — əmək fəaliyyətinə 1978 ildən Şəmkir r-nunun təsərrüfatlarında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9, 10, 11-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**MASIBOVA Aybeniz Abbas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9—11th convocations).



**NƏSİBOVA Şahnabad Yusif qızı** (1915, Qazax r-nunun 1-ci Şıxlı k.— 24.8.1957) — əmək fəaliyyətinə 1931 ildən müəllimliklə başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (1-3-cü çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmşidir.

**NASIBOVA Shahnabad Yusif gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (1rd and 3rd convocations).



**NƏSİROVA Simzarə Minacəddin qızı** (d. 1955) — əmək fəaliyyətinə 1969 ildən Quba r-nundakı "Qumaş xalçası" fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**NASIROVA Simzara Minajeddin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**NƏSİROVA Tamilla Hilal qızı** (d. 20.10.1936, Salyan r-nunun Navahi k.) — fizika-riyaziyyat e. d. (1994), prof. Azərb-ın ilk riyaziyyatçı qadın elmlər doktoru. Azərb. Dövlət Un-tini bitirmişdir (1958). 1958—80 illərdə Azərb. EA-nın Kibernetika İn-tunda kiçik elmi işçi, baş elmi işçi işləmişdir. Hazırda Bakı Dövlət Un-tinin professorudur. Tədqiqatı yarımmarkov təsadüfi proseslər nəzəriyyəsinə həsr olunmuşdur. 55-ə qədər elmi işin, 2 monoqrafiya və dərsliyin müəllifidir.

**NASIROVA Tamilla Hilal gyzy** — doctor of physics and mathematics.



**NƏSRULLAYEVA Hacər Məhəmməd qızı** (d. 12.5.1924, Bakı) — tibb e. d. (1968), prof. (1993), əməkdar elm xadimi (2000). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1946). 1958 ildən Azərb. Elmi-Tədqiqat Göz Xəstəlikləri İn-tunda elmi işçi, böyük elmi işçi, terapevtik şöbənin müdiri vəzifələrində işləmiş, 1995 ildən in-tun elmi işlər üzrə direktor müavinidir. Tədqiqatı gözün sinir-damar aparatının müxtəlif mənşəli patologiyasına həsr olunmuşdur. 300-dən artıq elmi əsərin, 3 monoqrafiyanın, 8 metodiki tövsiyənin, 4 müəlliflik şəhadətnaməsinin, 36 səmərələşdirici təklifin müəllifidir. Azərb. SSR Ali Sovetinin (8-ci və 9-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və ictimai təminat komissiyasının sədr müavini olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**NASRULLAYEVA Hajar Mahammad gyzy** — doctor of medicine.



**NƏZƏRLİ Saraxanım Hüseyn qızı** (20.9.1903, Stavropol ş. — 19.2.1966, Bakı) — tibb e.d. (1958), prof. (1960), Ə.Əliyev ad. Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunun akuşer-ginekologiya kafedrasında prof. işləmişdir. Tədqiqatı neft sənayesində və kənd təsərrüfatında çalışan qadınlarda ginekoloji xəstəliklərin öyrənilməsinə, hamiləlik toksikozlarının müalicəsinə həsr olunmuşdur.

**NAZARLI Sarakhanym Huseyn gyzy** — doctor of medicine.





**NƏZƏROVA Balacaxanım Teymur qızı** (d. 25.2.1917, Bakı) — coğrafiya e.d. (1977), prof. (2000), əməkdar elm xadimi (1990). 1950-58 illərdə Azərb. SSR Kənd təsərrüfatı nazirliyində elmi işlər üzrə idarə rəisi, 1958-64 illərdə Azərb. SSR EA nəzdində məhsuldar qüvvələrin öyrənilməsi şurasının baş elmi işçisi işləmişdir. 1964 ildən Azərb. SSR EA Coğrafiya İn-tunda iqtisadi coğrafiya şöbəsində çalışır (1967 ildən həmin şöbənin müdiridir). Əsas tədqiqatları k.t. coğrafiyası, məhsuldar qüvvələrin coğrafi yerləşdirilməsi və ərazi-istehsal komplekslərinin formalaşması məsələlərinə həsr edilmişdir. "Azərb. SSR-in iqtisadi xəritəsi"ni (1977) və "Azərb. SSR-in k.t. xəritəsi"ni (1978) tərtib etmişdir. "Azərb. SSR atlası"nda (1979) 38 iqtisadi xəritənin, 220 elmi işin, o cümlədən 6 monoqrafiyanın müəllifidir.

**NEZEROVA Balajakhanym Teymur gyzy** — doctor of geography.



**NƏZƏROVA Əsbət İsa qızı** (d. 1949) — əmək fəaliyyətinə 1964 ildən Masallı r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8–10-cu çağırış) deputatı, Ali Sovetin Tikinti, inşaat materialları sənayesi və Kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**NEZIROVA Asbet Isa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8–10th convocations).



**NƏZƏROVA Süsənxanım Rza qızı** (d. 1953) — əmək fəaliyyətinə 1970 ildən Əzizbəyov ad. Neft və Qazçıxarma İdarəsində başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**NAZAROVA Susankhanym Rza gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**NƏZİROVA Elmira Mirzərza qızı** (d. 30.11.1928, Bakı) — Azərb. bəstəkarı, pianoçu. Azərb. SSR əməkdar incəsənət xadimi (1964), prof. (1971). Azərb. Dövlət Konservatoriyasının fortepiano və bəstəkarlıq siniflərini bitirmişdir (1950, 1954). Fortepiano ilə orkestr üçün 12 prelüd, sonatina, ərəb mövzuları əsasında fortepiano ilə orkestr üçün konsert (1957, F.Əmirovla birgə), sonata-poema, Azərb. xalq mahnıları işləmələri (3 dəftər) və s. əsərlərin müəllifidir. 1951 ildən Azərb. Dövlət Konservatoriyasında pedaqoji fəaliyyət göstərmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**NEZIROVA Elmira Mirzarza gyzy** — Honoured Art Worker of the Azerb. SSR.



**NƏZİROVA Kübraxanım Məmmədvəli qızı** (d. 1933) — əmək fəaliyyətinə 1949 ildən Bakıdakı Volodarski ad. tikiş fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Ticarət və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**NEZIROVA Kubrakhanym Memmedali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**NƏZİROVA Mina Bəşir qızı** (11.1.1914, Zaqatala r-nunun Suvagil k.—1984) — Sosialist Əməyi Qəhrəmanı (1958). Əmək fəaliyyətinə 1933 ildən Zaqatala r-nunda başlamış, müxtəlif vəzifələrdə, o cümlədən Zaqatala r-n prokurorunun köməkçisi, təsərrüfat rəhbəri (1955—82) olmuşdur. SSRİ Ali Sovetinin (3—5-ci çağırış) və Azərb. SSR Ali Sovetinin (2, 6—7-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur. Oktyabr İnqilabı, 2 Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmşidir.

**NEZIROVA Mina Bashir gyzy** — Hero of Socialist Labour.





**NİFTƏLİYEVA Aybəniz Həsən qızı** (d. 1935) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1988). Əmək fəaliyyətinə 1976 ildən Yevlax ş-indəki Traktor təmiri zavodunda başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**NIFTALIYEVA Aybeniz Hasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**NİZAMƏTDİNOVA Minirə Ənvər qızı** (d. 1931, Səmərqənd ş.) — fizika-riyaziyyat e. d. (1984). prof. (1986). Orta Asiya Un-tini bitirmişdir. 1964—67 illərdə Azərb. EA Fizika İn-tunda, 1967 ildən Azərb. Dövlət Politexnik İn-tunda işləmiş, 1986 ildən Memarlıq və İnşaat Mühəndisləri İn-tunun fizika kafedrasının professorudur. Tədqiqatı zəncirvarı strukturlu müəyyən qrup yarımkeçiricilərin optik xassələrinin öyrənilməsinə həsr edilmişdir. 70-dən artıq elmi əsərin, dərs vəsaitinin müəllifidir.

**NIZAMETDINOVA Minira Anver gyzy** — doctor of physics and mathematics.



**NOVRUZOVA Cəmilə Həsən qızı** (d. 9.4.1930, Naxçıvan) — sənətşünaslıq doktoru (1978). Leninqrad Dövlət Un-tini (1949) və Azərb. Dövlət Un-tini (1952) bitirmişdir. Azərb. Resp. EA Memarlıq və İncəsənət İn-tunda işləyir (1962 ildən baş elmi işçi). Azərb. müasir heykəltaraşlığının yaranması və inkişafı problemlərinə, eləcə də ayrı-ayrı heykəltəraşların yaradıcılığına həsr olunmuş monoqrafiya və məqalələrin müəllifidir. Çoxcildli "SSRİ xalqlarının incəsənəti tarixi" əsərinin hazırlanmasında iştirak etmişdir.

**NORUZOVA Jamila Hasan gyzy** — doctor of art.



**NOVRUZOVA Gülşən Qərib qızı** (d. 1930, Qusar r-nunun Sudur k.) — əmək fəaliyyətinə 1946 ildən Qusar r-nundakı Kuybışev ad. təsərrüfatda başlamışdır. SSRİ Ali Sovetinin (7—9-cu çağırış) deputatı olmuşdur. Lenin ordeni, Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif olunmuşdur.

**NOVRUZOVA Gulshan Garib gyzy** — deputy of the Supreme Soviet of the USSR (7–9th convocations).



**NOVRUZOVA Mirvari Balaqardaş qızı** (17.4.1923, Bakı—20.3.1994, Bakı) —Azərb. Resp. əməkdar artisti (1949). Bakı Teatr Texnikumunu bitirmişdir (1942). 1939 ildən Azərb. Dövlət Dram Teatrında fəaliyyət göstərmişdir. İlk rolu "Eşq və intiqam tamaşasında" (S.S.Axundov) Qəmər obrazı olmuşdur. Digər rolları: Həcər ("Qaçaq Nəbi", S.Rüstəm), Xuraman ("Vaqif", S.Vurğun), Gülnisə ("Solğun çiçəklər", C.Cabbarlı), Ceyran xala, Zalxa ("Nişanlı qız", "Toy", S.Rəhman), Tükəz ("Hacı Qara", M.F.Axundov), Hafizə ("Pəri-cadu", Ə.B.Haqverdiyev), Zeynəb ("Dumanlı Təbriz", M.S.Ordubadi), Teklə ("Xanuma", A.Saqareli), Qadın ("Qadın faciəsi", F.Q.Lorka) və s.

**NOVRUZOVA Mirvari Balagardash gyzy** — Honoured Artist of the Azerb. Repub.



**NOVRUZOVA Nəfisət Murtuz qızı** (1.5.1928, Balakən r-nunun Qullar k.—11.04.1997, orada) — Sosialist Əməyi Qəhrəmanı (1971). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1972). Əmək fəaliyyətinə 1946 ildən Balakən r-nundakı H. Nəsibov ad. təsərrüfatda başlamış, müxtəlif vəzifələrdə işləmiş, H. Nəsibov ad. təsərrüfatın rəhbəri olmuşdur (1973). 1970 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (7-ci çağırış), Azərb. SSR Ali Sovetinin (8—10-cu çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur. 2 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**NOVRUZOVA Nafisat Murtuz gyzy** — Hero of Socialist Labour.



**NOVRUZOVA Səlqə Abuzər qızı** (d. 1933) — əmək fəaliyyətinə 1949 ildən Bakı ş.-dəki V.İ. Lenin ad. toxuculuq kombinatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (6-cı və 10-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**NOVRUZOVA Salga Abuzar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6th and 10th convocations).



**NOVRUZOVA Ziyafət Musa qızı** (d. 1960) — əmək fəaliyyətinə 1981 ildən Ermənistan SSR-in Vardenis r-nunun Şokətkənd tütünçülük təsərrüfatında başlamışdır. Ermənistan SSR-dən SSRİ Ali Sovetinə (11-ci çağırış) deputat seçilmişdir.

**NOVRUZOVA Ziyafat Musa gyzy** — deputy of the Supreme Soviet of the USSR from the Armenian SSR (11th convocation).



**NOVRUZOVA Zivər Ələkbər qızı** (29.10.1914, İrəvan–22.10.95, Bakı) — biologiya e. d. (1965). 1949-73 illərdə Azərb. SSR EA V.L.Komarov ad. Botanika İn-tunda elmi katib, baş elmi işçi işləmiş, 1973 ildən həmin İntda laboratoriya müdiri olmuşdur. Tədqiqatı xarici mühit və floranın tarixi ilə əlaqədar bitkilərin ekologi anatomiyasına aiddir. 100-ə qədər elmi əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifdir..

**NOVRUZOVA Zivar Alekber gyzy** — doctor of biology.





**NURİYEVA Nərgiz Ələkbər qızı** (d. 1945) — əmək fəaliyyətinə 1960 ildən Bakıdakı Mərkəzi Universal Mağazada başlamışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, Millətlər Sovetinin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**NURUYEVA Nargiz Alekber gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).



**NURİYEVA Sona Piri qızı** (d.15.12.1915, Bakı) — ilk azərb. təyyarəçi qadınlarından biri. Bakı təyyarəçilər klubunda yetişmiş, 1936 ildə Bataysk təyyarəçilik məktəbini bitirmiş, Azərb. mülki aviasiya idarəsində təyyarəçi işləmişdir. 1945 ildən Beynəlxalq hava xəttində (Almaniya, Bolqarıstan, Yuqoslaviya, Polşa və s.) qulluq etmişdir. 1949—68 illərdə Zabrat aeroportunda işləmişdir. SSRİ Ali Sovetinin (1-ci və 2-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**NURUYEVA Sona Piri gyzy** —one of the first Azerbaijani pilot women.



**NURUYEVA Yasəmən Qinyaz qızı** (d. 1960) — əmək fəaliyyətinə 1980 ildən Ağdaş r-nundakı "Moskva" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur.

**NURUYEVA Yasaman Ginyaz gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).

**NÜŞABƏ** (eramızdan əvvəl IV əsrin ikinci yarısı) — Bərdə hakimi. Onun haqqında məlumatı Nizami Gəncəvi "İskəndərnamə" poemasında vermişdir. Qədim dünyanın böyük fatehi Makedoniyalı İsgəndərlə görüşmüş, öz müdrikliyi və dərin ağlı ilə onu sülhə çağırmış, dünya malı üçün qan tökməkdən çəkindirmişdir.

**NUSHABA** (second half of the IV century BC) — ruler of Barda.



# O



**ORUCOVA Ağca Nəbi qızı** (d. 1929) — əmək fəaliyyətinə 1944 ildən Beyləqan r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**ORUJOVA Agja Nabi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ORUCOVA Gülputa Mənsim qızı** (d. 1922, Kürdəmir r-nunun Karrar k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1938 ildən Karrar kəndinin təsərrüfatında başlamış, müxtəlif vəzifələrdə, o cümlədən XDS İcraiyyə Komitəsinin sədri, Voroşilov ad., R. Axundov ad. təsərrüfatların rəhbəri işləmişdir. 1950 ildə yüksək əmək göstəriciləri qazanmışdır. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ORUJOVA Gulputa Mansim gyzy** — Hero of Socialist Labour.



**ORUCOVA İzzət Mirzəağa qızı** (16.9.1909, Bakı — 22.4.1983, Bakı) — Azərb. kimyaçısı. Texnika e.d. (1962), prof. (1962), Azərb. EA həqiqi üzvü (1972), əməkdar elm və texnika xadimi (1964). Azərb. Dövlət mükafatı laureatı (1970). Azərb. Elmi-Tədqiqat Neft Emalı İn-tunda işləmiş (1932-59), həmin in-tun əsasında yaradılan Neft-Kimyası Prosesləri İn-tunda laboratoriya müdiri (1959-67), Qeyri-üzvi və Fiziki Kimya İn-tunun direktoru (1967-71), Aşqarlar Kimyası İn-tunda laboratoriya müdiri (1971-83) olmuşdur. Əsas tədqiqatları sürtkü yağlarının istehsalının artırılmasına və keyfiyyətinin yüksəldilməsinə aiddir. O, həmçinin ilk azərb. kino aktrisalarındandır. "Sevil" (1929) və "Almas" (1936) filmlərində baş rollarda çəkilmişdir. Lenin ordeni, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**ORUJOVA Izzat Mirzaga gyzy** — doctor of technics.



**ORUCOVA Töhfə Mahmud qızı** (d.22.12.1919, Qəbələ r-nunun Böyük Əmili k.) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1946 ildən Qəbələ r-nunun Ə.Bayramov ad. təsərrüfatında başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ORUJOVA Tohfa Mahmud gyzy** — Hero of Socialist Labour.



**OSMANOVA Almaz Musa qızı** (d. 1952, Bakı) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1979). Əmək fəaliyyətinə 1979 ildən Göyçay r-nundakı "Bakı" təsərrüfatında başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Aqrar-sənaye kompleksi komissiyasının üzvü olmuşdur.

**OSMANOVA Almaz Musa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**OSMANOVA Təhminə Osman qızı** (d. 1964) — əmək fəaliyyətinə 1981 ildən Dəvəçi r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial-təminat komissiyasının üzvü olmuşdur.

**OSMANOVA Tahmina Osman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).

# P



**PAŞALI Nina Vsevolodovna** (d.18.12.1918, Cəlilabad r-nunun Pokrovka k.) — geologiya-mineralogiya e. d. (1962). Azərb. EA Geologiya İn-tunda paleocoğrafiya, fasiya və süxurların kollektor xüsusiyyətləri laboratoriyasının rəhbəri olmuşdur. Tədqiqatı, əsasən, Azərb.-da çökmə və vulkanogen-çökmə formasiyalarını təşkil edən süxurların mənşəyi, maddi tərkibi və onlarda toplanmış faydalı qazıntı yataqlarının tədqiqi sahəsinə aiddir. "Azərbaycanın litoloji xəritəsi"nin (1953) və "Azərbaycanın dördüncü sistem çöküntülərinin geoloji-litoloji xəritəsi"nin (1973) müəlliflərindəndir.

**PASHALY Nina Vsevolodovna** — doctor of geology and mineralogy.



**PAŞAYEVA Qənirə Mikayıl qızı** (d. 1949, Bərdə r-nunun Qaradəmirçi k.) — Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1987). Əmək fəaliyyətinə 1971 ildən Bərdə r-nunun təsərrüfatlarında başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**PASHAYEVA Ganira Mikayil gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**PAŞAYEVA Məhbubə İbad qızı** (1913, Şuşa.—1970) — Azərb. müğənnisi. Bakı Musiqi Texnikumunda və Azərb. Dövlət Konservatoriyasında oxumuşdur. 1929 ildə dram teatrı nəzdindəki opera studiyasına daxil olmuş, burada Ü.Hacıbəylinin "Arşın mal alan" operettasında Gülçöhrə rolunda çıxış etmişdir (1930). Sonradan "Şah İsmayıl"da Ərəbzəngi, "Aşıq Qərib"də Şahsənəm, "Əsli və Kərəm"də Əsli və s. rolları oynamışdır. 1938 ildə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etmiş, "Koroğlu" operasında xanəndə qızın partiyasını oxumuşdur. Dövlət xor kapellasında və Azərb. Dövlət Filarmoniyasında da fəaliyyət göstərmişdir.

**PASHAYEVA Mahbuba Ibad gyzy** — Azerbaijani singer.

**PAŞAYEVA Züleyxa Əhmədxan qızı** (d. 12.5.1958, Zərdab r-nunun Məmmədqasımlı k.) — əmək fəaliyyətinə 1975 ildə H. Zərdabi ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.



**PASHAYEVA Zuleykha Ahmadkhan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).

**PƏNAHOVA Amalya Əliş qızı** (d. 15.7.1945, Gəncə) — Azərb. Resp. xalq artisti (1985). Azərb. Dövlət mükafatı laureatı (1972). Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1966). Səhnə fəaliyyətinə 1964 ildən Azərb. Dövlət Akademik Milli Dram Teatrında başlamış, burada Nargilə, Şahnaz, Natəvan ("Sən həmişə mənimləsən", "Mahnı dağlarda qaldı", "Xurşidbanu Natəvan", İ.Əfəndiyev), Firəngiz ("Oqtay Eloğlu", C.Cabbarlı), Larisa ("Cehizsiz qız", A.Ostrovski), Anna ("Nazirin xanımı", B.Nuşiç), Medeya ("Medeya", Evripid) və s. rollarda çıxış etmişdir. 1992 ildən Bakı Bələdiyyə Teatrının bədii rəhbəri və direktorudur. "Mesosoy əhvalatı", "Səmt küləyi", "Qərib cinlər ölkəsində", "Arxadan vurulan zərbə", "Babək" və s. filmlərdə çəkilmişdir. Azərb. Resp. Milli Məclisinin (2-ci çağırış) deputatıdır. Azərb-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.



**PANAHOVA Amalya Alish gyzy** — People's Artist of the Azerb. Repub., deputy of the Milli Mejlis of the Azerb. Repub. (2nd convocation).



**PƏNCİYEVA Rüxsarə Mirhəsən qızı** (d. 1939, Yardımlı r-nunun Kürəkçi k.) — əmək fəaliyyətinə 1956 ildən Yardımlı r-nundakı S.Vurğun ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.

**PANJIYEVA Rukhsara Mirhasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6th convocation).



**PİRİYEVA Səmayə Aslan qızı** (d. 17.6.1945, Hacıqabul r-nunun Qazıməmməd ş.) — Azərb. Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tunu (1969), Bakı Ali Partiya Məktəbini (1987) bitirmişdir. Əmək fəaliyyətinə 1963 ildən başlamış, müxtəlif partiya və dövlət işlərində çalışmışdır. Azərb. Resp. Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur.

**PIRIYEVA Samaya Aslan gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub. (1 st convocation).



**PİRMƏMMƏDOVA Çiçək Əli qızı** (d. 1951, Balakən r-nunun Tülü k.) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1991). Əmək fəaliyyətinə 1968 ildən başlamış, Balakən r-nunun müxtəlif təsərrüfatlarında işləmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**PIRMEMMEDOVA Chichek Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**PYATKİNA Lyubov Matveyevna** (d.20.4.1907, Cəlilabad r) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1930 ildən Cəlilabad r-nunun "Bakı fəhləsi" təsərrüfatında başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**PYATKINA Lyubov Matveyevna** — Hero of Socialist Labour.

# R



**RAMAZANOVA Elmira Məmmədəmin qızı** (d.2.10.1934, Bakı) — texnika e. d. (1975), prof. (1979), əməkdar elm xadimi (1990). Beynəlxalq Şərq Neft Akademiyasının həqiqi üzvü (1995). Azərbaycan Dövlət Neft və Kimya İn-tunun prorektoru olmuşdur (1981—92). 1992 ildən ADNA nəzdində Neftin, Qazın Geotexniki Problemləri və Kimya Elmi-Tədqiqat İn-tunun direktorudur. Tədqiqatı, əsasən, qazların faza və həcmi nisbətlərinin hesablanması metodlarına həsr edilmişdir. 200-dən artıq elmi işlərin, o cümlədən 2 monoqrafiya, elmi-metodik vəsaitlər və 4 patentin müəllifidir.

**RAMAZANOVA Elmira Memmedamin gyzy** — doctor of technics.



**RAMAZANOVA Nailə Bayram qızı** (d. 1960) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1987). Əmək fəaliyyətinə 1977 ildən Cəlilabad r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Mədəniyyət komissiyasının üzvü olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**RAMAZANOVA Naila Bayram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).





**RƏHİMOVA Qıtış Heydər qızı** (15.6.1918, Tərtər r-nunun Evoğlu k.— 1993, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1934 ildən Tərtər r-nunun, "İnqilab" təsərrüfatında başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**RAHOMOVA Gytysh Heydar gyzy** — Hero of Socialist Labour.



**RƏHİMOVA Şəfəq Əhməd qızı** (d. 20.3.1956, Bakı) — tibb e. d. (1992). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1979). 1979 ildən Azərb. EA Fiziologiya İn-tunda baş laborant işləmiş, reproduktiv funksiyaların neyroendokrinologiyası laboratoriyasının müdiri (1995—2000) olmuşdur. 2000 ildən Ümummilli Reproduktiv Sağlamlıq Sorğusu Proqramının direktorudur. Tədqiqatı reproduktiv sağlamlıq, qadın reproduktiv funksiyalarının endokrinologiyası sahəsinə həsr edilmişdir. 76 elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir.

**RAHIMOVA Shafag Ahmad gyzy** — doctor of medicine.



**RƏHİMOVA Elmira Allahverdi qızı** (d. 31.8.1941, Bakı) — Azərb. Resp. xalq artisti (2000). Azərb. Dövlət Dillər İn-tunu (1970), Azərb. Dövlət Musiqi Texnikumunu (1965) bitirmişdir. 1956 ildən Azərb. Dövlət Filarmoniyasının və Azərb. Teleradio Verilişləri Şirkətinin solistidir. 50-ci illərin sonunda hind mahnılarının ifaçısı kimi tanınmış, Hindistanın Baş naziri C.Nehrunun dəvəti ilə iki dəfə (1957—59, 1961) Hindistanda olmuş, hind mahnı və rəqslərini öyrənmişdir. Azərb. bəstəkarlarının mahnılarını özünəməxsus ustalıqla ifa edir. Dünyanın 30-dan çox ölkəsində konsert proqramları ilə çıxış etmişdir.

**RAHIMOVA Elmira Allahverdi gyzy** — People's Artist of the Azerb. Repub.



**RƏHİMOVA Pərnaz Sadəddin qızı** (d. 1939) — əmək fəaliyyətinə 1956 ildən Şəki r-nundakı Telman ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Ticarət və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**RAHIMOVA Pernaz Sadaddin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**RƏFİBƏYLİ Nigar Xudadat qızı** (29.6.1913, Gəncə—10.7.1981, Bakı) — Azərb. xalq şairi (1981), əməkdar mədəniyyət işçisi (1967). Moskva Pedaqoji İn-tunu bitirmişdir (1936). 1934 ildə "Şerlər" kitabı nəşr olunmuşdur. "Şerlər" (1959), "Dənizin səsi gəlir" (1964), "İşıqlı dünyam" (1969), "Günəşdən gənclik istədim" (1974) və s. kitabların müəllifidir. Uşaqlar üçün də əsərlər ["Qoçaq Kərim" (1937), "Balaca qəhrəman" (1942), "Günəşin cavabı" (1966), "Məstanın balaları" (1968), "Bizə bahar yaraşır" (1978) və s.] yazmışdır. Dünya ədəbiyyatından tərcümələr etmişdir. Bir çox şerinə mahnılar bəstələnmişdir.

**RAFIBEYLI Nigar Khudadat gyzy** — People's Poet of Azerbaijan.



**RƏFİYEVA Sədaqət Bəhmən qızı** (d. 1959) — əmək fəaliyyətinə 1974 ildən Cəlilabad r-nundakı üzümçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

**RAFIYEVA Sadagat Bahman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**RƏHMANZADƏ Maral Yusif qızı** (d. 23.7.1916, Bakı) — Azərb. rəssamı, qrafik. Azərb. Resp. xalq rəssamı (1964). Azərb. Resp. Dövlət mükafatı laureatı (1965). Azərb. Dövlət Rəssamlıq Texnikumunda (1930-33) və Moskva Rəssamlıq İn-tunda (1934—40) oxumuşdur. Yaradıcılığının erkən dövründə çəkdiyi dəzgah rəsmləri silsilələrində ("Azərbaycan qadını keçmişdə və indi", 1940, "Qadınlar müharibə illərində", 1942) Azərb. qadınlarının həyatı öz əksini tapmışdır. Azərb. kəndinin həyatı, doğma təbiətin təsviri onun rəngli linoqravüra silsilələrinin mövzusudur ["Bizim qızlar", "Mənim bacılarım", "Doğma vətənim", "Azərbaycan" və s. (1965-75)]. Kitab qrafikası sahəsində də geniş fəaliyyət göstərmiş, bədii əsərlərə illüstrasiyalar çəkmişdir. Bir sıra xarici ölkələrdə olmuş, həmin ölkələrin həyatından silsilə qravüralar yaratmışdır ("Çexoslovakiyada", 1959-60). Əsərləri xarici ölkələrdəki incəsənət sərgilərində (İngiltərə, Fransa, İtaliya, Yaponiya, Avstraliya, Belçika, Suriya, Livan və s.) nümayiş etdirilmişdir. Dəfələrlə Moskvada, Bakıda və Azərb.-ın digər şəhərlərində, eləcə də Şri-Lankada (1958), Kubada (1964) və İranda (1991) fərdi sərgiləri göstərilmişdir. Əsərləri Tretyakov qalereyası (Moskva), R.Mustafayev ad. Azərb. Dövlət İncəsənət Muzeyi, Azərb. Dövlət Rəsm Qalereyası və s. muzeylərdə, ABŞ və İngiltərədə şəxsi kolleksiyalarda saxlanılır. Qırmızı Əmək Bayrağı ordeni, "Şərəf nişanı" ordeni, Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**RAHMANZADE Maral Yusif gyzy** — People's Painter of the Azerb. Repub.

**RƏNCUR** (t əxəllüsü) Şahnigar xanım Kazımağa qızı (1850, Qazax mahalının Ağköynək k. — 1899, Qazax) — Azərb. şairi. Qazaxda "Mollaxanım" ləqəbi ilə tanınmışdır. Təhsili və təlimini qardaşı Hacı Məhəmməd ağadan almışdır. Klassik üslubda və janrlarda (münacat, mərsiyə, qəzəl) şerlər yazmışdır. Nəqşibəndi təriqətinə mənsub olmuşdur. Şerlərinin çoxunu müridi Hacı Mirhəmzə Əfəndiyə (Seyid Nigariyə) xitabən yazmışdır.

**RENJUR** (Shahnigar khanym Kazymaga gyzy) — Azerb. poetess.



**RƏSULOVA Bənövşə Qədir qızı** (18.8.1926, Qəbələ r-nunun Mamaylı k.—23.5.1956, orada) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1943 ildən Qəbələ r-nunun Əzizbəyov ad. təsərrüfatında başlamışdır. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**RASULOVA Banovsha Gadir gyzy** — Hero of Socialist Labour.



**RƏSULOVA Lidiya Xudat qızı** (d. 1941, Bakı) — Azərb. Dövlət Pedaqoji Dillər İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə orta ümumtəhsil məktəbi və məktəbdənkənar tərbiyə müəssisələrində başlamış, 1963—66 illərdə seçkili gənclər təşkilatında rəhbər vəzifələrdə çalışmışdır. 1966—81 illərdə partiya orqanlarında, o cümlədən Azərb. KP Mərkəzi Komitəsi elm və tədris müəssisələri şöbəsinin müdir müavini, Azərb. KP Nəsimi RK-nin birinci katibi işləmişdir. 1981—88 illərdə Azərb. Həmkarlar İttifaqı Şurasının sədri, 1988—93 illərdə Azərb. Sosial Təminat naziri, Azərb. Dövlət Elm və Texnika Komitəsinin sədr müavini, 1993—97 illərdə Təhsil naziri olmuşdur. Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü, SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, Millətlər Sovetinin Xarici işlər komissiyasının üzvü olmuşdur. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**RASULOVA Lidiya Khudat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9—10th convocations).



**RƏSULOVA Nəsibə Əli qızı** (d. 1945) — əmək fəaliyyətinə 1960 ildən Ucar r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə komissiyasının üzvü olmuşdur.

**RASULOVA Nasiba Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**RODİNA Zinaida Qriqoryevna** (d.1914). Əmək fəaliyyətinə 1931 ildən zavodda fəhləliklə başlamış, maşinist köməkçisi, turbin maşinisti işləmişdir. SSRİ Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**RODINA Zinaida Griqoryevna** — deputy of the Supreme Soviet of the USSR (5th convocation).



**ROQAÇOVA Svetlana Pavlovna** (d. 1959) — əmək fəaliyyətinə 1977 ildən Sumqayıt kompressorlar zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Energetika komissiyasının üzvü olmuşdur.

**ROGACHOVA Svetlana Pavlovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**RUBAN Mariya Semyonovna** (d. 1942) — əmək fəaliyyətinə 1957 ildən Xaçmaz r-nunun təsərrüfatında başlamışdır. 1968 ildən Quba r-nundakı "Şərq" təsərrüfatında müxtəlif sahələrdə çalışmışdır. Azərb. SSR Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**RUBAN Mariya Semyonovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10—11th convocations).



**RÜSTƏMBƏYOVA Aliyə Fətulla qızı** (1907, Şuşa—1942) — İkinci dünya müharibəsi qəhrəmanı, partizan hərəkatı iştirakçısı, həkim. 1-ci Leninqrad Tibb İn-tunu bitirdikdən (1935) sonra Özbəkistanda, 1938 ildən isə Moskvada Həkimləri Təkmilləşdirmə İn-tunda çalışmışdır. Müharibənin ilk günlərindən Moskva, sonra Smolensk yaxınlığında tibb-sanitar batalyonunda xidmət etmişdir. 1941 ildə əsir düşmüş, 1942 ilin əvvəllərində əsirlikdən qaçmış, Smolensk meşələrində fəaliyyət göstərən "Deduşka" partizan dəstəsinə qoşulmuşdur. Tibb-sanitar batalyonunun rəisi olmuşdur. Döyüşlərin birində həlak olmuşdur.

**RUSTAMBEYOVA Aliya Fatulla gyzy** — hero of Second World War, participant of partisan movement.



**RÜSTƏMBƏYOVA Fəridə Cəfər qızı** (d. 1924, Tbilisi) —Azərb.-nın əməkdar mühəndisi, Azərb. Dövlət mükafatı laureatı (1980). M. Əzizbəyov adına Azərbaycan Sənaye İn-tunu bitirmişdir (1946). 1946 ildən Azərb. EA Neft İn-tunda kiçik elmi işçi, Azərb. Dövlət Neft Sənayesi Müəssisələrini Layihələşdirmə İn-tunda böyük mühəndis, qrup rəhbəri, 1959 ildən Elmi-Tədqiqat İn-tu Sumqayıt filialında baş mühəndis, direktor vəzifələrində, 1978 ildən Azərb. Plan Komitəsi sədrinin birinci müavini işləmişdir. Azərb. SSR Ali Sovetinin (10-cu və 11-ci çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**RUSTAMBEYOVA Farida Gafar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10—11th convocations).



**RÜSTƏMOVA Dilbər Rüstəm qızı** (d. 1961) — əmək fəaliyyətinə 1978 ildən Xaçmaz r-nundakı "Xəzər" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**RUSTAMOVA Dilbar Rustam gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**RÜSTƏMOVA Ərkinaz Əli qızı** (d. 1958) — əmək fəaliyyətinə 1973 ildən Şamaxı r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**RUSTAMOVA Arkinaz Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**RÜSTƏMOVA Gülzar Mahmud qızı** (1917, Füzuli r-nunun Mollaməhərrəmli k.—20.5.1982, orada) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1931 ildən başlamış, müxtəlif işlərdə, o cümlədən Kərimbəyli kənd sovetinin sədri işləmişdir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 3 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**RUSTAMOVA Gulzar Mahmud gyzy** — Hero of Socialist Labour.



**RÜSTƏMOVA Ofelya Bayram qızı** (d. 1930) — əmək fəaliyyətinə 1950 ildən təsərrüfatda başlamış, 1952 ildən Sumqayıt boru-prokat zavodunda operator işləmişdir. SSRİ Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**RUSTAMOVA Ofelya Bayram gyzy** — deputy of the Supreme Soviet of the USSR (5th convocation).



**RÜSTƏMOVA Məsudə Hümbət qızı** (d. 1932, Qubadlı r-nunun Qədili k.) — Bakı Ali Partiya Məktəbini bitirmişdir (1962). Partiya orqanlarında müxtəlif vəzifələrdə çalışmış, 1970—80 illərdə Azərb. KP Qubadlı RK-nın birinci katibi, 1980—86 illərdə Qubadlı rayon mədəniyyət şöbəsinin müdiri, 1986—98 illərdə Qubadlı rayon kommersiya bankının müdiri işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci və 9-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə komissiyasının üzvü olmuşdur. Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**RUSTAMOVA Masuda Humbat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8—9th convocations).



**RÜSTƏMOVA Raziyə Əli qızı** (d. 1936, Şərur r-nunun Qarahəsənli k.) — Sosialist Əməyi Qəhrəmanı (1966). Əmək fəaliyyətinə 1961 ildən Qarahəsənli kəndindəki təsərrüfatda başlamışdır. Pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**RUSTAMOVA Raziya Ali gyzy** — Hero of Socialist Labour.



**RÜSTƏMOVA Təhminə Zəkəriyyə qızı** (d. 24.8.1927; Şəki ş.) — filologiya e. d. (1990), prof. (1991). Azərb. Dövlət Un-tini bitirmişdir (1949). 1953 ildən Azərb. Dövlət Un-tində pedaqoji fəaliyyətə başlamış, 1991 ildən un-tin professorudur. Tədqiqatı fars dilinin leksik-qrammatik xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuşdur. 120-yə qədər elmi əsərin, o cümlədən 20 monoqrafiyanın, ali və orta məktəblər üçün dərsliklərin, dərs vəsaitlərinin müəllifidir. "Fars dili", "Fars və Azərbaycan dillərinin müqayisəli qrammatikası" adlı kitabları İran İslam Respublikasında nəşr edilmişdir.

**RUSTAMOVA Tahmina Zakariyya gyzy** — doctor of philology.



**RÜSTƏMOVA Zəridə Yunis qızı** (d. 8.4.1944, Ağcabədi r-nunun Boyad k.) — Azərb. Dövlət Pedaqoji İn-tunu (1967) və Bakı Ali Partiya Məktəbini (1977) bitirmişdir. Əmək fəaliyyətinə 1961 ildən Boyad kənd orta məktəbində başlamış, müxtəlif vəzifələrdə işləmiş, o cümlədən Azərb. KP Zərdab r-n KP-nın 1-ci katibi (1983—88), İmişli RK-nın 1-ci katibi (1988—90), Ali Sovetin Sovet orqanları, deputatlarla iş şöbəsində (1990—97) məsul işçi olmuşdur. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, ana və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı , "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**RUSTAMOVA Zarida Yunis gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**RZAYEVA Adilə Ağaəjdər qızı** (d. 1948) — əmək fəaliyyətinə 1966 ildən Leninneft Neft və Qazçıxarma İdarəsində başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**RZAYEVA Adila Agaazhdar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**RZAYEVA Ağabacı İsmayıl qızı** (15.12.1912, Bakı — 4.7.1975, Bakı) — Azərb. bəstəkarı, əməkdar incəsənət xadimi (1960). Azərb. Dövlət Konservatoriyasında oxumuş, Ü.Hacıbəylidən bəstəkarlıq üzrə dərs almışdır. İlk azərb. qadın bəstəkarlarındandır. Yaradıcılığında mahnı və romanslar mühüm yer tutur ("Neftçi Qurban", "Çoban Qara", "Oxuma, gözəl" və s.). Nəsiminin sözlərinə 7 romansın, simli kvartet üçün pyeslərin və s. müəllifidir.

**RZAYEVA Agabajy Ismayil gyzy** — composer, Honoured Art Worker of the Azerb. SSR.





**RZAYEVA Elmira Rəşid qızı** (d. 1940) — əmək fəaliyyətinə 1958 ildən Naxçıvan r-nundakı kənd təsərrüfatı artelində başlamışdır. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**RZAYEVA Elmira Rashid gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**RZAYEVA Fazilə Qurban qızı** (d. 1960) — əmək fəaliyyətinə 1977 ildən Tovuz r-nundakı "Qələbə" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**RZAYEVA Fazila Gurban gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**RZAYEVA Gülzar Lətif qızı** (d. 13.1.1950, Yevlax r-nunun Səmədabad k.) — Azərb. Resp. Apellyasiya Məhkəməsinin sədri (2000 ildən). Azərb. Dövlət Un-tinin hüquq fakültəsini bitirmişdir (1973). 1973—77 illərdə Azərb. Resp. Vəkillər Kollegiyasında vəkil, 1977—81 illərdə Bakı şəhəri Əzizbəyov rayon prokurorunun köməkçisi, 1981—85 illərdə Əzizbəyov rayonunun xalq hakimi, 1985—87 illərdə Əzizbəyov rayon xalq məhkəməsinin sədri, 1987—2000 illərdə Azərb. Resp. Ali Məhkəməsi sədrinin müavini, milli məsələlər üzrə Ali Məhkəmə kollegiyasının sədri işləmişdir.

**RZAYEVA Gulzar Latif gyzy** — Chairman of the Court of Appeal of the Azerb. Repub.





**RZAYEVA Havvaxanım Abbas qızı** (1910, Füzuli r-nunun Aşqallar k.— 1998) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1935 ildən Füzuli r-nunda təsərrüfatlarında başlamış, Beyləqan r-nundakı G. Əsədov ad. təsərrüfatda davam etdirmişdir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**RZAYEVA Havakhanym Abbas gyzy** — Hero of Socialist Labour.



**RZAYEVA Həqiqət Əli qızı** (20.5.1907, Lənkəran — 2.8.1969, Bakı) — Azərb. Resp. xalq artisti (1943). Azərb. səhnəsində çıxış edən ilk azərb. qadın müğənnilərindəndir. Kiçik yaşlarından Lənkəranda qadın məktəbində, 1923 ildən isə Bakıda pedaqoji texnikumda təhsil alarkən musiqili tamaşalarda çıxış etmişdir. 1928—32 illərdə Azərb. Dövlət Konservatoriyasının muğam şöbəsində oxumuşdur. 1927—52 illərdə Azərb. Opera və Balet Teatrının solisti olmuş, muğam və xalq mahnılarının ifaçısı kimi də şöhrət qazanmışdı. Ərəbzəngi ("Şah İsmayıl", M.Maqomayev), Leyli, Əsli, Telli ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", Ü.Hacıbəyli), Şahsənəm ("Aşıq Qərib", Z.Hacıbəyli) onun yaratdığı əsas səhnə obrazlarıdır.

**RZAYEVA Hagigat Ali gyzy** — People's Artist of the Azerb. Repub.



**RZAYEVA Nurəstə Həsən qızı** (d. 1947, Masallı r-nunun Xıl k.) — əmək fəaliyyətinə 1962 ildən Masallı r-nundakı "Oktyabr" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8, 10 və 11-ci çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**RZAYEVA Nurasta Hasan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8, 10 and 11th convocations).

**RZAYEVA Səkinə Məmməd qızı** (1912, Naxçıvan ş. —1991) — əmək fəaliyyətinə Culfa r-nunun Bənənyar kənd məktəbində başlamış, məktəb direktoru olmuşdur. Maarif, Ali Məktəb və Elmi İdarə İşçiləri Həmkarlar İttifaqı Nax. Vilayət Komitəsinin sədri (1938), Nax. MSSR İctimai Təminat naziri (1942) vəzifələrində işləmişdir.

**RZAYEVA Sakina Memmed gyzy** — Minister of Social Security of the Nakhchivan ASSR.



**RZAYEVA Tamilla Nəriman qızı** (d. 1951) — Azərb. Pedaqoji Dillər İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1969 ildən başlamış, müxtəlif işlərdə çalışmışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**RZAYEVA Tamilla Nariman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**RZAZADƏ Püstəxanım Fərəməz qızı** (2.7.1913, Bakı—2.5.1981, Bakı) — Azərb. kimyaçısı. Kimya e. d. (1965), prof. (1965). Azərb. SSR Dövlət mükafatı laureatı (1978). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirdikdən (1935) sonra Resp. Kənd Təsərrüfatı Nazirliyinin elmi-tədqiqat laboratoriyasında (1935—37), Bakının ali məktəblərində (1937—45), Azərb. EA Qeyri-üzvi və Fiziki Kimya İn-tunda (1945—57) işləmiş, 1957—81 illərdə həmin in-tda laboratoriya müdiri olmuşdur. Əsas tədqiqatları Azərb.-nın təbii mineral sərvətlərinin kompleks emalı və istifadəsinə aiddir. 2 "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**RZAZADE Pustakhanym Faramaz gyzy** — doctor of chemistry.



# S



**SABİROVA Nurcahan Məcid qızı** (1.7.1913, Balakən r-nunun Sarıbulaq k.—1985) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1935 ildən Balakən r-nundakı N.Nərimanov ad. təsərrüfatda başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**SABIROVA Nurjahan Mejid gyzy** — Hero of Socialist Labour.



**SADIQOVA Ayna Mikayıl qızı** (d. 16.1.1932) — əmək fəaliyyətinə 1946 ildən Bakıdakı toxuculuq kombinatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**SADYGOVA Ayna Mikayilovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**SADIQOVA Fatma Abqədir qızı** (d. 1946, Masallı r-nunun Qızılağac k.) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu birirmişdir (1978). Əmək fəaliyyətinə 1964 ildən Masallı r-nundakı heyvandarlıq təsərrüfatında sağıcı kimi başlamışdır. SSRİ Ali Sovetinin (8-ci sağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**SADYGOVA Fatma Abgadir gyzy**— deputy of the Supreme Soviet of the USSR (8th convocation).



**SADIQOVA Maral Zakir qızı** (d. 1917, Şəki r-nunun Aşağı Şabalıd k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Azərb.-ın tütün ustası (1960). Əmək fəaliyyətinə 1935 ildən Şəki r-nundakı "Azərbaycan" təsərrüfatında başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur. 3 dəfə Lenin ordeni, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**SADYGOVA Maral Zakir gyzy** — Hero of Sosialist Labour.



**SADIQOVA Məhluqə Ələsgər qızı** (d.28.4.1917, Şuşa) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1978). 1936 ildən Azərb. Dövlət Dram Teatrının aktrisası olmuşdur. Sona, Gülüş, Yaxşı ("1905-ci ildə", "Sevil", "Almas", C.Cabbarlı), Tərlan ("Həyat", M.İbrahimov), İntizar ("Vəfa", R.Rza), Zəhra ("Şeyx Sənan", H.Cavid), Sonya ("Banya dayı", A.Çexov), ("Tufanlı il", A.Kapler və T.Zlatoqorova) və başqa obrazların ifaçısı olmuş, eyni zamanda bədii qiraət ustası kimi tanınmışdır. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**SADYGOVA Mahluqa Alesker gyzy** — People's Artist of the Azerb. SSR.



**SADIQOVA Nəzakət Şamil qızı** (d. 1949, Bakı) — Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1974). 1967 ildən uşaq bağçasında musiqi müəllimi işləmiş, 1974 ildə İn-tu bitirdikdən sonra 3 №-li Bakı kliniki uşaq xəstəxanasında işləmişdir. 1980 ildən Sabirabad Birləşmiş Uşaq Xəstəxanasında uşaq məsləhətxanasının müdiridir. SSRİ Ali Sovetinin (11-12-ci çağırış) deputatı, Millətlər Soveti Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**SADYGOVA Nezaket Shamil gyzy** — deputy of the Supreme Soviet of the USSR (11-12th convocations).



**SADIQOVA Sayalı Allahverdi qızı** (d.1960, Erm. SSR, Göyçə mah-nın Cil k.) — filologiya e.d. (1999). Azərb. Pedaqoji İn-tunun filologiya fakültəsini bitirmişdir (1981). Azərb. EA Nəsimi ad. Dilçilik İn-tunda (1984 ildən) kiçik elmi işçi, böyük elmi işçi işləmiş, 2000 ildən isə Terminologiya şöbəsinin müdiri və AMEA Terminologiya komissiyasının sədr müavinidir. Tədqiqatı fizika-riyaziyyat terminologiyası sahəsinə aiddir. 70-dən çox elmi əsərin, o cümlədən üç monoqrafiyanın müəllifidir.

**SADYGOVA Sayali Allahverdi gyzy** — doctor of philology.



**SADIQOVA Sücayət Abdulla qızı** (d. 5.8. 1925, Şəmkir) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1942 ildən Şəmkir r-nunun K.Setkin ad. təsərrüfatında başlamışdır. 1949 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**SADYGOVA Sujayat Abdulla gyzy** — Hero of Sorialist Labour.





**SALAHOVA Dilarə Ələşrəf qızı** (d. 1956) — əmək fəaliyyətinə 1973 ildən Ağcabədi r-nundakı S.Vurğun ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Qanunvericilik komissiyasının üzvü olmuşdur.

**SALAHOVA Dilara Alashraf gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convication).



**SALAMOVA Şəfiqə Abdulla qızı** (d. 1934) — əmək fəaliyyətinə 1947 ildən Oğuz r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**SALAMOVA Shafiga Abdulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**SALAMZADƏ Mina Yusif qızı** (d. 1916) — M.Əzizbəyov ad. Azərb. Sənaye İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1936 ildən Azərb. EA Elmi-Tədqiqat Kimya İn-tunda laborant kimi başlamış, 1943 ildən "Orconikidzeneft" trestində geoloq işləmişdir. 1954 ildən partiya işində çalışmış, 1961 ildən Azərb. KP Bakı Şəhər Kirov PK-nın I katibi olmuşdur. SSRİ Ali Sovetinin (6-cı), Azərb. SSR Ali Sovetinin (6-cı və 7-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**SALAMZADE Mina Yusif gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6—7th convocations).



**SALAYEVA Zəhra Məmməd qızı** (d. 15.3.1922, Bakı) — tibb e.d. (1963), prof. (1967), əməkdar elm xadimi (1981). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1943). 1967 ildən İn-tun sinir xəstəlikləri kafedrasının müdiri olmuşdur. Tədqiqatı, əsasən, Azərb.-da neyromalyariyaya, hemorragik ensefalitin klinika və patomorfologiyasına həsr edilmişdir. 1979 ildən Azərb. Tibbi Genetiklər Cəmiyyətinin sədri olmuşdur. 3 monoqrafiya, 4 dərslik və 4 dərs vəsaitinin müəllifidir. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**SALAYEVA Zahra Memmed gyzy** — doctor of medicine.





**SALMANOVA Sona Sadıx qızı** (d.12.5. 1956, Erm. SSR-in Spitak r.-nu) — Azərb. Dövlət Un-tinin hüquq fakültəsini bitirmişdir (1979). Bakı Şəhər Məhkəməsində məhkəmə iclası katibi (1979-80), Azərb. Respublikası Ali Məhkəməsində məsləhətçi (1980-83), Ali Məhkəmə Plenumunun katibi, Ali Məhkəmənin Rəyasət Heyəti və Plenumunun katibi, Ali Məhkəmənin üzvü (1983-98) vəzifələrində işləmişdir. 1998 ildən Azərb. Respublikası Konstitusiya Məhkəməsinin hakimidir.

**SALMANOVA Sona Sadykh gyzy** — judge of the Constitutional Court of the Azerb. Repub.



**SARNATSKAYA Nina Dmitriyevna** (8. 12.1909, Bakı — 6.4. 1986, Bakı) — Azərb. Resp. xalq artisti (1974). Bakıda fəhlə-gənclər teatrı nəzdindəki studiyanı bitirmiş (1932), həmin ildən Bakı İşçi Teatrında işləmişdir. 1941-57 illərdə Ufa, Ulyanovsk, Sverdlovsk dram teatrlarında fəaliyyət göstərmişdir. 1957 ildən Azərb. Rus Dram Teatrının aktrisası olmuşdur. Rolları: Mariya Aleksandrovna ("Ailə", İ.Panov), Murzavetskaya ("Qurdlar və qoyunlar", A.Ostrovski), Pəri xala ("Sən nə üçün yaşayırsan", İ.Qasımov və H.Seyidbəyli), Solomonida ("Ağır ittiham", L.Şeynin), madam Ksidios ("Müdaxilə", L.Slavin), Voynitskaya, Avdotya Nazarovna ("Vanya dayı," "İvanov", A.Çexov), Kvaşnya ("Həyatın dibində", M.Qorki), Balaca ("Ömrümüz çox qısadır", İ.Qasımov) və b.

**SARNATSKAYA Nina Dmitriyevna** — People's Artist of the Azerb. Repub.

**SARA xatun** (?–?) — Ağqoyunlu dövlətinin siyasi həyatında mühüm rol oynamış qadın (15 əsr), Uzun Həsənin anası, diplomat. Dövlətin möhkəmləndirilməsində yaxından iştirak etmiş, Ağqoyunluların xarici siyasətinin müəyyənləşdirilməsində əsas rol oynamış, Uzun Həsənin ən məsul diplomatik tapşırıqlarını uğurla yerinə yetirmişdir. Osmanlı sultanı II Mehmetlə bağladığı Yassıçəmən müqaviləsi (1461) Ağqoyunluların dövlət müstəqilliyinin saxlanılmasında mühüm rol oynamışdır. Trabzon imperatorluğuna son qoyulduqda, gəlini Dəspinə xatunun vərəsəliyini irəli sürüb Trabzon xəzinəsini bölüşdürməyə müvəffəq olmuşdur. Teymuri Əbu Səidlə danışıqlar aparan Ağqoyunlu elçilərinə başçılıq etmişdir (1468). Azərb-a göndərilən Avropa (xüsusilə Venesiya) elçilərinə verilən məxfi təlimatlarda mütləq Sara xatunla görüşmək və onun saraydakı nüfuzundan istifadə etmək tapşırılırdı.

**SARA khatun** — mother of Uzun Hasan, diplomat.



**SEYİDMƏMMƏDOVA Züleyxa Həbib qızı** (d. 22.3.1919, Bakı) — ilk azərb. təyyarəçi qadınlardan biri, kapitan. Bakı aeroklubunu (1935), Əzizbəyov ad. Azərb. Sənaye İn-tunu (1936), N.Y.Jukovski ad. Hərbi Hava Akademiyasını (1941) bitirmişdir. İkinci dünya müharibəsində qırıcı təyyarəçi və qadınlardan ibarət qırıcı aviasiya polkunun komandir müavini olmuş, 500-dən artıq döyüş uçuşu keçirmişdir. 1946-52 illərdə məsul komsomol və partiya vəzifələrində çalışmış, 1952-75 illərdə Azərb. SSR ictimai təminat naziri olmuşdur. 1975 ildən Azərb.-ın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyəti Rəyasət Heyəti sədrinin müavini işləmiş, Azərb. SSR Ali Sovetinin (2,6-8-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, 2-ci dərəcəli "Vətən müharibəsi", 2 Qırmızı Əmək Bayrağı və 2 "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**SEYIDMEMMEDOVA Zuleykha Habib gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (2, 6—8th convocations).



**SEYİDOVA Həqiqət Əli qızı** (d. 26. 12. 1916, Erivan) — tibb e.d. (1970). İlk azərb. qadın travmatoloq. Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1940). 1959-93 illərdə Azərb. Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İn-tunda şöbə müdiri işləmişdir. Tədqiqatı, əsasən, uzun borulu (lülə) sümüklərdə yalan oynaqların cərrahı üsulla müalicəsinə həsr olunmuşdur. 94 elmi işin, 6 ixtiranın və 4 səmərələşdirici təklifin müəllifidir. 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni, Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**SEYIDOVA Hagigat Ali gyzy** — doctor of medicine.



**SEYİDOVA İzzət Əli qızı** (20. 10. 1910, Xarkov — 30.11.1973, Bakı) — ilk azərb. qadın teatr rəssamlarından biri, əməkdar incəsənət xadimi (1943). Azərb. Dövlət Rəssamlıq Texnikumunda (1927-31) və Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İn-tunda (1931-38) oxumuşdur. 1938 ildən M.F.Axundov ad. Azərb. Dövlət Opera və Balet Teatrında fəaliyyət göstərmiş, "Sevilya bərbəri" (1938, C.Rossini), "Qaratoxmaq qadın" (1941, P.Çaykovski), "Vətən" (1941, Q.Qarayev və C.Hacıyev), "Maskarad" (1945, B.Zeydman), "Sevil" (1953, F.Əmirov), "Leyli və Məcnun" (1958, Ü.Hacıbəyli) və s. opera və balet tamaşalarına tərtibat vermişdir.

**SEYIDOVA Izzat Ali gyzy** — painter, Honoured Art Worker of the Azerb. SSR.





**SEYİDOVA Səadət Ağamməd qızı** (17.1.1942, Bakı) — sənətşünaslıq e.n., professor (1996). Ü.Hacıbəyov ad. Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1964). Konservatoriyanın tarix-nəzəriyyə fakültəsinin dekanı (1991-96) olmuşdur. 1996 ildən musiqi nəzəriyyəsi kafedrasının müdiridir. Tədqiqatı dini musiqi janrına həsr edilmişdir. Dini oxuma nümunələrini ilk dəfə Azərb.-da məcmuə şəklində yazıya almışdır.

**SEYIDOVA Seadat Agammed gyzy** — candidate of art, professor.



**SEYİDZADƏ Dilarə Bağır qızı** (d. 25. 10. 1939, Bakı) — Azərb. Resp. Prezidenti Katibliyinin rəisi, Prezidentin köməkçisi (1999 ildən). Tarix e.d. (1993). Azərb. Dövlət Un-tini bitirmişdir (1961). 1961-78 illərdə Azərb. EA Tarix İn-tunda baş laborant, kiçik elmi işçi, 1978-83 illərdə Azərb. Dövlət Konservatoriyasında baş müəllim, 1983-93 illərdə Azərb. EA Tarix in-tunda baş elmi işçi, aparıcı elmi işçi, 1993-97 illərdə Azərb. Resp. Prezidenti İcra Aparatının humanitar siyasət şöbəsində böyük məsləhətçi, 1997-98 illərdə Azərb. Resp. Prezidenti Katibliyinin rəis müavini, Prezidentin köməkçisi işləmişdir. 3 monoqrafiya, 30-dan çox elmi məqalənin müəllifidir.

**SEYİDZADE Dilara Bagyr gyzy** — doctor of history.



**SƏFƏRƏLİYEVA Kövkəb Kamil qızı** (3.1.1907, Bakı — 1985, Bakı) — Azərb. pianoçusu, pedaqoq. Azərb. SSR xalq artisti (1972). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1932). Solo və ansambl musiqisinin ifaçısı kimi tanınmışdır. Pedaqoji fəaliyyətə 1922 ildən başlamışdır (1952 ildən konservatoriyanın prof., 1952-53 illərdə kafedra müdiri). Konservatoriya nəzdində istedadlı uşaqlardan təşkil etdiyi qrupun əsasında orta ixtisas musiqi məktəbi yaradılmışdır (hazırda Bülbül ad.) 1937-52 illərdə həmin məktəbin direktoru olmuşdur. Fortepiano üçün bir sıra tədris-metodiki məcmuələrin tərtibatçısi və redaktoru, Azərb. musiqisinə dair məqalələrin müəllifidir. SSRİ Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**SAFARALIYEVA Kovkab Kamil gyzy** — People's Artist of the Azerb. SSR.



**SƏFƏRƏLİYEVA Nazilə Süleyman qızı** (d. 1953) — əmək fəaliyyətinə 1970 ildən Ağsu r-nundakı "Moskva" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**SAFARALIYEVA Nazila Suleyman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**SƏFƏROVA Elmira Böyükağa qızı** (d. 1953) — əmək fəaliyyətinə 1970 ildən 1 №-li Bakı ayaqqabı fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və ticarət komissiyasının üzvü olmuşdur.

**SAFAROVA Elmira Boyukaga gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**SƏFƏROVA Əsli Valeh qızı** (d. 1949) — əmək fəaliyyətinə 1964 ildən Ağdam r-nundakı "Qarabağ" üzümçülük təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**SAFAROVA Asli Valeh gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**SƏFƏROVA Xalidə Ələkbər qızı** (d. 25.8.1926, Gəncə) — Azərb. Resp. xalq rəssamı (1989). Ə.Əzimzadə ad. Azərb. Dövlət Rəssamlıq Məktəbini (1944) və Ümumittifaq Kinematoqrafiya İn-tunun (Moskva) rəssamlıq fakültəsini (1955) bitirmişdir. Yaradıcılığında natürmort, mənzərə, xalq nağıllarına illüstrasiyalar, idman mövzusu, tematik tablolar ("Dağ çayı", "Aşıq Qərib", "Velosiped yarışı", "Çövkən oyunu", "Payız bağında" və s.) geniş yer tutur. Əsərləri Azərb. Resp. muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Bakıda (1947, 1984) və Moskvada (1990) fərdi sərgiləri keçirilmişdir. Bir sıra xarici ölkələrdə əsərləri nümayiş etdirilmişdir.

**SAFAROVA Khalida Alekber gyzy** — People's Painter of the Azerb. Repub.



**SƏFƏROVA Ramiyə Nizaməddin qızı** (d.1961, Qusar r-nunun Aşağı Ləyər k.) — əmək fəaliyyətinə 1979 ildən Qusar r-nundakı Miçurin ad. təsərrüfatda başlamışdır. SSRİ Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur.

**SAFAROVA Ramiya Nizameddin gyzy** — deputy of the Supreme Soviet of the USSR (12th convocation).



**SƏFƏROVA Zemfira Yusif qızı** (d. 10.6.1937, Bakı) — Azərb. musiqişünası. Sənətşünaslıq doktoru (1996), prof. (1998). əməkdar incəsənət xadimi (1989). Azərb. Dövlət Konservatoriyasının nəzəriyyə fakültəsini bitirmişdir (1960). 1962 ildən Azərb. EA Memarlıq və İncəsənət İn-tunda elmi işçi, baş elmi işçi. 1980 ildən musiqi sənəti şöbəsinin müdiridir). Tədqiqatları qədim və orta əsrlər Azərb. musiqisinə, o cümlədən, Səfiəddin Urməvi, Əbdülqadir Marağı, eləcə də Mir Möhsün Nəvvab, Ü.Hacıbəyli və b.-nın yaradıcılığına həsr edilmişdir. "Azərbaycanın musiqi elmi", "Dədə Qorqudun musiqi dünyası" və s. kitabların müəllifidir. Bir sıra beynəlxalq elmi simpozium və konqreslərdə çıxış etmişdir.

**SAFAROVA Zemfira Yusif gyzy** — doctor of art.



**SƏFƏROVA Zərqələm Oruc qızı** (d. 1940) — əmək fəaliyyətinə 1961 ildən Gədəbəy r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**SAFAROVA Zargalam Oruj gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**SƏFƏROVA Zivər Əli qızı** (d. 1950) — əmək fəaliyyətinə 1970 ildən Naxçıvan MSSR Babək r-nunun təsərrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (9-cu çağırış) deputatı, Millətlər Soveti Gənclərlə iş üzrə komissiyasının üzvü olmuşdur.

**SAFAROVA Zivar Ali gyzy** — deputy of the Supreme Soviet of the USSR (9th convocation).



**SƏFİYEVA Ceyran Muxtar qızı** (d.1923, Füzuli r-nunun Dövlətyarlı k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). 1940–75 illərdə Füzuli r-nunun təsərrüfatlarında işləmişdir. 1947 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**SAFIYEVA Jeyran Muxtar gyzy** — Hero of Socialist Labour.





**SƏLİMOVA Cənnət Əlibəy qızı** (d.20.1.1940, Bakı) — Azərb. Resp. xalq artisti (1998), prof. Azərb. Dövlət Un-tini (1962), Leninqrad Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İn-tunu (1967) bitirmişdir. S.Vurğun ad. Azərb. Dövlət Rus Dram Teatrında rejissor, baş rejissor (1967-91) olmuşdur. Azərb. Musiqili Komediya Teatrının bədii rəhbəri (1991 ildən) və Bakı Kamera Teatrının bədii rəhbəri və müdiridir. 1975 ildən Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-tində pedaqoji fəaliyyət göstərir. "Şərəf nişanı" ordeni və Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**SALIMOVA Jannat Alibey gyzy** — People's Artist of Azerbaijan, professor.



**SƏLİMOVA Laura Yunus qızı** (d. 1945, Erm. SSR, Vedibasar) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə Salyan r-nunun Qaraçala kəndində başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur. Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordenli ilə təltif edilmişdir.

**SALIMOVA Laura Yunus gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**SƏLİMOVA Nigar Əzizağa qızı** (d. 1942, Bakı) — texnika e.d. (1996), prof. (1997). Azərb. Dövlət Neft və Kimya İn-tunu bitirmişdir (1963). Əmək fəaliyyətinə Bakı "Neftqaz" zavodunda başlamış, 1969 ildən Azərb. Neft və Kimya İn-tunda assistent, 1971-97 illərdə dosent, 1997 ildən prof. olmuş, 2001 ildən "Üzvi maddələrin texnologiyası və sənaye ekologiyası" kafedrasının müdiridir. 150-dən artıq elmi məqalənin, 7 müəlliflik şəhadətnaməsinin və 2 patentin müəllifidir. Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvüdür (2000).

**SALIMOVA Nigar Azizaga gyzy** — doctor of technics.



**SƏLİMOVA Şövkət Şahbaz qızı** (25.12.1920, İsmayıllı r-nunun Basqal k. — 1999, Bakı) — iqtisad e.n. (1964). Bakı Dənizçilik Məktəbini bitirmişdir (1940). İkinci dünya müharibəsi illərində Xəzər gəmiçiliyi idarəsində gəmi kapitanı müavini və gəmi kapitanı işləmişdir. Müharibə dövründə dünyada iki qadın gəmi kapitanından biri olmuşudur. 1954-74 illərdə Azərb. Dövlət Neft və Kimya İn-tunda dosent, prorektor və kafedra müdiri, 1964 ildən Azərb. Dövlət Konservatoriyasında kafedra müdiri işləmişdir. "Qırmızı Ulduz" və 2-ci dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif edilmişdir.

**SALIMOVA Shovkat Shahbaz gyzy** — capitan of ship, candidate of economics.



**SƏMAYƏ Seyfulla qızı** (d. 1949) — əmək fəaliyyətinə 1967 ildən N.Nərimanov ad. Bakı Trikotaj İstehsalat Birliyində başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Ticarət və əhaliyə məişət xidməti komissiyasının üzvü olmuşdur.

**SAMAYA Seyfulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**SƏMƏDOVA Ağanənə Ağababa qızı** (d. 1926) — əmək fəaliyyətinə 1942 ildən başlamış, 1963 ildən Bakı idman malları fabrikində işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Tikinti və inşaat materialları komissiyasının üzvü olmuşdur.

**SAMEDOVA Aganene Agababa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**SƏMƏDOVA Cəmilə Usub qızı** (d. 1956) — əmək fəaliyyətinə 1971 ildən Sabirabad r-nundakı "Leninqrad" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və əhaliyə xidmət komissiyasının üzvü olmuşdur.

**SAMEDOVA Jamila Usub gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**SƏMƏDOVA Fəzilə İbrahim qızı** (d. 1929, Şamaxı) — texnika e.d. (1977), prof. (1987), AMEA-nın müxbir üzvü (2001). Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü (1991). Azərb. Dövlət Sənaye İn-tunu bitirmişdir (1951). 1960 ildən Azərb. EA-nın Neft və Kimya Prosesləri İn-tunda fəaliyyət göstərir (baş elmi işçi, 1982 ildən laboratoriya müdiri). Tədqiqatı, əsasən, neftlərin tərkibi və xassələrinin tədqiqi, onlardan yüksək keyfiyyətli sürtkü yağlarının alınmasını təmin edən texnologiyaların işlənib hazırlanmasına həsr edilmişdir. 300-ə yaxın elmi əsərin, o cümlədən, 7 monoqrafiya, 45 ixtira və patentin müəllifidir. Beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir.

**SAMEDOVA Fazila Ibrahim gyzy** — doctor of technics.



**SƏMƏDOVA Qönçə Sabir qızı** (d. 1961) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1990). Əmək fəaliyyətinə 1978 ildən Salyan r-nundakı Q.Səmədov ad. təsərrüfatda başlamışdır. SSRİ Ali Sovetinin (11-12-ci çağırış) deputatı, Millətlər Soveti Qadın əməyi və məişəti, ana və uşaqların mühafizəsi məsələləri üzrə komissiyasının üzvü olmuşdur.

**SAMEDOVA Goncha Sabir gyzy** — deputy of the Supreme Soviet of the USSR (11—12th convocations).





**SƏMƏDOVA Lüdmila Hacıbaba qızı** (d. 1.4. 1942) — filologiya e.d. (1996). Azərb. Dövlət Un-tinin filologiya fakültəsini bitirdikdən sonra AMEA Nizami ad. Ədəbiyyat İn-tunda fəaliyyət göstərir. Elmi fəaliyyətinin əsas istiqaməti ədəbi əlaqələrin özülündə duran bədii tərcümələrin nəzəri-elmi problemlərinin işlənməsidir. 2 kitabın və 40-a yaxın məqalənin müəllifidir.

**SAMEDOVA Lydmila Hajibaba gyzy** — doctor of philology.



**SƏMƏDOVA Tamara Çələbi qızı** (d. 1958) — əmək fəaliyyətinə 1977 ildən Qəbələ r-nundakı Engels ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**SAMEDOVA Tamara Chelebi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**SƏMƏDOVA Tərminə Kazım qızı** (d. 1954) — əmək fəaliyyətinə 1972 ildən Qazax r-nundakı M.Əzizbəyov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal və şəhər təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**SAMEDOVA Tarmina Kazym gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**SƏMƏDOVA Ülfət Nəsrullah qızı** (d. 23. 7. 1918, Tiflis) — Azərb. oftalmoloqu. Tibb e.d. (1968), prof. (1969). Ə.Əliyev ad. Azərb. Dövlət Həkimləri Təkmilləşdirmə İn-tunda göz xəstəlikləri kafedrasının müdiri (1970 ildən) olmuşdur. Tədqiqatı, əsasən, göz xəstəliklərində ikincili qlaukomaya, qocalıqla əlaqədar kataraktada zülal və vitamin mübadiləsinə həsr olunmuşdur.

**SAMEDOVA Ulfat Nasrullah gyzy** — doctor of medicine.



**SƏMƏDOVA Vəcihə Əli qızı** (d. 24. 11. 1924, Bakı — 24. 10. 1965, Bakı) — Azərb. boyakarı, əməkdar incəsənət xadimi (1965). Ə.Əzimzadə ad. Azərb. Dövlət Rəssamlıq Məktəbini (1944) və V.İ.Surikov ad. Moskva Rəssamlıq İn-tunu (1951) bitirmişdir. Portret, mənzərə və tematik tablolar çəkmişdir. "Aktrisa L.Bədirbəyli" (1954), "Geoloq M.Məmmədbəyli" (1959), "Heykəltəraş H.Abdullayeva" (1964) və b. portretlərin, "Azərbaycan bəstəkarları" (1951), "Mahnı" (1956), "Kürün sahilində" (1961), "Xəbər gözləyənlər" (1963) kimi mənzərə və tematik tabloların müəllifidir. Əsərləri R. Mustafayev ad. Azərb. Dövlət İncəsənət Muzeyində saxlanılır.

**SAMEDOVA Vajiha Ali gyzy** — painter, Honoured Art Worker of the Azerb. SSR.



**SƏNANİ Ofelya Hacağa qızı** (d. 26.5.1941, Bakı) — Azərb. Resp. xalq artisti (1991). Azərb. Dövlət Un-tini bitirmişdir (1966). 1959 ildən Azərb. Teleradio Verilişləri Şirkətinin diktorudur. 1959-75 illərdə radioda işləmiş, bir sıra radio tamaşalarında baş rollarda çıxış etmişdir. 1975 ildən televiziyada fəaliyyət göstərir. 1960-90 illərdə eyni zamanda "Azərbaycanfilm" kinostudiyasının dublyaj şöbəsində işləmiş, 100-dən artıq filmin canfilm" kinostudiyasının dublyaj şöbəsində işləmiş, 100-dən artıq filmin səsləndirmişdir. Kinofilmlərdə də çəkilmişdir ("Dağlarda döyüş", "Ulduzlar sönmür" bədii filmləri, "Bakı bulvarı", "Mücrü" və s. televiziya filmləri).

**SANANI Ofelya Hajaga gyzy** — People's Artist of the Azerb. Repub.



**SƏRKƏROVA Gülüş Cəbrayıl qızı** (d. 1926, Füzuli r-nunun Əhmədalılar k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1946 ildən Füzuli r-nundakı "28 Aprel" təsərrüfatında başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**SERKEROVA Gulush Jabrayil gyzy** — Hero of Socialist Labour.



**SIÇOVA Lyubov Semyonovna** (d. 1948) — əmək fəaliyyətinə 1966 ildən Yeni Bakı Neftayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovet sədrinin müavini olmuşdur.

**SYCHOVA Lyubov Semyonovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**SİROTKİNA İrina Anatolyevna** (d. 1957) — əmək fəaliyyətinə 1977 ildən Zabrat maşınqayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**SIROTKINA Irina Anatolyevna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**SOFİYEVA Aynur Məmmədiyyə qızı** (d. 19.7. 1970, Qax ş.) — Azərb. Resp. Milli Məclisinin (2-ci çağırış) deputatı, Milli Məclisin Regional məsələlər üzrə daimi komissiyasının üzvü. Şahmat üzrə beynəlxalq qrossmeyster (1990). Azərb. Şahmat Federasiyasının sədri (2002). Qızlar arasında SSRİ çempionu (1986), SSRİ-nin IX yay Spartakiadasının qalibi (1986; komandanın tərkibində), tələbələr arasında dünya çempionu (1990), qadınlar arasında dünya çempionatının MDB zonasının qalibi (1990) və s. olmuşdur. Azərb. Dövlət Un-tinin jurnalistika (1991) və hüquq (2001) fakültələrini bitirmişdir.

**SOFIYEVA Aynur Memmediyya gyzy** — International Grand Chess-Master, deputy of the Milli Mejlis of the Azerb. Repub. (2 nd convocation).



**SOLTANOVA Səadət Cəfər qızı** (d. 1961) — əmək fəaliyyətinə 1978 ildən İmişli r-nundakı H.Aslanov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**SOLTANOVA Seadat Jafar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**SULTANOVA Ayna Mahmudağa qızı** (1895, Quba qəzasının Pirəbədil k. — 1938) — Azərb. dövlət və ictimai xadimi. 1912-ci ildə Bakıda "Müqəddəs Nina" gimnaziyasını bitirmiş və həmin məktəbdə dərs demişdir. 1917-1918 illərdən inqilabi hərəkata qoşulmuşdur. AK (b) P MK aparatında qadınlar şöbəsinin təlimatçısı, fəhlə və kəndli qadınlar şöbəsi müdirinin müavini, sonra müdiri vəzifələrində çalışmış, "Şərq qadını" (indiki "Azərbaycan qadını") jurnalının ilk redaktoru olmuşdur. 1930-37 illərdə Azərb. SSR Xalq Maarif Komissarının müavini, Zaqafqaziya Həmkarlar İttifaqları Şurası mədəniyyət bölməsinin müdiri olmuş, Moskvada Qırmızı Professura İn-tunda oxumuş, ÜİK (b)P Zaqafqaziya Ölkə Komitəsində qadınlar bölməsinin müdiri və kütləvi təşviqat şöbəsi müdirinin müavini, Azərb. SSR Xalq Maarif Komissarı, sonra Xalq Ədliyyə Komissarı vəzifələrində işləmişdir. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. 1938 ildə repressiya qurbanı olmuşdur.

**SULTANOVA Ayna Mahmudaga gyzy** — People's Comissar of Education of the Azerb. SSR.



**SULTANOVA Zərri Cəmşid qızı** (d. 1936) — M.F.Axundov ad. Azərb. Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tunu bitirmişdir. 1961 ildən Naxçıvan şəhərindəki 5 №-li məktəbdə müəllim işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**SULTANOVA Zarri Jamshid gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9—10th convocations).



**SÜLEYMANOVA Alagöz Məmmədəli qızı** (1920, Ağdam r-nunun Zəngişalı k. — 6.2. 1978, orada) — Sosialist Əməyi Qəhrəmanı (1951). Əmək fəaliyyətinə 1936 ildən Ağdam r-nundakı Orconikidze ad. təsərrüfatda başlamışdır. 1950 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**SULEYMANOVA Alagoz Memmed gyzy** — Hero of Socialist Labour.



**SÜLEYMANOVA Bəs Dövlət qızı** (d. 1932, Qusar r-nunun Avaran k.) — əmək fəaliyyətinə 1948 ildən Qusar r-nundakı "Şərq" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Ticarət, əhaliyə məişət xidməti və kommunal təsərrüfatı komissiyasının üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**SULEYMANOVA Bes Dovlat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**SÜLEYMANOVA Elmira Teymur qızı** (d. 17.7. 1937, Bakı) — Azərb. Respublikasının insan hüquqları üzrə müvəkkili (2002 ildən). Kimya e.d. (1980), prof. (1981). Azərb. Dövlət Un-tini bitirmişdir (1959). Həmin ildən Azərb. EA Neft və Kimya Prosesləri İn-tunda fəaliyyət göstərmiş, laborant, baş elmi işçi, laboratoriya rəhbəri olmuş, hazırda baş kimyaçıdır. Neft-kimya sintezi və incə üzvi sintez üzrə mütəxəssisdir. 200-dən çox elmi əsərin, 40 ixtiranın müəllifidir. Azərb.-da BMT-nin iqtisadi və sosial şurası ilə xüsusi məsləhətçi statusu olan yeganə qeyri-hökumət təşkilatı — Azərb. Qadın və İnkişaf Mərkəzinin yaradıcısı və prezidentidir. 30-dan çox beynəlxalq konfransda, BMT-nin Baş Assambleyasının 5 xüsusi sessiyasında iştirak etmişdir. 1998 ildə "100 qəhrəman qadın" siyahısına düşmüşdür. Haqqında beynəlxalq "Kim kimdir" (İngiltərə, Kembric) kitabında məlumat verilmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**SULEYMANOVA Elmira Teymur gyzy** — doctor of chemistry.



**SÜLEYMANOVA Fatma Həmzə qızı** (23. 12. 1912, Şuşa — 2.12.1978, Bakı) — texnika e.d. (1964), prof. (1967). Azərb. Dövlət mükafatı laureatı (1970). SSRİ-nin əməkdar ixtiraçısı (1979). Leninqrad Avtomobil Yolları İn-tunu bitirdikdən (1934) sonra Azərb. Avtomobil Nəql. Nazirliyi sistemində müxtəlif vəzifələrdə çalışmışdır. Azərb. EA Neft və Kimya Prosesləri (1952-65) və Aşqarlar Kimyası İn-tlarında (1965-70) laboratoriya müdiri, 1970 ildən Azərb. Politexnik İn-tunda avtomobil kafedrasının müdiri işləmişdir. Tədqiqatları, əsasən, motor yanacağı və yağlar sahəsinə aiddir. 15 müəlliflik şəhadətnaməsi almışdır. Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**SULEYMANOVA Fatma Hamza gyzy** — doctor of technics.



**SÜLEYMANOVA Qəmərxanım Mirzağa qızı** (d. 1935) — əmək fəaliyyətinə 1955 ildən Bakı Neft Mədənləri İdarəsinin 4-cü mədənində başlamışdır. SSRİ Ali Sovetinin (8-ci çağırış) deputatı, İttifaq Sovetinin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**SULEYMANOVA Gamarkhanym Mirzaga gyzy** — deputy of the Supreme Soviet of the USSR (8th convocation).



**SÜLEYMANOVA Maral Rza qızı** (d. 1940) — Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1961 ildən Ağdam r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7–9-cu çağırış) deputatı, Ali Sovetin Kənd Təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**SULEYMANOVA Maral Rza gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7, 8—9th convocations).



**SÜLEYMANOVA Ofeliya Məcid qızı** (d. 1956) — əmək fəaliyyətinə 1975 ildən Bakı məişət kondisionerləri zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**SULEYMANOVA Ofelya Mejid gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



# Ş

**ŞABANOVA Mənsurə Əhməd qızı** (d. 1939) — əmək fəaliyyətinə 1955 ildən başlamış, 1957 ildən Bakı karamel fabrikində işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-10-cu çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**SHABANOVA Mansura Ahmad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9-10th convocations).



**ŞABANOVA Rəfiqə Mahmud qızı** (d.31.10.1943, Bakı) — Azərb. əməkdar bədən tərbiyəsi və idman ustası (1982). SSRİ əməkdar idman ustası (1976). Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman İn-tunu bitirmişdir (1968). XXI Olimpiya oyunları (1976, Monreal) çempionu, SSRİ çempionatının gümüş (1970-74, 1976-77), bürünc (1965, 1978, 1980, 1982-84), SSRİ Xalqları Spartakiadasının gümüş (1974) və bürünc mükafatçısı (1975-1979) olmuşdur. "Avtomobilçi" komandasının tərkibində Beynəlxalq Əl Topu (həndbol) Federasiyası kubokunu almışdır (1983).

**SHABANOVA Rafiga Mahmud gyzy** — Honourad Master of Sports of the USSR.





**ŞABANOVA Şəhrigül Nəcməddin qızı** (d. 1955) — əmək fəaliyyətinə 1973 ildən Zaqatala Aqrar-İstehsalat Birliyinin fındıqtəmizləmə zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**SHABANOVA Shahrigul Nejmeddin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ŞAHBAZOVA Nərminə İsa qızı** (d. 1957) — əmək fəaliyyətinə 1972 ildən Cəlilabad r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**SHAHBAZOVA Narmina Isa gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ŞAHTAXTİNSKAYA Adilə İsasultan qızı** (17.4.1894, Tiflis — 30.3.1951, Tbilisi) — mama-ginekoloq. Tibb e.d. (1936). İlk elmlər doktoru adı alan mama-ginekoloq, ilk qadın prof. və kafedra müdirlərindən biri. N.Nərimanov ad. Azərb. Dövlət Tibb İn-tunda mama-ginekologiya kafedrasının müdiri (1933 ildən) işləmişdir. Tədqiqatı, əsasən, qadın gigiyenasına, eklampsiyaya həsr olunmuşdur.

**SHAKHTAKHTINSKAYA Adila Isasultan gyzy** — doctor of medicine.





**ŞAHTAXTİNSKAYA Elmira Həbibulla qızı** (25.10.1930, Bakı — 13.10.1996, Moskva; Bakıda dəfn olmunmuşdur) — Azərb. rəssamı, qrafik. Azərb. Resp. xalq rəssamı (1977), əməkdar incəsənət xadimi (1963). Ə.Əzimzadə ad. Azərb. Dövlət Rəssamlıq Məktəbini (1950) və V.İ.Surikov ad. Moskva Rəssamlıq İn-tunu (1956) bitirmişdir. Plakat, dəzgah rəsmləri və akvarellərin müəllifidir. 70-ci illərdə "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakat silsiləsini, Azərb.-ın elm, ədəbiyyat və incəsənət xadimlərinin (Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Səfiəddin Urməvi, Əcəmi Naxçıvani, Sultan Məhəmməd və b.) portretlər qalereyasını, dəzgah rəsmləri və akvarellərindən "Çexoslovakiyada" (1957), "Sosialist Bakısı" seriyası (1958-59), "Bolqarıstanda" (1963), "Qutablar" (1963) və "Novruz bayramı" (1970) tablolarını yaratmışdır. Moskva (1957), Kaunas (1967) və s. şəhərlərdə fərdi sərgisi nümayiş etdirilmişdir.

**SHAKHTAKHTINSKAYA Elmira Habibulla gyzy** — People's Painter of the Azrc. Repub.



**ŞAHTAXTİNSKAYA Nairə Əliabbas qızı** ( d.16.4.1951) — Azərb. Resp., Milli Məclisinin (1-ci və 2-ci çağırış) deputatı, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının və Avropa Şurası Parlament Assambleyasında Milli Məclisinin daimi nümayəndə heyətinin üzvü. Tarix e.d. (1992). M.Lomonosov ad.Moskva Dövlət Un-tini bitirmişdir (1977).

**SHAKHTAKTINSKAYA Naira Aliabbas gyzy** — deputy of the Milli Mejlis of the Azerb. Repub. (1st and 2 st convocations).



**ŞAHTAXTİNSKAYA Zəhra Mustafa qızı** (17.11.1895, Xankəndi — 16.9.1977, Bakı) — Azərb. zooloqu, helmintoloq. Biologiya e.d.(1953), prof. (1954), əməkdar elm xadimi (1960). Əmək fəaliyyətinə 1916 ildə qadın gimnaziyasında müəllimliklə başlamışdır. 1922 ildən Azərb. Dövlət Pedaqoji İn-tunda işləmiş, biologiya fakültəsinin dekanı, 1937 ildən zoologiya kafedrasının müdiri olmuşdur. Tədqiqatı, əsasən, Azərb.-da yaşayan su və bataqlıq quşlarında parazitlik edən qurdların tədqiqinə həsr edilmişdir. Bir çox elmi əsərin, dərsliyin müəllifidir. Lenin ordeni ilə təltif edilmişdir.

**SHAHTAKHTINCKAYA Zahra Mustafa gyzy** — doctor of biology.



**ŞAHVERDİYEVA Mahirə Səttar qızı** (d.1950) — əmək fəaliyyətinə 1970 ildən Volodarski ad. Bakı tikiş fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmuşdur.

**SHAHVERDIYEVA Mahira Sattar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ŞAHVERDİYEVA Muxlisə Rasim qızı** (d.1959, Qusar r-nunun İmamqulukənd k.) — Leninqrad İqtisad İn-tunu bitirmişdir (1989). Əmək fəaliyyətinə 1977 ildən Qusar r-nundakı Əzizbəyov ad. təsərrüfatda başlamış, müxtəlif işlərdə çalışmışdır. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur. Əmək Şöhrəti ordeni ilə təltif edilmişdir.

**SHAHVERDIYEVA Mukhlisa Rasim gyzy** — deputy of the Supreme Soviet of the USSR (11th convocation).



**ŞAHVERDİYEVA Tamilla Ağəmi qızı** (d.1953) — əmək fəaliyyətinə 1970 ildən cihazqayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**SHAHVERDIYEVA Tamilla Agami gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**ŞAMMƏDOVA Xanımgül Həmid qızı** (d. 1939, Masallı r-nunun Təzə Alvadı k.) — Sosialist Əməyi Qəhrəmanı (1971). Əmək fəaliyyətinə 1961 ildən təsərrüfatda başlamış, heyvandarlıqda yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (7-ci və 8-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üvzü olmuşdur. Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

**SHAMMEDOVA Khanymgul Hamid gyzy** — Hero of Sosialist Labour.



**ŞEYDAYEVA Şamama Bahadur qızı** (d. 1952) — əmək fəaliyyətinə 1968 ildən Ağsu r-nundakı "Moskva" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üvzü olmuşdur.

**SHEYDAYEVA Shamama Bahadur gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).

**ŞEYDAYEVA Zibeydə Mikayıl qızı** (1860, Qusar r-nunun Hil k. — 12.2.1981, Quba) — Azərb. xalça ustası. 8 yaşından xalça toxumağa başlamış, ömrünün 100 ildən çoxunu xalça dəzgahı arxasında keçirmişdir. Toxuduğu incə və nazik xovlu Quba xalçaları, nəfis sumax nümunələri Azərb. tətbiqi sənət əsərləri ilə birgə London, Paris, Nyu-York və Monrealda keçirilmiş ümumdünya sərgi və yarmarkalarında nümayiş etdirilmişdir. Bir neçə xalçası Azərb. Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində (Bakı) saxlanılır. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**SHEYDAYEVA Zibeyda Mikayil gyzy** — well-known carpet-maker.



**ŞƏFİYEVA Gülbəs Carı qızı** (d. 1953) — əmək fəaliyyətinə 1970 ildən Şamaxı r-nundakı Sabir ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur.

**SHAFIYEVA Gulbes Jary gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ŞƏKİNSKAYA Barat Həbib qızı** (28.6.1914, Şuşa — 13.1.1999, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1949). Səhnə fəaliyyətinə 1929 ildə Gəncədə İşçi klubunun dram dərnəyində başlamış, 1933-35 illərdə Gəncə Dram Teatrında, 1935-78 illərdə Azərb. Dram Teatrında çıxış etmişdir. "Azərbaycanfilm"in kino aktyoru teatrında (1956-60) və H.Ərəblinski ad. Sumqayıt Dram Teatrında da (1970-71) işləmişdir. Rolları: Cülyetta, Dezdemona, Kordeliya, Viola ("Romeo və Cülyetta", "Otello", "Kral Lir", "On ikinci gecə", U.Şekspir), Luiza ("Məkr və Məhəbbət", F.Şiller), Mirandolina ("Mehmanxana sahibəsi, K.Qoldoni), Florella ("Rəqs müəllimi", Lope de Veqa), Şirin, Xuraman ("Fəphad və Şirin", "Vaqif", S.Vurğun), Yetər ("Yağışdan çıxdıq, yağmura düşdük", N.B.Vəzirov), Zərifə, Gülər ("Nişanlı qız", "Xoşbəxtlər", S.Rəhman), Dilşad xanım ("Atayevlər ailəsi", İ. Əfəndiyev). "Görüş", "Telefonçu qız", "Fövqəladə hadisə", "Kölgələr sürünür", "Qızmar günəş altında", "Onun bəlalı sevgisi", "O olmasın, bu olsun" və s. filmlərdə çəkilmişdir.

**SHEKINSKAYA Barat Habib gyzy** — People's Artist of the Azerb. Repub.



**ŞƏMSƏDDİNSKAYA Naziyə Musa qızı** (d. 8.8.1926, Bakı) — tibb e.d. (1973), prof. (1978), əməkdar elm xadimi (2000). N.Nərimanov ad. Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1949). Əmək fəaliyyətinə Ordubad ş.-də başlamışdır. 1955-57 illərdə Krupskaya ad. 2 saylı şəhər xəstəxanasında mama-ginekoloq, 1960-63 illərdə Azərb. Tibb İn-tunun 1-ci mamalıq-ginekologiya kafedrasında baş laborant, 1963-64 illərdə Azərb. Ana və Uşaqların Mühafizəsi Elmi-Tədqiqat İn-tunda böyük elmi işçi, 1964 ildən Azərb. Tibb İn-tunun 1-ci mamalıq-ginekologiya kafedrasında asisstent, 1966 ildən dosent olmuş, 1970 ildən II mamalıq-ginekologiya kafedrasının müdiridir. Tədqiqatı qadınlarda hamiləliyin gedişinə, bətndaxili infeksiyaların etiologiyasına və s. həsr edilmişdir. Dəfələrlə Beynəlxalq konqreslərdə, forum və seminarlarda iştirak etmişdir. 170 elmi məqalənin, bir neçə kitabın müəllifidir.

**SHAMSADDINSKAYA Naziya Musa gyzy** — doctor of medicine.





**ŞƏRİFOVA Firəngiz Abbasmirzə qızı** (d. 6.2.1924, Bakı) — Azərb. aktrisası. Azərb. SSR xalq artisti (1969). Bakı Xoreoqrafiya Məktəbində və Azərb. Dövlət Konservatoriyasında oxumuşdur. Səhnə fəaliyyətinə 1947 ildə Azərb. Musiqili Komediya Teatrında başlamışdır. 1949 ildən Azərb. Gənc Tamaşaçılar Teatrının aktrisasıdır. Anacan ("Anacan", Y.Əzimzadə), Mətanət, Məhsəti Gəncəvi ("Çiçəkli dağ", "Rübailər aləmində", M.Təhmasib), Beatriça ("İki ağanın bir nökəri", K.Qoldoni), Cemma ("Ovod", E.Voyniç), Həmidə xala ("Keçən ilin son gecəsi", Anar), Mədinə ("Mənim nəğməkar bibim", Ə.Əylisli) və s. rolların ifaçısı olmuşdur. "Qaraca qız", "Qum üzərində ev", "Qərib cinlər ölkəsində" və s. filmlərdə çəkilmişdir.

**SHARIFOVA Firangiz Abbasmirza gyzy** — People's Artist of the Azerb. SSR.



**ŞIXIYEVA Gülbahar Alcan qızı** (d. 1941) — əmək fəaliyyətinə 1957 ildən Oğuz r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**SHYKHIYEVA Gulbahar Aljan gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9th convocation).



**ŞIXLİNSKAYA Nigar Hüseyn Əfəndi qızı** (təqr. 1878, Tiflis — 15.8.1931, Bakı) — ilk azərb. səfqət bacısı. Birinci dünya müharibəsinin iştirakçısıdır. Tiflisdə Zaqafqaziya Qızlar İn-tunu bitirən (1889) ilk ali təhsilli azərb. qadındır. Rus, fransız, ərəb, fars dillərini mükəmməl bilirdi. Ceneral Ə.Şıxlinskinin həyat yoldaşı kimi 1914-18-ci illərdə zabit arvadlarının yaratdığı "Qırmızı xaç" adlı hərbi xəstəxanaya başçılıq edən komitənin sədri seçilmişdir.

**SHYKHLINSKAYA Nigar Huseyn Efendi gyzy** — first Azerbaijanian hospital nurse, wife of general A.Shykhlinski.



**ŞİRƏLİYEVA Tamilla Xudadat qızı** (d. 8.12.1946, Bakı) — Azərb. balet artisti. Azərb. Resp. xalq artisti (1978). SSRİ Dövlət mükafatı laureatı (1980). Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1964). Həmin ildən Azərb. Dövlət Opera və Balet Teatrının solistidir. Qaraca qız "("Qaraca qız", Ə.Abbasov), Gülyanaq ("Qız qalası", Ə.Bədəlbəyli), Məhmənəbanu ("Məhəbbət əfsanəsi", A.Məlikov), Ayişə, Fiyetta ("Yeddi gözəl", "İldırımlı yollarla", Q.Qarayev), Odetta-Odilliya ("Sonalar gölü", P.Çaykoski), Kitri, Paxita ("Paxita", L.Minkus), Şəhrizad ("Min bir gecə", F.Əmirov) və s. əsas partiyalarıdır. 1977 ildən pedaqoji fəaliyyət göstərir.

**SHIRALIYEVA Tamilla Khudadat gyzy** — People's Artist of the Azerb. Repub.



**ŞİRİNOVA Gülara Güləhməd qızı** (d. 1927) — əmək fəaliyyətinə Goranboy r-nundakı K.Marks ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**SHIRINOVA Gulara Gulahmad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**ŞİRİNOVA Maral İbrahim qızı** (1.1.1930, Balakən r-nunun Kortala k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1945 ildən Balakən r-nunun təsərrüfatında başlamışdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 1952 ildə Şəki ikiillik müəllimlər İn-nu bitirdikdən sonra müəllim işləmişdir.

**SHIRINOVA Maral Ibrahim gyzy** — Hero of Socialist Labour.





**ŞİRYE Vera Karlovna** (d. 31.1.1915, Bakı) — Azərb. Resp. xalq aptisti (1961). Səhnə fəaliyyətinə 1933 ildən Bakı İşçi Teatrı (1937 ildən Azərb. Dövlət Rus Dram Teatrı) nəzdindəki studiyada başlamışdır. 1938 ildən həmin teatrın aktrisasıdır. Rolları: Mirandolina ("Mehmanxana sahibəsi", K.Qoldoni), Maşa ("Canlı meyit", L.Tolstoy), Melanya ("Günəşin övladları", M. Qorki), Anna İliniçna ("Ailə", İ.Popov), Qızyetər ("Xanlar", S.Vurğun), Nataşa ("Şərqin səhəri", Ə.Məmmədxanlı), Ledi Hef ("Oğruların şənliyi", J.Anuy), Tereza ("Terezanın ad günü", G.Mdivani), Pəri xala ("Sən nə üçün yaşayırsan?", İ.Qasımov və H.Seyidbəyli), Yelizaveta ("Mariya Stüart", F.Şiller), Kuraj ana ("Kuraj ana və uşaqları", B.Brext) və s. Bədii qiraət ustası kimi də tanınmışdır. "Qırmızı Ulduz" ordeni, "Xalqlar dostluğu" ordenləri, və Azərb.-ın "İstiqlal" ordeni ilə təltif edilmişdir.

**SHIRYE Vera Karlovna** — People's Artist of Azerb.



**ŞÜKÜROVA Firəngiz Əhməd qızı** (d. 1940) — əmək fəaliyyətinə 1956 ildən Şəki İpək kombinatında başlamışdır. SSRİ Ali Sovetinin (7-ci çağırış) deputatı, İttifaq Sovetinin Ticarət və məişət xidməti komissiyasının üzvü olmuşdur.

**SHUKUROVA Firangiz Ahmad gyzy** — deputy of the Supreme Soviet of the USSR (7th convocation).



**ŞÜKÜROVA Ofelya Əmən qızı** (d. 1959) — əmək fəaliyyətinə 1977 ildən Beyləqan r-nundakı "Bakı" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**SHUKUROVA Ofelya Emen gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ŞÜKÜROVA Səadət Kərim qızı** (1913, Ağstafa r-nunun Dağ Kəsəmən k. — 1966) — əmək fəaliyyətinə 1930 ildən Ağstafa şəhər 22 №-li dəmir yol məktəbində müəllimliklə başlamış , müxtəlif işlərdə çalışmış, o cümlədən rayon xalq maarifi şöbəsinin müdiri (1942 ildən), 24 №-li şəhər məktəbinin direktoru (1962 ildən) vəzifələrində işləmişdir. Azərb. SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**SHUKUROVA Seadat Kerim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (5th convocation).



**ŞÜKÜROVA Pakizə Heybət qızı** (d. 1959) — əmək fəaliyyətinə 1975 ildən Lənkəran r-nundakı texnikumda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**SHUKUROVA Pakiza Heybat gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**ŞÜKÜROVA Zərifə Zülfüqar qızı** (d. 1920) — Azərb. Dövlət Tibb İntunu bitirmişdir. Əmək fəaliyyətinə 1936 ildən Bakı məktəblərində müəllimliklə başlamış, tibb təhsili aldıqdan sonra laborant (1944), həkim, Bakının Lenin r-nu səhiyyə şöbəsinin müdiri (1948-54) işləmişdir. Azərb. SSR Ali Sovetinin (4-7-ci çağırış) deputatı, Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin katibi (1957 ildən) olmuşdur.

**SHUKUROVA Zarifa Zulfugar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (4-7th convocations).



# T



**TAĞIYEVA Familə Əliş qızı** (d.1941) — əmək fəaliyyətinə 1957 ildən Goranboy r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Kənd təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**TAGIYEVA Famile Alish gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**TAĞIYEVA Hürü Səməd qızı** (1.7.1925 – Qax r-nunun Qaxmüğal k. — 23.03.88) — Sosialist Əməyi Qəhrəmanı (1978). Əmək fəaliyyətinə 12 yaşından başlamış, uzun illər "Qələbə" təsərrüfatında çalışmışdır. 1977 ildə tütünçülükdə yüksək əmək göstəricilərinə nail olmuşdur. Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir.

**TAGIYEVA Huru Samed gyzy** — Hero of Sosialist Labour.



**TAĞIYEVA Mirvari Məmməd qızı** (d.20.1.1918, Xankəndi) — tibb e.d. (1969), prof. (1970). N.Nərimanov ad. Azərb. Dövlət Tibb İn-tunun 1-ci hospital-cərrahiyə kafedrasında assistent, dosent, 1979 ildən fakültə və hospital-cərrahiyyə kafedrasının prof. olmuşdur. Tədqiqatı, əsasən, öd yollarının fəsadlarına, qara ciyər və qarın boşluğu orqanlarının cərrahi müalicəsinə həsr olunmuşdur.

**TAGIYEVA Mirvari Memmed gyzy** — doctor of medicine.



**TAĞIYEVA Nataliya Valeh qızı** (d.24.12.1954, Gəncə) — Azərb. Resp. xalq artisti (2000). Azərb. Dövlət İncəsənət İn-tunun aktyorluq fakültəsini bitirmişdir (1978). 1978 ildən S.Vurğun ad. Azərb. Dövlət Akademik Rus Dram Teatrının aktrisasıdır. İlk dəfə səhnədə R.İbrahimbəyovun "Ultimatum" pyesində gəlin rolunda çıxış etmişdir. Rolları: Xumar ("Şeyx Sənan", H.Cavid), Ziba xanım ("Lənkəran xanının vəziri", M.F.Axundov), Nastasya Filippovna ("İdiot", F.Dostoyevski), Dvoyra ("Qürub", İ.Babel), Azaliya ("Azaliya", İ.Jamiak), Marianna ("İdeal cütlük", A.Popov) və s. "Azərbaycanfilm"in istehsalı olan "Yarımçıq qalmış serenada", "Onun dəlisov məhəbbəti", "Cin mikrorayonda", "Ailə" və b. filmlərdə çəkilmişdir.

**TAGIYEVA Nataliya Valeh gyzy** — Peopli's Artist of the Azerb. Repub.



**TAĞIYEVA Rüxsarə Əli qızı** (d.1961) — əmək fəaliyyətinə 1980 ildən Tovuz r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**TAGIYEVA Rukhsara Ali gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**TAĞIYEVA Sarıtel Paşa qızı** (d. 1959) — əmək fəaliyyətinə 1976 ildən Şəmkir r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**TAGIYEVA Sarytel Pasha gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**TAĞIYEVA Sayalı Abdulla qızı** (d.1920, Şuşa) — tibb e.d. (1969), prof. (1969). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1942). 1942 ildən Tibb İn-tunun daxili xəstəliklərin hospital-terapiya kafedrasında ordinator, 1944 ildən assistent, 1955 ildən dosent, 1969 ildən prof. olmuşdur. 1980 ildən 1992 ilə qədər pediatriya fakültəsinin daxili xəstəliklər kafedrasının müdiri işləmiş, 1992 ildən isə kafedranın professorudur. 130-dan çox elmi əsərin, o cümlədən 2 monoqrafiya, 3 metodiki vəsait, 2 ixtira və s. müəllifidir.

**TAGIYEVA Sayaly Abdulla gyzy** — doctor of medicine.



**TAĞIYEVA Sona Hənifə qızı** (d.3.1.1916, Bakı) — Azərb. Resp. əməkdar müəllimi (1960). Azərb. Dövlət Un-tini bitirmişdir (1940). Əmək fəaliyyətinə 1940 ildən başlamış, 73 №-li məktəbdə müəllim, dərs hissə müdiri, 1942–45 illərdə rayon xalq maarif şöbəsinin müdiri işləmişdir. 1945 ildən Bakıdakı 190 № -li məktəbin direktoru olmuşjur. Lenin ordeni, oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı ordenləri, Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**TAGIYEVA Sona Hanifa gyzy** — Honoured Teacher of the Azerb. Repub.



**TAĞIYEVA Şövkət Əzizağa qızı** (d.19.3.1926, Bakı) — tarix e.d. (1967), prof. (1992). 1976-1992 illərdə Azərb. EA Yaxın və Orta Şərq Xalqları İn-tunda Azərb. Şərq ölkələri ilə tarixi əlaqələri şöbəsinin (1981 ildən Cənubi Azərb. tarixi şöbəsi) müdiri, 1992 ildən Şərqşünaslıq İn-tunda aparıcı elmi işçi işləmiş, 1999 ildən baş elmi işçidir və həmin İn-tun "Cənubi Azərbaycan" elmi qrupunun rəhbəridir. Güney azərbaycanşünaslıq elmi məktəbinin yaradıcısıdır. Bir neçə monoqrafiya, elmi yazıların müəllifi, ali və orta məktəb dərsliklərinin həmmüəllifidir. Beynəlxalq elmi forumlarda məruzələrlə çıxış etmişdir.

**TAGIYEVA Shovket Azizaga gyzy** — doctor of history.



**TAĞIYEVA Tamella Yadulla qızı** (d.1950) — Azərb. Dövlət Un-tini bitirmişdir. Əmək fəaliyyətinə 1966 ildən başlamış, müxtəlif işlərdə çalışmışdır. Naxçıvan ş. 6 №-li orta məktəbində müəllim işləyir. Azərb. SSR Ali Sovetinin (11 çağırış) deputatı, Ali Sovet sədrinin müavini olmuşdur.

**TAGIYEVA Tamella Yadulla gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**TAĞIYEVA Validə Məhəmməd qızı** (d. 1941) — əmək fəaliyyətinə 1956 ildən Salyan r-nunun təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.

**TAGIYEVA Valide Mahammad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**TAĞIZADƏ Aida Zeynal qızı** (d.5.2.1934, Bakı) — musiqişünas, əməkdar incəsənət xadimi (1987), prof. Ü.Hacıbəyli ad. Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1958). 1959-69 illərdə konservatoriyada müəllim, baş müəllim, 1970-79 illərdə müsiqi tarixi kafedrasının dosenti, 1989 ildən professoru, 1979-96 illərdə müdiri olmuşdur. Azərb. musiqi tarixinə və bir sıra bəstəkarlara aid elmi məqalə və kitabların müəllifidir.

**TAGIZADE Aida Zeynal gyzy** — musicologist, professor.



**TAĞIZADƏ Gülnarə Rəhimbala qızı** (d.1962) — Azərb. Politexnik İn-tunu bitirmişdir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının üzvü olmuşdur.

**TAGIZADE Gulnara Rahimbala gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**TAĞIZADƏ Zərəngiz Əli qızı** (d.16.3.1927, Bakı) — tibb e.d. (1967), prof. (1969), əməkdar həkim. Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1948). 1948 ildən Tibb İn-tunda kliniki ordinator, baş laborant, 1960 ildən Kliniki və Eksperimental Təbabət İn-tunda baş elmi işçi, 1967 ildən ATİ-nin 1-ci daxili xəstəliklər kafedrasının prfessorudur. Elmi fəaliyyəti, əsasən, ürək-damar xəstəliklərinə həsr edilmişdir. 20-dən çox elmi əsərin, o cümlədən bir neçə dərslik və metodiki vəsaitin müəllifidir. Bir sıra beynəlxalq konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

**TAGIZADE Zarangiz Ali gyzy** — doctor of medicine.



**TAHİROVA Tahirə Əkbər qızı** (1913, Türkmənistan Resp., Bayraməli ş. —1991, Bakı) — Azərb. Sənaye İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1936 ildən elmi işçi kimi başlamış, 1940 ildən V.Kuybışev ad. Elmi-Tədqiqat İn-tunun direktoru olmuş, 1942-49 illərdə rəhbər partiya vəzifələrində işləmişdir. 1954 ildən AHİŞ sədri, 1957 ildən Resp. Nazirlər Soveti yanında Dövlət Elm-Texnika Komitəsinin sədri, Azərb. Resp. Nazirlər Soveti Dövlət Elmi-Tədqiqat İşlərini Əlaqələndirmə Komitəsinin sədri, 1963 ildən Nazirlər Soveti sədrinin müavini, 1959 ildən Azərb. SSR Xarici İşlər naziri işləmişdir. SSRİ Ali Sovetinin (4-cü çağırış), Azərb. SSR Ali Sovetinin (3,5-7-ci çağırış) deputatı olmuşdur.

**TAHIROVA Tahira Akber gyzy** — Minister of the Foreign Affairs of the Azerb. SSR.



**TALIBOVA Bahar Məhərrəm qızı** (d.21.3.1927, Naxçıvan MR, Şərur r-nunun Aşağı Aralıq k.) — Sosialist Əməyi Qəhrəmanı (1960). Əmək fəaliyyətinə 1942 ildən başlamış, uzun illər M.Hüseynzadə ad. təsərrüfatda manqabaşçısı işləmişdir. SSRİ Ali Sovetinin (4-7-ci çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı və Oktyabr İnqilabı ordenləri ilə təltif edilmişdir.

**TALYBOVA Bahar Maharram gyzy** — Hero of Sosialist Labour.



**TALIBOVA Nəfiqə Zeynal qızı** (d.1936) — əmək fəaliyyətinə 1970 ildən Lənkəran r-nundakı H.Aslanov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı olmuşdur.

**TALYBOVA Nafiqa Zeynal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9-10th convocations).





**TALIBOVA Şəfiqə Şıxqayıb qızı** (d.1937) — əmək fəaliyyətinə 1956 ildən Bakı elektrik maşınqayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**TALYBOVA Shafiqa Shykhqayib gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**TALIŞİNSKAYA Cahan Rza qızı** (1909, Lənkəran - 1.3.1967, Bakı) — Azərb. müğənnisi. Azərb. Resp. əməkdar artisti (1940). İfaçılıq fəaliyyətinə 1927 ildən başlamışdır. Estrada artistlərinin 1-ci Ümumittifaq müsabiqəsinin laureatı (1939 Moskva), Azərb. (1934, 42) və Özbəkistan (1942-44) Dövlət filarmoniyalarının solisti olmuşdur. Tiflis Azərb. Teatrında (1944-46), Azərb. Musiqili Komediya Teatrında (1947-49) Telli, Sənəm ("Arşın mal alan", "O olmasın, bu olsun", Ü.Hacıbəyli), Nargilə ("Gözün aydın", F.Əmirov), Lalə ("Durna", S.Rüstəmov) və s. rollarda çıxış etmişdir. Azərb. xalq mahnılarının və muğamların (xüsusilə Qatar, Segah, Bayatı-Şiraz) mahir ifaçısı kimi tanınmışdır.

**TALYSHINSKAYA Jahan Rza gyzy** — Honoured Artist of the Azerb. SSR.

**TARYEVA Yelena Vladimirovna** (1906 - 27.7.1962, Bakı) — Azərb. Resp. xalq artisti (1956). Moskva, Arxangelsk, Tbilisi, Odessa və s. şəhərlərin teatrlarında işləmiş, 1938-62 illərdə Azərb. Rus Dram Teatrının aktrisası olmuşdur. Rolları: Anfisa Tixonovna, Domna Pantelevna, Qlafira Firsovna ("Qurdlar və qoyunlar", "İstedadlar və pərəstişkarlar", "Son qurban", A. Ostrovski), Severova ("Moskva xarakteri", A. Sofronov), Motya ("Maşenka", A.Afinogenov), Vera nənə ("Yeganə", A.Alyoşin) və s.

**TARYEVA Yelena Vladimirovna** — People's Artist of the Azerb. Repub.

**TEREQULOVA Aliyə Ramazan qızı** (14.6.1913, Tiflis – 23.3.1968, Moskva) — Azərb. Resp. əməkdar artisti (1938). Azərb. Dövlət Türk Musiqi Texnikumunu bitirmişdir (1930). 1932-42 illərdə Azərb. Dövlət Opera və Balet Teatrının solisti olmuş, Gülzar, Nərgiz ("Şah İsmayıl", "Nərgiz", M.Maqomayev), Ağca qız ("Şahsənəm", R.Qlier) partiyalarında çıxış etmişdir. 1942-50 illərdə Azərb. Dövlət Musiqili Komediya Teatrında fəaliyyət göstərmiş, ("Arşın mal alan", "O olmasın, bu olsun", Ü.Hacıbəyli;"Durna", S.Rüstəmov; "Gözün aydın", F.Əmirov) və s. tamaşalarda baş rollarda çıxış etmişdir. 1950-55 illərdə Azərb. Dövlət Gənc Tamaşaçılar Teatrında çalışmışdır. 1955 ildə bir müddət Moskvada Vaxtanqov ad. teatrda işləmişdir.

**TEREGULOVA Aliya Ramazan gyzy** — Honoured Artist of the Azerb. Repub.



**TƏHMASİB Aliyə Mehdi qızı** (d.13.3.1947, Bakı) — Azərb. Resp. əməkdar müəllimi (1981). Azərb. Dövlət Un-tini bitirmişdir (1973). 1970 ildən Bakıdakı 132 №-li məktəbin müəllimi olmuş, 1985 ildən həmin məktəbin direktorudur. SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı, Millətlər Sovetinin Xarici işlər komissiyasının üzvü, Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.

**TAHMASIB Aliya Mehdi gyzy** — deputy of the Supreme Soviet of the Azerb. USSR (10th convocation).



**TOMRİS** (e.ə.VII əsr) - adı qəhrəmanlıq rəmzi kimi tarixə düşmüş hökmdar qadın. İran şahı Kirin Azərbaycana hücumunun qarşısını almaq üçün ağıl və böyük mətanət göstərmişdir. Kir hiylə ilə Tomrisin oğlunu əsir almışdı. Tomris Kirin hiyləsi müqabilində döyüş meydanında vuruşmağı üstün tutmuş və onu məğlub etmişdi. Tomris Kirin cəsədini onun qanı ilə dolu olan böyük bir tuluğun içinə salıb istehza ilə demişdi: "Sən oğlumu hiylə ilə əlimdən aldın, mən isə səni döyüşdə məğlub etdim. Dediüim kimi səni qanla doydururam. İstədiyin qədər iç, bəlkə doyasan".

**TOMRIS** — historical person, woman ruler.

**TOPÇUBAŞOVA Reyhan İbrahim qızı** (15.12.1905, Quba - 5.3.1970, Bakı) — Azərb. rəssamı, əməkdar incəsənət xadimi (1943). Azərb. Dövlət Rəssamlıq Texnikumunda oxumuşdur (1931-35). Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədr müavini olmuşdur (1941-45). Boyakarlığın portret ("M.Ə.Sabir", "Q.Almaszadə" və s.), məişət ("Köhnə bazar", "Toy", "Küçə" və s.) və mənzərə ("Qız qalası", "Dəniz", "Mərdəkanın görünüşü", "Gecə vaxtı dənizin mənzərəsi" və s.) janrlarında fəaliyyət göstərmiş, eləcə də süjetli kompozisiyalar və natürmortlar çəkmişdir. Mahnı və rəqs ansamblları üçün geyim eskizləri də işləmişdir. Əsərləri 1936 ildən resp. sərgilərində nümayiş etdirilmişdir.

**TOBCUBASHOVA Reyhan Ibrahim gyzy** — painter, Honoured Painter of the Azerb. Repub.



**TRETYAKOVA Violeta Yakovlevna** (d.1937, Bakı) — tarix e.n. (1993). Azərb. Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tunu və Bakı Ali Partiya Məktəbini bitirmişdir. 1956 ildən əmək fəaliyyətinə başlamış, 1969 ildən partiya işində çalışmış, 1983 ildə Azərb. KP Suraxanı RK-nin birinci katibi işləmişdir. 1989 ildən Azərb. Resp. Prezidenti yanında Dövlət İdarəetmə Akademiyasında elmi-pedaqoji fəaliyyət göstərir. Azərb. SSP Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasının sədri olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**TRETYAKOVA Violeta Yakovlyevna** — candidate of history, deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**TUTAYUQ Validə Xaspolad qızı** (23.9.1914, Şuşa - 12.11.1980, Gəncə) — Azərb. botaniki. İlk azərb. qadın biologiya e.d. (1949), prof. (1950), Azərb. EA-nın həqiqi üzvü (1968). 1939-80 illərdə AKTİ-nin botanika kafedrasının müdiri, dekan, prorektor, Azərb. EA Botanika İn-tunun anatomiya və morfologiya laboratoriyasının müdiri, direktoru vəzifələrində çalışmışdır. Elmi-tədqiqatı, əsasən, Azərbaycan dendroflorasının, çiçəyin teratologiyasının öyrənilməsinə həsr edilmişdir. AKP MK üzvü olmuşdur (1956-60). Botaniklərin 9-cu Beynəlxalq konqresində (Monreal, 1950) məruzə etmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**TUTAYUG Valida Khaspolad gyzy** — doctor of biology, academician of the AAS.



**TUTİ BİKƏ** (?–1786, Dərbənd) — Quba xanı Fətəli xanın arvadı, Qaraqaytaq hakimi Əmir Həmzənin bacısı, dövlət xadimi. 1776 ildə Dərbənd şəhərini idarə etmək Tuti Bikəyə tapşırılmışdı. O, ərinin döyüşdə öldürüldüyü haqqındakı şayiələrə inanmayaraq şəhəri axıra qədər müdafiə etmiş, 9 ay düşməni Dərbəndə yaxın buraxmamışdır. 1786 ildə vəfat etmiş, Dərbəndin Qırxlar qəbiristanlığında, səkkizguşəli məqbərədə dəfn olunmuşdur.

**TUTİ BİKE** (?–1786, Derbend) — statesman and wife of Fatali khan, khan of Guba.



# U



**ULYANOVA Valentina Vladimirovna** (d.1957) — əmək fəaliyyətinə 1974 ildən Bakı elektrik maşınqayırma zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**ULYANOVA Valentina Vladimirovna** — deputy of the Supreme Soviet of Azerb. SSR (11th convocation).



**UMUDOVA Nazeykə Yapon qızı** (d.1961) — əmək fəaliyyətinə 1979 ildən Bərdə r-nundakı təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Aqrar-sənaye kompleksi komissiyasının üzvü olmuşdur.

**UMUDOVA Nazeyka Yapon gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).





**USUBOVA Bikə Həbi qızı** (d.1949) — əmək fəaliyyətinə Salyan r-nundakı Y.Qasımov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Qanunvericilik mülahizələri komissiyasının üzvü olmuşdur.

**USUBOVA Bike Habih gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).

**USUBOVA Əskinaz Əbdüləli qızı** (d.1927, Beyləqan r-nunun Dünyamallar k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1942 ildən Beyləqan r-nundakı G.Əsədov ad. təsərrüfatda başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**USUBOVA Askinaz Abdulla gyzy** — Hero of Sosialist Labour.



**USUBOVA Nigar İbrahim qızı** (2.5.1914, Qazaxr-nunun Salahlı k. – 15.9.1995, Bakı) — sənətşünaslıq namizədi (1925), əməkdar incəsənət xadimi (1960). Azərb. Dövlət Sənaye İn-tunu (1935) və Azərb. Dövlət Konservatoriyasını (1947) bitirmişdir. 1952 ildən konservatoriyanın fortepiano kafedrasının dosenti, tədris-elmi işlər üzrə prorektoru (1970 ilədək), 1966 ildən fortepiano üzrə professor, 1959-69 illərdə fortepiano kafedrasının müdiri işləmişdir. 2 "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**USUBOVA Nigar Ibrahim gyzy** — candidate of arts, professor.

# V



**VERDİYEVA Gilas Şamil qızı** (d.1930) — əmək fəaliyyətinə 1948 ildən kənd təsərrüfatında başlamışdır. 1958 ildən Yevlax r-nundakı Salahlı kənd sovetinin sədri işləmişdir. SSRİ Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

**VERDIYEVA Gilas Shamil gyzy** — deputy of the Supreme Soviet of the USSR (5th convocation).



**VERDİYEVA Rəxşəndə Cəfər qızı** (d. 1944) — əmək fəaliyyətinə 1958 ildən Şəmkir r-nunun təsərrüfatında başlamışdır. SSRİ Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Millətlər Sovetinin Gənclərlə iş üzrə komissiyasının üzvü, Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**VERDIYEVA Rakhshanda Jafar gyzy** — deputy of the Supreme Soviet of the USSR (9-10th convocations).



**VERDİYEVA Sədaqət Mirzə qızı** (d. 14.3.1928, Samux r-nunun Füzuli k.) — Sosialist Əməyi Qəhrəmanı (1948). 1947 ildə "Qırmızı Oktyabr" təsərrüfatında pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**VERDIYEVA Sadagat Mirza gyzy** — Hero of Socialist Labour.



**VERDİYEVA Zemfira Nadir qızı** (d.19.11.1935, Tbilisi) — filologiya e.d.(1971), prof. (1972), Azərb. EA-nın müxbir üzvü (1989). Azərb. Dövlət Pedaqoji Xarici Dillər İn-tunu bitirmişdir (1957). Əmək fəaliyyətinə 1957 ildə in-tun ingilis dili kafedrasında başlamışdır. 1971-73 illərdə ingilis dili kafedrasının professoru, 1973-93 illərdə in-tun rektoru olmuşdur. Azərb. və ingilis dillərində sifətlərin semantik əlaqələnmələrinin müqayisəli — tipoloji tədqiqinə dair əsərlərin müəllifidir. 350-dən çox məqaləsi, monoqrafiyaları, dərs vəsaitləri, 4 cildlik ingilis dili lüğəti və s. vardır. Beynəlxalq simpozium və konfranslarda məruzələrlə çıxış etmişdir. 1989 ildən Azərb. Qadınlar Cəmiyyətinin sədridir. Beynəlxalq Bioqrafiya Mərkəzi (İngiltərə, Kembric) tərəfindən "İlin qadını" (1998-99) və "Əsrin qadını" (2000) fəxri adlara layiq görülmüş, Ümumdünya Bioqrafik Ensiklopediyasında haqqında məlumat verilmişdir. Azərb. SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.



**VERDIYEVA Zemfira Nadir gyzy** — doctor of philology, corresponding member of the Azerb. National Academy of Sciences.

**VERDDİZADƏ Nailə Allahverdi qızı** (d. 10.5.1945, Bakı) — kimya e.d. (1991), prof. (1986). Azərb. Dövlət Pedaqoji İn-tunun kimya-biologiya fakültəsini bitirmişdir (1967). Həmin İn-tun ümumi kimya kafedrasında assistent (1967 ildən), Azərb. Neft və Kimya İn-tunda baş müəllim (1972-73), Azərb. Dövlət Pedaqoji İn-tunda analitik və fiziki kimya kafedrasında baş müəllim (1973-76) işləmişdir. 1976 ildən kafedra müdiridir. Kafedra nəzdindəki "Koordinasion birləşmələr" elmi-tədqiqat laboratoriyasına da rəhbərlik (1989 ildən) edir. Tədqiqatı analitik kimya sahəsinə aiddir. Bir çox konfrans, konqres və simpoziumlarda məruzələr etmişdir. 220-ə qədər elmi əsərin, o cümlədən 30 dərslik, dərs vəsaiti və metodiki göstərişin müəllifidir.



**VERDIZADE Naila Allahverdi gyzy** — doctor of chemistry.



**VEYSƏLOVA Rəmziyyə Osman qızı** (11.2.1914, Bakı — 22.8.1993, Gəncə) — Azərb. Resp. xalq artisti (1958). Bakı Teatr Texnikumunu bitirmişdir (1932). Əvvəllər Bakı Türk İşçi Teatrında çıxış etmişdir. 1935 ildən Gəncə Dram Teatrının aktrisası olmuşdur. Əsas rolları: Almaz, Gülüş, ("Almaz", "Sevil", C.Cabbarlı), Xuraman, Şirin ("Vaqif", "Fərhad və Şirin", S.Vurğun), Aqafya ("Evlənmə", N.Qoqol), Emiliya ("Otello", U.Şekspir), Anacan ("Anacan", Y.Əzimzadə), Dilşad, Nəzakət ("Atayevlər ailəsi", "Sən həmişə mənimləsən", İ.Əfəndiyev), Kleya ("Tülkü və üzüm", G.Figeyredu), Afət ("Qayınana", M.Şamxalov), Zülxəbirə ("Aygül diyarı", M.Kərim), ana ("Dəli Domrul", A.Məmmədov, "Kitabi-Dədə Qorqud" dastanı üzrə), Həcər xanım ("Yad qızı", Orxan Kamal), Zərnigar ("Dəli Kür", İ.Şıxlının eyniadlı romanı üzrə) və s.

**VEYSALOVA Ramziyya Osman gyzy** — People's Artist of the Azer. Repub.



**VƏKİLOVA Leyla Məhəd qızı** (29.1.1927, Bakı–20.2.1999, Bakı) — Azərb. balet artisti Azərb. Resp. xalq artisti (1958). SSRİ xalq artisti (1967). Bakı Xoreoqrafiya Məktəbini (1943) bitirmişdir. 1945-46 illərdə Moskva Xoreoqrafiya Məktəbində təcrübə keçmişdir. 1943-71 illərdə Azərb. Opera və Balet Teatrının solisti olmuşdur. İlk dəfə 1944 ildə solist kimi Tao Xoa ("Qırmızı lalə", R.Qlier) partiyasında çıxış etmişdir. Yaratdığı Odetta-Odilliya, Avrora, Maşa ("Sonalar gölü", "Yatmış gözəl", "Şelkunçik", P.Çaykovski), Zarema ("Baxçasaray fontanı", B.Asafyev), Cülyanaq ("Qız qalası", Ə.Bədəlbəyli), Gülşən ("Gülşən", S.Hacıbəyli), Şirin ("Məhəbbət əfsanəsi", A.Məlikov), Qaraca qız ("Qaraca qız", Ə.Abbasov), Laurensiya ("Laurensiya", A.Kreyn), Raymonda ("Raymonda", A.Qlazunov), Kitri ("Don Kixot", L.Minkus), Jizel ("Jizel", A.Adan) və s. obrazlar balet ifaçılığı sənətində xüsusi yer tutur. 1953 ildən Bakı Xoreoqrafiya Məktəbində dərs demişdir. 1976-82 illərdə Azərb. Dövlət Rəqs Ansamblının bədii rəhbəri olmuşdur. Azərb.-ın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**VEKILOVA Leyla Mehed gyzy** — People's Artist of the Azerb. Repub.



**VƏLİXAN Sona İbrahim qızı** (19.6.1883, Xarkov — 4.4.1982, Bakı) — Azərb. oftalmoloqu, tibb e.d. (1928), prof. (1933). Əməkdar elm xadimi (1942). Elm sahəsində Nobel mükafatına namizədliyi irəli sürülmüş ilk azərb. alim (1941). Peterburq Qadın Tibb İn-tunu bitirmişdir (1908). Xarkov Un-tinin tibb fakültəsində (1915-1923), Azərb. Tibb İn-tunda (1923-1939) assistent, dosent, professor, Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunda (1939-1971) göz xəstəlikləri kafedrasının müdiri olmuşdur. Eyni zamanda 1938-46 illərdə kliniki in-tda göz xəstəlikləri və onun nəzdində yaradılmış traxoma şöbəsinə rəhbərlik etmişdir. Azərb. Elmi-tədqiqat Oftalmologiya İn-tunun elmi işlər üzrə direktor mavini (1946-60), Resp. Oftalmoloqlar Cəmiyyətinin sədri (1945-50) olmuşdur. Tədqiqatı, oftalmologiyanın müxtəlif sahələrinə (gözün patoloji anatomiyasına, göz travmalarına, traxoma və onunla mübarizəyə) həsr edilmişdir. Bir çox elmi əsərin müəllifidir.



**VELIKHAN Sona Ibrahim gyzy** — doctor of medicine.

**VƏLİXANLI Nailə Məmmədəli qızı** (d. 25.12.1940, Bakı) — tarix e.d. (1994), prof. (1996). Azərb. MEA müxbir üzvü (2001). Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsinin ərəb şöbəsini bitirmişdir (1963). Azərb. MEA Şərqşünaslıq (1963-1992) və Tarix (1992-1998) in-tlarında baş elmi işçi və aparıcı elmi işçi olmuşdur. 1998 ildən AMEA Azərbaycan Tarixi Muzeyinin direktorudur. 1994 ildən "Azərbaycan" Un-tinin professorudur. Tədqiqatı, əsasən, ərəbdilli yazılı mənbələr əsasında orta əsrlər Azərb. tarixinin araşdırılmasına həsr edilmşidir. 160-dan çox elmi əsər, kitab, toplu və kitab-albomların müəllifi və redaktorudur.



**VELIKHANLY Naila Memmedali gyzy** — doctor of history.

**VƏLİXANOVA Fəridə Ağəli qızı** (d.21.10.1935, Bakı) — Azərb. ədəbiyyatşünası, tənqidçi, filol. e.d. (1977), prof. (1984). M.V.Lomonosov ad. Moskva Dövlət Un-tinin filol. fakultəsini (1958) bitirmişdir. Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tunda baş elmi işçi, tərcümə nəzəriyyəsi, tarixi və təcrübəsi şöbəsinin müdiri (1982-86), ədəbi əlaqələr şöbəsi yanında tərcümənin tarixi və nəzəriyyəsi bölməsinin müdiri (1989-93), ən yeni əd-t şöbəsinin aparıcı elmi işçisi (1986-89) olmuşdur; 1993 ildən həmin şöbənin aparıcı elmi işçisidir.Ədəbi əlaqələrə, çağdaş Azərb. poeziyasının rus dilinə tərcüməsinə, tərcümə tarixi və bədii tərcümənin nəzəri məsələlərinə dair tədqiqatların müəllifidir. Bir sıra elmi əsərin, 10 monoqrafiyanın müəllifidir.



**VELIKHANOVA Farida Agali gyzy** — doctor of philology.



**VƏLİYEVA Elmira Bağır qızı** (28.7.1936, Bakı) — geologiya-mineralogiya e.d. (1993). Azərb. Dövlət Neft və Kimya İn-tunu bitirmişdir (1959). Əmək fəaliyyətinə 1959 ildən "Orconikidzeneft" Neft-Mədən İdarəsində başlamışdır. Qum adası Neft-Mədən İdarəsində (1962 ildən), "Xəzərdənizneftqaz" İstehsal Birliyində (1967 ildən), EA Dərinneftqaz Problemləri İn-tunda operator, böyük qeoloq, qeoloq, böyük elmi işçi işləmişdir. 1991 ildən Azərb. Dövlət Neft Şirkətində baş mütəxəssis, şöbə rəisinin müavini olmuş, 1995 ildən isə şöbənin rəisidir. Avropa Geoloqları Assosiasiyasının üzvü, Ekoenergetika Beynəlxalq Akademiyasının professorudur. Bir sıra elmi işlərin, monoqrafiya və s. müəllifidir.

**VELIYEVA Elmira Bagyr gyzy** — doctor of geology and minerology.



**VƏLİYEVA Gövhər Əli qızı** (d. 10.6.1959) — Azərb. SSR Dövlət mükafatı laureatı (1921), SSRİ Dövlət mükafta laureatı (1924). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1986). Əmək fəaliyyətinə 1977 ildən Ağdam r-nunun Nizami ad. təsərrüfatında başlamışdır. 1987 ildən Zərdab r-nundakı H.Zərdabi ad. təsərrüfatda müxtəlif işlərdə çalışmış, 1990 ildən Zərdab RİH-nin Məmmədqasımlı kəndi üzrə nümayəndəliyində işləyir. Azərb. KP MK-nın üzvü, Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xalq istehlakı malları və ticarət komissiyasının üzvü olmuşdur. Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**VELIYEVA Govhar Ali gyzy** — deputy of the Supreme Soviet of the USSR (10th convocation).



**VƏLİYEVA Gülbahar Nəhməd qızı** (d.1930, Şamaxı) — əmək fəaliyyətinə 1949 ildən Sumqayıtdakı 14 saylı Tamamlama İşlərini Mexanikləşdirmə idarəsində başlamış, 1963 ildən Resp. Sənaye Tikintisi Nazirliyində işləmişdir. Azərb. SSR Ali Sovetinin (8-9-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur. Əmək Şöhrəti ordeni ilə təltif edilmişdir.

**VELIYEVA Gulbahar Nehmed gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8-9th convocations).



**VƏLİYEVA Xasa Cahangir qızı** (1909, Şərur r-nunun Qarabağlar k. — 1984, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1939 ildən Qarabağlar k.-ndəki təsərrüfatda başlamış, 1942 ildən mangabaşçısı işləmişdir. 1948 ildə tütünçülük sahəsində yükçək əmək göstəriciləri qazanmışdır.

**VELIYEVA Khasa Jahangir gyzy** — Hero of Socialist Labour.

**VƏLİYEVA İradə İsgəndər qızı** (d.1963) — əmək fəaliyyətinə 1980 ildən Kürdəmir r-nundakı "Şirvan" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Aqrar-sənaye kompleksi komissiyasının üzvü olmuşdur.

**VELIYEVA Irada Isgender gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**VƏLİYEVA Kamilə Abdulla qızı** (d.9.1.1940, Bakı) — filologiya e.d. (1997). Azərb. Dövlət Un-tinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir (1963). 1971-81 illərdə kiçik elmi işçi, 1981-91 illlərdə böyük elmi işçi olmuş, 1991 ildən tədqiqatı mətnlərin avtomatik işlənməsi problemlərinə həsr edilmişdir. AMEA-nın Nəsimi ad. Dilçilik İn-tunda qrup rəhbəridir. Qədim yazılı abidələrin kompüterin köməyi ilə linqivistik təhlilinə və s. dair bir sıra əsərlərin müəllifidir.

**VELIYEVA Kamila Abdulla gyzy** — doctor of philology.





**VƏLİYEVA Məhbubə Nəbi qızı** (d.10.4.1949, Erm. SSR, Kalinino r.-nu) — əczaçılıq e.d. (1998), prof., əməkdar müəllim (2000). Azərb. Tibb İn-tunun əczaçılıq fakültəsini bitirmişdir (1971). 1971 ildən İn-tun farmakologiya və toksikoloji kimya kafedrasında baş laborant, assistent, baş müəllim, dosent, kafedra müdiri (1977 ildən), dekan müavini (1993 ildən), dekan əvəzi (1995 ildən), Azərb. Resp. Səhiyyə Nazirliyinin "Azərfarm-sənaye" Elm-İstehsalat Birliyində baş direktor (1996 ildən) vəzifələrində çalışmışdır. Hazırda ATU-nun əczaçılıq texnologiyası, təşkili və iqtisadiyyatı kafedrasının müdiridir. Tibb Un-ti üzrə Səmərələşdiricilər və İxtiraçılar cəmiyyətinin sədri, Beynəlxalq Əczaçılar Federasiyasının üzvüdür. Elmi fəaliyyəti Azərbaycanın dərman bitkilərinin kimyəvi-farmokoloji tədqiqinə həsr olunmuşdur. 270-dən artıq elmi işin, o cümlədən 2 monoqrafiya, 10 tədris vəsaiti, 3 metodiki göstəriş və s. müəllifidir.

**VELIYEVA Mehbuba Nabi gyzy** — doctor of pharmaceutics.



**VƏLİYEVA Nəzakət Bəhlul qızı** (d. 1955) — əmək fəaliyyətinə 1972 ildən Ağdam r-nundakı Telman ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Səhiyyə və sosial təminat komissiyasının üzvü olmuşdur.

**VELIYEVA Nezaket Bahlul gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**VƏLİYEVA Səkinə Salman qızı** (d. 1925) — əmək fəaliyyətinə 1939 ildən başlamış, 1950 ildən Göyçay r-nundakı S.Vurğun ad. təsərrüfatda işləmişdir. Azərb. SSR Ali Sovetinin (7-ci və 8-ci çağırış) deputatı, Ali Sovetin Gənclər komissiyasınn üzvü olmuşdur.

**VELIYEVA Sakina Salman gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7-8th convocations).



**VƏLİYEVA Şəhniyar Keçəl qızı** (d.1958) — əmək fəaliyyətinə 1975 ildən Qazax r-nundakı "Komintern" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə komissiyasının üzvü olmuşdur.

**VELIYEVA Shahniyar Kechal gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**VƏLİYEVA Şərqiyyə Əkbər qızı** (d. 1.7.1939, Laçın r-nunun Piçənis k.) — Sosialist Əməyi Qəhrəmanı (1966). Əmək fəaliyyətinə 1949 ildən Laçın r-nundakı Kirov ad. təsərrüfatda başlamışdır. 1965 ildə maldarlıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (7-ci və 8-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur. Lenin ordeni və Oktyabr İnqilabi ordeni ilə təltif edilmişdir.

**VELIYEVA Shargiyya Akber gyzy** — Hero of Socialist Labour.



**VƏZİROVA Validə Rəşidbəy qızı** (d. 3.12.1921, Bakı) — texnika e.n. (1963), prof. (2000), SSRİ əməkdar ixtiraçısı (1981). Azərb. Sənaye İn-tunu bitirmişdir (1940). Azərb. EA Qeyri-üzvi və Fiziki Kimya İn-tunda baş elmi işçi (1964 ildən), laboratoriya müdiri (1965 ildən), Ümumittifaq Qaz İn-tunda laboratoriya müdiri (1975 ildən) işləmişdir. Tədqiqatı, əsasən, məsaməli cisimlərdə absorbsiya hadisələrinə, metalların korroziyadan qorunması məsələlərinə aiddir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**VAZIROVA Valida Rashidbey gyzy** — candidate of technics, professor.





**VİNOQRADOVA Larisa Afanasyevna** (d. 5.12.1947, Türkmənistan Resp., Mori ş.) — Azərb. Resp. xalq artisti (2000). A. Zeynallı ad. Azərb. Musiqi Texnikumunu bitirmişdir (1971). 1968 ildən Azərb. Dövlət Musiqili Komediya Teatrının aktrisasıdır. Yutta ("Hollandiyalı" İ.Kalman), Hanna Qlavari ("Şən dul qadın", F.Leqar), Gülçöhrə ("Arşın mal alan", Ü. Hacıbəyli), Lalə ("Qafqazlı qohum", R.Hacıyev), Rozalinda ("Yarasa", İ.Ştraus) və s. rolları ifa etmişdir. "Yaşıl eynəkli adam" (V.Səmədoğlu) televiziya filmində çəkilmişdir.

**VINOGRADOVA Larisa Afanasyevna** — People's Artist of the Azerb. Repub.



# Y

**YAKUBENKO Lidiya İvanovna** (d. 1926) — əmək fəaliyyətinə 1943 ildən Azərb. Neft Kəşfiyyatları Trestinin qazma kontorunda başlamış, müxtəlif işlərdə çalışmışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Xalq maarifi, elm və mədəniyyət komissiyasının üzvü olmuşdur.

**YAKUBENKO Lidiya Ivanovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7th convocation).



**YARIYEVA Sünbülə Əlikram qızı** (d. 1952) — əmək fəaliyyətinə 1970 ildə Saatlı r-nundakı "Ulduz" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (9-cu və 10-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**YARIYEVA Sunbula Alikram gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9—10th convocations).





**YEMELYANOVA Svetlana Nikitiçna** (d. 1937) — əmək fəaliyyətinə 1956 ildən Qaradağneft Mədənlər İdarəsi 2-ci mədənində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**YEMELYANOVA Svetlana Nikitichna** — deputy of the Supreme Soviet of the Azer. SSR (7th convocation).



**YƏHYAYEVA Tahirə Paşa qızı** (d. 1959) — əmək fəaliyyətinə 1976 ildən Kürdəmir r-nundakı "Moskva" təsərrüfatında başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**YAHYAYEVA Tahira Pasha gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**YOLÇUYEVA Dilşad Vəli qızı** (d. 16.5.1928, Samux r-nunun Qovlarsarı k.) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə Caparidze ad. təsərrüfatda başlamış, müxtəlif vəzifələrdə işləmişdir. 1948 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**YOLCHUYEVA Dilshad Veli gyzy** — Hero of Socialist Labour.



**YOLDAŞOVA Nigar Qiyas qızı** (d. 1959) — əmək fəaliyyətinə 1974 ildən Cəlilabad r-nundakı S.Vurğun ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (10-cu çağırış) deputatı, Ali Sovetin Xarici işlər komissiyasının üzvü olmuşdur.

**YOLDASHOVA Nigar Giyas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (10th convocation).



**YUNUSOVA Gülxanım Mahmud qızı** (d. 1945) — əmək fəaliyyətinə 1962 ildən Bakı Karamel fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (7-ci və 8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**YUNUSOVA Gulkhanym Mahmud gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (7—8th convocations).



**YUSİFLİ Şəfiqə Vəli qızı** (d.1927) — filologiya e.d. (1973), prof. (1974). H.Zərdabi ad. Gəncə Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1947). Həmin İn-tda laborant, müəllim, kafedra müdiri, dekan (1947-52) və s. vəzifələrdə işləmiş, 1974 ildən Azərb. dili kafedrasının prof.-dur. Gəncə Xalq Maarifi Şöbəsinin müdiri (1955-58), 1 №li internat məktəbin direktoru (1962-66) olmuşdur. 50-dən artıq elmi əsərin müəllifidir.

**YUSIFLI Shafiga Veli gyzy** — doctor of philology.





**YUSİFOVA Asiyət Nəcməddin qızı** (d. 5.12.1923, Qax r-nunun İlisu k.) — Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1956). Əmək fəaliyyətinə 1944 ildən Qax r-nunda müəllimliklə başlamış, 1950-60 illərdə Qax r-nunda partiya işlərində çalışmışdır. 1960 ildən Qax RK-nın katibi, sonra isə 1-ci katibi, 1963 ildən Zaqatala p-n ZDS İK-nin sədri, 1964 ildən Qax PK-nın 1-ci katibi olmuşdur. Azərb. SSR Ali Sovetinin (6-8-ci çağırış) deputatı, Ali Sovetin Mandat komissiyasının üzvü olmşudur. Lenin ordeni, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**YUSIFOVA Asiyat Nejmeddin gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (6—7th convocations).



**YUSİFOVA Fatma Qurban qızı** (d. 1915, Qazax r-nunun Dağ Kəsəmən k. — 1989, orada) — Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə 1930 ildən Ə.Nəvai ad. təsərrüfatda başlamışdır. 1948 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (4-cü çağırış) deputatı olmuşdur.

**YUSIFOVA Fatma Gurban gyzy** — Hero of Socialist Labour.



**YUSİFOVA Gülnarə Rəhim qızı** (d. 1949) — əmək fəaliyyətinə M.D.Hüseynov ad. Gəncə xalça fabrikində başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Plan-büdcə komissiyasının üzvü olmuşdur.

**YUSIFOVA Gulnara Rahim gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).





**YUSİFOVA Röşan Əhməd qızı** (d. 1940) — əmək fəaliyyətinə 1962 ildən Bakıdakı Volodarski ad. fabrikdə başlamış, 1967 ildən Bakı radio zavodunda işləmişdir. Azərb. SSR Ali Sovetinin (9-11-ci çağırış) deputatı, Ali Sovetin Rəyasət Heyətinin üzvü olmuşdur.

**YUSIFOVA Roshan Ahmad gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (9—11th convocations).



**YUSİFOVA Validə Cavad qızı** (15.11.1916, Şuşa–2000, Bakı) — texnika e.d. (1971). 1953 ildən İ.Yesman ad. Azərb. Elmi-Tədqiqat Energetika İn-tunda istilik mübadiləsi laboratoriyasına rəhbərlik etmişdir. Tədqiqatı karbohidrogenlərin, çoxkomponentli neft emalı məhsullarının, dəniz suyu və digər duzlu məhsulların istilik mübadiləsinə, istilik fizikasına, hidrodinamikaya, həmçinin qaz və maye yanacaqların İEM-də yandırılması prosesinə aiddir. Dəniz suyunun şirinləşdirilməsi məsələlərinə həsr olunan beynəlxalq simpoziumlarda (İtaliya, 1976; İspaniya, 1978) məruzə etmişdir.

**YUSIFOVA Valida Javad gyzy** — doctor of techinics.

**YUSİFOVA Zeynəb Kərəm qızı** (25.3.1924, Zəngilan r-nunun Hacallı k.—1995) — Sosialist Əməyi Qəhrəmanı (1948). Əmək fəaliyyətinə 1944 ildən Partiyanın XX qurultayı ad. təsərrüfatda başlamışdır. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**YUSIFOVA Zeynab Kerem gyzy** — Hero of Socialist Labour.

# Z



**ZAHİDOVA Vəsilə Alı qızı** (d. 10.3.1922, Ucar r-nunun Yuxarı Şilyan k.) — Sosialist Əməyi Qəhrəmanı (1961). Əmək fəaliyyətinə 1943 ildən Cəlilabad r-n prokurorluğunda müstəntiq kimi başlamış, müxtəlif vəzifələrdə, o cümlədən, 1954 ildən Ucar r-nundakı "Sovet Azərbaycanı" təsərrüfatının sədri, 1983 ildən r-n Aqrar-Sənaye Birliyi İdarəsinin sədri, 1987 ildən r-n Sosial Təminat Şöbəsinin müdiri işləmişdir. 1960 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (5, 7-9-cu çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni və 2 Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ZAHIDOVA Vasila Aly gyzy** — Hero of Socialist Labour.



**ZAMANOVA Elmira Nəzər qızı** (1939, Göyçay) — fizika-riyaziyyat e.d. (1991). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1961). Əmək fəaliyyətinə 1961 ildən Göyçayın 3 №-li məktəbində fizika müəllimi kimi başlamışdır. Azərb. EA Fizika İn-tunda laborant, kiçik elmi işçi, baş elmi işçi, aparıcı elmi işçi olmuşdur. 1994 ildən Azərb. Texniki Un-tində müəllim işləyir, hazırda professordur. Beynəlxalq qurultay və konfranslar iştirak etmişdir. 2001 ildə Amerika Bioqrafiya İn-tu tərəfindən ilin qadını elan edilmişdir. 100-dək elmi əsərin, 10 ixtiranın müəllifidir.

**ZAMANOVA Elmira Nazar gyzy** — doctor of physics and mathematics.





**ZAMANOVA Səmayə Bəylər qızı** (d. 1917, Ağdam r-nunun Xındırıstan k.) — əmək fəaliyyətinə 1936 ildən Ağdam r-nunun Qərvənd kənd məktəbində başlamış, müxtəlif vəzifələrdə işləmişdir. Azərb. SSR Ali Sovetinin (1-ci çağırış) deputatı olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**ZAMANOVA Samaya Beylar gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (1st convocation).



**ZAMANOVA Səyyarə Eyvaz qızı** (d. 1936) — əmək fəaliyyətinə 1954 ildən Bərdə r-nundakı H.Aslanov ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (8-ci çağırış) deputatı, Ali Sovetin Tikinti və inşaat materialları sənayesi komissiyasının üzvü olmuşdur.

**ZAMANOVA Sayyara Eyvaz gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (8th convocation).



**ZAMİLİNA Svetlana Fyodorovna** (d. 1961) — əmək fəaliyyətinə 1978 ildən başlamış, müxtəlif işlərdə çalışmışdır. 1980 ildən Sumqayıt ş-indəki "Üzvi sintez" İstehsalat Birliyinin mərkəzi laboratoriyasında işləyir. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

**ZAMILINA Svetlana Fyodorovna** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ZEYNALOVA Gövhər Əli qızı** (26.6.1923, Bakı—1997, Bakı) — texnika e.d. (1968), prof. (1969). Azərb. SSR Dövlət mükafatı laureatı (1970). 1965 ildən Aşqarlar Kimyası İn-tunda laboratoriya müdiri işləmişdir. Tədqiqatı motor yağlarının keyfiyyətini yaxşılaşdıran aşqarların sintezi, tədqiqi və istehsal texnologiyasının hazırlanması sahəsinə həsr edilmişdir. Onun rəhbərliyi ilə hazırlanmış çoxfunksiyalı BFK, BFKu və İXP-101 aşqarları Sumqayıtda, İNXP-21 aşqarı isə Ufada istehsal olunmuş, İXP-234 aşqarı sənayedə tətbiq edilmişdir.

**ZEYNALOVA Govhar Ali gyzy** — doctor of technics.



**ZEYNALOVA Güleyşə Elyas qızı** (d. 1961) — əmək fəaliyyətinə 1976 ildən Füzuli r-nundakı M.Hüseynzadə ad. təsərrüfatda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Mənzil-kommunal və şəhər təsərrüfatı komissiyasının üzvü olmuşdur.

**ZEYNALOVA Guleysha Elyas gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ZEYNALOVA Nəsibə Cahangir qızı** (d. 20.4. 1916, Bakı) — Azərb. aktrisası. Azərb. Resp. xalq artisti (1967). Azərb. Dövlət mükafatı laureatı (1974). Bakı Teatr Texnikumunu (1941) və Azərbaycan Mədəniyyət və İncəsənət İn-tunu bitirmişdir (1973). Səhnə fəaliyyətinə 1937 ildə Bakıda başlamışdır. 1941 ildən Azərb. Musiqili Komediya Teatrının (1948-56 illərdə fasilələrlə) aktrisasıdır. Əsas rolları: Gülnaz ("Beş manatlıq gəlin", S.Rüstəmov), Məsmə ("Toy kimindir?", A.Məşədibəyov), Nargilə ("Gözün aydın", F.Əmirov), Züleyxa ("Ulduz", S.Ələsgərov), Kabato ("Keto və Kote", V.Dolidze), Rəxşəndə ("Qızılaxtaranlar", T.Quliyev), Afərin ("Rəisin arvadı", S.Rüstəmov), Gesiya ("Tbilisi nəğməsi", Ş.Milorava), Kəblə Fatma ("Hacı Kərimin Aya səyahəti", A.Rzayev), Həmşəxanım, Xeyransa ("Həmşəxanım", "Sevindik qız axtarır", S.Ələsgərov), Cəhrə ("Altı qızın biri Pəri", T.Bakıxanov və N.Məmmədov), Qızbacı ("Hicran", E.Sabitoğlu), Cənnət ("Qayınana", Z.Bağırov) və s. "Ögey ana" (1959), "Böyük dayaq" (1963), "Ulduz" (1964), "Qanun naminə" (1969), "Bizim Cəbiş müəllim" (1970), "Qayınana" (1979), "Bağlı qapı" (1981) və s. filmlərdə çəkilmişdir. Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri, Azərb.-ın "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

**ZEYNALOVA Nasiba Jahangir gyzy** — People's Artist of the Azerb. Repub.





**ZEYNALOVA Nəzixə Cəfər qızı** (d. 1944) — Sosialist Əməyi Qəhrəmanı ( ). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə 1963 ildən Şəmkir r-nundakı R.Əliyev ad. təsərrüfatda başlamışdır. SSRİ Ali Sovetinin (8-ci çağırış) və Azərb. SSR Ali Sovetinin (9-11-ci çağırış) deputatı, Ali Sovetin Qadınların əməyi və məişəti, ana və uşaqları mühafizə komissiyasının üzvü olmuşdur.

**ZEYNALOVA Nazikha Jafar gyzy** — Hero of Socialist Labour.



**ZEYNALOVA Səbzə Teymur qızı** (20.3.1925, Cəlilabad r-nunun Ocaqlı k. — 27.7.1972 orada) — Sosialist Əməyi Qəhrəmanı (1950). Əmək fəaliyyətinə 1942 ildən başlamış, müxtəlif vəzifələrdə, o cümlədən Cəlilabad r-nundakı "1 May" təsərrüfatının sədri və direktoru işləmişdir. 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (3-5-ci çağırış) deputatı olmuşdur. Oktyabr inqilabı ordeni ilə təltif edilmişdir.

**ZEYNALOVA Sabza Teymur gyzy** — Hero of Socialist Labour.

**ZEYNALOVA Şəfiqə Mikayıl qızı** (26.6. 1922, Bakı — 11.5.1979, Bakı) — Azərb. əməkdar memarı (1976). M.Əzizbəyov ad. Azərb. Sənaye İn-tunu bitirmişdir (1949). Əsas işləri Daşkəsənin Mədənçilər qəs.-ndə kotteclər (1948), Bilgəh qəs.-ndə yaylaq evləri (1955), Bakıda Xalq Təsərrüfatı Şurasının binası (1953, Möhsün Rəfili ilə birgə) metropolitenin "Bakı Soveti" stansiyası (1967, T.Xanlarov və b. ilə birgə), d.y. vağzalının (1977, Y.Kozlov ilə birgə), Azərb. Sənaye Tikintisi Nazirliyinin (1977), Azərb. KP. MK yanında Partiya Tarixi İn-tunun (1978, Y.Qədimov ilə birgə) yeni binası və s.-dən ibarətdir. Bir sıra xatirə abidələrinin (Bakıda S.Qazıyevanın, Gəncədə Q.Hüseynlinin) layihə müəllifidir.

**ZEYNALOVA Shafiga Mikayil gyzy** — Honoured Architect of the Azerb. Repub.



**ZEYNALOVA Zərifə Ağarza qızı** (3.2.1933, Bakı — 7.7. 1989, Bakı) — tibb e.d. (1973), prof. (1973). Azərb. Tibb İn-tunun müalicə-profilaktika fakültəsini bitirmişdir (1956). 1956 ildən kliniki ordinator, həkim-terapevt, dosent, prof. vəzifələrində işləmişdir. 1977 ildən Tibb İn-tun 1-ci hospital-terapiya kafedrasının müdiri olmuşdur. Tədqiqatı, əsasən, ürək-damar patologiyasının ayrı-ayrı xəstəliklərində su-duz mübadiləsinə, qanın laxtalanması problemlərinə həsr olunmuşdur. 100-dək elmi işin müəllifidir.

**ZEYNALOVA Zarifa Agarza gyzy** — doctor of medicine.



**ZƏRBƏLİYEVA Rəhilə Əşrəf qızı** (d. 1964) — əmək fəaliyyətinə 1982 ildən Əli Bayramlı məişət cihazları zavodunda başlamışdır. Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı, Ali Sovetin Sənaye komissiyasının üzvü olmuşdur.

**ZARBALIYEVA Rahila Ashraf gyzy** — deputy of the Supreme Soviet of the Azerb. SSR (11th convocation).



**ZÜLFÜQAROVA Xumar Rza qızı** (d.15.11.1927, Bakı) — Azərb. rəqqasəsi, baletmeyster. Azərb. Resp. xalq artisti (1979). Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1945). Azərb. Opera və Balet Teatrının solisti (1945-66), Azərb. Dövlət Mahnı və Rəqs Ansamblının, Azərb. Dövlət Filarmoniyasının (1966-71), Azərb. Dövlət Qastrol-Konsert Birliyinin (1978-88) baş baletmeysteri olmuşdur. Azərb. Dövlət Rəqs Ansamblının yaradıcılarındandır (1971-78 illərdə baş baletmeyster). Bu ansambl üçün ""Koroğlu" operasından rəqs, "Görüş", "Arzu" və s. rəqsləri hazırlamışdır. Opera və baletlərdə ("Koroğlu", Ü.Hacıbəyli, "Yeddi gözəl", Q.Qarayev və s.) çıxış etmiş, bir sıra filmlərdə ["Məmlük", ("Gürcüstanfilm"in istehsalı) və s.] rəqs səhnələrinə çəkilmişdir. Azərb. Gənc Tamaşaçılar Teatrında və Azərb. Milli Dram Teatrında bir sıra tamaşalarda rəqslərin quruluşunu vermişdir. 1950 ildən Bakı Xoreoqrafiya Məktəbində dərs deyir.

**ZULFUGAROVA Khumar Rza gyzy** — People's Artist of the Azerb. Repub.


Müəlliflər

**Abbasov Xanoğlan, Abdullayev Ziya, Cahangirov Tariyel, Gəncəli Sabir, Həsənova Məlahət, Hüseynova Nailə, Qocayeva Gülbəniz, Məmmədova Elmira, Mustafayev Zahid, Sadıqova Həqiqət, Sultanov Afiq, Vəliyev İsmayıl, Zeynalova Əxtər.**

Texniki redaktor

***Əhmədov Səlim***

Kompüter tərtibatçıları

***Cabarova Esmira, Orucov Məhəbbət***

Yığı operatorları

***Hətəmova Lalə, Əliyeva Mehriban, Məmmədova Şəfa, Cabarova Gülzadə, İsmayılova Rəfiqə, Davudova Könül***

Buraxılışa məsul

***Yüzbaşova Xumar***

Yığılmağa verilmiş 1.07.2002. Çapa imzalanmış 1.11.2002. Formatı 84x1081/16. Şərti ç.v.42,4
Hesab n.v. 29,7. Sayı 1300. Sifariş 29. Qiyməti müqavilə ilə.

«Azərbaycan Milli Ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyi
Bakı-370004, Böyük Qala küç., 41.
Lisenziya: Seriya AB 022031. A-031. 17.03.1999.
Əlaqə telefonları:
92-56-34,
93-59-46,
92-00-86

«QİSMƏT» mətbəəsində çap olunmuşdur.
H.Zərdabi prospekti 78.

Azf-256948